

# HEYDƏR ƏLİYEV

## AZƏRBAYCAN XALQININ ÜMUMMİLLİ LİDERİ

Soltan Hüseynoğlu, Aynur Cəfərqızı, Ülkər İsmayılqızı

# ƏDƏBİYYAT

# 7

Ümumi təhsil müəssisələrinin
7-ci sinifləri üçün ədəbiyyat
fənni üzrə dərslik

Bu nəşrlə bağlı irad və
təkliflərinizi bn@bakineshr.az və
derslik@edu.gov.az
elektron ünvanlarına
göndərməyiniz xahiş olunur.
Əməkdaşlığınız üçün əvvəlcədən
təşəkkür edirik!

BAKI NƏŞR

ƏDƏBİYYAT-7

# Başlıqlar

Dərsliklə necə işləməli . . . . . . . . . . . . . . . . . . . . . . 5
Ədəbiyyat insanı zənginləşdirən qüdrətli vasitədir . . . . . . . . . . 6

1 ŞİFAHİ XALQ ƏDƏBİYYATINDAN SEÇMƏLƏR
Çahargah əfsanəsi . . . . . . . . . . . . . . . . . . . . . 10
Yoxsul qocaynan vəzir . . . . . . . . . . . . . . . . . . . 15
Koroğlu ilə Dəli Həsən ("Koroğlu" dastanından) . . . . . . . . 21
Nəsirəddin Tusi ilə bostançı . . . . . . . . . . . . . . . . 29

2 YURD SEVGİSİ, QƏHRƏMANLIQ SƏHİFƏLƏRİ
Səməd Vurğun. AZƏRBAYCAN . . . . . . . . . . . . . 34
Mirzə İbrahimov. AZAD . . . . . . . . . . . . . . . . 43
Rahil Məmməd. QƏLƏBƏ MÜJDƏSİ . . . . . . . . . . . 53
Ramiz Qusarçaylı. YURD SEVGİSİ . . . . . . . . . . . 58

3 MƏNƏVİ DƏYƏRLƏR, YAŞAYAN HİKMƏTLƏR
Abbasqulu ağa Bakıxanov. ÜMİDİN BOŞA ÇIXMASI . . . . . . 62
Mehdi Hüseyn. KƏRƏM ƏFSANƏSİ . . . . . . . . . . . . 68
Rəsul Rza. AÇIN QAPILARI, İNSAN GƏLİR . . . . . . . . . 80
Gi de Mopassan. BALACA ÇƏLLƏK . . . . . . . . . . . . 85
Süleyman Rüstəm. DUZ-ÇÖRƏK . . . . . . . . . . . . . 94

4 UŞAQ DÜŞÜNCƏSİ, UŞAQ TALEYİ
Ənvər Məmmədxanlı. QIZIL QÖNÇƏLƏR . . . . . . . . . . 98
Narıngül Nadir. PEŞMANLIQ . . . . . . . . . . . . . . 108
Elçin Hüseynbəyli. NƏVƏ . . . . . . . . . . . . . . . 112
Südabə Sərvi. MƏKTƏB YOLLARI . . . . . . . . . . . . 121

5 TƏBİƏTİN GÖZƏLLİYİ, TƏBİƏTƏ QAYĞI
Zahid Xəlil. TORPAĞIN MƏHƏBBƏTİ . . . . . . . . . . . 126
Bayram Həsənov. İKİ BALA . . . . . . . . . . . . . . . 130
Əli Səbri. SƏDAQƏT . . . . . . . . . . . . . . . . . 137
Tofiq Nurəli. PAYIZ NAĞILI . . . . . . . . . . . . . . 149

Esseni necə yazmalı . . . . . . . . . . . . . . . . . . 152
Ədəbi məktubu necə yazmalı . . . . . . . . . . . . . . 156
Layihələr üzrə iş . . . . . . . . . . . . . . . . . . . 159
İfadəli oxuda istifadə edilən şərti işarələr . . . . . . . . 198
Oxumağı məsləhət görürük . . . . . . . . . . . . . . . 199
Lüğət . . . . . . . . . . . . . . . . . . . . . . . . 200
Ədəbiyyatşünaslıq terminlərinin izahı . . . . . . . . . . 206

# Dərsliklə necə işləməli

**Yadasalma** – yeni mövzu ilə bağlı mənimsənilmiş biliklərin xatırlanması, ona münasibətin bildirilməsi məqsədini güdür.

**Öyrəndiklərinizi yoxlayın** – mətnin məzmununun hansı səviyyədə mənimsənildiyini aşkara çıxarmaq məqsədilə test tapşırıqları təklif edilir.

**Möhkəmləndirmə. Zənginləşdirmə** – mətnlə bağlı öyrənilənlərin möhkəmləndirilməsi və zənginləşdirilməsi məqsədilə tətbiq olunan tapşırıqları əhatə edir.

**Nitqin, düşüncənin inkişafı** – mətnlə bağlı şifahi və yazılı təqdimatlar, fərqli formalarda nağıletmənin yerinə yetirilməsi üçün nəzərdə tutulmuşdur.

**Yaradıcı iş** – yaradıcılıq bacarığının inkişafı üçün nəzərdə tutulmuşdur.

**Müzakirə** – bədii əsərin ideya məzmunu, nəzəri anlayışlarla bağlı fərqli formalarda işin təşkili həyata keçirilir.

**Xatırlatma. Dərinləşdirmə** – nəzəri anlayışlarla bağlı biliklərin dərinləşdirilməsi və yeni məlumatın öyrənilməsi üçün tətbiq edilir.

**Araşdırma. Təhlil** – bədii əsərlərin ideya məzmunu üzrə araşdırmaların və nəticələrin təhlili üçün nəzərdə tutulmuşdur.

**İfadəli oxu** – bədii mətnlərin ifadəli oxusu üzrə bilik və bacarıqların inkişafı üçün nəzərdə tutulmuşdur.

**Tətbiq. Ümumiləşdirmə** – mənimsənilmiş bilik və bacarıqların yeni, fərqli təlim materialları üzrə tətbiqi üçün nəzərdə tutulmuşdur.

**Növbəti dərsə qədər** – irihəcmli əsərlərin asudə vaxtda mütaliə edilməsi tövsiyə olunur.



# Ədəbiyyat insanı zənginləşdirən qüdrətli vasitədir

## I MƏNİMSƏDİKLƏRİNİZİ XATIRLAYIN

Ədəbiyyat fənni ilə tanışlığınızın üçüncü ilidir. Əvvəlki – beşinci və altıncı siniflərdə çoxlu bədii əsərlə tanış olmusunuz. Əfsanə, nağıl, təmsil, hekayə, eləcə də heca vəznində yazılmış şeirlər mütaliə etmiş, insan, onun həyatı, arzu və düşüncələri barədə xeyli təsəvvür qazanmısınız. Oxuduğunuz əsərlər doğma yurdumuz, xalqımızın taleyi, mənəvi dəyərlərimiz barədə məlumatınızın zənginləşməsinə əhəmiyyətli təsir edib. Təbiət, heyvanlar, quşlar aləmi ilə bağlı öyrəndikləriniz də az olmayıb.

Bədii əsərlərin oxusu, təhlili, qiymətləndirilməsi ilə bağlı bacarıqlara da yiyələnmisiniz. Mətni müxtəlif formalarda oxumaq, onlarla bağlı təqdimatlar etmək, məzmunlarını yığcam, geniş, yaradıcı danışmaq sizin üçün artıq çətin deyildir. Nəzəri anlayışları öyrənməyiniz bədii əsərlərin janrını, mövzusunu, ideyasını, obrazlarının xarakterindəki başlıca cəhətləri, təsvir və ifadə vasitələrini və s. müəyyənləşdirməyinizə və dəyərləndirməyinizə imkan yaradıb.

Müxtəlif mövzularda esse yazmaqla bağlı müəyyən bacarıqlar da qazanmısınız.

## II MƏTNİ OXUYUN

Mənimsədiklərinizi VII sinifdə daha da zənginləşdirəcəksiniz. Oxu və təhlillə bağlı yeni bacarıqlara yiyələnəcək, mürəkkəb nəzəri anlayışlar üzrə  biliklər öyrənəcək, onların tətbiqinə imkan yaradan tapşırıqlar yerinə yetirəcəksiniz.

Bu sinifdə söz sənətinin müraciət etdiyi mühüm mövzular üzrə yeni nümunələr oxuyacaq, onların araşdırılması ilə bağlı müstəqil işlər icra edəcəksiniz. Vətən, təbiət, xalqımızın yaşatdığı mənəvi dəyərlər, uşaqların həyatı, taleyi və s. mövzularda olan bu əsərlər məzmununa, bədii keyfiyyətlərinə görə indiyə qədər öyrəndiklərinizdən fərqlənir. Əlbəttə, onların məzmunu, ideyaları arasında oxşarlıqlar da vardır. Bu sizə müqayisələr aparmaq üçün geniş imkan verəcəkdir.

Yeni sənətkarlarla tanış olacaq, onların əsərlərini oxuyacaq, bədii fikir və düşüncələri barədə təsəvvür qazanacaqsınız.

Unutmayaq ki, hər bir sənətkar dünyanın qapısını bizə açır. Amma bu qapıdan görünənlər fərqli olur. Axı yazıçılar dünyanı şəxsi hiss, düşüncə və təcrübələrinə əsasən qavrayır və oxucularına təqdim edirlər. Lakin bütün hallarda oxucunun gözləri önündə, xəyalında maraqlı, təkrarolunmaz mənzərələr canlanır, düşüncəsini yaddaqalan insan obrazları, ibrətli hadisələr məşğul edir. Bütün bunlardan bəhrələnmək, zövq almaq, onlardakı gözəllikləri duymaq, dəyərləndirmək asan deyildir. Sənət əsərləri (bədii əsər, rəssamlıq əsəri, kino, teatr tamaşası və s.) o vaxt insana güclü təsir edir ki, onun hissləri zərif, düşüncəsi dərin olsun. Bu və ya digər əsərdəki əhvalat və hadisələr, keşməkeşli insan taleyi müəyyən inkişaf səviyyəsinə yüksələn və diqqətli olan oxucunun qəlbinə, düşüncəsinə təsir edir. Məhz belə oxucu sənət əsərindən nəticə çıxara bilir. Belə oxucuda vətən sevgisi, insanpərvərlik, xeyirxahlıq, əməksevərlik, mübarizlik, təbiətə sevgi kimi ali hisslər yaranır, davranış və əməlləri üçün əsas olur.

Təsadüfi deyildir ki, torpaqlarımızın qəsbkarlardan azad edilməsi uğrunda döyüşlərdə şəhid olan əsgərlərimizin çantasından Xəlil Rza Ulutürkün vətənimizə, onun azadlığına, müstəqilliyinə həsr edilmiş şeir kitabları tapılırdı. Qırx dörd günlük Qarabağ müharibəsindən ayrı-ayrı səhnələri əks etdirən videogörüntülərdə gənc əsgərlərimizin Əhməd Cavadın, Bəxtiyar Vahabzadənin vətənimizə həsr olunmuş şeirlərini deyə-deyə döyüşə atıldıqlarını müşahidə etmək mümkündür.

Beləliklə, bədii ədəbiyyatın insana təsiri həm güclü, həm də çoxcəhətlidir. O təkcə hissləri zənginləşdirməklə məhdudlaşmır. Müntəzəm mütaliə edən oxucu həssaslığı, daha duyğusal olması ilə seçilir. Bədii əsərdəki dərin mənanı, gözəlliyi duyan, bunları qiymətləndirməyi bacaran oxucu həyatda gördüklərinə laqeyd qalmır, fəal münasibət bəsləyir, mədəni səviyyəsi ilə başqalarından fərqlənir.

Söz sənəti, bilirsiniz ki, təbiət, onda baş verən müxtəlif hadisələr, heyvanlar, quşlar aləmi haqqında məlumatla zəngin olur.

Diqqətli oxucu bu məlumatları, hadisələri və onların başvermə səbəblərini, nəticələrini izləyir və öyrənir. Bununla da o, elmi məlumat və biliklərlə zənginləşmiş olur.

İnsanın həyatında bədii ədəbiyyatın rolunu yüksək qiymətləndirən bir çox dahilər, görkəmli sənətkarlar özlərində olan ən yaxşı cəhətlərə görə kitablara borclu olduqlarını dəfələrlə dilə gətirmişlər.

Bədii əsərin mütaliəsi oxucunun düşüncəsinin, mühakimə qabiliyyətinin, məntiqi və yaradıcı təfəkkürünün inkişafına da əhəmiyyətli təsir edir. Əsərdə müxtəlif, eləcə də ziddiyyətli xarakterli obrazlarla, mürəkkəb həyat hadisələri və konfliktlərlə tanış olan oxucu düşünür, nəticə çıxarır, bir çox hallarda öyrəndiklərini həyatda gördükləri ilə müqayisə edir. Bütün bunlar ona həyatda şahidi olduğu hadisələri başa düşməkdə, başqalarının davranış və əməllərinə həqiqi qiymət verməkdə, səhv addımlardan çəkinməkdə yardımçı olur.

Bütün dünyada oxunan, heyrət və rəğbətlə qarşılanan Nizami Gəncəvi bədii əsəri insana gözəl hisslər aşılayan, onun mənəvi aləmini və ağlını zənginləşdirən xəzinə hesab edirdi. O yazır:

Dünyada nə qədər kitab var belə,
Çalışıb, əlləşib gətirdim ələ...
...Oxudum, oxudum, sonra da vardım,
Hər gizli xəznədən bir dürr çıxardım.

Lakin bədii əsərdən bəhrələnmək, "gizli xəzinədən dürr çıxarmaq" oxucudan zəhmət və yaradıcılıq tələb edir.

O, əsəri diqqətlə oxumalı, üzərində dönə-dönə düşünməli, sətirlərin arxasında gizlənənləri, yazıçının "yanından ötüb-keçdiklərini" duymalı, özü bərpa etməlidir. Məhz onda əsər onun üçün zövq mənbəyi, əvəzedilməz xəzinə olacaqdır.

Çox mütaliə edən, faydalı kitab oxuyan insanın nitqi daha aydın və səlis olur, söz ehtiyatı zənginləşir. O, xalqımızın söz xəzinəsinə dərindən bələd olmaqla öz fikirlərini aydın, anlaşıqlı çatdırmaqda çətinlik çəkmir.

Şifahi və yazılı ədəbiyyatımız xalqımızın mənəvi sərvətidir. Bu sərvəti dərindən öyrənmək, ondan bəhrələnmək həmişə vacibdir. Elə buna görə də ədəbiyyatımızı yuxarı siniflərdə də öyrənəcək, yeni bacarıqlara yiyələnəcəksiniz.

## III MÜZAKİRƏ

**1. Müzakirə və fikir mübadiləsində aşağıdakı sualları da əhatə etməyə çalışın.**

– Əvvəlki siniflərdə hansı janrlarla tanış olmusunuz? Müxtəlif janrlara məxsus əsərləri, onların mövzularını, ideyalarını xatırladın.

– Ədəbiyyat dərslərində hansı bacarıqlara yiyələnmisiniz?

– Yeddinci sinifdə hansı mövzularda əsərlərlə tanış olacaqsınız?

– Onlar əvvəlki siniflərdə öyrəndiyiniz əsərlərdən hansı cəhətlərinə görə fərqlənir?

– Bu sinifdə hansı bacarıqlara yiyələnəcəksiniz?

– Bədii ədəbiyyat oxucuya nə zaman güclü təsir edir?

– "Bədii ədəbiyyat həm də bilik mənbəyidir" fikrini doğru saymaq olarmı?

– Ədəbiyyat dərslərində hansı biliklərə yiyələnmisiniz?

**2. "Bədii ədəbiyyat insanın mənəvi aləmini və ağlını zənginləşdirən vasitədir" mövzusunda təqdimata hazırlaşın.**

**3. Çıxışlara münasibət bildirin.**

# 1 ŞİFAHİ XALQ ƏDƏBİYYATINDAN SEÇMƏLƏR



Yaranma tarixi çox qədim olan şifahi xalq ədəbiyyatı nümunələri ilə aşağı siniflərdə tanış olmusunuz. Bu nümunələr maraqlı məzmunu ilə diqqətinizi çəkib, hisslərinizə, düşüncələrinizə təsir edib. Şifahi ədəbiyyata məxsus əsərlər insanlar, onların arzusu, istəyi, həyatda baş verən hadisələr və s. barədə təsəvvürünüzü xeyli zənginləşdirib. Xalqımızın ədalətsizliyə, haqsızlığa nifrəti, azad, firavan yaşamaq uğrunda mübarizəsi, əsrlər boyu qoruyub saxladığı adət-ənənələri, mənəvi dəyərləri bu nümunələrdə parlaq əksini tapıb.

Şifahi ədəbiyyatla tanışlıq yeddinci sinifdə də  davam edəcəkdir. Yeni janrlarla, müxtəlif əsərlərlə tanış olacaq, onların dəyərləndirilməsi üzrə fərqli bacarıqlara yiyələnəcəksiniz.

Şifahi ədəbiyyatla yazılı ədəbiyyatın qarşılıqlı əlaqələri, oxşar və fərqli xüsusiyyətləri üzrə öyrəndiklərinizi bu sinifdə daha da dərinləşdirəcək və zənginləşdirəcəksiniz.



# ÇAHARGAH ƏFSANƏSİ

**Yadasalma** • Tanış olduğunuz əfsanələrdə bir-birinə qarşı duran qüvvələr kimlərdir?

I DƏRS | I OXU • ANLAMA

**1. Əfsanənin mətnini oxuyun.**

**2. İlkin təəssüratınızı aşağıdakı sual və tapşırıqlar əsasında bölüşün.**

– Məşhur alimin xarakteri, əməlləri onun haqqında sizdə hansı təsəvvür yaratdı?

– Hökmdar obrazının xarakter və əməlləri barədə yığcam şifahi təqdimat hazırlayın.

**3. İkinci sütundakı suallara cavab hazırlayın. Ehtiyac duysanız, dərinləşdirilmiş oxu məqsədilə mətnə nəzər salın.**

Qədim zamanlarda bir alim yaşayırdı. O öz gözəl əməlləri ilə xalqın rəğbətini qazanmışdı.

Alimin sorağı yaşadığı ölkənin hökmdarına da çatır. O, saraya cəlb etmək məqsədilə alimi çağırtdırır və öz yanında qalmağı ona təklif edir.

Alim qərara gəlmək üçün möhlət istəyir, hökmdar alimə üç gün möhlət verir.

Vaxt yetişəndə alim saraya gəlir və hökmdara deyir:

– Böyük hökmdar, sizin saray üçün dərin, dərrakəli alim lazımdır. Mən isə onların səviyyəsində dayana bilmirəm.

Bu sözləri deyib alim qayıdır. Öz xeyirxah işləri ilə yenidən xalqa kömək etmək istəyir.

Alimin cavabı, dikbaşlığı, açıq sözü hökmdarı hirsləndirir. Şah səxavətinin, firavan saray həyatının qiymətləndirilməməsini nankorluq hesab edir.

Hökmdar vəziri yanına çağırıb ondan alimin hərəkətlərinə tədbirlə cavab verilməsini tələb edir.

Vəzir deyir:

– Alimin əvvəlcə cahilliyini sübut edib xalqın gözündən salmaq lazımdır.

- Hadisələrin əfsanədə təsvir olunduğu kimi inkişaf edəcəyini düşünürdünüzmü? Nə üçün?
- Sizcə, alim hökmdarın təklifinə nə üçün dərhal münasibət bildirmir?
- Alim sarayda yaşamaq istəməməsinin səbəbini necə izah edir? Bu, inandırıcı görünürmü?
- O, sarayda yaşamaqdan nə üçün imtina edir?
- Hökmdarın qəzəblənməsinə əsl səbəb, sizcə, nədir?

Vəzirin niyyəti çətin suallarla alimi çıxılmaz vəziyyətə salıb xalqın gözündə kiçiltmək idi. Sualları hazırlamaq üçün vəzir qırx gün möhlət istəyir. Qırx gün keçdikdən sonra suallar hazır olur. Hökmdar adamları meydana toplayır. Alimi çağırırlar. Hər şey hazır olur. Alim təmkinlə hökmdarı dinləyir.

Hökmdar alimə deyir:

– Sən öz əllaməliyinlə xalqı aldadırsan, sən heç də alim deyilsən. Sənə vəzirim suallar hazırlayıb. Sən bu suallara cavab versən, alimliyini sübut etmiş olacaqsan.

Alim cürətlə deyir:

– Buyurun, suallarınızı verin.

Hökmdar vəzirinə işarə edir. Vəzir suallara başlayır:

– Ulu dağın başından buraxılmış bir qoz Zümzümə bulağına qədər neçə dəfə fırlanar?

Alim gülə-gülə deyir:

– Mən sualın cavabını verməyə hazıram. Siz isə Ulu dağdan Zümzümə bulağına qədər olan yolun nə qədər olduğunu, dağın nə qədər maili olmasını, bir də qozun həcmini deyin.

Camaat alimin cavabını alqışlayır. Hökmdar və vəziri alimlə bacarmayacaqlarını görüb məyus olurlar. Artıq sual vermək fikrindən vaz keçirlər, biabır olmaq istəmirlər.

Alim evə yollanır. Ancaq insanlar onu evə getməyə qoymurlar, başqa ölkəyə gedən karvana qoşurlar. Onlar yaxşı bilirlər ki, hökmdar bu heyfi alimdən çıxacaq.

***

Karvandakı hər dəvənin boynunda bir zınqırov vardı. Alim karvan başçısına bildirir ki, əgər təklifini yerinə yetirsə, onlarla səfərə çıxmağa hazırdır.

- Hökmdarla vəzirin tədbirini alimin puç edəcəyinə inanırdınızmı?
- Alimin cavabı insanlar tərəfindən nə üçün alqışlandı?



Karvan başçısı onun təklifini soruşur. Alim xahiş edir ki, dəvələrin boynundakı zınqırovların yerini dəyişməyə icazə versin.

Karvan başçısı alimin təklifinə can-başla razı olduğunu bildirir, ancaq səbəbini öyrənmək istəyir.

– Mən zınqırovların səsindən ecazkar musiqi yaradacağam. Bu bizi ölümdən qurtaracaq.

Bəli, alim zınqırovları dəvələrin boynundan elə asır ki, dəvə hər addım atanda sanki mizrab bir neçə telə dəyir. Zınqırovlar səsləndikcə onlardan yaranan musiqi dalğa-dalğa ətrafa yayılır. Hamı alimin bu məharətinə heyran qalır.

Gecə öz yuvalarına çəkilən quşlar musiqinin səsindən vəcdə gəlib karvanın üstü ilə uçur, onu qarabaqara izləyirlər. Musiqinin səsindən, onun dalğasından ağacların yarpaqları rəqs edir, axşamdan bükülən güllər yenidən ləçəklənib ətir saçır...

İndi sizə kimdən xəbər verim, hökmdardan. Saraya çatan kimi alimin onun hüzuruna gətirilməsini tələb edir. Alimi nə qədər axtarırlarsa da, tapa bilmirlər.

Hökmdar bir bölük atlını karvanın dalınca göndərir. Atlılar karvana yetişəndə gözəl musiqi səsi eşidirlər və bihuş olurlar.

Dəvələrin yerişi ilə zınqırovlardan çıxan musiqi sədaları alimi aparmağa gələn atlıları karvana yaxınlaşmağa qoymur, əsir aparmağa gələnlərin özləri alimin yaratdığına əsir düşürlər. Birdən atlılar elə bil yuxudan oyanıb görürlər ki, artıq başqa ölkənin ərazisindədirlər. Alimin geri qaytarılmasının artıq müşkül bir iş olduğunu görən dəstə əliboş geri qayıdır.

- Dəvələrin boynundakı zınqırovları dəyişdirməkdə alimin məqsədi nə idi?

SÖZLƏR TANIŞDIRMI?

- çahargah
- möhlət
- dərrakəli
- firavan
- nankorluq
- cahillik
- əllaməlik
- məyus
- ecazkar
- bihuş
- müşkül

## II MÖHKƏMLƏNDİRMƏ • ZƏNGİNLƏŞDİRMƏ

**Mövzulardan birini seçib yazılı qeydlər etməklə şifahi təqdimata hazırlaşın. Təqdimatların müzakirəsində fəal iştirak edin.**

a) Alim sarayda yaşasaydı, xalq üçün daha faydalı işlər görə bilməzdimi?

b) Əfsanədəki hadisələrin bir-biri ilə əlaqəsini nümunələrlə izah edin.

## III MÜZAKİRƏ

1. “Əfsanədə əsas konflikt və onun yaranma səbəbi” mövzusunda müzakirəyə hazırlaşın (konfliktlə bağlı bildiklərinizi və yeni məlumatı nəzərə alın).
2. “Əfsanə hansı mövzuda yazılmışdır?” sualı üzrə müzakirəyə hazırlaşın.

## IV NİTQİN, DÜŞÜNCƏNİN İNKİŞAFI

Əfsanədən seçdiyiniz parçanı yığcam nağıl etməyə hazırlaşın. Mənasını yeni öyrəndiyiniz sözlərdən istifadə edin. Cavablara münasibət bildirin.

## V XATIRLATMA • DƏRİNLƏŞDİRMƏ

Siz aşağı siniflərdə *konflikt* haqqında müəyyən bilik və bacarıqlara yiyələnmisiniz. Bilirsiniz ki, bədii əsərlərdə konflikt daha çox obrazların mübarizəsində özünü göstərir. Ədəbi qəhrəmanların həyata baxışı, məqsədləri, idealları bir-birinə zidd olanda onların arasında münaqişə – konflikt yaranır. Sənət əsərlərində konfliktlərin yaranması başqa səbəblərlə də bağlı olur. Məsələn, yeniliklə köhnəliyin mübarizəsi bir çox sənət əsərlərində başlıca konflikt kimi diqqət mərkəzinə çəkilir. Əsas konfliktin müəyyən edilməsi və izahı yazıçı niyyətinin və əsərin başlıca ideyasının başa düşülməsinə geniş imkan yaradır.

## II DƏRS I ARAŞDIRMA • TƏHLİL

1. Əfsanənin mövzusu ilə bağlı qənaətlərinizi nümunələrlə dəqiqləşdirin.
2. Davranışına, əməllərinə əsaslanmaqla alim obrazını səciyyələndirin.
3. Hökmdar obrazının davranış və əməlləri onu necə səciyyələndirməyə imkan verir? Fikrinizi nümunələrlə əsaslandırın.
4. Alim və hökmdar obrazlarının nitqlərini müqayisə etməklə xarakterlərindəki fərqi izah edin.
5. Alim və hökmdar obrazlarının mühüm qərar qəbul etmələrinə səbəb olan hadisələri dəyərləndirin.
6. Əfsanədəki başlıca fikri – əsas ideyanı şərh edin. Cavab hazırlayarkən əsərdəki konfliktə diqqət yetirməyi unutmayın.

## II YARADICI İŞ

1. Əfsanəyə daxil etmək üçün məzmununa uyğun yığcam əlavə (mətn) yazın. Bu əlavədə, məsələn, alimin xeyirxahlığı, insanlar üçün faydalı əməlləri haqqında məlumat və s. əks oluna bilər.
2. Yazılmış əlavələri müzakirə edin.

## III İFADƏLİ OXUYA HAZIRLAŞIN

– İfadəli oxu ilə bağlı mənimsədiyiniz bilik və bacarıqları yeddinci sinifdə daha da inkişaf etdirəcəksiniz. Bu məqsədlə dərsliyinizdə tövsiyələr və tapşırıqlar verilmişdir. Bunlarla ətraflı tanışlıq uğur qazanmağınıza imkan yaradacaqdır.

– Öyrəndiyiniz əfsanədən bir parçanın ifadəli oxusuna hazırlaşın. Seçdiyiniz parçanı, məsələn, “Qədim zamanlarda bir alim yaşayırdı” cümləsindən  “Alimin cavabı, dikbaşlığı, açıq sözü hökmdarı hirsləndirir” cümləsinə qədər yazın. Bilirsiniz ki, mətnin sağ kənarında boş yer saxlamaq lazımdır. Həmin yerdə qeydlər edəcəksiniz. Yazdığınız parçada ifadə olunmuş əsas fikri aydınlaşdırıb onun əsasında qarşınızda duran vəzifəni, yəni sinfə nəyi çatdıracağınızı – ifaçılıq vəzifəsini müəyyənləşdirin. Bir variantı belə müəyyən etmək olar: “Alimin uzaqgörən insan olması barədə dinləyicilərdə təsəvvür yaratmaq”. Deməli, mətni elə oxumalısınız ki, dinləyicilərdə alim haqqında belə bir təəssürat yaransın.

– Seçdiyiniz parçanın ilk dörd cümləsində (aşağıdakı cədvəldə verilib) səsinizin aldığı çalarlara (nağılvari, heyrətlə) diqqət edin.

– Dərsliyinizin sonunda verilmiş şərti işarələrdən istifadə etməklə  fasilələrin yerini, səsinizdə yaranan dəyişikliyi (tonun yüksəlməsi, alçalması və s.), tələffüzcə fərqləndirilən sözləri (məntiqi vurğu qəbul edənləri) müəyyənləşdirib qeyd edin. Nəticədə həmin cümlələr aşağıdakı şəkli alacaqdır.

Qədim zamanlarda bir alim yaşayırdı. | O öz gözəl əməlləri ilə | xalqın rəğbətini qazanmışdı. | Alimin sorağı yaşadığı ölkənin hökmdarına da çatır. | O, saraya cəlb etmək məqsədilə | alimi çağırtdırır və öz yanında qalmağı ona təklif edir. ||

**İFAÇILIQ VƏZİFƏSİ**

Alimin uzaqgörən insan olması barədə dinləyicilərdə təsəvvür yaratmaq.

nağılvari

heyrətlə

– Əfsanədən seçdiyiniz parçanı bu qayda ilə sona kimi işləyib ifadəli oxusuna hazırlaşın.

## Növbəti dərsə qədər

Asudə vaxtınızda dərsliyinizdəki “Yoxsul qocaynan vəzir” nağılını oxuyun. İlkin tanışlıqdan sonra dərinləşdirilmiş oxuya ehtiyac olub-olmadığı barədə düşünün.

# YOXSUL QOCAYNAN VƏZİR

(nağıl)

**Yadasalma** • Nağılları oxuyanda sizdə daha çox hansı təəssürat, hiss və düşüncələr yaranır?

I DƏRS I OXU • ANLAMA

**1. Nağılı oxuyun.**

**2. Təəssüratınızı bölüşərkən aşağıdakı sual və tapşırıqları nəzərə alın.**

– Nağılda diqqətinizi daha çox çəkən nə oldu? Nə üçün?

– Qoca  və padşah obrazları haqqındakı təəssüratınızla bağlı şifahi təqdimat edin.

– Vəzir obrazı sizdə hansı təəssürat yaratdı? İlkin təəssüratınızı təqdimat əsasında izah edin.

**3. İkinci sütundakı suallara cavab hazırlayın. Ehtiyac duysanız, dərinləşdirilmiş oxu məqsədilə mətnə nəzər salın.**

Biri var idi, biri yox idi, bir qoca kişi var idi. Onun şirin sözləri, mehriban rəftarı hamının xoşuna gələrdi. Bu qoca kişinin həmişə təkrar etdiyi bircə sözü var idi, hər kəsi görsə, ona deyərdi: “Yaxşılara yaxşılıq elə, pislərə öz pislikləri kifayətdi”. Bir gün padşah səfərdən gəlirdi. Yolda bu qocaya rast gəldi. Padşah çox tədbirli adam idi. Gördü ki, bu qoca öz-özünə danışır. O, atını qocanın yanına sürüb dedi:

– Ay qoca, öz-özünə nə danışırsan? Olmaya, bir dərdin var?

Qoca dedi:

– Ey padşah, yaxşılara yaxşılıq elə, pislərə öz pislikləri kifayət edər.

Padşah bu sözü çox bəyəndi, dedi:

– Qoca, bu sözü sabah gəlib mənim yadıma salarsan.

Padşah yola düşüb getdi.

Sabah oldu, qoca durub getdi padşahın qapısına. Padşah da qapıçılara tapşırmışdı ki, bu sifətdə, bu libasda bir qoca gələcək, onu mənim yanıma buraxarsınız.

Qapıçılar da qocanı içəri buraxdılar. Qoca girdi padşahın hüzuruna, dedi:

– Ey padşah, yaxşılara yaxşılıq elə, pislərə öz pislikləri kifayət edər.

- Əsərdə nağıl janrına məxsus hansı cəhətləri müşahidə etdiniz?
- Qocanın həmişə təkrar etdiyi sözlər sizi düşündürdümü? Hansı nəticəyə gəldiniz?
- Padşahın “çox tədbirli adam olması” nağılda təsdiqini tapırmı? Nümunələr göstərin.

Padşah ona bir söz demədi. Qələmi aldı, bir kağıza bir neçə kəlmə qaraladı, möhürlədi, verdi qocaya, dedi:

– Aparıb verərsən burda yazılan şəxsə, sabah gələrsən, bu sözü mənim yadıma salarsan.

Qoca möhürlü kağızı aparıb çatdırdı yazılan adama. Gördü ki, çox böyük adamdı. Kağızı açdı, oxudu, gördü, padşah yazıb ki: "Hərgah məni istəyirsən, bu qocaya bəxşiş verərsən". Haman böyük adam qocaya çoxlu mal-dövlət verib yola saldı.

Bu qocanın bir xasiyyəti vardı ki, əlinə nə düşsəydi, qabağına çıxan fağırlara paylardı. Bu verilən mal-dövləti də oradaca payladı yetimə-yesirə.

Sabah oldu, qoca kişi yenə də getdi padşahın hüzuruna, dedi:

– Ey padşah, yaxşılara yaxşılıq elə, pislərə öz pislikləri kifayət edər.

Padşah yenə qələmi götürdü. Bir kağıza bir neçə kəlmə qaraladı, möhürlədi, verdi qocaya, dedi:

– Apar ver adı yazılana, sabah yenə gəl mənim yanıma, bu sözü mənim xatirimə sal.

Qoca kağızı götürüb apardı sahibinə, yenə gördü ki, çox mötəbər adamdı. Bu adam kağızı açdı, gördü, yazılıbdır ki: "Hərgah mənim xatirimi istəyirsən, bu qocaya bəxşiş verərsən".

Bu adam da dünənki adam kimi qocaya çoxlu mal-dövlət bağışladı, razı edib saldı yola. Qoca da öz adəti ilə bu mal-dövlətin hamısını payladı qabağına çıxan şil-kütə.

İndi sizə xəbər verim padşahın qapı vəzirindən. Bu vəzir çox nanəcib adam idi. Onun başında daim qara fikirlər dolanar, dilindən acı sözlər çıxardı. Hələ ondan xoş söz, xoş rəftar, xoş sifət görən olmamışdı. Bir kişiyə yaxşılıq edilməsinə razı olmazdı, peşəsi ondan-bundan padşaha yalan xəbərçilik etmək idi. Elə ki gördü, qocaya padşahın çox iltifatı var, xainliyi tutdu, bir hiylə eləmək fikrinə düşdü. Öz-özünə deyinirdi: "Necə olsun? Necə tədbir görüm?" Axırda gəlib padşaha dedi:

– Haman qoca ki sənin hüzuruna gəlib-gedir, kənarda belə deyir ki, padşahın ağzından pis iy gəlir.

Elə ki padşah bu sözü eşitdi, çox qəzəbləndi, dedi:

– Hərgah qoca bu sözü demiş olsa, mən onu elə tənbeh elərəm ki, başqasına da ibrət olar. Amma qocadan belə nalayiq söz çıxmaz.

Vəzir dedi:

– Bu işi imtahan edərsən, hərgah doğru olmazsa, mənə cəza verərsən. Doğru olsa, qocaya cəza verərsən.

Padşah qəbul etdi.

İndi xəbər verim vəzirin hiyləsindən. Qocanın adəti idi, yenə sabah tezdən padşahın hüzuruna gəlməyə üz qoydu. Vəzir onu yolda gördü. Şirin dilini işə saldı. Astaca dedi:

- Qocanı sadəlövh adam saymaq olarmı?
- Vəzirin müxtəlif vəziyyətlərdə keçirdiyi hissləri duydunuzmu? Onun hisslərini necə izah edərsiniz?

– Ay qoca, görürəm, sən yaxşı adamsan, padşahın da sənə hörməti var, nə olar ki, bizim də evimizə təşrif gətirib bir loxma çörəyimizi qəbul edəsən.

Qoca bu sözü qəbul edib getdi vəzirin evinə. Vəzir ona çoxlu sarımsaqlı xörəklər verdi. Sarımsağın qoxusundan ona yaxınlaşmaq olmurdu. Qoca xörəyi yeyib getdi padşahın hüzuruna. Padşah imtahan etmək üçün qocanı yaxın gəlməyə çağırdı. Qoca ağzından sarımsaq qoxusu gəldiyinə görə padşahdan kənar durmaq istədi. Padşah yenə çağırdı. Qoca yaxınlaşdı, amma əli ilə ağzını örtdü. Padşah bunu görüb vəzirin sözünə inandı.

Padşahın bir xasiyyəti var idi ki, o əsla cəza üçün yazı yazmazdı, həmişə yaxşılığa əmr yazardı. Cəzanı katiblər yazardılar. Amma bu dəfə çox qəzəbli olduğundan özü kağız götürdü, şəhər hakiminin üstünə yazdı:

– Bu kağızı gətirən adamı iki şaqqa edib şəhərin darvazasından asdırarsan və üstünə yazarsan ki, böhtan atan adamın cəzası budu.

Kağızı yenə möhürlədi, verdi qocaya. Qoca çıxdı getdi. Vəzir baxdı, gördü ki, qoca yenə əlində kağız gəlir, belə güman etdi ki, bu kağızı da padşah bəxşiş üçün yazmışdır. Vəzir tamahkar bir adam idi, tamah ona güc gəldi. Qocadan o kağızı almaq məqsədilə dedi:

– Ey qoca, padşahın sənə hörməti çoxdu, olar ki, o kağızı verəsən mənə, bəxşişi bu dəfə də mən alım?

Qoca dedi:

– Ey vəzir, mənə dünya malı lazım deyil, mən bu dövləti alıb ac-yalavaclara paylayıram. Budu, al kağızı, apar bəxşişi al.

Vəzir kağızı aldı, düşdü yola. Çatdı şəhər hakiminin yanına, padşahın kağızını ona verdi. Şəhər hakimi elə ki möhürü açdı, kağızı oxudu, təəccüblə vəzirə baxdı. Vəzir çox şadlıq ilə bəxşiş gözləyirdi, amma tərsinə oldu, birdən hakim əmr elədi, vəziri tutub qolunu bağladılar. Vəzir halı belə görəndə ağlayıb dedi:

– Ey hakim, bu iş səhv olub, o adam mən deyiləm, başqa adamdı. Padşahdan soruş, sonra məni öldürt.

Hakim dedi:

– Mən padşahın əmrini poza bilmərəm, mənə borc deyil ki, padşahdan soruşam. Padşah yazıb ki, bu kağızı gətirən adamı iki şaqqa edib şəhər darvazasından asarsan. Mən də borcluyam, əmri yerinə yetirəm.

Hakim əmr elədi, vəziri iki şaqqa edib şəhərin darvazasından asdılar. Üstünə də yazdılar ki: “Böhtan atan adamın cəzası budu”.

İndi xəbər verək padşahdan. Padşah eşitdi ki, şəhərdə bir adam iki şaqqa edilibdir. Qoca yadına düşdü, çox qəmləndi. Tutduğu işdən peşman oldu. Sabah çox məyus oturmuşdu, bir də gördü ki, yenə qoca girdi içəri, dedi:

– Ey padşah, yaxşılara yaxşılıq elə, pislərə öz pislikləri kifayət edər.

Padşah çox təəccüb elədi, dedi:

– Ey qoca, bu necə əhvalatdı? Səni öldürməyiblərmi?

Qoca dedi:

– Məni niyə öldürsünlər, padşah sağ olsun?

Padşah dedi:

– Dünənki kağızı kimə verdin?

Qoca dedi:

– Dünən kağızı məndən qapı vəziriniz istədi. Mən də verdim ona ki, bəxşişi o alsın.

Padşah o saat başa düşdü ki, şaqqalanan vəzirdi.

Padşah dedi:

– Bəs dünən mən səni çağırdım. Sən nə səbəbə mənim yanıma gəlmək istəmədin? Gələndə də əlinlə ağız-burnunu örtdün?

Qoca əhvalatı ona nağıl eləyib dedi:

– O işə səbəb bu idi ki, qapı vəziri məni qonaq edib çoxlu sarımsaq yedirtmişdi. Mənim ağzımdan sarımsaq qoxusu gəlirdi. Ona görə də əlimlə ağzımı örtdüm ki, iy sizə getməsin.

Elə ki padşah əhvalatı tamam öyrəndi, bildi ki, bu işlər vəzirin hiyləsi imiş, qocanın günahı yox imiş. Qocaya öz xəzinəsindən çoxlu mal, dövlət bağışladı, dedi:

– Qoca, daha zəhmət çəkib mənim hüzuruma gəlmə, çünki sən dediyin sözlərin nəticəsini gördüm.

- Nağılın belə sonluqla başa çatacağını gözləyirdinizmi? Nə üçün?

SÖZLƏR TANIŞDIRMI?

- sadəlövh
- hüzuruna
- möhür
- hərgah
- bəxşiş
- mötəbər
- nanəcib
- iltifat
- tənbeh
- nalayiq
- təşrif

## II ÖYRƏNDİKLƏRİNİZİ YOXLAYIN

**1. Fikirlərdən biri doğrudur.**

A) Qocanın məqsədi padşahın diqqətini cəlb etmək idi.
B) Qoca elə əvvəldən vəzirin hiyləgər olduğunu anlamışdı.
C) Qoca haqqında ölüm hökmünü verən padşah sonradan peşman olur.
D) Vəzir qocanın ağlını, fərasətini yüksək dəyərləndirir.
E) Padşah vəzirinə heç vaxt inanmamış, ona etibar etməmişdi.

**2. Fikirlərdən biri səhvdir.**

A) Qoca xeyirxah insan idi.
B) Qocanı var-dövlət, firavan həyat maraqlandırmırdı.
C) Padşah eşitdiklərinə laqeyd qalmırdı.
D) Vəzir qocanın onun vəzifəsini əlindən alacağından qorxurdu.
E) Padşah qocanın salamat qalmasından məmnun olur.

## III MÖHKƏMLƏNDİRMƏ • ZƏNGİNLƏŞDİRMƏ

**1. Mətndə işlənmiş bədii təsvir və ifadə vasitələrini müəyyənləşdirin.**

Bədii təsvir və ifadə vasitələri → 1. ... 2. ... 3. ... → Cümlədə işlədin → 1. ... 2. ... 3. ...

**2. Mövzulardan birini seçib yazılı qeydlər etməklə şifahi təqdimata hazırlaşın.**

a) Sizcə, əsərdəki mühüm mətləblər hansılardır?
b) Nağıldakı obrazlardan hansına daha çox rəğbətim var.

## IV MÜZAKİRƏ

**1. Aşağıdakı mövzularda müzakirəyə hazırlaşın.**

a) Əsər hansı mövzudadır.
b) Nağılda əsas konflikt.

**2. Müzakirədə fəal iştirak edin.**

## V NİTQİN, DÜŞÜNCƏNİN İNKİŞAFI

1. Əsərdən seçdiyiniz parçanı yaradıcı nağıl etməyə hazırlaşın.
2. Mənasını yeni aydınlaşdırdığınız sözlərdən istifadə edin.
3. Cavablara münasibət bildirin.

## VI XATIRLATMA • DƏRİNLƏŞDİRMƏ

• Siz *bədii sual* anlayışı ilə tanışsınız. Bilirsiniz ki, o, bədii əsərdə cavab almaq məqsədilə işlədilmir. Fikrin daha qabarıq ifadəsinə nail olmaq istəyən sənətkar yeri gəldikcə ondan istifadə edir. Bədii sual oxucuda emosionallığın artmasına, estetik təsirlənmənin güclənməsinə səbəb olur. Bədii ifadə vasitəsi olan digər bir anlayışla – *təkrirlə* ilk dəfə tanış olacaqsınız.

Söz sənətkarları bir sıra hallarda sözü, ifadəni düşünülmüş şəkildə təkrar edirlər. Bu, *təkrir* adlanır. Bunu yersiz təkrarlarla qarışdırmaq olmaz. Məqsədli şəkildə işlədilən təkrir fikrin, hissin daha qüvvətli ifadəsinə, mənanın dərinləşməsinə imkan yaradır.

Bu deyilənləri aşağıdakı nümunədə müşahidə etmək olar:

Sonra axşam düşər, sonra ay doğar,
Sonra da ulduzlar səpilər göyə.
Sonra da çayların gurlaşan səsi
Gecəyə bir payız nağılı deyər...

“Yoxsul qocaynan vəzir” nağılında hər iki ifadə vasitəsi işlənmişdir.

### Növbəti dərsə qədər

Asudə vaxtınızda sizə tanış olan əsərlərdən bədii sual və təkrirə aid nümunələr seçin.

## II DƏRS | I ARAŞDIRMA • TƏHLİL

**1. Nağılın mövzusu ilə bağlı qənaətlərinizi dəqiqləşdirin. Aşağıdakı tövsiyələri nəzərə alın:**
– nağıldakı hadisələrin məzmununu yada salın;
– obrazların hər birinin hadisələrdəki mövqeyini xatırlayın.

**2. Qoca obrazını səciyyələndirin. Tövsiyələri nəzərə alın:**
– fərqli məqamlarda davranışı və nitqi;
– həyat haqqında düşüncələri, başqalarına münasibəti.

**3. Padşah obrazını səciyyələndirin. Tövsiyələrə diqqət edin:**
– müxtəlif vəziyyətlərdə nitqi;
– müxtəlif məqamlarda qərar və davranışı;
– insanlara münasibəti.

**4. Vəzir obrazını səciyyələndirin.**
– fərqli vəziyyətlərdə nitqi;
– müxtəlif məqamlarda davranış və əməlləri;
– insanlara münasibəti.

**5. Nağılda təsvir və ifadə vasitələrinin bədiiliyin artmasına verdiyi töhfəni izah edin. Cədvəldən istifadə edin.**

| Bədii təsvir və ifadə vasitələrinin işləndiyi cümlələr | Cümlələrin bədii təsvir və ifadə vasitələri olmadan işlənməsi | Fərqin izahı |
|---|---|---|
| | | |

**6. Nağılın əsas ideyasını şərh edin. Sxemdəki fikirlərlə tanış olun. Nağıldakı mühüm mətləblər və konfliktlə bağlı öyrəndiklərinizi yada salın.**

Fikirlərdən hansı nağıldakı əsas ideyanı ifadə edə bilər?

1. Hər bir işdə ağılla, təmkinlə davranmaq vacibdir.
2. İnsanın özünə elədiyini, el yığılsa, eləyə bilməz.
3. Özgəyə quyu qazan özü düşər.

Nə üçün belə düşünürsünüz?

Sizin variantınız

## II YARADICI İŞ

1. Nağılın davamını – qocanın sonrakı taleyini təsəvvür etdiyiniz kimi yazın.
2. Oxunan nümunələrə münasibət bildirin.

**Növbəti dərsə qədər**

Asudə vaxtınızda dərsliyinizdəki “Koroğlu ilə Dəli Həsən” mətnini oxuyun. Ehtiyac duysanız, dərinləşdirilmiş oxu məqsədilə mətni yenidən mütaliə edin.

# KOROĞLU İLƏ DƏLİ HƏSƏN

(ixtisarla)

**Yadasalma** • "Koroğlu" dastanı haqqında öyrəndiklərinizi xatırlayın. Sizcə, dastanın böyük şöhrət qazanmasına səbəb nədir?

I DƏRS | I OXU • ANLAMA

**1. Dastandan parçanı oxuyun.**

**2. Təəssüratınızı bölüşərkən aşağıdakı sual və tapşırıqları nəzərə alın.**

– Əsərdə sizin üçün təəccüblü, yaxud gözlənilməz olan təsvir, epizod oldumu?

– Koroğlu obrazı haqqındakı təəssüratınızla bağlı şifahi təqdimat edin.

– Dəli Həsən obrazı sizdə hansı təəssürat yaratdı?

**3. İkinci sütundakı suallara cavab hazırlayın. Ehtiyac duysanız, dərinləşdirilmiş oxu məqsədilə mətnə nəzər salın.**

Günlərin bir günü Koroğlu Qıratı minib Çənlibelin ətəyindəki yola çıxmışdı. Bir də baxdı ki, budur, bir dəstə yaraqlı-yasaqlı atlı gəlir. Amma atlıların qabağında bir oğlan gəlir, bir oğlan gəlir ki, dünyalara dəyər. Üzündən, gözündən igidlik yağır. Oğlan Koroğlunu görcək dəstəsinə hay vurdu. Atlılar o saat Koroğlunu araya aldılar. Koroğlu dayandı. Gözlədi ki, görsün, işin axırı nə olacaq. Oğlan atı cövlana gətirdi, süzdürüb düz Koroğlunun qabağında dayandı. Sonra bir Koroğluya baxdı, bir atına baxdı, soruşdu:

– Əyə, de görüm, kimsən? Bu yerlərdə nə gəzirsən?

Koroğlu dedi:

– Yoldan keçənəm.

Oğlan bir də Koroğlunun atına baxıb soruşdu:

– Bu atı haradan alıbsan?

Koroğlu dedi:

– Özümünküdür.

Oğlan dedi:

– Düş atdan! Bu at mənə çatacaq.

Koroğlu dedi:

- Dəli Həsənin Koroğluda yaratdığı ilk təəssürat necə olur?
- Dəli Həsənin Koroğlu haqqındakı ilk təsəvvürü nə olur?
- Dəli Həsənin kobud davranışına Koroğlunun təmkinli yanaşmasının səbəbi nə idi?
- Bu münaqişə olmaya bilərdimi?

– Mən sənə məsləhət görürəm ki, öz yolunla düz keçib-gedəsən. Yoxsa yaxşı olmaz.

Oğlan bu sözdən qəzəbləndi. Hirslə atının başını çəkdi. At iki dal ayaqları üstünə qalxdı. O, üzünü Koroğluya tutub dedi:

– Görünür ki, sən məni tanımırsan? Əgər tanısaydın, belə danışmazdın. Mənə Dəli Həsən deyərlər. Bu yollardan kim keçsə, mənə bac-xərac verməlidir.

Koroğlu onu tanıdı. Bildi ki, atasının dediyi Dəli Həsəndir. Bir də diqqətlə atına, özünə baxdı. Gördü yox, Dəli Həsən, doğrudan da, igid oğlandır. Koroğlu atası ölən gündən bəri onu axtarırdı. Onunla dostlaşmaq, əlbir olmaq fikrində idi. Ancaq bilirdi ki, bu iş elə-belə baş tutmayacaq. Dava-dalaşsız məsələ düzəlməyəcək. Fikir onu götürdü ki, indi nə təhər eləsin. Elə bu fikirdə idi ki, Dəli Həsən bir də qışqırdı:

– Əyə, sənə atdan düş, demirəmmi? Yoxsa əcəlin çatıb?

Koroğlu aramla dedi:

– Dəli Həsən, səsinə qüvvət vermə, igid dil açmaz, əl açar.

Dəli Həsən dedi:

– Əyə, sən kimsən ki, mənim qabağımda belə yekə-yekə danışırsan?

– Dayan, deyim, kiməm.

Bunu deyib Koroğlu atın başını çəkdi. At elə qalxdı ki, dırnağının altından qopan daş bir neçə adam boyu Dəli Həsənin başının üstündən keçib o tərəfə düşdü. Koroğlunun ətrafını bürümüş atlılar çaxnaşmaya düşdülər. Koroğlu sazı çiynindən aşırıb döşünə basdı, dedi:

1

Məndən salam olsun əcəm oğluna,
Meydana girəndə meydan mənimdi!
Qıratım köhləndi, özüm qəhrəman,
Çəkərəm qılıncı, düşman mənimdi!

Meydana girəndə meydan tanıyan,
Haqqın vergisinə mən də qanıyam,
Bir igidəm, igidlərin xanıyam,
Bu ətrafda bütün hər yan mənimdi!

Adımı soruşsan, bil, Rövşən olu,
Atadan, babadan cinsim Koroğlu,
Mənəm bu yerlərdə bir dəli-dolu,
Günçıxandan ta günbatan mənimdi!

- Koroğlu münaqişədən yayınmaq üçün bütün imkanlardan istifadə etdimi?
- Koroğlunun son ana qədər ehtiyatlı davranmasına səbəb nə idi?
- Koroğlunun sazla dediyi sözlər – şeir parçaları diqqətinizi cəlb etdimi? Birinci şeirdə onun hansı niyyəti ifadə olunmuşdur?
- İkinci parçada ifadə olunmuş fikirləri necə izah edərsiniz?
- Üçüncü və dördüncü parçaların məzmunları arasındakı oxşar və fərqli cəhətləri necə şərh edərsiniz?

Dəli Həsən bir Koroğluya baxdı, bir dönüb başının adamlarına baxdı, hündürdən bir şaqqanaq çəkib güldü. Atlılar da gülüşdülər. Onların bu gülüşməsi Koroğluya dəydi. Bir istədi, misri qılıncı çəkib özünü onlara göstərsin. Sonra lənət şeytana deyib aldı sazı, görək nə dedi:

2

İgid meydana girəndə
Qaynayıb coşmamaq gərək.
Əgər olsa haqq vergisi,
Qismətdən qaçmamaq gərək.

...Qoç Koroğlu çıxar düzə,
Baxmaram əlliyə, yüzə,
Mən dəlidən öyüd sizə,
Həddini aşmamaq gərək.

Koroğlunun belə yekə-yekə nəsihət verməyi Dəli Həsənə lap acıq gəldi. Başının adamlarına hay vurub Koroğluya hücum eləmək istədi. Koroğlu dedi:

3

Gəl sənə söyləyim, ay Dəli Həsən,
And içmişəm, bu gün döyüş olmasın.
Yoxsa aslan kimi cuşa gələrəm,
And içmişəm, bu gün döyüş olmasın.

Mərd igidlər müxənnətdən seçilsin,
Qarı düşmən dərələrə tökülsün.
Bizim aramızda münsif tapılsın,
And içmişəm, bu gün döyüş olmasın.

Çəkərəm qılıncı, kəsərəm yolu,
Mənəm igidlərdə bir dəli-dolu.
Hələ coşmayıbdır bu qoç Koroğlu,
And içmişəm, bu gün döyüş olmasın.

Dəli Həsən elə bildi, Koroğlu ondan qorxur. Geri qanrılıb başının adamlarına dedi:

– Əyə, mən də elə bilmişəm ki, bu, doğrudan da, igiddi. Sən demə, bu, yanşaq gəvəzənin biri imiş. Tutun, yekə-yekə danışdığına görə atını əlindən alın, özünə də bir-iki vurub yola salın.

Koroğlu baxdı ki, iş davasız keçməyəcək. Misri qılıncı çəkib aldı, görək nə dedi:

4

Acıqlanma, Dəli Həsən,
Misri qılınca qataram,
Atılaram şeşpər kimi,
Bağrın başına bataram.

...Hayqırıb açsam meydanı,
Sutək axıdaram qanı.
Dəstələyib bəyi, xanı
Qırat döşünə qataram.

Qoç Koroğlu öz karında,
Yalan olmaz ilqarında.
Çəkib Hələb bazarında
Səni qul deyib sataram.

Koroğlunun bu sözündən Dəli Həsən qızışdı. Özü bir kənarda durdu, başının adamlarına hökm elədi ki, Koroğlunu tutsunlar.

Dəli Həsənin dəstəsi Koroğluya hücum elədi. Koroğlu atı cövlana gətirib qızmış şir kimi onların üstünə cumdu.

Bir yandan Koroğlu, bir yandan Qırat az vaxtda dəstəni qatım-qatım qatlayıb əldən-ayaqdan saldılar. Dəstədən qırılan qırıldı, qalanlar da qaçıb dağıldılar. Koroğlu dəstəni dağılmış görüb Qıratı ildırım kimi süzdürdü, çəkilib bir yanda duran Dəli Həsənin üstünə sürdü. Üzünü ona tutub, aldı görək nə dedi:

Qıratı gətirdim cövlana indi,
Varsa igidlərin, meydana gəlsin!
Görsün mən dəlinin indi gücünü,
Boyansın əndamı al-qana, gəlsin!

...Koroğlu əyilməz yağıya, yada,
Mərdin əskik olmaz başından qada.
Nərələr çəkərəm mən bu dünyada,
Göstərrəm məhşəri düşmana, gəlsin!..

Koroğlu ilə Dəli Həsən dava eləyəsi oldular. Qılınclarını çəkib bir-birinə hücum elədilər. Qılıncdan murad hasil olmadı, əmuda əl atdılar. Əmuddan murad hasil olmadı, nizəyə əl uzatdılar. Nizədən də kar aşmadı. Axırda atdan düşdülər, güləşməyə başladılar.

Dəli Həsən ilə Koroğlu çox güləşdilər, gah o buna güc gəldi, gah bu ona güc gəldi. Qoç Koroğlu axırda bir dəli nərə çəkib Dəli Həsəni götürüb yerə vurdu. Dizini sinəsinə dayadı, əlini qılınca atanda Dəli Həsən bir ah çəkdi.

Koroğlu dedi:

– Bir qaşıq qanından qorxub niyə ah çəkirsən?

Koroğlunun cavabında Dəli Həsən dedi:

– Ey igid, mən canımdan qorxub ah çəkmirəm. Əhdim var idi. Əhdimə çatmadım.

Koroğlu soruşdu:

– Əhdin nə idi?

Dəli Həsən dedi:

– Mən əhd eləmişdim ki, hər kim məni bassa, onunla dost, qardaş olam. Ölənə qədər onun yanında qalam. İndi sən məni basdın, ancaq öldürürsən, əhdimə çata bilmirəm.

Dəli Həsənin bu sözü Koroğlunu sevindirdi. Ayağa qalxdı, Dəli Həsənin qolundan yapışıb qaldırdı, əlini üç dəfə onun kürəyinə vurdu. Dəli Həsən onun qılıncının altından keçdi, ölənəcən ona qardaş olub qulluğunda durmağa and içdi. Ondan sonra üzünü Koroğluya tutub dedi:

– Qoç Koroğlu, düz yeddi ildir ki, mən bu yolların ağasıyam.



İndiyə qədər hələ bir adam mənim qabağıma çöp sala bilməyib. Bu yeddi ilin ərzində bir tacir, bir bəzirgan mənə bac verməmiş bu həndəvərdən keçə bilməyib. Bəylərdən, xanlardan, tacirlərdən alıb yığdığım mal-dövlətin, qızıl-gümüşün, cavahiratın hamısını saxlamışam. İgidlər arasında olan adətə görə, indi onların hamısı sənə çatır. Buyur, gedək, malına sahib ol!

Koroğlu qabaqca ona inanmadı. Şübhələndi ki, bəlkə, hiylə qurub onu tora salmaq istəyir. Sonra fikirləşib öz-özünə dedi: “Eybi yoxdur, elə belə yaxşıdı. Bu başdan yoxlayıb, sınaqdan çıxardaram. Qoy mərddirsə də, indidən bilinsin, müxənnətdirsə də, indidən bilinsin”.

Özü Qıratı mindi, sonra da üzünü ona tutub dedi:

– Min atını, sür, gedək!

Dəli Həsən qabaqda, Koroğlu dalda, az getdilər, üz getdilər, gəlib bir sıldırım qayanın dibinə çatdılar. Qayanın dibi yaman kol-kosluq idi. Dəli Həsən atını kol-kosluğa vurdu. Koroğlu da onun dalınca. Elə bir az getmişdilər ki, qabaqlarına bir mağara çıxdı. Dəli Həsən atdan düşdü. Sonra Qıratın cilovundan yapışıb dedi:

– Çatmışıq. İndi atdan düş, içəri girək.

Koroğlu yenə də Dəli Həsəni qabağına salıb mağaraya girdi. Baxdı ki, burada o qədər qızıl-gümüş var ki, elə bil yeddi padşahın xəzinəsi buradadı. Koroğlu mağaranı tamam-kamal gəzdi. Hamısını gözdən keçirdi.

Sonra Dəli Həsənə dedi:

– Qoy bunlar hələlik elə buradaca qalsın. İndi bunlar bizə lazım deyil. Amma elə ki Çənlibeldə yurd-yuva saldıq, başımıza dəlilər, igidlər yığıldı, onda bunlar bizə lazım olacaq.

Doğrudan da, elə oldu. Bu gündən Koroğlunun başına yavaş-yavaş adamlar yığışmağa başladı. Çox çəkmədi ki, Çənlibel qoçaq oğlanların, igidlərin məskəni oldu.

**SÖZLƏR TANIŞDIRMI?**

- əcəm
- qanı
- müxənnət
- münsif
- gəvəzə
- şeşpər
- üz
- kar
- əndam
- qada
- məhşər
- murad
- əmud
- bəzirgan
- bac

## II ÖYRƏNDİKLƏRİNİZİ YOXLAYIN

**1. Fikirlərdən biri doğrudur.**

A) Koroğlu Dəli Həsəni dərhal tanımışdı.
B) Koroğlu Dəli Həsənlə dost, silahdaş olmağı arzulayırdı.
C) Dəli Həsənin adamları onun dikbaşlığını bəyənmirdilər.
D) Dəli Həsən Koroğlunu öz dəstəsinə qatmaq istəyirdi.
E) Dəli Həsən sərvətini Koroğluya verməklə ölümdən xilas olmaq istəyirdi.

**2. Fikirlərdən biri səhvdir.**
A) Koroğlu Dəli Həsənin ötkəmliyini görüb ondan çəkindi.
B) Koroğlu Dəli Həsənlə qarşılaşandan az sonra anladı ki, davasız keçinmək olmayacaq.
C) Dəli Həsən Koroğlu ilə qarşılaşan andan onunla saymazyana danışırdı.
D) Öz gücünə-qüvvəsinə inanan Koroğlu əmin idi ki, Dəli Həsənin dəstəsinin öhdəsindən asanlıqla gələcək.
E) Koroğlunun Dəli Həsənlə dost, silahdaş olması Çənlibel üçün faydalı oldu.

## III MÖHKƏMLƏNDİRMƏ • ZƏNGİNLƏŞDİRMƏ

1. Sizcə, əsərdə daha mühüm olan mətləblər hansılardır? Fikrinizi nümunələrlə əsaslandırın.
2. Əsərdəki hadisələri nəzərdən keçirin, obrazların nitq və davranışlarındakı dəyişikliyi, bunun səbəbini izah edin.
3. Çıxışlara münasibət bildirin.

## IV MÜZAKİRƏ

**1. Aşağıdakı mövzular üzrə diskussiyaya hazırlaşın.**
a) Əsərin əsas mövzusu nədir.
b) Əsərin əsas konflikti.
**2. Diskussiyada fəal iştirak edin.**

## V NİTQİN VƏ DÜŞÜNCƏNİN İNKİŞAFI

1. Dastandan seçdiyiniz parçanı yığcam nağıl etməyə hazırlaşın.
2. Çıxışlara münasibət bildirin.

## II DƏRS I ARAŞDIRMA • TƏHLİL

**1. Əsərin mövzusu ilə bağlı qənaətlərinizi dəqiqləşdirin. Tövsiyələri nəzərə alın:**
– dastandakı hadisələri, onlarda Koroğlunun mövqeyini yada salın;
– Koroğlu ilə Dəli Həsənin qarşılaşmasında daha önəmli olanları xatırlayın;
– gəldiyiniz nəticələri ümumiləşdirin.
**2. Koroğlu obrazını səciyyələndirin. Tövsiyələri nəzərə alın:**
– müxtəlif epizodlarda nitqi-danışığı;
– fərqli məqamlarda davranışı;
– müxtəlif vəziyyətlərdə keçirdiyi hisslər.
**3. Dəli Həsən obrazını səciyyələndirin. Tövsiyələri nəzərə alın:**
– müxtəlif epizodlarda nitqi-danışığı;
– fərqli məqamlarda davranışı;
– müxtəlif vəziyyətlərdə keçirdiyi hisslər.

**4. Koroğlu və Dəli Həsən obrazlarını müqayisəli səciyyələndirin. Cədvəldən istifadə edin.**

| S. | Obrazlar | Hansı cəhətlərə görə müqayisə olunurlar | | | | | |
|---|---|---|---|---|---|---|---|
| | | xarakterlərindəki başlıca cəhətlər | | davranışları | | nitqləri | |
| | | oxşarlıq | fərq | oxşarlıq | fərq | oxşarlıq | fərq |
| 1 | Koroğlu | | | | | | |
| 2 | Dəli Həsən | | | | | | |

**5. Dastandakı əsas fikri – ideyanı izah edin. Cədvəldəki fikirlərlə tanış olun. Seçdiyinizi, yaxud öz variantınızı əsaslandırmağa çalışın. Əsərdəki konflikti və mühüm hesab etdiyiniz mətləbləri yada salın.**

Fikirlərdən hansı ideya üçün əsas sayıla bilər?

1. Səbir və təmkin igidin yaraşığıdır.
2. Xalq qəhrəmanı xırda hisslərdən uzaq olur.
3. Qarşısına böyük məqsəd qoyan xalq qəhrəmanı davranış və hərəkətlərinə məsuliyyətlə yanaşar.

Nə üçün belə düşünürsünüz?

Sizin variantınız

## II MÜZAKİRƏ

1. "Əsərin əsas süjet xətti və onun mərhələləri" mövzusu üzrə müzakirəyə hazırlaşın.
2. Şifahi təqdimatların hazırlanmasında və müzakirəsində fəal iştirak edin.

## III İFADƏLİ OXUYA HAZIRLAŞIN

1. **Dastandan aşağıdakı parçanın ifadəli oxusuna hazırlaşın.** Məntiqi fasilələrin yerini və məntiqi vurğulu sözləri müəyyənləşdirib şərti işarələrlə göstərin.

   *"Günlərin bir günü Koroğlu Qıratı minib Çənlibelin ətəyindəki yola çıxmışdı. Bir də baxdı ki, budur, bir dəstə yaraqlı-yasaqlı atlı gəlir. Amma atlıların qabağında bir oğlan gəlir, bir oğlan gəlir ki, dünyalara dəyər. Üzündən, gözündən igidlik yağır. Oğlan Koroğlunu görcək dəstəsinə hay vurdu. Atlılar o saat Koroğlunu araya aldılar. Koroğlu dayandı. Gözlədi ki, görsün, işin axırı nə olacaq. Oğlan atı cövlana gətirdi, süzdürüb düz Koroğlunun qabağında dayandı".*

2. **İfalara münasibət bildirin.**

**Növbəti dərsə qədər**

Asudə vaxtınızda dərsliyinizdəki "Nəsirəddin Tusi ilə bostançı" mətnini oxuyun.

# TƏTBİQ • ÜMUMİLƏŞDİRMƏ

## NƏSİRƏDDİN TUSİ İLƏ BOSTANÇI

(rəvayət)

### I OXU • ANLAMA

**1. Mətni oxuyun.**

**2. İlkin təəssüratınızı bölüşün.**

**3. Mətnə aid ikidən az olmayaraq sual və onlara cavab hazırlayın. Bunun üçün dərinləşdirilmiş oxu məqsədilə mətni yenidən nəzərdən keçirin.**

Belə rəvayət edirlər ki, isti bir yay günündə Xacə Nəsirəddin Tusi bir neçə atlı ilə Marağaya gedirmiş. Yolda Xacə bərk susayır, susuzluğunu yanındakılara da bildirir. Bu yerləri yaxşı tanıyan atlılardan biri Xacəyə deyir:

– Qarşıdakı bu kiçik dağdan o tərəfə, dərə boyunca bağlıq və bostanlıqdır. Bu yerlərin qarpızı da çox məşhurdur. Atları bir az sürətləndirsək, oraya tez çatarıq.

Onlar atlarını çaparaq sürüb dağa dırmaşdılar, çox keçmədən bağ-bağatlı dərəyə endilər. Nəsirəddin Tusi qarpızı çox sevirmiş. Belə bir havada, özü də isti vaxtında bostan kənarında qarpız yemək ona hər cür şahanə qonaqlıqdan ləzzətli görünürdü. Onlar bostanın qırağına çatdıqda başına ağ dəsmal bağlamış, üzü günəşdən yansa da, çox nurani görünən bir qoca qabağa gəlib salam verir. Nəsirəddin Tusi salamın cavabını verdikdən sonra deyir:

– Qoca, bizə bir neçə dadlı qarpız gətir. Bir qədər də sərin olsalar, daha yaxşı olar.

Qoca bostançı atlıların görkəmindən hörmətli şəxslər olduqlarını bilərək əlini döşünə qoyub baş əyir, deyir:

– Hörmətli ağalar, siz piyada olun, qoy atlarınız da bostanın qırağında bir qədər otlasın. Özünüz də dincəlin. Sizi elə qarpıza qonaq edəcəyəm ki, ləzzəti uzun müddət damağınızda qalsın.

Nəsirəddin Tusi ilə yoldaşları atdan düşdülər. Atların cilovlarını ağızlarından çıxarıb bostanın kənarındakı yoncalığa buraxdılar. Özləri isə bostançının komasına yollandılar. Qoca tağ altında hələ axşam sərinliyini saxlayan bir neçə qarpız seçib gətirdi. O bu neçə dəqiqədə atlıların hörmətindən duymuşdu ki, onların içərisində yaş etibarilə də

ağsaqqal sayılan və “Xacə” deyə xitab edilən şəxs rütbə cəhətcə də böyük olmalıdır. Buna görə də qarpızları onun qabağında yerə qoyub dedi:

– Hörmətli ağa, bu, sarı qarpızdır. Bir o qədər də şirin olmaz. Ancaq susuzluğu tez yatırar. Bu da tünd-qırmızı qarpızdır. İçi şərbətdən də şirin olar. Bu isə çəhrayıya çalmalıdır. Bu birisi də sarıdır. Bu da yenə tünd-qırmızı.

Xacə Nəsirəddin təəccüblə qocaya baxdı, qarpızları bir-bir kəsdi. Qocanın dedikləri ilə qarpızlar arasında zərrə qədər də fərq yox idi.

Xacə Nəsirəddin susuzluğu sönənədək, doyana qədər qarpızlardan yedi. Sonra da qocanın əlindən tutub bostana apardı. O öz peşəsinin kamil bilicisi olan bu altmış yaşlı qocanı sanki sınayır, bir məktəbli kimi imtahan etmək istəyirdi. Xacə ucu-bucağı görünməyən bostanın bir yerində ayaq saxladı, bir qarpızı bostançıya göstərib soruşdu:

– Qoca, bu qarpızın dadı necədir, nə rəngdədir?

– Qurban, o, tünd-sarıdır, həm də bayaq yediyindən də şirindir.

Xacə dərhal qarpızı ortadan bölüb daddı. Qoca sanki öz iti baxışları ilə qarpızın içini görmüş, həm də dadmış imiş! Xacə Nəsirəddin dedi:

– Bəs bu qarpız?

– Bu da yenə indi kəsdiyiniz kimi.

– Bəs bu?

– Bu da ağlı-qırmızılıdır. Hələ yaxşı yetişmədiyindən şirinləşməmişdir.

– Bəs bu, bəs bu?..

Xacə Nəsirəddin qarpızlardan kəsdirə-kəsdirə bostanın ortasına qədər getdi. Sonra birdən dayandı, qocanı diqqətlə süzüb dedi:

– Qoca, başın yaxşı başdır, heyif olsun ki, qarpıza işləmişdir!

– Qurban, qarpız da Allahın nemətidir! – deyə qoca cavab verdi.

– Burası doğrudur, lakin mən ayrı cəhəti duşünürəm. Düşünürəm ki, görəsən, insan kamalı sayəsində xariqələr yaratmaq qüdrətində olan nə qədər adam başını bostanda işlədir, ömrü boyu bir qarpızı o birisindən seçə bilməyənlərin də nə qədəri saraylarda, müqəddəs məkanlarda mövqe tutur!

Xacə fikirli-fikirli həmyanını çıxartdı. İçərisindəki qızılları ovcuna boşaltdı. Sonra təvazökar bir ədа ilə də bostançıya uzadıb dedi:

– Qoca, təcrübə, maraq üzündən, az qala, bostanının yarısını bıçaqdan keçirtmişəm. Sən isə əhli-əyal sahibisən. Bu pulları al, biliyinə layiq olmasa da, zəhmət haqqını birtəhər ödəyər.

Qoca bostançı hörmətlə, lakin qürurla əlini döşünə qoydu, puldan qəti imtina edib dedi:

– Qurban, bizlərdə yoldan ötən yolçulardan pul almaq ən pis bir iş, günah sayılır. Siz isə təkcə adi yolçu olmayıb hörmətli şəxslərsiniz. Mənim xahişim odur ki, məni nə elin adətini pozmağa məcbur edəsiniz, nə də yaşımın bu vaxtında günaha batmağa.

Əvvəlcə Xacə Nəsirəddin, sonra da yoldaşları nə qədər israr etsələr də, qoca bostançı pulu almadı, tanımadığı qonaqlarını hörmətlə yola saldı.

Deyirlər ki, Xacə Nəsirəddin Tusi bir müddətdən sonra böyük xahişlə həmin qocanı Marağa rəsədxanasına apartdırır. Öz elmi işlərində onun

təbiətlə bağlı müşahidə, təcrübələrindən istifadə edirmiş. Həmin qocanın məsləhəti ilə o yerlərdən seçdiyi bir çox kəndli balalarını da atalarının razılığı ilə Marağada, Bağdadın “Nizamiyyə” mədrəsəsində oxutdurur, tərbiyə etdirir. Onların içərisində dünya şöhrəti qazanan bir çox ardıcılı yetişir.

SÖZLƏR TANIŞDIRMI?
- Marağa
- həmyan
- Bağdad
- “Nizamiyyə” mədrəsəsi

## II ÖYRƏNDİKLƏRİNİZİ YOXLAYIN

1. Yazdığınız sualları və cavablarını müzakirə edin.
2. Çıxışlara münasibət bildirin.

## III NİTQİN, DÜŞÜNCƏNİN İNKİŞAFI

1. Rəvayətdən seçdiyiniz parçanın məzmununu yaradıcı danışmağa hazırlaşın.
2. Çıxışlara münasibət bildirin.

## IV XATIRLATMA • DƏRİNLƏŞDİRMƏ

Tanış olduğunuz mətn *rəvayət* adlanır. O, şifahi xalq ədəbiyyatının geniş yayılmış janrlarındandır. Rəvayətlər nağıllara bənzəsə də, onları eyniləşdirmək olmaz. Nağıllar kimi, rəvayətlər də ağızdan-ağıza keçərək yaşayır və yayılır. Lakin rəvayətlərin böyük bir qismində tarixi həqiqətlərin izini özünəməxsus məzmunda və formada müşahidə etmək mümkündür. Bu daha çox tarixi şəxsiyyətlərlə bağlı rəvayətlərdə öz əksini tapır. Yəni belə rəvayətlərdə məşhur şəxsiyyətlərin həyatına, fəaliyyətinə uyğun müəyyən işarələrə, əhvalat və hadisəyə rast gəlmək olur.

Xalq rəvayətlərində Süleyman peyğəmbər, Tomris, Nadir şah, Əmir Teymur və b. ilə bağlı nümunələr var. Eləcə də yer adları: “Şuşa”, “Bibiheybət” və s. ilə bağlı rəvayətlər geniş yayılıb.

Bu nümunələrdə “rəvayətə görə”, “belə rəvayət edirlər”, “deyilənə görə” ifadələrinin işlədilməsi janrın özəlliyinə diqqəti çəkir, eyni zamanda dinləyicilərin (oxucuların) marağının artmasına səbəb olur. Rəvayətlər çox vaxt ibrətamiz sonluqla bitir.

## V ARAŞDIRMA • TƏHLİL

**1. Kiçik qruplarda iş**

**I qrup:**
**Əsərin mövzusunu şərh edin, rəvayət janrında olduğunu nümunələrlə əsaslandırın.**

***Tövsiyə.*** *Rəvayətin mövzusunu müəyyənləşdirərkən onda təsvir olunanları, xüsusən əsas hadisəni diqqət mərkəzində saxlamaq vacibdir. Bu rəvayətdə tarixdə böyük alim kimi tanınmış Xacə Nəsirəddin Tusi uzaqgörən, xeyirxah bir insan kimi təqdim edilir. Onun sözlərinə, gəldiyi nəticəyə diqqət yetirin. Bu deyilənlərdən çıxış edib rəvayətin mövzusunu müəyyənləşdirməyə və yazılı şəkildə ifadə etməyə çalışın.*
*“Rəvayət” anlayışı ilə bağlı tanış olduğunuz məlumat əsərin janrı haqqında əsaslandırılmış fikir bildirməyinizə imkan verəcəkdir.*

**II qrup:**
**Əsərdəki obrazları səciyyələndirin.**

***Tövsiyə.*** *Obrazların xarakterindəki, davranış və əməllərindəki başlıca cəhətləri aydınlaşdırmağa çalışın. Fikirlərinizi əsərdən seçdiyiniz nümunələrlə əsaslandırın.*

**III qrup:**
**Əsərdəki hadisələrin bir-biri ilə əlaqəsini nümunələr əsasında izah edin.**

***Tövsiyə.*** *Əsas hadisənin necə başlandığına və davam etdiyinə, eləcə də yığcam təsvir olunmuş digər hadisələrə, onların bir-biri ilə əlaqəsinə diqqət yetirin. Fikrinizi nümunələr əsasında izah edin.*

**IV qrup:**
**Rəvayətdəki başlıca fikri – əsas ideyanı şərh edin.**

***Tövsiyə.*** *Rəvayətin mövzusu sizə məlumdur, məzmunu haqqında da mükəmməl təsəvvür əldə etmisiniz. Mövzunu, məzmunda ifadə olunmuş başlıca fikri, əsərin sonluğunu xatırlayın. Bütün bunlar rəvayətdəki əsas ideyanı müəyyən etməyinizə imkan yaradacaqdır. Gəldiyiniz nəticənin səbəbini izah edin.*

**V qrup:**
**Nəsirəddin Tusi obrazı ilə “Çahargah əfsanəsi” əsərindəki alim obrazını müqayisə edin.**

***Tövsiyə.*** *Eyni və müxtəlif əsərlərdə olan obrazları bir-biri ilə müqayisə etmək mümkündür. Onları xarakter, nitq və s. cəhətlərə görə müqayisə etmək olar. Nəsirəddin Tusi obrazı bir çox cəhətlərinə görə “Çahargah əfsanəsi” əsərindəki alimə oxşayır. Bu onları müqayisə etməyə imkan verir.*

Aşağıdakı cədvəldə həmin obrazları hansı cəhətlərə görə müqayisə etməyin mümkün olduğu bütünlüklə göstərilməmişdir. Digər cəhətləri müstəqil müəyyənləşdirib tapşırığı tamamlayın.

| **Müqayisə olunan obrazlar** | | | |
|---|---|---|---|
| **Alim və Nəsirəddin Tusi** | | | |
| Xarakterlərindəki oxşar və fərqli cəhətlər | Nitqlərindəki oxşar və fərqli cəhətlər | | |
| | | | |

**2. Yazılı qeydlərin əsasında təqdimatların edilməsi.**

**3. Təqdimatların müzakirəsi.**

**Növbəti dərsə qədər**

Asudə vaxtınızda dərsliyinizdən S.Vurğunun “Azərbaycan” şeirini oxuyun. Dərinləşdirilmiş oxu əsərdə əks olunmuş hiss və düşüncələri duymağınıza əhəmiyyətli təsir edəcəkdir.

# 2 YURD SEVGİSİ, QƏHRƏMANLIQ SƏHİFƏLƏRİ



Şuşa şəhərində qala

Elə mövzular var ki, söz sənətinin bəzəyidir. Onlar bədii ədəbiyyatda əbədi mövzu timsalındadır. Həmin mövzularda nə qədər yazılsa da, onlara maraq azalmır. Belə mövzularda yazılan əsərlər incəsənətin digər növlərinə də yol tapır: onların əsasında bədii filmlər çəkilir, rəssamlıq, musiqi, heykəltaraşlıq əsərləri yaradılır. Bu mövzulardan biri yurd sevgisi və qəhrəmanlıqdır. Onlar bir-biri ilə sıx bağlıdır. Vətənin dar günündə onun igid övladları meydana çıxır. Ölümdən qorxmayan belə igidlər sinələrini sipər edib doğma yurdu işğalçılardan, yadellilərdən qoruyurlar. Bu, həmişə – keçmişdə də, bu gün də belədir.

Doğma yurdumuz – Qarabağ uğrunda gedən müharibələrdə yüzlərlə igidimizin, qəhrəmanımızın adı dillər əzbəri oldu. Onlar haqqında şeirlər, hekayələr... yazıldı, bədii filmlər çəkildi. Bu, yurdumuza sonsuz sevginin ifadəsidir.

Bu bölmədə Vətənimizə dərin məhəbbətlə yazılan, qəhrəmanlığı tərənnüm edən əsərlərlə tanış olacaq, onların araşdırılması ilə bağlı yeni bacarıqlara yiyələnəcəksiniz.



Səməd Vurğun
(1906-1956)

O, həmişə böyük duyğu və arzularla yaşamış, öz əsərlərində ən gözəl insani keyfiyyətləri – cəsarət, mərdlik, dostluq, insanpərvərlik kimi ideyaları tərənnüm etmişdir.

Bəxtiyar Vahabzadə

# AZƏRBAYCAN

(ixtisarla)

**Yadasalma** • Vətənimizə həsr edilmiş hansı əsərləri xatırlayırsınız? Onlarda daha çox hansı mətləblər əks olunur?

I DƏRS | I OXU • ANLAMA

**1. Mətni oxuyun.**

**2. İlkin təəssüratınızı bölüşərkən aşağıdakı sualları nəzərə alın.**

– Şeirdə ən çox xoşunuza gələn nə oldu? Səbəbini izah edin.

– Əsərdəki hansı təsvirləri daha uğurlu sayırsınız?

– Onlar sizdə hansı hiss-düşüncə yaratdı?

**3. İkinci sütundakı suallara cavab hazırlayın. Ehtiyac duysanız, dərinləşdirilmiş oxu məqsədilə mətnə nəzər salın.**

Çox keçmişəm bu dağlardan,
Durna gözlü bulaqlardan.
Eşitmişəm uzaqlardan
Sakit axan arazları,
Sınamışam dostu, yarı...

El bilir ki, sən mənimsən,
Yurdum, yuvam, məskənimsən.
Anam, doğma vətənimsən!
Ayrılarmı könül candan?
Azərbaycan, Azərbaycan!

Mən bir uşaq, sən bir ana,
Odur ki bağlıyam sana.
Hankı səmtə, hankı yana
Hey uçsam da, yuvam sənsən,
Elim, günüm, obam sənsən!

Dağlarının başı qardır,
Ağ örpəyin buludlardır.
Böyük bir keçmişin vardır,
Bilinməyir yaşın sənin,
Nələr çəkmiş başın sənin...

- Şeirdə doğma təbiətin gözəlliyi və zənginliyi necə ifadə olunmuşdur?
- Şair vətənə bağlılığını hansı misralarda və necə əks etdirmişdir?

Düşdün uğursuz dillərə,
Nəhs aylara, nəhs illərə.
Nəsillərdən nəsillərə
Keçən bir şöhrətin vardır;
Oğlun, qızın bəxtiyardır...

Sıra dağlar, gen dərələr,
Ürək açan mənzərələr...
Ceyran qaçar, cüyür mələr,
Nə çoxdur oylağın sənin!
Aranın, yaylağın sənin!

- Əsər Vətənimizin keçmişi və bu günü barədə hansı təsəvvür yaradır?

SÖZLƏR TANIŞ-DIRMI?
- örpək
- nəhs
- oylaq

## II ÖYRƏNDİKLƏRİNİZİ YOXLAYIN

**1. Fikirlərdən biri səhvdir.**

A) İnsanın vətənə bağlılığı ana ilə uşağın bağlılığı kimidir.
B) Müəllif Vətən torpağını qarış-qarış gəzmiş, onun füsunkar təbiətinə məftun olmuşdur.
C) Şairə görə doğma vətəndən ayrı yaşamaq mümkün deyildir.
D) Şeirdə yalnız təbiətin gözəlliklərinə üstünlük verilmişdir.
E) Vətənimiz tarix boyu çox bəlalar çəkmişdir.

**2. Verilmiş bəndlərin hər ikisinə aid olan fikri müəyyən edin.**

Dağlarının başı qardır,
Ağ örpəyin buludlardır,
Böyük bir keçmişin vardır,
Bilinməyir yaşın sənin,
Nələr çəkmiş başın sənin...

Düşdün uğursuz dillərə,
Nəhs aylara, nəhs illərə.
Nəsillərdən nəsillərə
Keçən bir şöhrətin vardır;
Oğlun, qızın bəxtiyardır...

**Bəndlərin hər ikisinə aid olan fikir** A B C D E

A) Şair Vətənin tarixən çox qədim olduğu qənaətindədir.
B) Vətən övladları onun adını uca tutur, qoruyur və gələcək nəsillərə əmanət edir.
C) Təbiətə heyranlıq hissləri də əksini tapıb.
D) Vətənin tarix boyu keşməkeşli tale yaşadığına işarə edilib.
E) Vətən övladlarının xoşbəxt yaşadığı fikri vurğulanır.

## III MÖHKƏMLƏNDİRMƏ • ZƏNGİNLƏŞDİRMƏ

1. Oxuduğunuz parçadakı mühüm mətləblər hansılardır? Nümunələr əsasında izah edin.
2. Əsərdə müəyyənləşdirdiyiniz bədii təsvir və ifadə vasitələrindən ikisini cümlələrdə işlədin.
3. İşinizin nəticələrini müzakirə edin.

## IV NİTQİN, DÜŞÜNCƏNİN İNKİŞAFI

**1. Mənasını yeni öyrəndiyiniz sözlərdən bir neçəsini cümlələrdə işlədin. Cümlələrdə şeirlə bağlı fikirlərinizi ifadə etməyə çalışın.**

**2. Mövzulardan birini seçib yığcam yazılı təqdimata hazırlaşın.**

a) Şeirdəki təsvirlər vətənimizin təbiəti barədəki təsəvvürümü necə zənginləşdirdi?
b) Şeir mənə oxuduğum hansı əsəri xatırlatdı.

**3. İşinizin nəticəsini müzakirə edin. Çıxışlara münasibət bildirin.**

## V XATIRLATMA • DƏRİNLƏŞDİRMƏ

Bilirsiniz ki, bədii əsər insanın, eləcə də cəmiyyətdə, təbiətdə baş verən hadisələrin dərk edilməsi üçün qüdrətli vasitədir. Bütün bunlar əsərdə çoxlu sayda mətləblərin təsviri ilə mümkün olur. Bəs *mətləblər* deyərkən nə başa düşülür? Mətləblərə nələr daxildir? Onlar əsərdə necə təzahür edir?

Yazıçının niyyətini, fikrini, mövqeyini ifadə edən mətləb (mətləblər) əsərdə fərqli şəkillərdə özünü göstərir. O, obrazın nitqində, davranış, əməl və fəaliyyətində, bu və ya digər epizodda, müəyyən hadisənin təsvirində və s.-də təzahür edir. Əsərin kiçik bir parçasında bir neçə mətləb əks oluna bilir. Onlar əhəmiyyətlilik baxımından fərqlənir; bəziləri mühüm, digərləri yardımçı olur. Bir nümunəyə nəzər salaq:

Ovçu, insaf elə, keçmə bu düzdən,
O çöllər qızını ayırma bizdən.
Qoyma, ağrı keçə ürəyimizdən,
Qıyma, öz qanına boyana ceyran,
Nə gözəl yaraşır Muğana ceyran.

Bu bənddə başlıca mətləb təbiətin tükənməkdə olan nadir incisinin – ceyranın həyatı ilə bağlı narahatlıq hissinin ifadəsidir. Şair ceyranın həyatı üçün təhlükə yaradan ovçuya müraciət edir, onu "çöllər qızına" – zərif varlığa münasibətdə mərhəmətli olmağa səsləyir. Bu kiçik parçada – bənddə digər bir mətləb də var: ceyran doğma təbiətimizə gözəl yaraşır, onu zənginləşdirir...

Bədii əsərdəki obrazların hər biri yazıçının niyyətinin, oxucuya çatdırmaq istədiyi ideyanın ifadəçisidir. Onların dilindən eşidilənlər, davranış, əməl və fəaliyyətlərində müşahidə olunanlar yazıçının mövqeyini ifadə edən mətləblərdir.

Ədəbi qəhrəmanların insanpərvərliyini, yurdsevərliyini, eləcə də hər cür əməllərini ifadə edən nə varsa, məhz mətləblər kimi qəbul edilir və dəyərləndirilir.

Cəmiyyəti düşündürən, narahat edən məsələlərlə, problemlərlə (dəyərlərin yaşadılması, ölkənin inkişafı, xalqın rifahı, vətənin qorunması və s.) bağlı mətləblərə söz sənəti nümunələrində geniş yer verilir. Eləcə də təbiətin qorunması, qayğı ilə əhatə olunması ilə bağlı rəngarəng mətləblərin bədii əsərdə yer tutduğu da məlumdur.

Beləliklə, xüsusən mühüm mətləblərin aydınlaşdırılması təkcə əsərin məzmununun əhatəli başa düşülməsinə deyil, həm də ideyasının dərk edilib dəyərləndirilməsinə imkan yaradır.

İlkin oxudan sonra dərsliyinizdə təklif edilmiş “Şeirdə diqqətinizi daha çox çəkən nə oldu?”, “Şairin hiss və düşüncələri barədə sizdə hansı təəssürat yarandı?”, “Hansı epizodu daha maraqla oxudunuz? Nə üçün?” kimi suallar əsərdəki mətləbləri necə başa düşdüyünüzü aşkara çıxarmaq məqsədini güdür. Əsərin öyrənilməsinin sonrakı mərhələsində isə “Sizcə, şeirdəki başlıca mətləblər hansılardır?”, “Oxuduğunuz parçadakı mətləbləri müəyyənləşdirin”, “Şeirin birinci bəndində ifadə edilmiş fikirləri aydınlaşdırın, qısaca yazın” səciyyəli sual və tapşırıqlara geniş yer verilmişdir.

**Növbəti dərsə qədər**

Asudə vaxtınızda şeirin davamını oxuyun. Dərinləşdirilmiş oxu əsərdəki mətləbləri başa düşməyinizi asanlaşdıracaqdır.

II DƏRS | I OXU • ANLAMA

**1. Mətni oxuyun.**

**2. İlkin təəssüratınızı bölüşərkən aşağıdakı sual və tapşırıqları nəzərə alın.**
– Şeirin davamı xoşunuza gəldimi? Səbəbini izah edin.
– Hansı misra və bəndlər diqqətinizi daha çox cəlb etdi? Nə üçün?
– Şeirin sizdə yaratdığı hiss və düşüncələri izah etməyə çalışın.

**3. İkinci sütundakı suallara cavab hazırlayın. Ehtiyac duysanız, dərinləşdirilmiş oxu məqsədilə mətnə nəzər salın.**

*Əsərin davamı*

Keç bu dağdan, bu arandan,
Astaradan, Lənkərandan.
Afrikadan, Hindistandan
Qonaq gəlir bizə quşlar –
Zülm əlindən qurtulmuşlar.

Min Qazaxda köhlən ata,
Yalmanına yata-yata,
At qan-tərə bata-bata,
Göy yaylaqlar belinə qalx,
Kəpəz dağdan Göygölə bax!

Könlüm keçir Qarabağdan,
Gah bu dağdan, gah o dağdan.
Axşamüstü qoy uzaqdan
Havalansın Xanın səsi –
Qarabağın şikəstəsi.

Ölməz könül, ölməz əsər,
Nizamilər, Füzulilər!
Əlin qələm, sinən dəftər;
De gəlsin hər nəyin vardır,
Deyilən söz yadigardır.

Bir dön bizim Bakıya bax,
Sahilləri çıraq-çıraq!
Buruqları hayqıraraq
Nərə salır boz çöllərə,
İşıqlanır hər dağ, dərə.

Nazlandıqca sərin külək
Sahillərə sinə gərək.
Bizim Bakı – bizim ürək!
İşıqdadır qüvvət sözü,
Səhərlərin ülkər gözü.

- Şeirdə ölkəmizin hansı bölgələri xatırladılır? Bununla şair oxucunun diqqətini nəyə cəlb etmək istəyir?
- Əsərdə dahi şairlərimiz – Nizami, Füzuli nə məqsədlə xatırladılır?
- Vətənimizin paytaxtı – Bakı şeirdə necə təsvir edilib? Şəhəri seyr edən müəllifdə hansı hisslər yaranır?

SÖZLƏR TANIŞDIRMI?

- aran
- yaylaq
- Xan
- şikəstə
- hayqırmaq
- ülkər

## II ÖYRƏNDİKLƏRİNİZİ YOXLAYIN

**1. Fikirlərdən biri səhvdir:**
A) Bakı nefti hər tərəfi nura qərq edir.
B) Bakı Azərbaycanın döyünən ürəyidir.
C) Şair oxucunu Azərbaycan təbiətinin seyrinə çağırır.
D) Hikmətli sözlər, əsl sənət əsərləri əbədi yaşayacaqdır.
E) Ölkəmizi şöhrətləndirən onun təbii sərvətləridir.

**2. Verilmiş bəndlərin hər ikisinə aid olan fikri müəyyən edin.**

Könlüm keçir Qarabağdan,
Gah bu dağdan, gah o dağdan.
Axşamüstü qoy uzaqdan
Havalansın Xanın səsi —
Qarabağın şikəstəsi.

Ölməz könül, ölməz əsər,
Nizamilər, Füzulilər!
Əlin qələm, sinən dəftər,
De gəlsin, hər nəyin vardır,
Deyilən söz yadigardır.

**Bəndlərin hər ikisinə aid olan fikir** A B C D E

A) Yurd həsrəti ifadə edilmişdir.
B) Təbiətin tərənnümünə də yer verilmişdir.
C) Böyük sənətkarların adları ehtiramla çəkilmiş, sənətə vurğunluq ifadə olunmuşdur.
D) Vətənin səfalı guşələrinin adı çəkilir.
E) Xalq musiqisinə məhəbbət ifadə olunmuşdur.

## III MÖHKƏMLƏNDİRMƏ • ZƏNGİNLƏŞDİRMƏ

1. Oxuduğunuz parçadakı mühüm mətləblər hansılardır? Nümunələr əsasında izah edin.
2. Əsərdə müəyyənləşdirdiyiniz bədii təsvir və ifadə vasitələrindən ikisini cümlələrdə işlədin.
3. Şeirdən iki bənd seçin. Sizə məlum olan və yeni tanış olduğunuz anlayışları (misra, bənd, qafiyə, rədif, ritmik fasilə, məntiqi fasilə, misradaxili bölgü) bu bəndlərin əsasında izah edin.
4. İşinizin nəticələrini müzakirə edin.

## IV NİTQİN, DÜŞÜNCƏNİN İNKİŞAFI

1. Mənasını yeni öyrəndiyiniz sözlərdən bir neçəsini cümlələrdə işlədin. Cümlələrdə şeirlə bağlı fikirlərinizi ifadə etməyə çalışın.
2. Oxunan cümlələrdən nümunələrə münasibət bildirin.

## V MÜZAKİRƏ

1. Şeir hansı mövzudadır.
2. Fikrinizi nümunələrlə əsaslandırmağa çalışın.

## VI XATIRLATMA • DƏRİNLƏŞDİRMƏ

Şeirdə ahəng yaradan vasitələrin bir çoxu ilə tanışsınız. Bilirsiniz ki, ahəngin yaranmasında *misranın* əhəmiyyətli rolu var.

Şeirdə bir sətir misra adlanır. Bir neçə misranın məna-məzmunca səsləşməsi *bənd* təşkil edir.

Misraların sonunda səslərin oxşarlığı əsasında işlədilən söz və ya söz birləşmələri isə *qafiyə* hesab olunur.

Şeirdə misra, yaxud bəndlərin sonunda təkrar olunan söz və söz birləşmələrinin *rədif* adlandırıldığını da bilirsiniz. Bütün bunlar şeirdə ahəngin yaranmasında iştirak edən vasitələrdir. Lakin ahəngi təmin edən digər vasitələr də var. Məsələn, fasilənin müxtəlif növləri (ritmik, məntiqi) ahəngin yaranmasına əhəmiyyətli təsir edir.

*Ritmik* fasilə şeirdə misraların sonunda edilir.

*Məntiqi* fasilə isə məzmun və qrammatik baxımdan bitkin olan nitq parçalarının arasında edilən fasilədir. Məsələn, şeirdə misradaxili bölgüdə məntiqi fasilənin edilməsi vacibdir.

*Misradaxili* bölgü heca vəznli şeirlərdə hecaların sayına görə müəyyənləşdirilir. Məsələn, on bir hecalı şeirlərdə misradaxili bölgü, əsasən, 6-5, yaxud 4-4-3 şəklində olur.

## III DƏRS I ARAŞDIRMA • TƏHLİL

**1. Əsərin mövzusu ilə bağlı fikrinizi dəqiqləşdirin. Tövsiyələri nəzərə alın:**
- şeirin hər bəndində ifadə olunmuş fikirlərin arasındakı əlaqələri müəyyənləşdirin;
- bu fikirlərin hamısına aid olan mətləbi müəyyən etməyə çalışın.

**2. Şeirin müəllifi haqqında sizdə hansı təsəvvür yarandı? Tövsiyələrə də diqqət yetirməklə onun haqqındakı düşüncələrinizi ifadə edin:**
- müəllifin doğma yurduna, onun təbiətinə, insanlarına münasibəti;
- vətənin keçmişi, taleyi barədə müəllifin düşüncələri.

**3. Şeirdə işlənmiş təsvir və ifadə vasitələrinin bədiiliyin artmasına verdiyi töhfəni izah edin.**

| Bədii təsvir və ifadə vasitələrinin işləndiyi misralar | Bədiiliyin artmasına təsiri |
|---|---|
| | |

**4. Şeirdə ifadə olunmuş əsas ideyanı şərh edin. Aşağıdakı fikirlərlə tanış olun. Seçdiyinizi, yaxud öz variantınızı əsaslandırmağa çalışın. Müəyyən etdiyiniz mətləbləri nəzərə alın.**

**Əsərin əsas ideyası üçün fikirlərdən hansı daha uğurludur?**

1. Keşməkeşli tarixi olan vətənimiz qüdrətli ölkəyə çevrilmişdir.
2. Yaradıcı insanları, təbii gözəlliyi və sərvəti ilə tanınan vətənimiz bizim üçün hər şeydən əzizdir.
3. Nəsillərin yadigarı olan doğma yurdu sevmək, onunla fəxr etmək hər bir vətəndaşın borcudur.

Nə üçün belə düşünürsünüz?

Sizin variantınız

## II İFADƏLİ OXUYA HAZIRLAŞIN

**1. Şeirin ilk üç bəndini səhifənin sağ tərəfində ağ yer saxlamaqla yazın. Şərti işarələri mətn üzərində aşağıdakı ardıcıllıqla qeyd edin:**
- fasilə işarəsi (misra daxilində və misra sonunda);
- məntiqi vurğulu sözlərin fərqləndirilməsi işarəsi;
- səsin keyfiyyətini (ucalıq, temp) göstərən işarələr;
- oxuda qarşınızda duran vəzifəni yığcam cümlə şəklində mətnin sağ tərəfində yazın;
- oxuda səsinizin aldığı çalarları vəzifənizi ifadə edən cümlənin altında ardıcıllıqla yazın;
- ayrı-ayrı danışıq səslərinin müxtəlif məqamlarda tələffüzü üzərində düşünün.

**2. Aşağıdakı nümunəyə diqqət edin.**
**3. İfaları dinləyib müzakirə edin.**

Ölməz könül, | ölməz əsər,|
Nizamilər, | Füzulilər!|
Əlin qələm, | sinən dəftər;|
De gəlsin hər | nəyin vardır,|
Deyilən söz | yadigardır.||

İFAÇILIQ VƏZİFƏSİ

şairin sənətə verdiyi yüksək qiymət barədə təsəvvür yaratmaq

- təntənəli
- fərəhlə
- inandırıcı

## Növbəti dərsə qədər

Asudə vaxtınızda dərsliyinizdən M.İbrahimovun "Azad" hekayəsini oxuyun. Dərinləşdirilmiş oxu əsərdə əks olunan mətləbləri əhatəli başa düşməyinizə təsir edəcəkdir.



## Mirzə İbrahimov
## (1911-1993)

Onun qələmi həmişə cilalı və parlaqdır. Həyatımızın elə sahəsi yoxdur ki, qələmi ora nüfuz etməsin. Kənd, şəhər, müharibə, sülh və s. mövzularda yazdığı əsərlərlə yazıçı öz oxucularının dərin rəğbətini qazanmışdır.

Mir Cəlal

# AZAD

(ixtisarla)

**Yadasalma** • Cənubi Azərbaycanda ən böyük milli azadlıq hərəkatının nə vaxt baş verdiyini bilirsinizmi? Bu hərəkatın nəticəsi necə olub?

I DƏRS | I OXU • ANLAMA

**1. Mətni oxuyun.**

**2. İlkin təəssüratınızı bölüşərkən aşağıdakı sualları nəzərə alın.**

– Əsərdə diqqətinizi daha çox çəkən nə oldu? Nə üçün?

– Azad obrazı haqqında ilkin təəssüratınızı necə izah edərsiniz?

– Fərda obrazı barədə sizdə hansı təsəvvür yarandı?

– Səlimə xanımın övladına münasibətində sizin üçün yeni, fərqli olan nədir?

**3. İkinci sütundakı suallara cavab hazırlayın. Dərinləşdirilmiş oxu məqsədilə mətnə yenidən nəzər salın.**

Azad mənim uşaqlıq və gənclik yoldaşım idi... Bir həyətdə doğulmuş, bir həyətdə böyüyüb məktəbə getmişdik... Gəncliyimizin də böyük bir qismini bir yerdə keçirmişdik. Biz bir evin uşağı kimi tərbiyə almış və bir-birimizə doğma qardaşdan artıq ünsiyyət bağlamışdıq...

İkimiz də bir-birimizin xasiyyətini çox gözəl bilirdik. Onun sakit və lal-dinməzliyi mənim nəzərimdə təbii idi...

Yoldaşlar arasında çox vaxt onu adı ilə çağırmazdılar. “Sükuti” deyib durardılar... Hətta sonradan tanış olanlar adının Azad olduğunu da bilməzdilər. “Sükuti gəldi”, “Sükuti getdi” deyərdilər.

• Təsvir olunan hadisələr harada baş verib? Fikrinizi nümunələrlə izah edin.

Bəzən mənə elə gələrdi ki, onun üzündəki bulud keçirdiyi ağır günlərin qubarıdır. Axı o, dünyaya gəldiyi gündən xoş bir gün görməmişdi... Aclıq, ehtiyac, soyuq otaq, torpaq döşəməyə salınmış yırtıq həsir – gözünü açdığı gündən gördüyü bu idi. Azad doğulmamışdan iki ay əvvəl atası ölmüşdü... Anası Səlimə xanım evdə tək qalmışdı... Kişinin ölümündən sonra arvad qapılara düşüb iş axtarmağa məcbur olmuşdu. Birinin ev-eşiyini təmizlər, birinin paltarını yuyar, birinə yun çırpardı... Bu qayda ilə bir qarnı ac, bir qarnı tox o, Azadı böyütmüşdü...

Dünyada yeganə ümidi və həyatının məqsədi o idi... Ondan əziz, ondan mehriban bir kimsəsi yox idi. Səlimə xanım Azadı yalnız bir oğul kimi yox, həm də dünyada bir pənah, bir qohum, bir ata, bir qardaş kimi istəyirdi.

Yaxşı yadımdadır... Beş-altı yaşımız olanda hər axşam Səlimə xanım yatmamışdan qabaq bizə nağıl danışardı... Onun nağıllarına qulaq asa-asa bizi yuxu aparardı...

İki il o mənimlə bir məktəbə getdi... Orada da o heç kəsə qoşulmaz, tənəffüslərdə bütün uşaqlar bir-biri ilə oynadığı halda, o, bir küncdə durub baxardı. Müəllim ona bir sual verərsə, qıpqırmızı olardı. Lap yaxşı bildiyi bir şeyi belə söyləyə bilməzdi.

Doqquz yaşı olanda anası onu oxuda bilməyib məktəbdən aldı. Qonşuların köməyi və yalvar-yaxarla Təbrizin Liləvan məhəlləsindəki kiçik bir dükanda dərzi şagirdliyinə düzəltdi.

İllər gəlib keçdi, mən orta məktəbi qurtardım, o, dərzi dükanında qaldı. Onun dərzi şagirdi olması, təbiidir ki, bizim əlaqəmizi kəsmədi. Əksinə, böyüdükcə bizim ünsiyyətimiz daha da artdı. Həyat bizi daha da yaxınlaşdırdı. Həyatın hadisələri məni haldan çıxardığı bir zamanda o bu hadisələrə qarşı sakit, laqeyd görünərdi. Heç bir ehtiyac, heç bir dərd onun adi halını pozmazdı.

Acıqlı olduğum günlərdən birisi yadıma düşür. Kirayə pulunu gecikdirdiyimiz üçün ərbab bizi evdən qovmaqla təhdid etmişdi. Pul yox idi. Qazanmağa da iş tapılmırdı. Küçələri boş-boş gəzib yorulduqdan sonra Azadın yanına getdim.

– Azad, − dedim, – dərd ürəyimi dağıdır. Ağlamaq istəyirəm. Gözlərimdən yaş gəlmir. Bu nə güzəran, bu nə dirilikdir? Azad! İşləməyə yer yox, danişgahda oxumağa imkan yox, oğurluqmu edim, qardaş? Əlim sağ, qolum sağ, özümdə dağ gücü hiss edirəm, mən nələr edə bilmərəm? Əlimdən nə gəlməz? Nəyə gücüm çatmaz? Vallah, od dəryasını yar keç desələr, keçərəm. Bəs indi də işləməyəndə mən nə zaman işləyəcəyəm?

O nə isə tikirdi. Mən sözə başlayarkən əl saxlayıb ani olaraq üzümə baxdı, yenə iynəsini götürərək öz işi ilə məşğul oldu.

Söz bura çatanda o, iynəsini yerə qoyub sakit nəzərlərini mənə çevirdi...

- Hadisələrin nə vaxt baş verdiyi barədə nə deyə bilərsiniz?
- Fərdanın öz dostu Azad haqqındakı düşüncələrində diqqətinizi çəkən nə oldu?
- Fərda Səlimə xanımın oğluna münasibətində qeyri-adi nə görür?
- Azadın uğursuz taleyi sizdə hansı hisslər yaratdı?



Mən xeyli danışdım, Azad heç dodaqlarını da tərpətmədi... Gözlərini bir nöqtəyə dikib durdu... Mən onun heç bir zaman, heç bir şey başa düşməyəcəyi bir aləmdən danışdığımı güman etdim. Mənə elə gəldi ki, o, ömründə bir dəfə də belə məsələlər haqqında düşünməyib. Hətta bu fikirlər ona təəccüblü görünür. Bəlkə, məndən acığı da gəlir. Məni naxoş və ya xudbin hesab edir. Papağımı götürüb dükandan çıxmaq istədim. O, yerindən tərpənmədi. Mən onun üzünə baxıb acıqlı-acıqlı dedim:

– Yazıq, min yazıq bizə baxıb "övladlarım var" deyən vətənə! Yazıq bu gül kimi Azərbaycan torpağına ki, üstündə biz gəzirik. Bizim həyatımız bir qara quruşa dəyməz!.. Çünki, bizcə, həyat yeməkdən, yatmaqdan, yenə yeməkdən və yatmaqdan ibarətdir... Biz ölüm qapımızı döyənə kimi belə yaşayacağıq...

Biz ölmək üçün yaşayırıq... Yaşamaq üçün ölən insanlardan xəbərsizik!.. Buna görə də cənazəmiz qəbrə çatmamış bizi unudacaqlar... Səni də, məni də, bizim tanış və dostlarımızı da... Yox, bəlkə, səni bir az yad edən tapıldı... Deyəcəklər ki, dərzi Azad yaxşı yamaq salardı... Allah rəhmət eləsin!

Özümü dükandan küçəyə atarkən onun səsini eşitdim:

– Fərda, Fərda!

Cavab verməyib çıxıb getdim. Bir müddət sonra bu hərəkətimin peşmançılığını çəkməyə başladım. "Mən bu yazığı niyə incitdim?.. Onun taqsırı nədir? Bir könülü ki tikə bilməyəcəksən, niyə yıxırsan?"

- Fərdanın həyatdan, taleyindən şikayətlənməsinə səbəb nə idi? Onun düşüncələrinə haqq qazandırırsınızmı? Nə üçün?
- Sizcə, Fərda "Biz ölmək üçün yaşayırıq... Yaşamaq üçün ölən insanlardan xəbərsizik!.." sözləri ilə nə demək istəyir?

– deyə düşündüm. Gün batıb qaş qaralana qədər küçələri dolandım. Şeylərimizi həyətə atılmış görəcəyim fikri ilə evə qayıtdım... Anam astanada oturub məni gözləyirdi.

– Nə var, hələ ərbabın adamı gəlməyib ki?..

– Gəlmişdi, oğul.

– Nə dedi?

– Nə deyəcək, pulunu alıb getdi.

– Pulu hardan tapdın, ana?

– Necə hardan tapdım, oğul! Azad gətirdi, dedi ki, sən vermisən.

Anamın qolundan tutub içəri apardım. Sonra Azadla görüşdükdə təşəkkür etdim. Keçən görüşdəki kobud rəftarım üçün üzr istədim. O heç bir söz demədi, gözlərini bir nöqtəyə dikib durdu.

Bir ay sonra mən anamı da kəndə getməyə razı saldım. Səlimə xanım və Azadla halallaşıb Təbrizdən ayrıldıq.

***

Tam beş il mən Azadı görmədim. Nə o, kəndə gəldi, nə də mən Təbrizə getdim. Buna baxmayaraq Təbrizə səfər edənlər vasitəsilə ondan xəbər tuturdum, özümdən də ona xəbər çatdırırdım. Bu beş ildə çox sular axmış, çox əhvalatlar baş vermişdi.

İkinci Dünya müharibəsi başlamış, Azərbaycanın istər şəhər, istərsə kəndlərində camaat hərəkətə gəlmişdi. İclaslardan, mitinqlərdən başqa, evlərdə də azadlıqdan, yaxşı yaşayışdan, elmdən, ana dilindən danışırdılar. Hadisələr çox şiddətlə inkişaf edirdi... Bir neçə ay sonra biz kənddə mitinq keçirdib Azərbaycan xalq konqresinə nümayəndələr seçdik. Nümayəndələrin içində mən də var idim.

Biz Təbrizə gəldik. Mən Təbrizi nə qədər dəyişmiş gördüm... Küçələrdə qeyri-adi bir canlanma və hərəkət vardı. Ürəyim Azadı görmək həvəsi ilə döyünürdü. Elə birinci gün köhnə həyətimizə getdim, Səlimə xanımı gördüm. Alnımdan öpdü, anamı xəbər aldı, ağladı. Azadı soruşdum.

– Təbrizdə yoxdur, – dedi, – Zəncana gedib, demokrat düzəltməyə göndəriblər... Axı indi o da demokratdır. Deyirlər ki, gərək Azərbaycana azadlıq alaq. Hamıya iş verək, hamının çörəyi olsun. Uşaqlar öz dilimizdə oxusunlar.

- Azad və Fərdanın qoşulduqları hərəkatın məqsədi nə idi?

SÖZLƏR TANIŞDIRMI?

- sükuti
- pənah
- ərbab
- təhdid
- xudbin

## II ÖYRƏNDİKLƏRİNİZİ YOXLAYIN

**1. Fikirlərdən biri səhvdir.**

A) Fərda Azadın qəlbinə dəydiyini düşünür və peşman olur.
B) Azad soyuqqanlı və laqeyd insandır.
C) Səlimə xanım Azadı çətinliklə böyütmüşdür.
D) Cənubi Azərbaycanın hər yerində milli oyanış baş vermişdi.
E) Fərda Azadın onu narahat edən yüksək amallar barədə düşünmədiyini güman edir.

**2. Boş xanalarda uyğun fikirləri yazın.**

| Səbəb | Nəticə |
|---|---|
| 1. Azad orta məktəbi başa vura bilmədi, anası onu məktəbdən çıxardı. | |
| 2. | Fərda Azada kinayə dolu acıqlı sözlər deyir. |
| 3. Şəhər və kəndlərdə camaat hərəkətə gəlmişdi, hər kəs azadlıqdan danışırdı. | |
| 4. | Azad Zəncana getmişdi. |

## III MÖHKƏMLƏNDİRMƏ • ZƏNGİNLƏŞDİRMƏ

**1. Mövzulardan birini seçib yazılı qeyd əsasında şifahi təqdimata hazırlaşın.**

a) Fərda və Azadın taleyi barədə düşüncələrim.
b) Fərdanın nitqi, hiss-həyəcanları onu bizə necə tanıdır.

**2. Təqdimatların müzakirəsində fəal iştirak edin.**

## IV YARADICI İŞ

**1. Sadə süjetli, kiçik həcmli hekayə yazmağa hazırlaşın. Kiçik qruplarda birləşərək aşağıdakı işləri ardıcıllıqla yerinə yetirməyə çalışın:**

– hekayənin mövzusunu müəyyənləşdirin (bunun üçün oxucuların diqqətini hansı mühüm həyati məsələyə yönəltmək istədiyinizi aydınlaşdırın);
– əsas süjet xətti barədə fikir mübadiləsi aparın (təsvir olunacaq əhvalat və hadisələr barədə ilkin qənaətlərinizi bölüşün);
– düşündüyünüz ideyanın konfliktin yaranmasına səbəb olub-olmayacağını müəyyən edin;
– hekayənin necə bitəcəyi ilə bağlı düşüncələrinizi müzakirə edin.

**2. Qrup sözçülərinin təqdimatlarını dinləyib münasibət bildirin.**

**3. Bəyəndiyiniz təqdimat əsasında sonrakı fəaliyyətinizi planlaşdırıb işinizi davam etdirin.**

### Növbəti dərsə qədər

Asudə vaxtınızda əsərin davamını oxuyun. Ehtiyac duysanız, dərinləşdirilmiş oxu məqsədilə mətni yenidən nəzərdən keçirin.

II DƏRS I OXU • ANLAMA

**1. Mətni oxuyun.**

**2. Təəssüratınızı bölüşərkən aşağıdakı sualları nəzərə alın.**

– Sizə daha güclü təsir edən epizod hansı oldu? Nə üçün?

– Ana obrazları haqqında sizdə hansı təəssürat yarandı?

– Azad və Fərda obrazları haqqında təsəvvürünüzə yeni nə əlavə olundu?

**3. İkinci sütundakı suallara cavab hazırlayın. Ehtiyac duysanız, mətni bir daha diqqətlə oxuyun.**

*Əsərin davamı*

Xalq konqresi qurtaran kimi mən kəndə qayıtdım. Bir müddət sonra təşkilatın işlərini təhvil verdim. Anamı götürüb Təbrizə köçdüm. Yenə də köhnə evimizi kirayə etdik. Anam başqa yerə getmək istəmədi – "Əvvəldən öyrəşmişəm, Səlimə xanım da ordadır", – dedi. Mən də razı oldum. Səlimə xanım bizim gəlişimizdən çox sevindi. "Azadın iyini sizdən alıram", – deyib ağladı. Anam ona təskinlik verdi:

– Nə olacaq, – dedi, – İnşallah, tezliklə Azad da qayıdar.

Təbrizə köçəndən sonra işdən başım açılmırdı. Gecələri də Mərkəzi Komitədə işləyirdik. Məclis və dövlət işini tərtibə salır, kəndlərdə demokrat təşkilatlarını möhkəm bir qayda və nizam üstündə qurmaq tədbirləri görürdük. O günlər bizdə təsvirəgəlməz ruh yüksəkliyi vardı. Elə bil ki qüvvəmiz də birə-min artmışdı. Yorulmaq bilmirdik. İşlərin bu şiddətli zamanında Zəncandan pis xəbərlər gəlirdi. Tehran mürtəceləri və rəsmi dövlət idarələri orada cürbəcür fəsadlar törədirdilər. Demokratları öldürür, ayaqlarını nallayır, alınlarına odlu dəmir basırdılar. Belə bir zamanda Mərkəzi Komitə bir neçə yoldaşımızı Zəncana göndərməyi qərara aldı. Göndərilənlərin içində mən də vardım.

Biz Zəncana çatanda şəhər demokratların əlində idi. Mürtəcelər cənub tərəfdəki kəndlərdə terror yaradır, Zəncana hücum etməyə hazırlaşırdılar. Onların bu fikrini pozmaq üçün Zəncanın demokrat hökuməti fədailərdən bir neçə dəstə cənuba göndərmişdi...

Azadın bu dəstələrdən birinə başçılıq etdiyini mən Zəncanda öyrəndim...

Həmin gecəni biz Zəncandan çıxdıq və atışmanın şiddətli zamanında gəlib Azadın dəstəsinə çatdıq... Azad fədailəri uzun müddət kəndin ətrafında açıqlıqda, soyuq havada saxlamağın çətinliyini görərək dörd tərəfdən kəndə hücuma keçmişdi... Bərk atışma gedirdi, fədailərdən bəziləri hətta kəndin içinə girmişdi. Bir neçə saat sonra qaş qaralanda şərq tərəfdən Azad özü qabaqda olmaqla fədailər kəndə doluşdular. Biz həmin vuruşmada Azadın yaralandığı xəbərini aldıq... Mən tez özümü

- Fərdanın Təbrizə qayıtmasına səbəb nə oldu?
- Fərdanın yorulmaq bilmədən çalışmasının səbəbini necə izah edərsiniz?
- Xalqın milli azadlıq hərəkatına kimlər və necə mane olurdular?
- Fərdanın Zəncana göndərilməsinə səbəb nə idi?
- Beş illik ayrılıqdan sonra dostların görüşü hansı şəraitdə baş verdi?

ona çatdırmağa çalışdım. Bu mənim beş illik ayrılıqdan sonra onunla ilk və son görüşüm oldu. Onu kənd evlərindən birində bir fərşin üstə uzatmışdılar. Çuxasını üstünə salmış, tüfəngini yanına qoymuşdular. Onun ətrafında halqa vurmuş fədailərdən kimisi oturmuş, kimisi əmrə müntəzir durmuşdu... Mən içəri girən kimi onun üzünə baxdım. Ağarmış halda gözlərini yummuş və səssizcə uzanmışdı. Mən yavaş addımlarla onun başı üstünə gəldim, diz çöküb əlini əlimə aldım, alnından öpdüm:

– Azad, sənə nə olub?

O, heyrət və təlaşla gözlərini açdı. Üzümə baxdı. Bütün siması qəribə bir təlaşla işıqlandı. Mehribanlıqla başını dizimin üstünə qoyub:

– Bu saat səni düşünürdüm, – dedi, – nə yaxşı gəldin. Yoxsa bu dünyadan ürəyi nisgilli gedəcəkdim...

– Nə danışırsan, Azad, qardaşım? – dedim. – Biz hələ təzəcə yaşamağa başlayırıq. Dünyadan getmək nədir, bu nə sözdür, sən ağlına gətirirsən? Sənə nə olub, harandan yaralanmısan?

O, əli ilə sağ çiyninin altını göstərdi. Güllə ciyərlərini də zədələmişdi. Mən ona təskinlik vermək istərkən o, sözümü kəsdi:

– Bunlara ehtiyac yoxdur, – dedi, – mən ölürəm... Artıq ayaqlarımın soyuduğunu hiss edirəm... Sözümü kəsmə, mənə yaxşı qulaq as, mən danışmaq istəyirəm... Yadındadırmı, Fərda, beş il əvvəl Təbrizdə, dərzi dükanında sən məndən: "Nə üçün yaşayırıq, həyatın mənası nədir?" – deyə soruşdun. Onda mən sənə cavab verməmiş, susmuşdum. Sən isə mənim bu cür şeyləri qanmadığımı güman edərək acıqlanıb getmişdin, yadındadırmı? Lakin o zaman mən də sənin kimi düşünürdüm. Mən düşünürdüm ki, həyatımızın mənası vətənimizin səadəti üçün çalışmaqdadır. Amma o zaman mən danışa bilməmişdim. Çünki danışmaqda bir məna da yox idi. İndi isə sənə deyirəm, qardaşım Fərda, sizə deyirəm, qardaşlarım (o, azca boylanıb fədailəri gözdən keçirdi), bəli, sizə deyirəm. Bizim hamımızın səadəti bax bu alçaq daxmaların, bu doğma yurdun, bu ana torpağın azadlığındadır. Yerə qoymayın o tüfəngləri ki, onları bu doğma torpaq sizə tapşırmışdır.

O, azca dayanıb udqundu, yenidən ahəstə-ahəstə davam etdi:

– Anam, yurdum, doğma Azərbaycan, məni bağışla!.. Sənə az fayda verdim, az yaşadım, tez öldüm! – deyib qalxdı, fərşin ucunu qaldıraraq torpağı öpdü.

– Öpünüz, səcdəyə qapılıb hamınız bu torpağı öpünüz! Bizim əzəli və əbədi beşiyimiz budur...

– Sakit ol, Azad, özünü üzmə, qardaşım! – dedim. Özüm də bilmədən gözümdən süzülən yaş dənələri onun alnına düşdü... O, kirpiklərini qaldırıb gözümə baxdı və ahəstə səslə dedi:

– Əziz qardaşlarım, mənim qəbrimi uca bir yerdə qazarsınız... Elə yerdə qazarsınız ki, oradan Azərbaycanın geniş çölləri, duru çayları, güllü çəmənləri və bağları görünsün.

- Ölüm ayağında olan Azadın Fərdanı görmək arzusu nə ilə bağlı idi?
- Azad Fərdaya və silahdaşlarına nəyi tövsiyə edir?

Həm də o yeri böyük bir yol kənarında seçərsiniz... Qoy gələcəyin azad nəsillərinin ayaq səsi qəbirdə də olsa, qulaqlarıma çatsın... Bəlkə, onlar da bizi rəhmətlə yad etdilər... Elədirmi, Fərda?

Mən artıq göz yaşımı saxlaya bilməyərək ağlaya-ağlaya:

– Yox, Azad, gələcək nəsillərin yaşaması üçün ölənlər əbədi həyat qazanırlar, – dedim...

Alnına xəfif bir tər gələndə o, gözlərini bir daha mənə tərəf çevirdi:

– Anamı öp, öldüyümü ona söyləmə, yazıqdır... – dedi və əbədi olaraq gözlərini yumdu.

Mən qeyri-ixtiyari ayağa durdum... Üzlərində sərt bir ifadə, gözləri qəzəblə yanan fədailərə baxdım:

– Qardaşlarım, gəlin silahlarımızı ürəyimizə basıb onun pak ruhu qarşısında and içək... And içək ki, ölüm bizi Azərbaycanın səadəti yolundan, böyük amalımız yolundan döndərə bilməz!..

Eşq olsun qəhrəmanlara! Xalqın yaralı qəlbini ancaq onlar sağalda bilər, ancaq onlar azadlıq bayrağını ucalara qaldıra bilərlər! Yaşasın azadlıq!

Fədailər bir səslə:

– Yaşasın azadlıq! – deyə qışqırdılar və tüfənglərini havaya qaldırdılar.

Biz onu öz vəsiyyətinə görə uca bir yerdə basdırdıq.

Oradan Azərbaycanın həm cənub, həm də şimal əraziləri aydınca görünürdü.

SÖZLƏR TANIŞDIRMI?

- konqres
- mərkəzi komitə
- mürtəce
- fədai
- fərş
- fəsad
- müntəzir
- nisgil
- səcdə
- əzəli
- əbədi
- pak
- amal

## II MÖHKƏMLƏNDİRMƏ • ZƏNGİNLƏŞDİRMƏ

1. Hekayədə mühüm hesab etdiyiniz mətləbləri qeyd edin.
2. Əsərdə müəyyənləşdirdiyiniz bədii təsvir və ifadə vasitələrindən ikisini cümlələrdə işlədin.
3. Nəticələri müzakirə edin.

## III MÜZAKİRƏ

1. “Hekayə hansı mövzuda yazılmışdır?” sualı üzrə müzakirəyə hazırlaşın.
2. Müzakirədə fəal iştirak edin.

## IV YARADICI İŞ

1. Kiçik qruplarda birləşərək üzərində işlədiyiniz hekayə ilə bağlı icra etdiklərinizi və sonrakı işinizin planını müzakirə edin.
2. Əsas və əlavə süjet xətləri, eləcə də obrazlar barədə düşüncələriniz sizi qane edirsə, hekayənin ilkin variantını yazmağa başlaya bilərsiniz.
3. İş üçün ayrılmış vaxt başa çatdıqda icra etdiklərinizlə bağlı fikir mübadiləsi aparın.

### Növbəti dərsə qədər

Asudə vaxtınızda hazırladığınız hekayənin üzərində işi davam etdirin.

## III DƏRS I ARAŞDIRMA • TƏHLİL

**1. Əsərin mövzusu ilə bağlı qənaətlərinizi dəqiqləşdirin. Tövsiyələrə diqqət edin:**
– hadisələrin harada baş verdiyini xatırlayın;
– Azad və Fərdanın mübarizəyə nə üçün qoşulduqlarını yada salın.

**2. Azad obrazını necə səciyyələndirərsiniz? Tövsiyələri nəzərə alın:**
– taleyi, davranışı barədə bildiklərinizi yada salın;
– hiss, həyəcan və düşüncələri barədə öyrəndiklərinizi xatırlayın;
– ölüm ayağında danışdıqlarına, vəsiyyətinə münasibətinizi dəqiqləşdirin.

**3. Fərda obrazı üçün səciyyəvi olan cəhətlər hansılardır? Tövsiyələri nəzərə almaqla fikrinizi nümunələrlə şərh edin:**
– Azad və onun ailəsi haqqında xatirələri, düşüncələri;
– yaşadığı həyat və öz taleyi barədə düşüncələri;
– fərqli vəziyyətlərdə nitqi və davranışı.

**4. Azad və Fərda obrazlarının oxşar və fərqli xüsusiyyətlərini müəyyənləşdirməyə çalışın. Cədvəldən istifadə edin, ona əlavələr edə bilərsiniz.**

| Hansı cəhətlərə görə müqayisə olunurlar | | | | | | | | |
|---|---|---|---|---|---|---|---|---|
| Obrazlar | Xarakterlərindəki başlıca cəhətlər | | Həyata baxışları | | Davranışları | | Nitqləri | |
| | oxşarlıq | fərq | oxşarlıq | fərq | oxşarlıq | fərq | oxşarlıq | fərq |
| Azad | | | | | | | | |
| Fərda | | | | | | | | |

**5. Hekayədə işlənmiş təsvir və ifadə vasitələrindən bir neçəsinin bədiiliyin artmasına verdiyi töhfəni izah edin.**

| Təsvir və ifadə vasitələrinin işləndiyi misralar | Bədiiliyin artmasına onların təsiri |
|---|---|
| | |

**6. Əsərdə süjetin mərhələləri üçün səciyyəvi olan cəhətləri cədvəldə qısaca qeyd edin.**

| Bədii müqəddimə | Düyün | Zirvə | Düyünün açılması | Final |
|---|---|---|---|---|
| | | | | |

**7. Hekayənin əsas ideyasını şərh etməyə çalışın. Sxemdəki fikirlərlə tanış olun. Seçdiyinizi, yaxud öz variantınızı nümunələrlə əsaslandırın. Müəyyənləşdirdiyiniz mətləbləri nəzərə alın.**

**Əsərin ideyası hansıdır?**

1. Firavan həyata, dolanışığa nail olunması
2. Ana dilində oxuyub-yazmaq hüququnun əldə edilməsi
3. Milli azadlığa nail olunması

Nə üçün belə düşünürsünüz?

Sizin variantınız

II YARADICI İŞ

1. Üzərində işlədiyiniz hekayə ilə bağlı ehtiyac duyduğunuz məsələlər üzrə fikir mübadiləsi aparın.
2. Hekayənin yazılması ilə bağlı işinizi davam etdirin.

**Növbəti dərsə qədər**

Asudə vaxtınızda dərsliyinizdən A.Bakıxanovun “Qurd və İlbiz” əsərini oxuyun.



Rahil Məmməd
(1951)

Onun şeirlərində oxucuları ilk ovsunlayan səmimilikdir. Daha sonra dilin şirinliyi və axıcı olması onları razı salır. Amma bu da son deyil; şeirlərində fikir yeniliyi, hiss və düşüncə dərinliyi diqqəti dərhal çəkir...

Elçin Hüseynbəyli

# QƏLƏBƏ MÜJDƏSİ

(ixtisarla)

**Yadasalma** • Qarabağ müharibəsinə həsr olunmuş hansı əsərləri xatırlayırsınız? Qələbənin sizdə yaratdığı hiss və düşüncələri necə ifadə edərsiniz?

I DƏRS I OXU • ANLAMA

**1. Mətni oxuyun.**

**2. Təəssüratınızı bölüşərkən aşağıdakı suallardan yararlanın.**

– Şeirin oxusu maraqlı oldumu? Nə üçün?

– Şairin hiss və düşüncələri barədə sizdə hansı təəssürat yarandı?

– Şeirdə sizi daha çox təsirləndirən məqamlar hansılar oldu?

**3. İkinci sütundakı suallara cavab hazırlayın. Dərinləşdirilmiş oxu məqsədilə mətnə yenidən nəzər salın.**

Gül, ey Azərbaycan, gözlərin aydın,
Əzildi zəhərli ilanın başı!
Analar, bacılar, ağı deməyin,
İndi qismətimiz sevinc göz yaşı!

Ey Şuşam, bir daha gözlərin aydın,
Sənə sahib çıxdı mərd oğulların.
Adını tarixə yazdı hünərlə
Dosta dost, düşmənə sərt oğulların!

- Şeirdə müəllifin hiss-həyəcanını duya bildinizmi? Bu barədəki fikrinizi nümunələrlə izah edin.
- Əsər müraciət şəklində yazılıb. Müraciət olunanları müəyyənləşdirib ardıcıl olaraq qeyd edin. Onları birləşdirən cəhətləri necə izah edərsiniz?

Gözəl Qarabağım, eynin açılsın,
Sən artıq deyilsən düşmən tapdağı.
İndi al qoynuna zirvələrində
Ulduzlu, hilallı üçrəng bayrağı!

Haçandır qoynundan uzaq düşmüşdük,
Səninlə həsrətin otuzdur yaşı.
Hüsnünü görməyən fidan oğullar
Yazdı tariximə zəfər savaşı.

Sən də dön, yurdundan ayrı düşənim –
Məhəbbət çiçəyim, xarıbülbülüm!
Hələ yaraları təzə olsa da,
Bir ağız oxusun barı bülbülüm!

Ali Baş Komandan, sən də var ol ki,
Qələbə sevinci yaşatdın bizə!
Hünər tariximə yazdın adını,
Sanki işıq verdin gözlərimizə!

Ruhunuz şad olsun, şəhid oğullar,
Dəniztək çağladı Vətən sevginiz!
Ölümün gözünə dik baxa-baxa
Şəhidlik zirvəsi fəth etdiniz siz!

Ey müzəffər ordum, eşq olsun sənə,
Sən öz savaşınla tarix yaratdın!
Verib dostlar ilə çiyin-çiyinə
Qələbə eşqiylə murada çatdın.

- "Gözəl Qarabağım, eynin açılsın" misrasında ifadə olunmuş fikri necə başa düşdünüz?
- "Hüsnünü görməyən fidan oğullar Yazdı tariximə zəfər savaşı" misralarında ifadə olunmuş fikri necə izah edərsiniz?
- Şeirdə Ali Baş Komandan necə xatırlanır?
- Torpaqlarımızın azad edilməsi uğrunda canlarından keçən gənclərimiz şeirdə necə yad edilmişdir?
- Son iki misrada ifadə olunmuş fikri necə izah edərsiniz?

**SÖZLƏR TANIŞDIRMI?**

- eynin açılsın
- hilal
- hüsn
- fidan
- zəfər
- fəth
- müzəffər
- murad

## II ÖYRƏNDİKLƏRİNİZİ YOXLAYIN

**1. Fikirlərdən biri səhvdir.**

A) Şeirdə "Artıq kədərlənmək yox, sevinmək vaxtıdır" fikri vurğulanır.
B) Sevinc, fərəh hissi ilə Qarabağa, Şuşaya müraciət edilir.
C) Müharibə dövründə bizə dəstək olanlar xatırladılmır.
D) İgid oğullar vətən uğrunda döyüşmüş və şəhid olmuşlar.
E) Müzəffər ordumuza böyük ehtiram, sevgi ifadə olunur.

**2. Boş xanaları uyğun fikirlərlə tamamlayın.**

| Səbəb | Nəticə |
|---|---|
| 1. | Ey Şuşam, bir daha gözlərin aydın. |
| 2. Dəniztək çağladı vətən sevginiz! | |
| 3. | Ali Baş Komandan, sən də var ol ki... |
| 4. Əzildi zəhərli ilanın başı! | |

## III MÖHKƏMLƏNDİRMƏ • ZƏNGİNLƏŞDİRMƏ

1. Şeirdə hansı mətləblər ifadə olunmuşdur? Əlaqələrini izah edin.
2. Şeirdə işlənmiş bədii təsvir və ifadə vasitələrini müəyyənləşdirin.
3. Daha maraqlı hesab etdiklərinizi cümlələrdə işlədin.
4. İşinizin nəticəsini müzakirə edin.

## IV MÜZAKİRƏ

**1. Aşağıdakı mövzularda müzakirəyə hazırlaşın.**

a) Şeir hansı mövzuda yazılmışdır.

b) Şeirin vəzn xüsusiyyətləri.

**2. Müzakirədə fəal iştirak edin.**

### Növbəti dərsə qədər

Asudə vaxtınızda Qarabağ müharibəsində Milli Qəhrəman adını almış döyüşçülərimiz haqqında müxtəlif mənbələrdən məlumat toplayın.

II DƏRS **I** ARAŞDIRMA • TƏHLİL

**1. Şeirin mövzusu ilə bağlı qənaətlərinizi dəqiqləşdirin. Tövsiyələrə diqqət edin:**
– şeirin bütün bəndlərinin məzmununu yada salın;
– bəndlərdə ifadə olunmuş fikirlərin arasındakı oxşarlığı xatırlayın;
– şeirin bütövlükdə məzmununu əhatə edən əsas fikri müəyyən edin.

**2. Əsərin müəllifi barədə sizdə hansı təəssürat yarandı? Fikrinizi nümunələrlə əsaslandırın. Tövsiyələrdən faydalanın:**
– doğma yurduna, onun insanlarına münasibəti;
– işğalçılara münasibəti;
– qazanılmış qələbənin onda yaratdığı hiss-həyəcan və düşüncələr.

**3. Şeiri qələbəyə həsr olunmuş digər bir əsərlə müqayisə edin (dərsliyinizdəki layihələr üzrə əsərlərdən, yaxud müstəqil oxuduqlarınızdan seçə bilərsiniz). Onların oxşar və fərqli cəhətlərini müəyyənləşdirməyə çalışın.**

| **Hansı cəhətlərinə görə müqayisə olunurlar?** | **Əsərlərin adı** | |
|---|---|---|
| | "QƏLƏBƏ MÜJDƏSİ" | |
| | | |

**4. Daha maraqlı hesab etdiyiniz təsvir və ifadə vasitələrinin bədiiliyin və fikrin təsir gücünün artmasındakı rolunu nümunələrlə əsaslandırın.**

| **Təsvir və ifadə vasitələrinin işləndiyi misralar** | **Bədiiliyin və fikrin təsir gücünün artmasında rolu** |
|---|---|
| | |

**5. Şeirin əsas ideyasını şərh edin. Fikirlərlə tanış olun. Seçdiyinizi, yaxud öz variantınızı əsaslandırmağa çalışın. Əsərdəki mühüm mətləbləri nəzərə alın.**

**Fikirlərdən hansı əsərin ideyası üçün daha uyğundur?**

1. Vətənin bütövlüyü, toxunulmazlığı bütün istəklərdən yüksəkdir.
2. Vətənin işğaldan qorunması vətəndaşların müqəddəs borcudur.
3. Ölkəmizdə sevinclə qarşılanan qələbə ümumxalq bayramına çevrildi.

Nə üçün belə düşünürsünüz?

Sizin variantınız

**II** MÜZAKİRƏ

**"Vətən müharibəsi qəhrəmanları" mövzusunda müzakirəyə hazırlaşın.**

a) Müxtəlif mənbələrdən topladığınız məlumatlardan istifadə edin.
b) Müzakirədə fəal iştirak edin.

## III DƏRS I TƏTBİQ • MÜZAKİRƏ • YARADICI İŞ

**1. Mövzulardan birini seçib işləyin. Tövsiyələrdən (səh. 152) faydalanın.**

a) "R.Məmmədin "Qələbə müjdəsi" şeirində zəfər sevincinin ifadəsi" mövzusunda esse.

b) "Qarabağ – şeir, sənət ocağım" mövzusunda esse.

**2. "Meyar cədvəli"nə əsasən yazınızı dəyərləndirməyə çalışın.**

**3. Təqdimatlar əsasında yazı işlərindən nümunələri müzakirə edin.**

## II İFADƏLİ OXUYA HAZIRLAŞIN

**I. Şeirin ilk iki bəndinin oxusuna hazırlıq. Aşağıdakı nümunəyə diqqət edin.**

1. İfaçılıq vəzifəsini müəyyənləşdirib mətnin kənarında (nümunədə olduğu kimi) yazın.
2. Hər bəndin oxusunda səsinizin aldığı çalarları (fərəh, sevinc, hüzn və s.) ifaçılıq vəzifəsinin altında qeyd edin.
3. Fasilələrin yerini, məntiqi vurğulu sözləri, səsin ucalığını, sürətini müəyyən edib şərti işarələrlə göstərin.
4. Tənəffüs məqamlarını (dərindən nəfəsalma: Dn, əlavə nəfəsalma: Ən) müəyyən edib nümunədə olduğu kimi qeyd edin.
5. Sait və samit səslərin müxtəlif məqamlarda tələffüzünə diqqət edin.

**(Dn)** Gözəl Qarabağım, **I (Ən)** eynin açılsın, **I**
**(Dn)** Sən artıq deyilsən **I (Ən)** düşmən tapdağı. **I**
**(Dn)** İndi al qoynuna **I (Ən)** zirvələrində **I**
**(Dn)** Ulduzlu, hilallı **I (Ən)** üçrəng bayrağı! **II**

İFAÇILIQ VƏZİFƏSİ

Sevinc, fərəh hissinin ifadə edilməsi

təntənəli

hərarətlə

**4. İfaları dinləyib münasibət bildirin.**

# TƏTBİQ • ÜMUMİLƏŞDİRMƏ



Ramiz Qusarçaylı
(1958)

O, Vətən duyğulu şairdir... Yurdu sevmək onun gözəlliklərindən vəcdə gəlmək, daşını, qayasını, çiçəyini sevməkdən başlayır... Vətən torpağını qarış-qarış gəzən, onun vurğunu olan sənətkar gördüyü gözəllikləri yüksək poetik dillə tərənnüm etməkdən usanmır...
Bizim içimizdəki yurd sevgisini Ramiz kimi şairlər daha da zənginləşdirir, zərifləşdirirlər...

Vaqif Yusifli

## YURD SEVGİSİ

**Yadasalma** • Doğma yurda aid müstəqil oxuduğunuz hansı əsərləri xatırlayırsınız? Onlarda diqqətinizi daha çox çəkən nə olub?

I OXU • ANLAMA

**1. Mətni oxuyun.**
**2. İlkin təəssüratınızı bölüşün.**
**3. Şeirin məzmununa aid ikidən az olmayaraq sual və onlara cavab yazın. Ehtiyac duysanız, dərinləşdirilmiş oxu məqsədilə mətni nəzərdən keçirin.**

Mənim doğma yurdum – Azərbaycanım,
Ruhunda qələbə, adında can var!
Hər zəfər tarixin hünər dastanı,
Hər hünər boyunda min qəhrəman var!

Parlar nur içində müzəffər Bakı,
Oxşayır könlünü nəğməli Xəzər.
Şanlı tarixi var Şirvanşahların,
Canlı əfsanədir İçərişəhər.

Naxçıvan – ölkəmin qədim diyarı,
Süzür Xan Arazı azman Əlincə.
Xan bağı xan yeri xan çinarların,
Cavad xan ruhunu yaşadır Gəncə.

Kəpəzin üzündə duman yaşmağı,
Məst olub Göygölün gözəlliyindən.
Lənkəran torpağı bir cənnət bağı,
Limonu sapsarı, sünbülü dən-dən.

Şuşa – Qarabağın sənət beşiyi,
Başlanır şəhərin yeni erası.
Coşur Xankəndidə Üzeyir bəyin
Dağları oynadan uvertürası.

Ağarır zirvədə Qoşqarın qarı,
Günəş də zər səpir ağ çalmasına.
Qızarıb allanır Göyçayın narı,
Rəng qatır Qubanın ağ almasına.

Nə gözəl hüsnü var dağın, aranın,
Nə gözəl hüsnü var Milin, Muğanın,
Nə gözəl hüsnü var ulu Şirvanın,
Heyranam hüsnünə Azərbaycanın.

## II ÖYRƏNDİKLƏRİNİZİ YOXLAYIN

1. Yazdığınız sualları və onların cavablarını müzakirə edin.
2. Çıxışlara münasibət bildirin.

## III MÖHKƏMLƏNDİRMƏ • ZƏNGİNLƏŞDİRMƏ

**1. Kiçik qruplarda iş.**

**I qrup:**
a) Şeirdə tanış olmayan sözlərin mənasının aydınlaşdırılması.
b) Birinci bənddə ifadə edilmiş fikirlərin müəyyən edilməsi, qısaca yazılması.

**II qrup:**
a) Şeirdə işlənmiş bədii təsvir və ifadə vasitələrinin və onların növlərinin müəyyənləşdirilməsi, qısaca qeyd edilməsi.
b) İkinci və üçüncü bəndlərdə ifadə edilmiş fikirlərin aydınlaşdırılması, qısaca yazılması.

**III qrup:**
a) Dördüncü və beşinci bəndlərdə ifadə edilmiş fikirlərin aydınlaşdırılması, qısaca yazılması.
b) İlk iki bənddə işlənmiş həmqafiyə sözlərin müəyyənləşdirilməsi, daha uğurlu hesab olunanların qeyd edilməsi.

**IV qrup:**
a) Altıncı bənddə ifadə edilmiş fikir və mənzərənin aydınlaşdırılması, qısaca təsvir edilməsi.
b) Üçüncü və dördüncü bəndlərdə həmqafiyə sözlərin müəyyənləşdirilməsi, daha uğurlu hesab olunanların qeyd edilməsi.

**V qrup:**
a) Yeddinci bənddə əksini tapmış fikirlərin aydınlaşdırılması, qısaca yazılması.
b) Beşinci, altıncı, yeddinci bəndlərdə işlənmiş həmqafiyə sözlərin və heca vəzninə məxsus digər cəhətlərin müəyyənləşdirilməsi, qısaca qeyd edilməsi.

**2. Yazılmış qeydlər əsasında təqdimatların hazırlanması.**

**3. Təqdimatların dinlənilməsi və onlara münasibət bildirilməsi.**

## IV MÜZAKİRƏ

**1. Müzakirədə aşağıdakı sualları əhatə etməyə çalışın.**

a) Şeir hansı mövzuda yazılıb?
b) Şeiri maraqlı edən cəhətlər hansılardır?
c) Əsərdə heca vəzninə məxsus hansı cəhətlər əksini tapıb?
d) Əsərin əsas ideyası nədir?
e) Əsərdən hansı nəticəni çıxarmaq olar?

**2. Əsəri Səməd Vurğunun "Azərbaycan" şeiri ilə müqayisə edin. Müqayisə üçün əsaslar müəyyənləşdirin. Cədvəldən istifadə edə bilərsiniz.**

**3. Cavabları müzakirə edin.**

| Müqayisə olunan əsərlər | Hansı əsaslara görə müqayisə olunurlar | | | | | | | |
|---|---|---|---|---|---|---|---|---|
| | | | | | | | | |
| | oxşarlıq | fərq | oxşarlıq | fərq | oxşarlıq | fərq | oxşarlıq | fərq |
| R. Qusarçaylı. "YURD SEVGİSİ" | | | | | | | | |
| S.Vurğun. "AZƏRBAYCAN" | | | | | | | | |

## V İFADƏLİ OXUYA HAZIRLAŞIN

**Şeirin ilk iki bəndinin oxusuna hazırlıq.**

– Əvvəlcə ifaçılıq vəzifəsini – dinləyicilərə çatdıracağınız fikri müəyyənləşdirin.
– Məntiqi fasilələrin yerini, məntiqi vurğulu sözləri, səsin ucalığını, sürətini və s. müəyyənləşdirib nümunədə olduğu kimi şərti işarələrlə göstərin.
– Misradaxili bölgüləri müəyyən edin, qafiyə və danışıq səslərinin tələffüzü üzərində düşünün.
– Hər bəndin oxusunda səsinizin aldığı çalarları qeyd edin.

Şuşa – Qarabağın | sənət beşiyi, |
Başlanır şəhərin | yeni erası. |
Coşur Xankəndidə | Üzeyir bəyin |
Dağları oynadan | uvertürası. ||

İFAÇILIQ VƏZİFƏSİ
Sevinc, fərəh hissinin ifadə edilməsi
təntənəli
hərarətlə

# 3 MƏNƏVİ DƏYƏRLƏR, YAŞAYAN HİKMƏTLƏR



Dövrünün hadisələri həkk olunmuş abidə-əsər. Bilgə xaqanın şərəfinə oğlu tərəfindən ucaldılmışdır.

Bədii ədəbiyyatın insan həyatında rolu, əhəmiyyəti haqqında az danışılmayıb. Doğrudan da, bədii ədəbiyyat insanın həm mənəvi aləmini, həm də düşüncəsini zənginləşdirən qüdrətli vasitədir. Amma o bununla da məhdudlaşmır.

İnsanın yaratdıqları nəsildən-nəslə ötürülür, yeni məzmun və forma qazanır, həyatın daha mənalı, rəngarəng olmasına səbəb olur. Deməli, keçmiş nəsillərin əldə etdikləri nə varsa, yeni nəsillər tərəfindən mənimsənilir və daha da inkişaf etdirilir. Bunun gerçəkləşməsində söz sənətinin əvəzsiz rolu vardır. Təsadüfi deyildir ki, bədii ədəbiyyat xalqın mənəvi sərvəti hesab olunur. Bu sərvətin dəyəri isə ölçüyəgəlməzdir. Bircə onu xatırlatmaq kifayət edər ki, söz sənəti xalqımızın mənəvi dəyərlərini yaşadan ən qiymətli mənbələrdən hesab olunur.

Bu bölmədəki əsərlərdə müxtəlif nəsillərin yaşatdığı dəyərlərlə, əldə etdikləri hikmətli nəticələrlə tanış olacaq, onlarla bağlı müzakirələr aparacaqsınız. Bu sizdə yeni və faydalı bacarıqların formalaşmasına imkan yaradacaqdır.



## Abbasqulu ağa Bakıxanov
## (1797-1847)

"Ey mənim əzizim! Sən insansan. İnsan dünyada hər şeydən üstün yaranmışdır. İnsanlar arasında kim çox bilikli və iş bilən olsa, həmişə hörmətli olar. Deməli, iş bilmək və yaxşılıq etmək qaydalarını o adamlardan öyrənmək lazımdır ki, onlar həyatda təcrübəli və qabiliyyətli olmuşlar. Belə adamların sözləri bizə nəsihətdir".

# ÜMİDİN BOŞA ÇIXMASI

(ixtisarla)

**Yadasalma** • Hikmətli fikirlərin ifadə olunduğu hansı əsərləri xatırlada bilərsiniz? Onlarda diqqətinizi daha çox çəkən nə olub?

I DƏRS | I OXU • ANLAMA

**1. Mətni oxuyun.**

**2. Təəssüratınızı bölüşərkən aşağıdakı suallara diqqət edin.**

– Əsərdə sizi daha çox maraqlandıran nə oldu? Nəyə görə?

– Bağban haqqında ilk təəssüratınız nə oldu?

– Saray məmurları barədə ilk təsəvvürünüz necə oldu?

**3. İkinci sütundakı suallara cavab hazırlayın. Dərinləşdirilmiş oxu məqsədilə mətni yenidən mütaliə edin.**

İş bilən, ağıllı, qoca bir dehqan
Bir gecə söylədi belə bir dastan:

Ki, Həsən adında bir kəndli vardı,
Bağbanlıq edərək rahat yaşardı.

Dünyanın qəmindən ürəyi azad,
Əkindən başqa şey eyləməzdi yad.

O, məhsul alardı cüzi, bir qədər,
Xərcinə çatardı güclə, birtəhər.

- Bağban Həsən həyatını necə qurmuşdu?
- O, taleyindən razı idimi? Nə üçün?

Xeyirxah bir qərib Həsəni gördü,
Ona çox qəribə bir toxum verdi.

Həsən əkdi onu, çəkdi çox zəhmət,
Yetişdi bir neçə alma, nəhayət.

Heç kəs belə alma görməmiş, yəqin,
Onda ətri vardı gözəl güllərin...

...Həsən çox dəyərli gördükdə barı
Bilmədi, nə etsin bu almaları.

Əqlinə gəlirdi onun min xəyal,
Gah dedi: "Ver, yesin qoy əhli-əyal".

Gah dedi: "Gəl göndər dosta ərməğan,
Qalsınlar belə bir almaya heyran".

Gah da pul qazanmaq gəldi niyyətə,
Dedi ki, sataram baha qiymətə.

Axırda o gəldi belə qərara:
"Layiqdir bu alma hökmdarlara".

Qəlbini bəzədi min rəngli xəyal,
Sudakı köpüktək coşdu ehtimal.

Zənn etdi sevinər buna hökmdar,
Eləyər ölkədə onu bəxtiyar.

Belə xoş ümidlə, yüksək xəyalla
Yönəldi şəhərə, gördü, cəlalla

Şah çıxır səfərə, tələsik Həsən
Şaha təqdim etdi almaları şən.

Şah fərman verdi o, sarayda qalsın,
Qayıdan zaman bir mükafat alsın.

Lakin xadimləri bədcinsdi tamam,
Həmişə avara, nəməkbəharam.

Nə xalq, nə də dövlət düşürdü yada,
Bir qızıl-gümüşdü məqsəd dünyada.

O uca qapıda çox alçaqdılar,
Xidmətdə daima zalim, cəfakar.

- Böyük zəhmətlə əldə etdiyi məhsul – alma onda hansı düşüncələr yaradır?
- Bağbanın uzun müddət qərara gələ bilməməsinə səbəb, sizcə, nədir?
- Onun, nəhayət, "Layiqdir bu alma hökmdarlara" fikrinə gəlməsinin səbəbini necə izah edərsiniz?
- Saray adamları haqqında qənaətiniz nə oldu?
- Hökmdarın bağbana münasibətində diqqətinizi daha çox çəkən nə oldu?
- Belə münasibəti gözləyirdinizmi? Nə üçün?

Belə alçaqların əlində ikən
Gör necə bəlaya rast gəldi Həsən.

Saxlayıb müxtəlif evlərdə miskin,
Evindən saldılar onu didərgin.

Yorulub belə bir işdən, nəhayət,
Zindana salaraq oldular rahət.

Həsən, o binəva, o yazıq Həsən,
Sonsuz əzab çəkdi qəlbində şivən.

Gün keçdi, ay keçdi, gəldi hökmdar,
Həsənin halından olub xəbərdar

Əmr etdi, hüzura gəlsin o bağban.
Təəssüf eyləyib bu işə sultan

Hökm etdi, açsınlar ta xəzinəni,
Salsınlar oraya təkcə Həsəni.

Könlü nə istəsə, götürsün dövlət,
Bəlkə, yaddan çıxa çəkdiyi zillət.

Girdi xəzinəyə tək-tənha Həsən,
Heyrətə düşdü o bu xəzinədən.

Bircə şey alsaydı, ömrünə bəsdi,
Lakin daş-qaşlardan tamahı kəsdi.

Götürdü iki şey ancaq oradan:
Biri balta idi, biri də Quran.

Bu xəbər çatdıqda şaha qaldı mat,
Çağırıb danladı, etdi iltifat.

Dedi: "Ey divanə, bu fürsət bir də
Əlinə düşərmi sənin ömürdə?

Sonralar bu işdən olsan peşiman,
Bir fayda gətirməz bu sənə, inan!

Fürsəti itirməz ağıllılar bil,
Qayıt xəzinəyə, gözlərini sil!

Qiymətdə ən böyük bir cəvahir al,
Gedib öz dərdinin əlacına qal!"

Şaha təzim edib söylədi Həsən:
"Bunlardan özgə şey istəmirəm mən.

Baltayla kəsərəm ağacı əvvəl,
Ki, odur gətirən başıma əngəl.

Deyərəm, and içsin nəslim Qurana,
Ümid bağlamasın heç bir sultana.

Nə arzu etmişdim, noldu nəhayət,
Qoy onlar halımdan alsınlar ibrət.

Kim razı qalmasa, öz xoş halından,
Varına qənaət etməyən insan

Tamahla, həsədlə yaşasa ancaq,
Şadlığı dəyişib əzab olacaq".

Ey Qüdsi, sən də gəl bundan ibrət al,
Bu sonsuz arzunu bir hüduda sal.

Gəl etmə bu mənsəb, cəlala nəzər,
Kim çatdı arzuya sonuna qədər?!

Belə tamahkarlıq nəyə gərəkdir?
Səadət əlinə düşməyəcəkdir.

Özünə nə lazım bu zülmü sitəm,
Çox pay istəyənə ruzi olar kəm...

...Üzünə, məcazi olan bu dastan,
Həqiqət qapısı açsın hər zaman.

Həsən bir ruh idi, ağac da xislət,
Qəribə bar verər üzə gülsə bəxt.

Sonra bu bar sənə məğrurluq verər,
Qəflət zindanına çəkib gətirər.

Yoxsulu sınayan xəznəni atsan,
Xislətin ağacı kəsilər asan.

Qurana and içsən, dilşad olarsan,
Qulluq həlqəsindən azad olarsan.

- Bağban xəzinədən balta və Quran götürməsinin səbəbini necə izah edir?
- "Həsən bir ruh idi, ağac da xislət, Qəribə bar verər üzə gülsə bəxt" misralarında ifadə edilmiş fikri necə izah edərsiniz?

SÖZLƏR TANIŞ-DIRMI?

- dehqan
- cüzi
- əql
- əhli-əyal
- ərməğan
- xadim (saray)
- bədcins
- nəməkbəhəram
- cəfakar
- miskin
- binəva
- sultan
- iltifat
- divanə
- cəvahir
- ibrət
- mənsəb
- cəlal
- sitəm
- ruzi
- məcazi
- ruh
- xislət
- dilşad

## II ÖYRƏNDİKLƏRİNİZİ YOXLAYIN

**1. Uyğun fikirləri seçməklə doğru cavabı müəyyən edin.**

| Doğrudur | Yanlışdır |
|---|---|
| 1. Bağban hakimlərdən xeyir ummağın mənasız olduğunu şaha bildirir. | 4. Hökmdar onun ədalətinə kölgə salan zülmkar xadimləri cəzalandırır. |
| 2. Qərib yolçu alma toxumunu bağbana verərkən ondan bələ gələcəyini bilirdi. | 5. Əsərin sonunda bağban şairə müraciət edərək onu başına gələn hadisədən ibrət almağa çağırır. |
| 3. Hökmdar ölkəsini ədalətlə idarə edən səxavətli insandır. | 6. Bağban başına gələn əhvalatdan nəticə çıxarmağı bacarır. |

A) 1, 4, 5 B) 1, 2, 3 C) 1, 4, 6 D) 3, 5, 6 E) 2, 4, 5

**2. Boş xanaları uyğun fikirlərlə tamamlayın.**

| Səbəb | Nəticə |
|---|---|
| 1. | Bağban ətirli almaları hökmdara ərməğan apardı. |
| 2. Şahın adamları paxıl və əzazil idilər. | |
| 3. | Kəndli şahın xəzinəsindən heç bir qiymətli daş, cəvahirat götürmədi. |

## III MÖHKƏMLƏNDİRMƏ • ZƏNGİNLƏŞDİRMƏ

1. Əsərdə ifadə olunmuş başlıca mətləbləri qısaca qeyd edin.
2. Əsərdə bədii təsvir və ifadə vasitələri işlənmişdirmi? Nümunələr göstərin.
3. İşinizin nəticəsini müzakirə edin.

## IV XATIRLATMA • DƏRİNLƏŞDİRMƏ

Bilirsiniz ki, hekayə kiçik həcmli nəsr əsəridir. Unutmayın ki, hekayə həm nəsr, həm də nəzm formasında olur. Nəsrlə yazılan hekayəyə *mənsur hekayə* də deyilir. *Mənzum hekayə* isə nəzmlə yazılır, şeir şəklində olur. Mənzum hekayələr də mövzuca zəngindir. Belə əsərlərin mərkəzində əsas qəhrəmanın həyatının bir səhnəsi, başına gələn mühüm bir hadisə yığcam şəkildə təsvir olunur. Bu əsərlərdə müəllif həmçinin bir və ya bir neçə adamla bağlı əhvalatı, bu əhvalatların qarşılıqlı əlaqələrini əks etdirir.

Mənzum hekayənin digər nəzm əsərləri, eləcə də lirik şeirlərlə oxşar və fərqli cəhətləri var. Həm mənzum hekayə, həm də şeir nəzm əsəri olduğu üçün onlarda müəyyən ölçülər gözlənilir, qafiyə sistemi olur. Lakin şeirdə sənətkarın hiss və duyğularına geniş yer verilirsə, mənzum hekayədə, artıq deyildiyi kimi, müəyyən hadisənin təsviri, eləcə də təhkiyə əhəmiyyətli yer tutur. Mənzum hekayədə təsvir olunanlardan ibrətli nəticənin çıxarılmasına önəm verilir.

## II DƏRS · I NİTQİN, DÜŞÜNCƏNİN İNKİŞAFI

**1. Mənasını yeni öyrəndiyiniz sözlərin əsərin məzmununun başa düşülməsinə təsirini nümunələr əsasında şərh edin.**

**2. Bağbanın xarakter və ya davranışına uyğun epitet işlətməklə bir cümlə yazın.**

**3. Hökmdarın xarakter və ya davranışına uyğun bənzətmə işlətməklə bir cümlə yazın.**

**4. Mövzulardan birini seçib şifahi təqdimata hazırlaşın.**

a) Əsərdə diqqətimi daha çox cəlb edənlər nə oldu. Sxemdən istifadə edin.

| Əsərdə diqqətimi daha çox cəlb edənlər | Bunun səbəbi |
|---|---|
| ↓ | ↓ |
| | |

b) Əsərdəki hadisələrin ardıcıllığını cədvəldə əks etdirin.

| | | | | |
|---|---|---|---|---|
| Bağban Həsənin həyatı, məşğuliyyəti | → | | → | |

**5. İşlərinizin nəticəsini müzakirə edin. Çıxışlara münasibət bildirin.**

## II MÜZAKİRƏ

**1. Aşağıdakı mövzular üzrə müzakirəyə hazırlaşın.**

a) Əsərin əsas mövzusu nədir.
b) Əsər nə üçün mənzum hekayə hesab edilir.
c) Mənzum hekayə mənə yeni nə öyrətdi.

**2. Müzakirədə daha çox dəlillərə əsaslanmağa çalışın.**

## III DƏRS · I ARAŞDIRMA • TƏHLİL

**1. Əsərin mövzusu ilə bağlı qənaətlərinizi dəqiqləşdirin. Tövsiyələrə diqqət edin:**

– əsərdəki hadisələri, onların arasındakı əlaqələri yada salın;
– bu hadisələrdən hansının daha önəmli olduğunu və nə ilə nəticələndiyini xatırlayın;
– əsərin sonunda müəllifin gəldiyi qənaəti bir daha nəzərdən keçirin.

**2. Bağban obrazını necə səciyyələndirərsiniz? Tövsiyələri nəzərə almaqla ona münasibətinizi əsaslandırın:**

– müxtəlif vəziyyətlərdə nitqi-danışığı;
– fərqli vəziyyətlərdə hiss və düşüncələri;
– fərqli məqamlarda davranışı.

**3. Hökmdar obrazının səciyyəvi xüsusiyyətləri hansılardır? Tövsiyələri nəzərə almaqla onun haqqındakı düşüncələrinizi izah edin:**

– bağbana münasibəti;

– saray adamlarına münasibəti;

– fərqli vəziyyətlərdə nitqi-danışığı.

**4. Müəllifin bağban obrazına münasibətini necə dəyərləndirərsiniz? Tövsiyələrə diqqət edin:**

– bağbanın həyatının müxtəlif dönəmlərində müəllifin onunla bağlı sözlərini yada salın;

– əsərin sonunda – nəticə hissəsində müəllifin bağbanı nə məqsədlə xatırladığına bir daha diqqət yetirin;

– əsərdəki təsvirlərdə bağban obrazı ilə bağlı işarələrə nəzər salın.

**5. Əsərdə saray xadimləri necə təqdim edilmişlər? Onları necə səciyyələndirərsiniz? Tövsiyələri nəzərə alın:**

– hökmdarın fərmanlarına necə əməl etdiklərini yada salın;

– xalqa və dövlət işlərinə münasibətlərini xatırlayın;

– onların həyatda əsas məqsədlərinin nə olduğu üzərində düşünün.

**6. Mənzum hekayə ilə mənsur hekayənin janr baxımından oxşar və fərqli cəhətlərini müəyyənləşdirin. Gəldiyiniz nəticələri Venn diaqramında qeyd edin.**



**7. Əsərdə ifadə olunmuş əsas fikri – ideyanı şərh edin. Cədvəldəki fikirlərlə tanış olun. Seçdiyinizi, yaxud öz variantınızı əsaslandırmağa çalışın. Əsərdəki mühüm mətləbləri və obrazların mövqeyini nəzərə alın.**

Əsərin əsas ideyası üçün fikirlərdən hansı daha uğurludur?

- Tamahkarlıq insanın başına bəla gətirər.
- Mənsəb, sərvət arxasınca qaçanlar rahatlıq tapmazlar.
- Var-dövlət əldə etmək niyyəti ilə mənsəb sahiblərinə yaxınlaşanlar malik olduqlarını da itirə bilərlər.

Nə üçün belə düşünürsünüz?

Sizin variantınız

## Növbəti dərsə qədər

Asudə vaxtınızda dərsliyinizdən M.Hüseynin “Kərəm əfsanəsi” əsərini oxuyun. Ondakı mühüm hadisələri və aralarındakı əlaqələri müəyyənləşdirməyə çalışın.



Mehdi Hüseyn
(1909-1965)

"Azərbaycan ədəbiyyatı böyük bir xalqa arxalanır. Biz elə yüksək, elə zərif və elə dərin əsərlər yaratmalıyıq ki, xalq bu ədəbiyyata arxalandığı zaman imtahanlardan müvəffəqiyyətlə çıxa bilsin. Ədəbiyyatı yaradanlar bu dövrün insanlarından öyrənməli, onların fikrinə, zövqünə istiqamət verməyi bacarmalıdırlar".

# KƏRƏM ƏFSANƏSİ

(ixtisarla)

**Yadasalma** • Müxtəlif səbəblərə görə qaçaq həyatı yaşayan insanlar haqqında eşitmisinizmi? Belə adamlar barədə yazılmış bədii əsərlərlə tanışsınızmı?

I DƏRS I OXU • ANLAMA

**1. Mətni oxuyun.**

**2. Təəssüratınızı bölüşərkən aşağıdakı sualları nəzərə alın.**

– Əsəri oxumaq maraqlı oldumu? Nə üçün?

– Kərəm haqqında ilk təəssüratınız necə oldu?

– Əsərdə sizə daha çox təsir edən və sizi heyrətləndirən nə oldu?

**3. İkinci sütundakı suallara cavab hazırlayın. Dərinləşdirilmiş oxu məqsədilə mətnə yenidən nəzər salın.**

Mən bu hekayədə məşhur bir igiddən danışacağam. Ağalığını qəbul etmədiyi xalqın böyük yazıçısı Maksim Qorki də onun mərdliyindən ilham almış, Qaf dağı kimi əyilməz, məğrur təbiətini tərənnüm eləmişdi. Bu igidi el arasında Qaçaq Kərəm adı ilə tanıyırdılar.

Kərəm öz dəstəsi ilə dağlarda, dərələrdə yuva salmışdı. Onun qan düşməni İsrafil ağa da özü kimi qüvvətli, cəsur bir adam idi. Yalnız bir fərqləri vardı: Kərəm çar divanından qaçaq düşmüşdü, İsrafil ağa isə çar himayəsində yaşayırdı. Rus kazaklarının bu yurdda at oynatmalarını Kərəmin ürəyi heç cür qəbul etmirdi.

- Təsvir olunan hadisələrin nə vaxt və harada baş verdiyi barədə düşündünüzmü?
- "Ağalığını qəbul etmədiyi xalqın" yazıçısı Qaçaq Kərəmi necə dəyərləndirmişdir?

“Evin sahibi həmin evin kişisi olar” – Kərəmin bu sözləri bütün mahala yayılmışdı. Rus naçalnik və pristavlarının, onların atlılarının özbaşınalığını, özlərini bu yurdda ağa kimi aparmalarını qəbul edə bilməyən onlarla igid Kərəmin dəstəsinə qoşulmuşdu. Bu dəstə ilə çar divanının silahlıları arasında vaxtaşırı şiddətli döyüşlər olurdu. Yaralanan dəstə üzvlərini kəndlilər öz evlərində gizlədir, onlara sağalana kimi qulluq edirdilər...

Günlərin birində, hələ obalar yaylaqda ikən Kərəm dəstəsini çəkib arvad-uşağını görməyə gəlmişdi. Dostları dərələrə dağılışıb paltarlarını çıxarmadan aynalı tüfənglərini yanlarına qoyub yatmışdılar. Kərəm özü isə alaçıqda yorğan-döşək saldırıb uzanmışdı. Ağır və məşəqqətli səfərlərin yorğunluğunu unutmaq istəyirdi. Ancaq onun gözlərinə yuxu getmirdi. Düşmənlərini unuda bilmirdi. O, tez-tez sağa-sola çevrilir, cəfakeş arvadının hənirtisini duyduqca onun da gün-güzəranının olmadığına təəssüflənirdi.

Kərəm gecədən xeyli keçmiş yerindən qalxıb alaçıqdan eşiyə çıxdı. Gəzindi. Ətrafı yoxladı. Bütün oba sanki bir əbədi yuxuya getmişdi. Adətən, sayıq yatan qapı itlərindən də səs-səmir gəlmirdi. Kərəm isə düşmənlərin hər dəqiqə qəfildən hücum edə biləcəyini düşünürdü. O, gəzinə-gəzinə obadan bir az kənarda hündür qayanın dalına girib keşik çəkən dostuna yanaşdı, qəsdən pıçıltı ilə soruşdu:

— Yatmısan ki, Mərdan?

Cavan qaçaq da yorğun idi, amma yatmamışdı:

— Xeyr, Kərəm dayı, — dedi. —Əgər yuxu məni üstələsə, barmağımı kəsib duz basaram.

— Duzun varmı?

— Var, Kərəm dayı, – deyə Mərdan çuxasının vəznəsini göstərdi.

Yaralı barmağa duz basmaq vəfalı dost nəzərində o qədər də böyük bir fədakarlıq deyildi.

Kərəm çəkməsinin uzun boğazından gümüş başlı çubuğunu çıxardı, tənbəki doldurdu. Çaxmaq daşı ilə qov yandırdı, tənbəkini tüstülətdi. Kərəm Mərdana bir söz demədən yenə gəzindi, yenə ətrafı dinlədi. Bu sakit, səssiz aləmdə hər şey rahat idi, yalnız Kərəmin ürəyi rahat ola bilmirdi. Oba üzərini çən bürümüşdü, axşamüstü mavi göyün boşluğunda gözəl bir gəlin ədası ilə süzən ay indi hardasa gizlənmişdi.

Kərəm çox gəzib-dolandı, tez-tez çəndən sıyrılıb çıxan, ay işığında ağ lent kimi uzanan yollara çox nəzər saldı, amma heç bir ins-cins gözünə dəymədi. Kərəm yenə də sakit ola bilmədi. Başında qara fikirlər dolanırdı. “Bu narahatlığa səbəb nədir?” – ürəyindən keçdi... Dazbaş rus pristavın son hədələrini xatırlayıb nifrətlə dişlərini sıxdı. “Görünür, İsrafil ağa da bizim gəlişimizdən xəbər

- Qaçaq Kərəmin düşmənləri kim idi?
- Onun qaçaq həyatı yaşamasının əsl səbəbi nə idi?
- Qaçaq Kərəmin "Evin sahibi həmin evin kişisi olar" sözlərinin mənasını necə başa düşdünüz?
- Onun dəstəsinin üzvləri kimlər idi?
- Çar hakimiyyətinin Qaçaq Kərəmə və onun dəstəsinə münasibəti necə idi?
- Kərəmə və onun silah yoldaşlarına yoxsul insanların münasibəti necə idi? Fikrinizi təsdiq edən nümunələr göstərin.
- Qaçaq həyatı haqqında ilkin təsəvvürünüz nə oldu?
- Obada gecələyən Kərəmin narahatlığına səbəb nə idi?
- Onun keçirdiyi hisslər, yadına düşən xatirələr sizdə hansı təəssürat yaratdı?

tutmayıb, yoxsa indiyəcən harda olsaydı, dəstəsini çəkib üstümüzə gələrdi", – deyə düşündü.

Qaranlıqdan arvadının səsini eşitdi:

— Kərəm, gözümün nuru, gəl uzan, mən qalxıb keşiyini çəkərəm! – vəfalı qadın köksünü ötürəndə kədər dolu bir ah çəkdi. O, yaşarmış gözlərini göyə dikib Allaha yalvardı: – Ey böyük Tanrı, mənim balalarıma rəhmin gəlsin!..

Kərəmin ürəyi poladdan möhkəm, ipəkdən yumşaq idi. Arvadının xeyir-duası onu da qəhərləndirdi:

– Qəm yemə, Gülsabah, – dedi, – yaman günün ömrü az olar...

Qadın dinmədi. Ərinin səsindəki qəm nidaları onun qüssəsini daha da artırdı. Kərəm uzandı. Tüfəngini yorğanının üstünə qoydu. Azca yatmaq və dünyanın dərdini-kədərini unutmaq istədi. Qayğısız uşaqlıq çağları, atasının pəhləvan görünüşü, simasından şəfqət, mehribanlıq yağan anası bir-bir xəyalından ötüb-keçdi. Heç vaxt unutmadığı səhnəni də xatırladı. Mahala təzəcə gəlmiş çar naçalnikinin yaşlı kəndliləri atın döşünə qatıb qırmancladığı səhnə xəyalındaca ilişib ləngidi... Elə hər şey onunla başlamışdı. Kərəmin ürəyi bunu götürməmiş, bir sıçrayışla naçalniki atdan yerə salmışdı. Ağır yumruq və təpik zərbələri zorba naçalniki pencər topuna döndərmişdi. Kazaklar özlərinə gələnə kimi Kərəm naçalnikin atını minib aradan çıxmışdı...

Gecə o qədər uzun, saatlar, dəqiqələr o qədər ağırdı ki...

Nəhayət, Kərəmin gözləri qapandı. Şirin yuxu o mərd, o qüdrətli igidi də məğlub elədi...

...Kərəm nə qədər yatdığını bilmədi. O yalnız hava işıqlanmağa başlayarkən oyandı. İndi artıq qorxu azalmışdı. Düşmənlər gündüz hücum fikrinə düşə bilməzdilər. Kərəm yerindən qalxaraq alaçığı tərk etdi. Obanın şimalında, dünən keşikçinin dayandığı qaya dibində pıq-pıqla qaynayan Muncuqlu bulağa tərəf getdi. Hələ gənc yaşlarından sevdiyi bu gur çeşmə ən əziz xatirələrlə bağlı idi. Dupduru su şüşə kimi parıldayırdı. Kərəm tüfəngini qayaya söykədi, patrondaşını açıb daşın üstünə qoydu, çuxasının ətəklərini qatlayıb kəmərinə keçirdi, qollarını çırmadı. Buz kimi soyuq suda doyunca əl-üzünü yudu. Əgər bu dəmdə güzgüyə baxsaydı, geniş alnındakı xəncər yerinin qaraşın saqqalına, uzunsov, qırxıq başına, qalın burma bığlarına, nə isə daxili bir kədərlə yanan iri, tünd-qara gözlərinə necə yaraşdığını duymamış olmazdı. At belinə qalxanda saçaqlı papağı və qara yapıncısı onu nəhəng bir qartala oxşadırdı. Amma indi, bulaq başında yuyunan vaxt Kərəmi sadə və sıravi kənd dəliqanlısından fərqləndirmək çətin idi. O, yaylıqla əlini-üzünü silib daş üstündə oturdu, istər-istəməz dərin düşüncələrə daldı. Özünün, ailəsinin, dostlarının taleyini fikirləşirdi və namərd zəmanəyə lənət oxuyurdu.



Kərəm bilirdi ki, onu arvadından-uşağından, elindən-obasından didərgin salan da bu zəmanədir. Onu da bilirdi ki, rus ağalarının sözünü eşidən İsrafili öldürsə də, həyat onun üzünə gülməyəcək... Kərəm gənclik illərində indiki kimi qaraqabaq deyildi. O gülər, oynar, zarafatlaşardı. Qəhqəhə çəkəndə qənd kimi ağ dişləri görünər, dağda-dərədə əks-səda verən səsi köhlən atın kişnərtisini xatırladardı. "Yox, görünür, alnıma belə yazılıbmış, eldən-obadan uzaqda, qürbətdə ömrümü başa vurmaqdan qeyri çarəm yoxdur", — deyə düşünərək patrondaşını çiynindən aşırdı, tüfəngini də götürüb obaya qayıtdı.

Alaçığa girmək istəyəndə qapıdan azca sağda, çətənin dibində gözünə bir patron sataşdı. Kərəm duruxdu və dərhal qeyri-ixtiyari patrondaşını yoxladı: "Bu mənim deyil!" – deyə xəyalən yoldaşlarını danladı, böyük oğlunu yollayıb onların hamısını çağırtdırdı.

SÖZLƏR TANIŞDIRMI?

- kazak
- oba
- aynalı tüfəng
- cəfakeş
- vəznə
- qov
- qırmanc
- patrondaş
- çətə

## II ÖYRƏNDİKLƏRİNİZİ YOXLAYIN

**1. Yanlış fikirləri müəyyən edin.**

1. Kərəm kimi çar divanına boyun əyməyən insanlar çox deyildi.
2. Yerli əhali qaçaqları qoruyur, yeri gələndə köməyini əsirgəmirdi.
3. Kərəmin arvadını narahat edən yalnız övladlarının taleyidir.
4. Qapısının ağzında tapdığı patron Kərəmi çox narahat edir.
5. İsrafil ağa kimi cəsur, qüvvətli düşməni olduğu üçün Kərəm qüssəli və ümidsizdir.

A) 1, 2, 3  B) 2, 3, 5  C) 2, 4, 5  D) 3, 4, 5  E) 1, 3, 5

**2. Boş xanaları uyğun fikirlərlə tamamlayın.**

| Səbəb | Nəticə |
|---|---|
| 1. Kərəm rusların onun yurdunda ağalıq etmələrini qəbul edə bilmirdi. | |
| 2. | Kərəm rahat ola bilmir, ətrafı gəzib-yoxlayırdı. |

## III MÖHKƏMLƏNDİRMƏ • ZƏNGİNLƏŞDİRMƏ

1. Müəyyənləşdirdiyiniz bədii təsvir və ifadə vasitələrindən daha maraqlı hesab etdiklərinizi cümlələrdə işlədin.
2. İşinizin nəticəsini müzakirə edin.

## IV YARADICI İŞ

1. Üzərində işlədiyiniz hekayə ilə bağlı yazdıqlarınızı müzakirə edin.
2. Obrazların xarakter, davranış və əməllərini qabarıq əks etdirən səhnə, epizodlar üzərində düşünün.
3. Qənaətlərinizlə bağlı fikir mübadiləsi aparın.
4. Hekayənin yazılması üzrə yaradıcı işinizi davam etdirin.

### Növbəti dərsə qədər

Asudə vaxtınızda əsərin davamını oxuyun. Ehtiyac duysanız, dərinləşdirilmiş oxu məqsədilə mətni yenidən nəzərdən keçirin.

II DƏRS I OXU • ANLAMA

**1. Mətni oxuyun.**

**2. Təəssüratınızı bölüşərkən aşağıdakı sualları nəzərə alın.**
– Kərəm haqqında təəssüratınıza yeni nə əlavə olundu?
– İsrafil ağa barədə yeni nə təsəvvür qazandınız?
– Qaçaqların həyatı haqqında əlavə nə öyrəndiniz?

**3. İkinci sütundakı suallara cavab hazırlayın. Ehtiyac duysanız, mətni bir daha diqqətlə oxuyun.**

*Əsərin davamı*

Bütün dəstə yığışandan sonra əlindəki patronu yuxarı qaldırıb dostlarına göstərdi, töhmətli nəzərlərlə bir-bir onları süzərək hamı eşitsin deyə ucadan soruşdu:

– Bu kimindir?

Qaçaqlar tez-tələsik patrondaşlarını yoxladılar. Kərəm bir də soruşdu:

– Kimindir, hə?

Heç kəs patron itirməmişdi. Kərəmin rəngi kömür kimi qaraldı:

– Ay uşaqlar, – dedi, – bu gecə İsrafil ağa burdaymış... Məni vurmağa gəlibmiş... Ax, Mərdan, Mərdan... Bax yaxşı göz-qulaqda olmamısan!

Mərdanın rəng-ruhu qaçdı, bir an belə onun gözünə yuxu getməmişdi.

Kərəm dedi:

– Məni o çox asanlıqla vura bilərmiş, amma istəməyib... Bilirsinizmi, niyə?

Qaçaqların gözlərində sanki eyni sual yazıldı: "Niyə ki?"

Kərəm öz sualına cavab vermədi. Onu dinləyənlər içərisində arvad-uşaq da vardı. Kərəm əmr elədi:

– Gedin, atlanın! Dağlara çəkilək. İsrafil ağa da, kazaklar da hər dəqiqə başımızın üstünü ala bilər...

Yoxsa Kərəm qorxurdu? Əlbəttə, yox. O, bütün obanın güllləbaran olunmağını istəmirdi.

Qaçaqlar atlanıb yola düşdülər. Bir az gedəndən sonra, oba görünməz olanda Kərəm atının qantarğasını çəkdi, maralgözlü, ceyranyerişli kəhər aygır şahə qalxaraq yanakı dayandı, o biri atların yolunu kəsdi. Gözlər Kərəmə dikildi. Hamı diqqət kəsildi. Kərəm dedi:

– Ay uşaqlar!.. İsrafil ağa gecə ikən obaya gəlibmiş... Ancaq məni vurmayıb. Bilirsinizmi, nə səbəbə, hə? O mənim düşmənim də olsa,

- Tapdığı patron Kərəmi nə üçün həyəcanlandırır?
- Düşməni İsrafil ağanın hərəkətini o necə qiymətləndirir?

əsl igiddir... Məni arvadımın yanında gördüyü üçün fikrindən daşınıb... Bu patronu da o atıb... Demək istəyib ki, səni öldürə bilərdim, amma arvadına bağışlayıram. Mən ona borclu!..

Dəstə yoluna düzəldi. Uzaq dağlara istiqamət aldı...

Ay keçdi, il dolandı. Kərəm İsrafil ağaya rast gəlmədi, amma üç gündən bir – beş gündən bir kazaklarla qarşılaşma, amansız döyüşlər baş verirdi. Yaz günlərinin birində, obalar yaylağa köçməyə başlayanda, Kərəm öz dəstəsi ilə kəndə üz tutan zaman yolda qəfildən yenə çar kazakları ilə qarşılaşdı. Qanlı vuruşma oldu. Qaçaqlar yaxşı səngərlənə bilmədilər. Yoldaşlarından ikisi vuruldu. Kəndə girmək fikrindən əl çəkdilər, həlak olmuş yoldaşlarının meyitini götürüb yenə dağlara qalxdılar. Kərəmin də, dostlarının da göz yaşı sel kimi axdı. Bundan sonra qaçaqlara batmaq çətin idi. Onların üstünə bir alay qoşun da yerisəydi, Kərəmin halına təfavüt eləməzdi, çünki qaçaqlar kürəklərini sıldırımlı bir dağa söykəmişdilər, hücuma keçən düşməni bircə-bircə biçib-tökə bilərdilər. Amma Kərəm buralarda çox dayanmaq fikrində deyildi. Dəstənin azuqəsi qurtarmışdı. Ac-susuz qalmamaq üçün uzaq bir yerə çəkilib hökumət adamlarının nəzərindən yayınmalı idilər.

Kərəm Arazın o tayına keçdi. Bütün yayı Təbrizdə qaldı. Kərəmi çox yaxşı tanıyan təbrizlilər onu hər dəfə toy-bayramla qarşılayır, əllərindən gələni əsirgəmirdilər. Ailələrindən ayrı yaşamaq həm Kərəmin özü, həm də yoldaşları üçün çox çətin idi. Qaçaqlar sözü bir yerə qoydular, həmişəlik İranda qalmağı, bu məqsədlə şaha namə göndərməyi qərara aldılar. Lakin təbrizli qardaşları bunu məsləhət görmədilər. İran şahı ilə Rusiya çarını nəzərdə tutaraq:

– İt itin ayağını basmaz!.. – dedilər.

Bu sözlər Kərəmin beyninə batdı. O, yenə öz mahalına dönməli oldu.

Qaçaq həyatı artıq onu təngə gətirmişdi. Ancaq o nə edə bilərdi? Yadellilərə nifrəti üzə çıxmasına mane olurdu. Həm də üzə çıxıb hökumətə təslim olsaydı, ya dar ağacından asılacaq, ya da ən azı qarlı Sibirə ömürlük sürgünə göndəriləcəkdi. Kərəm bunu yaxşı bilirdi. Axı özü də, yoldaşları da yüzlərcə yasavul, kazak öldürmüş, zalım mülkədarların xanimanına od vurmuş, xalqı soyan tacirlərin mallarını əllərindən alıb əlsiz-ayaqsız insanlara kömək eləmişdilər. Kərəm bilirdi ki, çar məhkəməsi onları heç vaxt bağışlamayacaq, "ədalət naminə" zülmün, zorakılığın tərəfini saxlayacaq. Bəs Kərəm nə etməli idi? Bu sual onu bir gün yox, iki gün yox, aylarla, illərlə düşündürmüşdü.

Dəstə Arazın bəri tayına keçib yenə yaylaqlara üz tutdu. Kərəm bulud kimi tutulmuşdu, ömründə bu qədər qəmgin və ümidsiz olmamışdı. Obalar arana köçürdülər. Dağların döşü ilə uzanan dar, əyri-üyrü yolları qoyun sürüləri tutmuşdu. Hər tərəfdə hay-haray

- Çar kazakları ilə döyüşdə dəstənin itki verməsinə səbəb nə oldu?
- Təbrizlilərin Kərəmə və dəstəsinə münasibəti necə idi?
- Kərəm İran şahına məktub göndərməkdən nə üçün imtina etdi?
- Qaçaqçılıq həyatından bezən Kərəmin düşüncələrini necə dəyərləndirirsiniz?
- Kərəmin düşmənini salamat buraxmasının səbəbini necə izah edərsiniz?

qalxmışdı. Yanıqlı mahnı səsləri yamaclarda əks-səda verir, ürəkləri dağlayırdı. Kərəm də, yoldaşları da bədbin idilər.

Qürbət diyarlarda sərgərdan gəzməkdən artıq cana doymuşdular.

– Ən uzağı ölümdür!.. – deyə obalarına dönmək, heç olmasa, arvad-uşaqları ilə son dəfə görüşmək istəyirdilər.

Birdən Kərəmin gözləmədiyi bir hadisə baş verdi. Dağ yolunda qan düşməni İsrafil ağaya rast gəldi. İsrafil ağanın obası dolama yolla dağdan enirdi. Göy mahuddan vəznəli çuxa geymiş, ceyrandan iti, maraldan göyçək səkil atına minmiş İsrafil ağa çiynində aynalı tüfəng, özü kimi silahlı dostlarının əhatəsində köçün qabağınca gəlirdi. Kərəm onu lap uzaqdan tanıdı. Yoldaşlarına dönərək:

– Atdan düşün, daşa girin! – deyə ucadan səsləndi.

Qaçaqlar bir göz qırpımında onun əmrini yerinə yetirdilər, özləri də, atları da görünməz oldular. İsrafil ağa yaxınlaşırdı. O, at belində necə məğrur oturmuşdusa, Kərəmin ürəyində qibtə oyadacaq qədər qamətli və gözəl görünürdü. Kərəm intiqam saatının gəlib çatdığını düşündü, kinlə qarışıq bir sevinc duyaraq tüfənglərini hazır tutmuş dostlarına müraciət elədi:

– Uşaqlar, mən deməyincə atmazsınız, ha!



İsrafil ağa qaçaqların düz bərabərinə çatanda Kərəmin əlləri yanına düşdü:

– Atmayın, uşaqlar!.. – dedi, amma özü nə üçünsə tüfəngin çaxmağından barmağını çəkmədi.

İsrafil ağa nəyə isə gülürdü. Dostları da onun kimi şad və xürrəm idilər. Kərəm isə qəzəbindən titrəyir, belə bir fürsəti əldən verməyə məcbur olduğuna hirslənirdi.

– Eyy, İsrafil!.. – deyə qaçaq Kərəm boğuq və titrək bir nida ilə düşmənini səslədi. – Mənəm, borcumu verməyə gəlmişəm.

İsrafil ağa bir an, yalnız bircə an özünü itirən kimi oldu, ancaq tezcə də tüfənginə əl atdı. Lakin artıq gec idi. Tərkindəki oğlan uşağı onun hərəkətini ləngitmişdi.

– Mən borcumu ödədim!.. – deyə Kərəm bu dəfə artıq fərəhini boğa bilməyib dəli bir qəhqəhə çəkdi, sanki onun atsayağı kişnədiyi gənclik illəri geriyə qayıtdı, – mən də səni körpənə bağışladım!.. Sür atını, get. Lənət bu fani dünyaya! Lənət bu zəmanəyə!..

İsrafil ağa da əl saxladı. Yoldaşları da əl saxladılar. Hamısı Kərəmi tanımışdı. Üzünü görməsələr də, tanımışdılar. Bir də ki güllə atmağın heç bir faydası yox idi. Onsuz da hədəfi görmürdülər. Kərəm də, yoldaşları da qaya dalında möhkəm səngərlənmişdilər.

Köç uzaqlaşdı. Kərəm, deyəsən, dərd-qəmini unutmuşdu. O, qeyri-ixtiyari saçaqlı papağını gözünün üstünə endirdi, məlahətli və zil səsi ilə bir-iki ağız yanıqlı bayatı dedi...

- Düşməni İsrafil ağanı görən Kərəm hansı hisslər keçirir?
- Kərəmin İsrafil ağaya dediyi "Lənət bu fani dünyaya! Lənət bu zəmanəyə!.." sözlərinin mənasını necə başa düşdünüz?
- Sizcə, bu hadisədən sonra Kərəmin sevinc hissi keçirməsinə səbəb nə idi?

**SÖZLƏR TANIŞDIRMI?**

- qantarğa
- alay
- yasavul
- xaniman
- diyar
- sərgərdan

## II MÖHKƏMLƏNDİRMƏ • ZƏNGİNLƏŞDİRMƏ

1. Əsərdə hansı mətləbləri daha mühüm hesab etdiniz? Səbəbini izah edin.
2. Mətndə rast gəldiyiniz bədii təsvir və ifadə vasitələrinin növünü müəyyənləşdirin.
3. Daha maraqlı hesab etdiklərinizdən ikisini cümlələrdə işlədin.
4. Oxunan cümlələrdən nümunələrə münasibət bildirin.

## III MÜZAKİRƏ

1. "Hekayə hansı mövzuda yazılmışdır?" sualı üzrə müzakirəyə hazırlaşın.
2. "Hekayədə konflikt" mövzusunda müzakirəyə hazırlaşın.
3. Müzakirədə fəal iştirak edin.

## IV NİTQİN, DÜŞÜNCƏNİN İNKİŞAFI

1. Mənasını yeni aydınlaşdırdığınız sözlərin mətnin başa düşülməsində rolunu izah edin.
2. Əsərə çəkilmiş illüstrasiyalar təsəvvürünüzə uyğundurmu?
3. Mətnin məzmununu yığcam danışmağa hazırlaşın.
4. Çıxışlara münasibət bildirin.

### Növbəti dərsə qədər

Asudə vaxtınızda hekayədəki obrazlara müəllifin münasibətini müəyyənləşdirin, bunu təsdiq edən nümunələr seçin.

## III DƏRS I ARAŞDIRMA • TƏHLİL

**1. Əsərin mövzusu ilə bağlı qənaətlərinizi dəqiqləşdirin. Tövsiyələrə diqqət edin:**
– hadisələrin harada, nə vaxt baş verdiyini xatırlayın;
– Kərəmin qaçaqçılıq etməsinin səbəbini yada salın;
– əsərdəki mühüm hadisələrin səbəb və nəticələri üzərində düşünün.

**2. Kərəm obrazını səciyyələndirməyə çalışın. Tövsiyələri nəzərə alın:**
– onun müxtəlif vəziyyətlərdə keçirdiyi hiss-həyəcanları və düşüncələrini ardıcıllıqla yada salın;
– fərqli məqamlarda əməlləri, nitqi üçün səciyyəvi olan cəhətləri xatırlayın;
– müəllifin ona münasibəti üzərində düşünün.

**3. İsrafil ağa obrazı üçün səciyyəvi olan cəhətlər hansılardır? Tövsiyələri nəzərə almaqla fikrinizi nümunələrlə şərh edin:**
– rus hakim dairələri ilə əlaqəsi barədə bildiklərinizi xatırlayın;
– Kərəmə münasibətini, bununla bağlı əsərdəki işarələri yada salın;
– müxtəlif vəziyyətlərdəki davranış və əməlləri üzərində düşünün.

**4. Qaçaq Kərəm və İsrafil ağa obrazlarının oxşar və fərqli xüsusiyyətlərini müəyyənləşdirməyə çalışın. Cədvəldən istifadə edin, ona əlavələr edə bilərsiniz.**

| Hansı cəhətlərə görə müqayisə olunurlar | | | | | | | | |
|---|---|---|---|---|---|---|---|---|
| Obrazlar | Xarakterlərindəki başlıca cəhətlər | | Həyata baxışları | | Davranış və əməlləri | | Müəllifin onlara münasibəti | |
| | oxşarlıq | fərq | oxşarlıq | fərq | oxşarlıq | fərq | oxşarlıq | fərq |
| Qaçaq Kərəm | | | | | | | | |
| İsrafil ağa | | | | | | | | |

**5. Daha maraqlı hesab etdiyiniz təsvir və ifadə vasitələrinin bədiiliyin artmasına verdiyi töhfəni izah edin.**

| Təsvir və ifadə vasitələrinin işləndiyi cümlələr | Bədiiliyin artmasına onların təsiri |
|---|---|
| | |

**6. Hekayədə süjetin mərhələlərini və onlarda maraqlı hesab etdiklərinizi cədvəldə qısaca qeyd edin.**

| Süjetin mərhələləri | | | | |
|---|---|---|---|---|
| Bədii müqəddimə | Düyün | Zirvə | Düyünün açılması | Final |
| | | | | |

**7. Konfliktin yaranma səbəbini nəzərə almaqla hekayənin əsas ideyasını şərh etməyə çalışın. Sxemdəki fikirlərlə tanış olun. Seçdiyinizi, yaxud öz variantınızı nümunələrlə əsaslandırın. Əsərdəki mühüm mətləbləri nəzərə alın.**



## II İFADƏLİ OXUYA HAZIRLAŞIN

**I. Hekayədən seçilmiş parçanın ifadəli oxusuna hazırlaşın. Aşağıdakı tələbləri ardıcıl olaraq yerinə yetirin.**

1. Əsərdən parçanı bir daha oxuyun.
2. İfaçılıq vəzifəsini – dinləyicilərə nəyi çatdıracağınızı müəyyənləşdirib mətnin sağ kənarında yazın.
3. Cümlələrin oxusunda səsinizin aldığı çalarları (kədər, hüzn və s.) ifaçılıq vəzifəsinin altında qeyd edin.
4. Fasilələrin yerini, məntiqi vurğulu sözləri, səsin ucalığını, sürətini müəyyən edib şərti işarələrlə göstərin.
5. Tənəffüs məqamlarını (dərindən nəfəsalma: Dn, əlavə nəfəsalma: Ən) müəyyən edib mətnin üzərində qeyd edin.
6. Sait və samit səslərin müxtəlif məqamlarda tələffüzünə diqqət yetirin.

İfadəli oxunacaq parça

Dəstə Arazın bəri tayına keçib yenə yaylaqlara üz tutdu. Kərəm bulud kimi tutulmuşdu, ömründə bu qədər qəmgin və ümidsiz olmamışdı. Obalar arana köçürdülər. Dağların döşü ilə uzanan dar, əyri-üyrü yolları qoyun sürüləri tutmuşdu. Hər tərəfdə hay-haray qalxmışdı. Yanıqlı mahnı səsləri yamaclarda əks-səda verir, ürəkləri dağlayırdı. Kərəm də, yoldaşları da bədbin idilər. Qürbət diyarlarda sərgərdan gəzməkdən artıq cana doymuşdular.

İFAÇILIQ VƏZİFƏSİ

SƏSİN ALDIĞI ÇALARLAR

**II. İşinizin nəticəsini aşağıdakı qaydalara uyğun yoxlayın.**

1. İcra etdiklərinizi nəzərdən keçirib dəqiqləşdirmələr aparın.
2. Gəldiyiniz nəticələri cütlük şəklində, yaxud kiçik qruplarda müzakirə edin.
3. İfaları dinləyib münasibət bildirin.

### Növbəti dərsə qədər

Asudə vaxtınızda üzərində işlədiyiniz parçaya əsərdən əlavə edib ifadəli oxusuna hazırlaşın. Şərti işarələrdən istifadə etməyi unutmayın.



Rəsul Rza
(1910-1981)

Onun kitablarını birdəfəlik oxuyub kənara qoya bilmirsən. Dəfələrlə onlara qayıtmalı olursan və hər dəfə oxuyanda sənə elə gəlir ki, əsər daha dərinləşmiş, mükəmməl olmuşdur, elə bil şair onu yenidən yazmışdır. Hətta bəzən şairin əzbər bildiyin şeirini də sənə məlum olmayan sirli bir hisslə yenidən oxuyursan. Hər dəfə də sən yeni nə isə öyrənir, fərqli hisslər keçirirsən.

Əli Kərim

# AÇIN QAPILARI, İNSAN GƏLİR...

(ixtisarla)

**Yadasalma** • Sülhə, əmin-amanlığa həsr edilmiş hansı əsərlərlə tanışsınız? Belə əsərlərdə hansı fikirlərin ifadə olunmasını üstün sayırsınız?

I DƏRS I OXU • ANLAMA

**1. Mətni oxuyun.**

**2. Təəssüratınızı bölüşərkən aşağıdakı suallardan yararlanın.**

– Şeiri oxumaq maraqlı oldumu? Nə üçün?

– Şeirin sizdə yaratdığı ən güclü təəssürat nə oldu?

– Şeirdə sizə tanış olan hiss və düşüncə varmı?

**3. İkinci sütundakı suallara cavab hazırlayın. Dərinləşdirilmiş oxu məqsədilə mətnə yenidən nəzər salın.**

Nə əlimdə silah var,
Nə fikrimdə ölüm.
Mən insanam,
sinəmdə döyünür
sadə bir ürək.
Məhəbbətə açıqdır könlüm.
Mən insanam.
Xalqın sevincini, dərdini
bacardığım kimi yazanam...

- Şeirin ilk misralarında müəllif özünü necə təqdim edir? O, "silah", "ölüm" sözlərini nə məqsədlə işlətmişdir?
- Şair xalqa münasibətini necə ifadə etmişdir?

...Mən insanam.
Uşaq olmuşam.
Ağlamışam, gülmüşəm.
Arzularım olub.
Bəzən əyni yuxa gəzmişəm.
Qarnım yarı dolub.
Meyvə yemişəm tapanda,
daş qoyub atmışam
naxışlı sapanda...
...Sevmişəm şeiri!
Buğda çörəyi kimi.
Sevmişəm yaz yağışını,
qartal baxışını.
Çiçəkləri sevmişəm.
Atasının papağını qoymuş
uşaq kimi görünən
göbələkləri sevmişəm.
Fraklı dirijor – qaranquşları,
balerina leylələri sevmişəm.
Sevmişəm üstündə
böyüdüyüm torpağı.
Sevmişəm aylı axşamları,
yaz yağışını,
dağ qışını
və insan əli kimi
damar-damar hər yarpağı.
Mən insan kimi gəlmişəm
qapınıza;
nə silahım var, nə hiyləm,
mən fəlakət carçısı deyiləm.
Qəlbinizdə varsa kin, qəzəb,
çıxarın atın –
çürük bir diş kimi.
İnsan qardaşlığı,
İnsan ülfəti yaradın!
Qəlbinizdə məhəbbəti artırın,
Böyük olsun, qaynar olsun!
İnsan məhəbbətilə
Yer üzü bahar olsun!
Nifrətinizi də tullamayın –
Gərəksiz bir şey kimi.
Yox, yox!

- Müəllif uşaqlıq illərindəki çətinlikləri necə xatırladır?
- Şair şeirə, sənətə, təbiətə, doğma yurda münasibətini necə ifadə etmişdir?
- Pislik və bəd niyyətdən uzaq olan müəllif insanlara nəyi tövsiyə edir?
- O, insanları nə barədə xəbərdar edir? Onu haqlı saymaq olarmı?

Hələ səadətin yolu daşlı,
tikanlıdır.
Hələ zülm silahlı,
inam körpə,
güclülərin əli qanlıdır.
Dinlə məni!
Amerika, Avstraliya, Avropa,
Dinlə məni, Afrikam, Asiyam!
Mən arzu oğlu,
ümid oğlu,
qələbələr anası,
gələcəyin babasıyam.
Mən bu günün müjdəsini
Sabaha aparasıyam!..

- Şair insanı "arzu oğlu", "ümid oğlu" adlandırmaqla hansı fikri ifadə etmişdir?

SÖZLƏR TANIŞDIRMI?

- frak
- dirijor
- balerina
- ülfət

## II ÖYRƏNDİKLƏRİNİZİ YOXLAYIN

**1. Fikirlərdən biri səhvdir.**

A) Əsərin lirik qəhrəmanı gözəl arzularla yaşayan, xoşməramlı insandır.
B) Lirik qəhrəman təbiəti sevdiyi kimi, xalqa, insanlara da böyük məhəbbət bəsləyir.
C) Əsərdə şairi təəssüfləndirən məqamlardan da söz açılır.
D) Müəllif insanlara kindən, qəzəbdən uzaq olmağı tövsiyə edir.
E) Şeirdə gələcəyə inamsızlıq ifadə edilir.

**2. Boş xanaları uyğun fikirlərlə tamamlayın.**

| Səbəb | Nəticə |
|---|---|
| 1. | Şair insanlara "nifrəti qəlblərindən tullamamağı" da məsləhət görür. |
| 2. Müəllif "insan qardaşlığı", "insan ülfəti" yaradılmasını vacib sayır. | |

## III MÖHKƏMLƏNDİRMƏ • ZƏNGİNLƏŞDİRMƏ

1. Şeirdə mühüm hesab etdiyiniz mətləbləri qısaca qeyd edin.
2. Təqdimatlar etməklə fikrinizi əsaslandırın.

## IV MÜZAKİRƏ

1. Şeirin hansı mövzuda yazıldığını müzakirə yolu ilə müəyyənləşdirməyə çalışın.
2. Müzakirədə fəal iştirak edin.

## V XATIRLATMA • DƏRİNLƏŞDİRMƏ

Öyrəndiyiniz "Açın qapıları, insan gəlir..." *sərbəst şeir* şəklində yazılmışdır. Sərbəst şeir sizə tanış olan *heca* ölçüsündən (vəznindən) fərqlənir. Bu şeirlərdə misraların həcmi, daxili bölümü, qafiyələrin yerləşməsi sabit, dəyişməz qaydalara tabe deyildir. Əgər heca ölçüsündə yazılmış şeirlərin bütün misralarında hecaların sayının bərabərliyi gözlənilirsə, sərbəst şeirdə belə qayda yoxdur; bu qəbildən şeirlərin misralarında hecaların sayı müxtəlif ola bilər. Rəsul Rzanın "Mən torpağam" adlı şeirində oxuyuruq:

Mən insanam,
Vətənim var, elim var...

Birinci misrada dörd, ikincidə isə yeddi heca vardır.
Yaxud heca ölçüsündə yazılmış şeirlərdə misralar bəzən dalbadal, bəzən çarpaz qafiyələnməklə müəyyən bir qayda gözlənilirsə, sərbəst şeirdə bu, vacib deyildir; belə şeirlərdə qafiyə bir neçə misrada dalbadal da gələ bilər, bir neçə misradan sonra da.

Mən insanam, **ülfətsiz** –
ölərəm.
Məhəbbətsiz, **nifrətsiz** –
ölərəm.

Şair bu misralarda həmqafiyə sözləri ("ülfətsiz", "nifrətsiz") dalbadal işlətmişdir.

Mən ürəyəm, **döyünməsəm,**
ölərəm.
Mən insanam,
sadə insan əlinin
yaratdığı nemətlərlə **öyünməsəm,**
ölərəm.

Burada isə "döyünməsəm" sözü ilə həmqafiyə olan "öyünməsəm" sözü bir neçə misradan sonra işlənmişdir.
Qafiyələrin müxtəlif qaydalara uyğun işlənməsi, misraların bir və ya bir neçə sözdən ibarət olması, əlbəttə, təsadüfi deyildir. Bu, əsərdə ifadə olunan fikirdən, onun məzmunundan irəli gəlir. Əsərdə əksini tapan hiss-həyəcan, təsvir olunanlar müəllifi müəyyən tələbləri gözləməyə məcbur edir. Məsələn, misraların parçalanaraq pilləli olması, bircə sözün misra təşkil etməsi, qafiyələrin dalbadal gəlməsi müəyyən fikrin daha qabarıq çatdırılmasına imkan yaradır. Deməli, sərbəst şeirdə məzmun ahəngin yaranmasına əhəmiyyətli təsir edir. Belə şeirlərdə ahəngin yaranmasında məntiqi vurğulu sözlərin də böyük rolu var. Təsadüfi deyildir ki, sərbəst şeirlərdə məntiqi vurğulu sözlər sayca çox olur.

**II DƏRS** | **I ARAŞDIRMA • TƏHLİL**

**1. Şeirin mövzusu ilə bağlı qənaətlərinizi dəqiqləşdirin. Tövsiyələrə diqqət edin:**
– şeirdə ifadə olunmuş mətləbləri yada salın;
– şairdə kədər, fərəh və narahatlıq yaradan səbəbləri xatırlayın;
– şeirdə insana inam və ona verilən dəyər barədə düşünün.

**2. Şeirin müəllifi barədə sizdə hansı təsəvvür yarandı? Bunu nümunələr əsasında izah edin. Tövsiyələrdən faydalanın:**
– onun uşaqlıq illəri ilə bağlı xatirələrini yada salın;
– doğma yurduna, sənətə, təbiətə münasibətini xatırlayın;
– insan, həyat və dünya haqqında düşüncələrini xəyalınızda canlandırın.

**3. Əsərin sərbəst şeirin tələblərinə uyğun olduğunu nümunələrlə əsaslandırın. Tövsiyələri nəzərə alın:**
– misralarda hecaların sayına diqqət edin;
– həmqafiyə sözlərin necə işlənildiyini müəyyənləşdirin;
– misraların həcminə, məntiqi vurğulu sözlərə diqqət yetirin.

**4. Şeirin əsas ideyasını şərh edin. Fikirlərlə tanış olun. Seçdiyinizi, yaxud öz variantınızı əsaslandırmağa çalışın. Əsərdə müəyyən etdiyiniz mətləbləri nəzərə alın.**

Əsərin əsas ideyası hansıdır?

- Yer üzündə ən qiymətli varlıq insandır.
- Yer üzündə səadətə insan məhəbbəti, qardaşlığı və ülfəti ilə nail olmaq mümkündür.
- Nə qədər ki "zülm silahlı", "güclülərin əli qanlıdır", insan ehtiyatı əldən verməməlidir.

Nə üçün belə düşünürsünüz?

Sizin variantınız

**II YARADICI İŞ**

**1. Mövzulardan birini seçib yığcam esse yazın.**
a) "Açın qapıları, insan gəlir..." şeirində müəllifin narahatlığına əsas varmı?
b) "Yer üzündə həmişə bahar olması" üçün insanlar nə etməlidirlər.

**2. Tövsiyələrdən (səh. 152) faydalanın.**

**3. Özünüqiymətləndirmə meyarlarını (səh. 154-155) tətbiq edin.**



## Gi de Mopassan
## (1850-1893)

Əsərlərində ictimai bəlaları, yaşadığı cəmiyyətin eyiblərini kəskin tənqid edən Mopassan insan psixologiyasına yaxşı bələd idi. Yaratdığı obrazlar cəmiyyətin müxtəlif təbəqələrindən olub mənəvi aləmləri, hiss və düşüncələri ilə bir-birindən fərqlənirlər. O, insanın əzab və iztirablarına dözməyən sənətkar idi.

Əmirxan Xəlilov

# BALACA ÇƏLLƏK

(ixtisarla)

**Yadasalma** • Acgözlüyün, tamahkarlığın acı nəticələri barədə bədii əsərlər oxumusunuzmu? Belə əsərlərin qəhrəmanları haqqında nə düşünmüsünüz?

I DƏRS I OXU • ANLAMA

**1. Mətni oxuyun.**

**2. Təəssüratınızı bölüşərkən aşağıdakı suallara diqqət edin.**

– Əsərdə sizi heyrətləndirən, yaxud daha çox düşündürən məqamlar oldumu? Fikrinizi nümunələrlə izah edin.

– Şiko obrazı haqqında ilkin təəssüratınız nə oldu?

– Maqluar qarı haqqında sizdə hansı təsəvvür yarandı?

**3. İkinci sütundakı suallara cavab hazırlayın. Dərinləşdirilmiş oxu məqsədilə mətni yenidən mütaliə edin.**

Eprovil karvansarasının sahibi Şiko balaca faytonunu Maqluar qarının fermasının qarşısında saxladı. Şiko qırx yaşlarında, yekəqarın, qırmızısifət bir adam idi. Başı sanki çiyinlərinə bitişmişdi. Yeriyəndə qollarını kənara yelləyir, elə bil suda üzürdü. Üzü həmişə tüklü olurdu. Əzik kətan köynəyi onun pinti olduğundan xəbər verirdi. Bir az da kələkbaz idi. O, atı hasarın dirəyinə bağlayıb həyətə girdi. Qarının malikanəsi yerləşən torpaq onun mülkündən o yana başlanırdı. Torpaq sahəsi həm geniş, həm də münbit idi. Torpağa nə atsaydın,

- Şikonun xarici görkəmini necə təsəvvür etdiniz?
- Sizdə ona rəğbət yarandımı? Nə üçün?
- Maqluar qarının torpağı, mülkü barədə nə öyrəndiniz?

cücərərdi. Suyu da bol idi. Cərgə ilə əkilmiş ağaclar ona ayrıca gözəllik verirdi. Baharın əvvəlində bu yer başdan-başa yaşıl dona bürünərdi. Gözəl mənzərə, müxtəlif quşların şən nəğmələri yoldan keçənləri valeh edirdi. Şiko çoxdandı gözünü qarının torpağına dikmişdi. O, dəfələrlə bu torpağı almaq üçün söz açırdı, lakin hər dəfə də Maqluar qarı qəti etiraz edib deyirdi:

– Mən burada doğulmuşam, burada da öləcəyəm.

Şiko ağır addımlarla evə yaxınlaşanda qarını gördü, özünü itirən kimi oldu. Maqluar qarı qapının ağzında oturub kartof soyurdu. O, arıq, üz-gözü qırışmış, beli bükülmüş, yetmiş iki yaşında olsa da, cavan qız kimi qıvraq idi. Gözlərinin nuru sönməmişdi, qəribə parıltısı var idi. Şiko mehribanlıqla əlini qarının kürəyinə vurub onun yanında, kətilin üstündə əyləşdi.

– Hə, ana, kefiniz necədir, canınız sazdırmı?

– Pis deyil, kirvə, sən necəsən?

– Eh, bir az sümüklərim sızıldayır, qalan hər şey yaxşıdır.

– Çox gözəl!

Qarı daha dinmədi. Şiko da dinməzcə onun necə işləməsinə tamaşa edirdi. Qarı əyri, cadarlanmış, xərçəng qısqacları kimi quru barmaqları ilə kartofu səbətdən çıxarıb hərləyə-hərləyə o biri əlində tutduğu bıçaqla soyur, qabıq şərid kimi uzanıb axırda qırılırdı. Soyulmuş kartofları su dolu vedrəyə atırdı. Hərəkətlərində bir sərrastlıq var idi. Dövrəsində üç sırtıq toyuq fır-fır fırlanırdı. Onlar qarıya yaxınlaşır, kartof qabıqlarını qarının ətəyindən qapıb götürür, qaçırdılar. Şiko bir az narahat idi; o nə isə demək istəyirdi, çəkinirdi, tərəddüd edirdi. Nəhayət, ürəklənib dedi:

– Maqluar ana, deyin görək...

– Buyurun, mən sizi eşidirəm.

– Deməli, bu fermanı mənə satmaq istəmirsiniz?

– Yox, satmıram, gözünüzü çəkin. Demişəm satmıram, vəssalam. Daha bu barədə danışmayın.

– Bilirsinizmi, mən bir iş fikirləşmişəm, hər ikimizə sərfəlidir.

– O nə işdir?

– Bax məsələ belədir, siz fermanı mənə satırsınız, amma ferma yenə sizin olur. Başa düşmədiniz? Yaxşı, qulaq asın.

Qarı əlindəki işini yarımçıq qoydu, oynaq gözlərini qıyıb meyxana sahibinin üzünə zillədi. Şiko sözünə davam etdi:

– İndicə başa salaram. Deməli, mən sizə hər ay yüz əlli frank verirəm. Eşidirsinizmi: hər ay faytonuma minib bura gəlirəm, sizə yüz suluq otuz ekü verirəm. Vəssalam, başqa heç nə dəyişmir. Siz öz evinizdə qalırsınız, nə mənimlə işiniz olur, nə də mənə borclu olursunuz. Siz pulu məndən alırsınız, vəssalam. Necədir, xoşunuza gəlir?

O gülümsünə-gülümsünə qarıya baxırdı. Bütün bunları aydın deyə bildiyinə görə məmnun olduğunu gizlətmədi; qaşları bir az da yuxarıya dartıldı, ətli sifətinə şən ifadə yayıldı. Özündən razı halda ayaqlarını irəli uzadıb yerini rahatladı…

- Bu mülk insanları nə üçün cəlb edirdi?
- Mülklə bağlı Şikonun fikri nə idi?
- Qarı torpağı satmaqdan nə üçün imtina edirdi?
- Qarının xarici görünüşünü necə təsəvvür etdiniz? Onda diqqətinizi cəlb edən nə oldu?
- Maqluar qarını görən Şiko "özünü itirən kimi" olur. Sizcə, buna səbəb nədir?
- Qarı ilə söhbətə başlamaq Şikoya nə üçün çətin idi? Onun keçirdiyi hissləri izah edə bilərsinizmi?



Qarı burada nə isə bir hiylə olduğundan şübhələnərək onu başdan-ayağa süzdü, sonra soruşdu:

– Yaxşı, bu mənim xeyrim, bəs sizin xeyriniz nədir, fermadan siz nə götürürsünüz?

Şiko tələsik dedi:

– Bu barədə narahat olmayın. Allah sizə nə qədər ömür veribsə, o qədər də yaşayacaqsınız. Amma gərək notarius idarəsindən mənə bir kağız verəsiniz ki, sizdən sonra ferma mənə qalacaq. Sizin övladınız yoxdur. Bir-iki qohum-qardaşınız var, onlara da ürək qızdırmırsınız… Hə, necədir, ürəyinizə yatır? Nə qədər ömrünüz var, əmlakınız özünüzündür. Mən də sizə hər ay yüz suluq ekü verirəm. Məncə, sizin üçün sərfəlidir.

Qarı bayaqkı kimi çaşıb-qalmışdı, həm də narahat idi, başı dumanlanmış, fikirləri qarışmışdı, amma tamah ona üstün gəldi. Tərəddüdlə də olsa, dedi:

– Mən etiraz eləmirəm. Amma gərək bu barədə yaxşı-yaxşı fikirləşəm. Gələn həftə gəlin, bir də söhbət edərik. Sizə qəti cavab verərəm.

Şiko çıxıb getdi, özündən elə razı idi ki, elə bil dünyanın yarısını almışdı. Faytona qalxanda geriyə boylandı, qarının malikanəsinə, uzanıb gedən torpaq sahəsinə baxdı. Üzü sevincdən işıqlandı, çoxdan sürətlə döyünməyən ürəyində bir çırpıntı hiss etdi.

Maqluar qarını fikir götürdü, gecəni də yata bilmədi. Gündüzlər əli heç bir işə yatmırdı, qonşularla da bir kəlmə kəsmirdi. Dörd gün qızdırmalı adam kimi ağlına cürbəcür şübhəli fikirlər gəldi. O hiss edirdi ki, burada nə isə bir kələk var, amma hər ay alacağı otuz ekünü, havayı yerdən ətəyinə töküləcək sikkələrin cingiltisini eşidir, ağzı sulanırdı. Axırda qarı notarius idarəsinə gedib əhvalatı danışdı. Ona məsləhət verdilər ki, Şikonun təklifini qəbul etsin. Amma yüz suluq otuz ekünün əvəzinə, əlli ekü tələb etmək lazımdır, çünki fermanın dəyəri, ən azı, altmış min frankdır.

- Torpaqla bağlı Şikonun qarıya etdiyi təklif sizdə hansı təəssürat yaratdı? Sizcə, o, ümidini nəyə bağlamışdı?
- Maqluar qarı nə üçün Şikonun təklifini əvvəllər olduğu kimi dərhal rədd etmədi?
- Qarının təklifə şübhə ilə yanaşmasına səbəb nə idi?
- Şikodan möhlət istəyən qarı günlərini necə keçirdi?
- Maqluar qarı notarius idarəsində özünü necə aparır, ona nə məsləhət görürlər?

Notarius deyirdi:

– Əgər siz on beş il yaşasanız, o sizə cəmisi qırx beş min frank vermiş olacaq.

Hər ay yüz suluq əlli ekü ala biləcəyini eşidəndə qarı sevinirdi, amma ehtiyat da edirdi, qorxurdu ki, kələk işlədilmiş ola, gözlənilməz hadisə baş verə, ona görə də axşama qədər notarius idarəsində qalıb sorğu-sual elədi. Eyni sualı dönə-dönə təkrar edir, eyni cavabı həvəs və şübhə ilə dinləyirdi. Axırda göstəriş verdi ki, müqaviləni hazırlasınlar. Evə qayıdanda başı gicəllənirdi, elə bil dörd dolça təzə sidr içmişdi.

- Qarının son qərarı nə olur?

SÖZLƏR TANIŞDIRMI?
- kətan
- frank
- su
- ekü
- sidr

## II ÖYRƏNDİKLƏRİNİZİ YOXLAYIN

**1. Fikirlərdən biri səhvdir.**

Hekayədəki qarı obrazı:

A) İradəlidir, heç vaxt qərarından dönmür.
B) Pulgirdir, var-dövlət onun üçün şirindir.
C) Şikoya torpağı heç vaxt satmayacağını söyləyir.
D) Tədbirlidir, qərar vermək üçün tələsmir, götür-qoy edir.
E) İşin içində hiylə ola biləcəyini hiss edir.

**2. Səbəb-nəticə əlaqələrinin doğru variantlarını müəyyənləşdirin.**

| Səbəb | Nəticə |
|---|---|
| 1. Şiko Maqluar qarının yeganə uzaq qohumu idi.<br>2. Qarının torpaq sahəsi bərəkətli və mənzərəli idi. | Şiko qarının torpağına yiyələnmək istəyirdi. |
| Qarı qəti cavab vermək üçün möhlət istəyir. | 3. Şiko istəyinin baş tutacağına ümid edib sevinir.<br>4. Qarının sonda razılaşmayacağını düşünən Şiko həyəcanlanır. |

## III NİTQİN, DÜŞÜNCƏNİN İNKİŞAFI

1. Əsərdən seçdiyiniz parçanın məzmununu yaradıcı nağıl etməyə hazırlaşın.
2. İllüstrasiyalar əsəri başa düşməyinizə kömək etdimi?
3. Əsərdəki hansı epizoda illüstrasiya çəkərdiniz? O necə görünərdi?
4. Çıxışlara münasibət bildirin.

**Növbəti dərsə qədər**

Əsərin davamını oxuyun. Ondakı mühüm mətləbləri müəyyənləşdirməyə çalışın.

II DƏRS I OXU • ANLAMA

**1. Mətni oxuyun.**

**2. Təəssüratınızı bölüşərkən aşağıdakı suallardan faydalanın.**

– Əsərin davamını oxumaq maraqlı oldumu? Nə üçün?

– Obrazlarla bağlı təəssüratınıza yeni nə əlavə olundu?

– Əsərin belə bitəcəyini gözləyirdinizmi? Nəyə görə?

**3. İkinci sütundakı suallara cavab hazırlayın. Ehtiyac duysanız, dərinləşdirilmiş oxu məqsədilə mətnə yenidən nəzər salın.**

*Əsərin davamı*

Şiko cavab almaq üçün gələndə qarı onunla bir xeyli məzələndi, dedi ki, razı deyil, amma, əslində, qorxurdu ki, Şiko yüz suluq əlli ekü verməyə razı olmaya. Şiko çox yalvardıqdan sonra qarı öz şərtini dedi. Şiko bu gözlənilməz şərti eşidəndə hirsindən dik atıldı, sonra qəti etiraz elədi, rəngi qıpqırmızı oldu, gözləri sanki hədəqəsindən çıxacaqdı. Harada olduğunu unudub hirslə evin içində o baş-bu başa getməyə başladı. Qarı onu yumşaltmaq üçün ömrünün axırına lap az qalmasından danışmağa başladı:

– Mənim çox olsa, beş-altı il ömrüm qalıb. İndi yetmiş iki yaşım var, canım da saz deyil. Keçən həftə elə bildim ki, ölürəm, mədəm doğranırdı. Özümü güc-bəla ilə çarpayıma çatdırdım.

Şiko isə yumşalmırdı:

– Yaxşı, yaxşı, kələkbaz qarı, canınız polad kimi möhkəmdir! Heç olmasa, yüz on il yaşayacaqsınız. Hələ mənim kimilərin çoxunu o dünyaya yola salacaqsınız.

Bütün günü mübahisə etdilər. Qarı güzəştə getmək istəmirdi. Axırda Şiko əlli ekü verməyə razı oldu. Ertəsi gün müqaviləyə qol çəkdilər. Maqluar qarı on ekü çaxır pulu da tələb elədi…

Üç il keçdi. Qarı gündən-günə cavanlaşırdı, sanki keçən illərin onun ömrünə dəxli yox imiş. Şiko dilxor olmuşdu, ona elə gəlirdi ki, yüz ildir qarıya pul verir, onu aldadıblar, soyublar, müflis ediblər. Özünə yer tapmır, səbəbsiz, məqsədsiz girələnirdi. Hərdən faytonuna minib qarıya baş çəkməyə gəlirdi. Onun bu səfəri taxılın yetişib biçilən vaxtının çatıb-çatmadığını yoxlamaq üçün iyul ayında tarlaya baş çəkən kəndlinin səfərinə oxşayırdı. Qarının üzünü, hərəkətlərini diqqətlə süzən Şiko sevinməyə bir əsas görmürdü, qanı əmallicə qaralırdı. Hər dəfə gələndə qarı ona bic-bic baxırdı. Elə bil gizli bir oyunda udduğu üçün ürəyində sevinirdi. Şiko tez qayıdıb faytonuna minir, dodaqaltı deyinirdi:

– Bəs nə vaxt gəbərəcəksən, ay ifritə?!

- Qarının Şiko ilə “məzələnməkdə” məqsədi nə idi?
- Qarının əlli ekü tələb etməsinə Şikonun münasibəti necə oldu?
- Maqluar qarı sağlamlığının yerində olmadığını deməklə nəyə işarə edir? Onun səmimiliyinə inanmaq olarmı?
- Müqavilənin bağlanmasından bir neçə il sonra Şikonun əndişəyə düşməsinə səbəb nə idi?
- Şikonun gərgin, narahat günlər keçirməsi, hiss-həyəcanları əsərdə necə ifadə edilmişdir? Fikrinizi təsdiq edən nümunələr göstərin.

Şiko başını itirmişdi. Hər dəfə qarını görəndə istəyirdi, onu boğub öldürsün... O, baş sındırır, çıxış yolu axtarırdı. Gecələr yuxuya gedə bilmirdi. Sağa-sola çevrilir, ah-uf səsi qonşu otaqda da aydın eşidilirdi. Evdəkilər onun dərdindən xəbərsizdilər. Soruşmağa cəsarət etmirdilər, nə vaxtsa deyəcəyinə də inanmırdılar. Nəhayət, günlərin birində ilk dəfə öz təklifini bildirməyə gələndə elədiyi kimi, əllərini ovuşdura-ovuşdura qarının göstərdiyi kətildə əyləşdi. Bir az oradan-buradan danışandan sonra dedi:

– Bura bax, anacan, Eprovilə yolunuz düşəndə niyə gəlib meyxanamda nahar eləmirsiniz? Camaat arasında söhbət gəzir, deyirlər, guya bizim aramız dəyib, mən pərt oluram. Bilirsiniz ki, bizdə nahar eləsəniz, sizdən pul alası deyiləm. Mən belə xırda şeylərə fikir vermirəm. Nə vaxt ürəyiniz istədi, gəlin, utanıb-eləməyin, mən çox şad olaram.

Maqluar qarı təklifi unutmadı. İki gündən sonra nökəri Selestinin sürdüyü təkatlı faytonla bazara gedəndə birbaş Şiko kirvənin meyxanasına gəldi. Çəkinib-eləmədən atı tövləyə saldı. Sonra vəd edilmiş naharı istədi. Meyxana sahibi əl-ayağa düşüb ona əsl xanımlara layiq xidmət göstərdi; toyuq əti, kolbasa, qızardılmış qoyun əti və duza qoyulmuş kələm gətirdi. Amma qarı heç nə yemədi, uşaqlıqdan öz rejimini bilirdi, azacıq şorba və bir tikə yağ-çörəklə dolanırdı. Qanı qaralan Şiko israr edirdi. Qarı heç bir şey içməmişdi, hətta qəhvəni də rədd eləmişdi. Şiko soruşdu:

– Bəlkə, bir qədəh şərab içəsiniz?

– Hə!.. Buna sözüm yoxdur, olar.

Şiko səsi gəldikcə ucadan çığırdı:

– Rozali, şərab gətir, ən yaxşısından...

Xidmətçi uzun bir şərab şüşəsi gətirdi. Şərab şüşəsi kağızdan düzəldilmiş "üzüm yarpağına" bükülmüşdü. Şiko iki balaca qədəh doldurdu:

– Dadına baxın, anacan, əla şərabdır.

Qarı aram-aram içməyə başladı. O, ləzzət almaq üçün xırda qurtumlarla içirdi. Qədəh boşalanda qarı ağzını marçıldadıb dedi:

– Doğrudan da, gözəl şərabdır.

O, sözünü qurtarmamış Şiko qədəhi bir də doldurdu. Qarı istədi etiraz eləsin, amma gec idi. O, yenə aramla içməyə başladı. Şiko istəyirdi üçüncü qədəhi içirtsin, amma qarı etiraz elədi. Şiko israr edirdi:

– Axı bu lap süd kimidir. Gördünüz, nə dadlıdır! Mən bundan dalbadal on-on iki qədəh içirəm, heç nə olmur. Şəkər kimidir. Nə mədəyə əziyyət verir, nə də baş ağrıdır, adamın dilinin üstündə yağ kimi əriyib gedir. Bundan faydalı içki tapılmaz!

Qarının yenə də tamahı çəkirdi, ona görə də güzəştə getdi. Üçüncü qədəhin də yarısını içdi. Şiko əliaçıqlıq edirdi, lap özündən çıxmışdı:

- Ailə üzvlərinin Şikoya münasibəti barədə nə deyə bilərsiniz?
- Şikonun əllərini ovuşdurması nəyin əlaməti idi?
- Onun qarını israrla öz meyxanasında qonaq olmağa dəvət etməsi sizi təəccübləndirdimi? Nə üçün?
- Maqluar qarını meyxanaya çəkib aparan hansı hiss idi?
- Şikonun şərabı aramsız tərifləməsi, qarının içməsini təkid etməsi sizi təəccübləndirmədi? O bunu qonaqpərvər olduğu üçünmü edir?

– Yaxşı, indi ki bu şərab xoşunuza gəlir, ondan sizə bir çəllək verərəm, bilərsiniz ki, biz, doğrudan da, dostuq.

Qarı etiraz eləmədi, azacıq keflənmişdi, çıxıb evinə getdi. Ertəsi gün Şiko Maqluar qarının yanına gəldi. Faytonundan dəmir çənbərli kiçik bir çəllək düşürtdü. Şiko elə vaxt seçmişdi ki, qonşulardan kimsə nə onu, nə də çəlləyi gördü. Sonra istədi ki, qarı dadına baxıb şərabın dünənki şərabdan olduğunu təsdiq eləsin. Hərəsi üç qədəh içdi. Şiko getməyə hazırlaşanda dedi:

– Qurtaranda xəbər eləyin, hələ varımdır, utanıb-eləməyin. Mən xəsis deyiləm. Şərabı nə qədər tez içib qurtarsanız, bir o qədər mənim ürəyimə yatar.

Şiko faytonuna minib getdi. Dörd gündən sonra yenə gəldi. Qarı qapının ağzında oturmuşdu. Şorbaya tökmək üçün çörək doğrayırdı. Şiko qarıya yanaşıb salam verdi. Lap yaxınlıqda durub danışırdı ki, qarının ağzından şərab iyi gəlib-gəlmədiyini bilsin. Qarıdan şərab iyi gəlirdi. Şikonun kefi kökəldi:

– Bəlkə, məni bir qədəh şəraba qonaq edəsiniz?

Onlar iki, ya üç dəfə qədəh-qədəhə vurdular…

- Əsərdə deyilir: "Şiko elə vaxt seçmişdi ki, qonşulardan kimsə nə onu, nə də çəlləyi gördü". Sizcə, Şiko nə üçün belə edir?
- Qarıya şərab çəlləyi hədiyyə edəndən bir neçə gün sonra Şikonun görüşə gəlməkdə məqsədi nə idi?



Tezliklə ətrafa səs yayıldı ki, Maqluar qarı evdə tək içib sərxoş olur. Onu gah mətbəxdə, gah da həyətində kefli tapırdılar, bəzən də yaxın yol-rizdə yıxılıb qalırdı, camaat onu sürüyə-sürüyə evinə gətirməli olurdu. Şiko daha ona qonaq gəlmirdi. Elə ki qarı barədə söhbət düşürdü, o, qəmli-qəmli deyinirdi:

– Bu yaşda içkiyə belə qurşanmaq bədbəxtlikdir. Adam qocalanda canı da zəifləyir. İçki qarının axırına çıxmasa, yaxşıdır.

Doğrudan da, içki qarının axırına çıxdı. Sonrakı qış, Milad bayramına az qalmış o, bərk keflənmiş, qarın altında qalıb ölmüşdü. Onun fermasına yiyələnmiş Şiko kirvə deyirdi:

– Bu səfeh qarı içməsəydi, hələ bir on il də yaşaya bilərdi.

- Sizcə, Şiko qarının evindən ayağını nə üçün kəsir?
- Maqluar qarının içkiyə qurşandığını eşidən Şiko hansı fikri səsləndirir? Onu səmimi saymaq olarmı?
- Qarının ölümündən sonra Şikonun dediyi sözlər onun hansı gizli niyyətini başa düşməyə imkan verir?

SÖZLƏR TANIŞDIRMI?

- müflis
- kətil
- çənbər
- yol-riz

## II MÖHKƏMLƏNDİRMƏ • ZƏNGİNLƏŞDİRMƏ

**1. Aşağıdakı mövzulardan birini seçib şifahi təqdimata hazırlaşın.**

a) Yazıçının obrazlara münasibəti.

b) Maqluar qarı mühüm qərar qəbul etməyə bilərdimi?

**2. Çıxışlara münasibət bildirin.**

## III MÜZAKİRƏ

**1. Aşağıdakı mövzular üzrə müzakirəyə hazırlaşın.**

a) Əsər hansı mövzuda yazılmışdır.

b) Əsərin konflikti nə üzərində qurulmuşdur.

**2. Müzakirədə fəal olun, fərqli fikirlərə hörmətlə yanaşın.**

## IV XATIRLATMA • DƏRİNLƏŞDİRMƏ

Epik növdə yazılan *novella* hekayənin bir şəkli hesab olunur. Onda yığcam bir əhvalat, hadisə təsvir edilir, iştirakçıların sayı çox olmur. Belə əsərlərin süjetində bir qeyri-adilik, əslində, qəribəlik hiss olunur. Əlavə süjet xətlərinə az hallarda yer verilir. Hadisələrin necə davam edəcəyi və başa çatacağı aydın təsəvvür edilmir. Bu, oxucunu intizarda saxlayır. Qeyri-adilik novella qəhrəmanlarının davranış və əməllərində də müşahidə edilir. Novellanı hekayənin digər formalarından fərqləndirən ən mühüm cəhət isə finalda – əsərin sonunda özünü göstərir. Belə ki, novellada əhvalat və hadisə gözlənilməz bir şəkildə başa çatır.

Əsərin belə bitməsi oxucunu həm düşündürür, həm də heyrətləndirir. Məzmundan asılı olaraq oxucuda acı təbəssüm, yaxud xoş ovqat yaranır. Beləliklə, novella onda əks olunmuş əhvalat və hadisələrin qəribə, gözlənilməz şəkildə tamamlanması, başa çatması baxımından hekayənin digər formalarından fərqlənir. Gi de Mopassan dünya ədəbiyyatında ən istedadlı novella yaradıcılarından biri kimi məşhurdur.

## III DƏRS

### I ARAŞDIRMA • TƏHLİL

**1. Əsərin mövzusu ilə bağlı qənaətlərinizi dəqiqləşdirin. Tövsiyələrə diqqət edin:**
– əsərdə əhvalat və hadisələrin daha çox nə ilə bağlı olduğunu yada salın;
– obrazları daha çox məişət, yoxsa ictimai məsələlərin düşündürdüyünü xatırlayın;
– obraz və hadisələrə müəllifin münasibətini xatırlayın.

**2. Şiko obrazını səciyyələndirin. Tövsiyələri nəzərə alın:**
– həyatda nə barədə düşündüyünü və nə ilə maraqlandığını yada salın;
– Maqluar qarı ilə rəftarını, onunla bağlı davranış və əməllərini xatırlayın;
– müəllifin və doğmalarının ona münasibətini yada salın.

**3. Maqluar qarı obrazını səciyyələndirin. Tövsiyələri nəzərə alın:**
– fərqli məqamlarda hiss və düşüncələri;
– mühüm qərar qəbul etməsinə səbəb olan hadisə barədə düşünün;
– Şiko ilə əlaqələrini davam etdirməsinin səbəbi;
– müxtəlif vəziyyətlərdə davranış və əməlləri;
– müəllifin ona münasibəti.

**4. Şiko ilə Maqluar qarını müqayisəli səciyyələndirin. Cədvəldən istifadə edin.**

| Hansı cəhətlərə görə müqayisə olunurlar | | | | | | |
|---|---|---|---|---|---|---|
| Müqayisə olunan obrazlar | Xarakterlərindəki başlıca cəhətlər | | Davranış və əməlləri | | Sərvətə münasibətləri | |
| | oxşarlıq | fərq | oxşarlıq | fərq | oxşarlıq | fərq |
| Şiko | | | | | | |
| Maqluar qarı | | | | | | |

**5. Konfliktin yaranma səbəbini nəzərə almaqla əsərin əsas ideyasını şərh etməyə çalışın. Sxemdəki fikirlərlə tanış olun. Seçdiyinizi, yaxud öz variantınızı nümunələrlə əsaslandırın.**

**Əsərin əsas ideyası hansıdır?**
1. Acgözlük insanı ağlagəlməz əməllərə sövq edir.
2. Tamahın oyandığı yerdə ağıl yatar.
3. Tamahkar adam başqalarının faciəsinə laqeyd olar.

Nə üçün belə düşünürsünüz?

Sizin variantınız

### II YARADICI İŞ

**1. Dostluq etdiyiniz şagirdlərdən birinə “Balaca çəllək” əsəri ilə bağlı yığcam ədəbi məktub yazın. Məktubda aşağıdakı tövsiyələri nəzərə alın:**
– bu məktubu nə üçün yazmaq fikrinə düşdüyünüzün səbəbini, sizi düşündürən başlıca məsələləri qeyd edin;
– əsərin mövzusu, süjeti, obrazları, əsas və yardımçı fikirlərin əlaqələri haqqındakı təəssüratınızı qısaca yazın;
– novellada, sizə görə, maraqlı, yaxud yorucu olan məqamları şərh edin;
– dostunuza bu əsəri oxumağı tövsiyə edəcəksinizsə, fikrinizi əsaslandırın.

**2. Məktublardan nümunələrin müzakirəsində fəal iştirak edin.**

# TƏTBİQ • ÜMUMİLƏŞDİRMƏ



Süleyman Rüstəm
(1906-1989)

O, ürəyinin bütün odu ilə doğma torpağa bağlıdır. Cənub mövzusunda yazdığı şeirlər ədəbiyyat tariximizin unudulmaz səhifələridir. O şeirlərdəki sərt lirizm, qılınc kimi kəskin pafos xalqın azadlığını hər şeydən yüksək tutan şairin ürək yanğısıdır.

İlyas Əfəndiyev

## DUZ-ÇÖRƏK

**Yadasalma** • Nəsihətli fikirlərin əks olunduğu hansı əsərləri xatırlayırsınız? Onlardakı hansı fikirlərə daha çox üstünlük verirsiniz?

I OXU • ANLAMA

**1. Mətni oxuyun.**

**2. İlkin təəssüratınızı bölüşün.**

**3. Şeirin məzmununa aid üçdən az olmayaraq sual və onlara cavab hazırlayın. Ehtiyac duysanız, dərinləşdirilmiş oxu məqsədilə mətni nəzərdən keçirin.**

İnsanın şərəfi, bəzəyi, məncə,
Deyildir nə ipək, nə tirmə, oğlum!
Yaxşıdan yaxşı ol ellər içində,
Dostuna bir ziyan yetirmə, oğlum!

Yersiz gülümsəmə, yersiz ağlama,
Bir könül də qırma, sinə dağlama.
Sirrini ellərdən gizli saxlama,
Dilinə yalan söz gətirmə, oğlum!

Yel qanadlı illər ömürdən gedir,
İnsan zəhmətiylə kamala yetir.
Bağında nərgizlər, lalələr bitir,
Tikanlar, qanqallar bitirmə, oğlum!

Ürəyim arzuyla doludur, dolu,
Hünər meydanıdır bu həyat yolu.
Bilmədiyin işi gözüyumulu
Söz verib öhdənə götürmə, oğlum!

Oxu öyüdümü sən sətir-sətir,
Qoy yağsın hər zaman dilindən ətir...
Qazancını itir, malını itir,
Ancaq duz-çörəyi itirmə, oğlum!

## II ÖYRƏNDİKLƏRİNİZİ YOXLAYIN

1. Yazdığınız sualları və onların cavablarını müzakirə edin.
2. Çıxışlara münasibət bildirin.

## III MÖHKƏMLƏNDİRMƏ • ZƏNGİNLƏŞDİRMƏ

**1. Kiçik qruplarda iş.**

**I qrup:**

a) Şeirdə tanış olmayan sözlərin mənasının aydınlaşdırılması.

b) Birinci bənddə ifadə edilmiş fikirlərin və aralarındakı əlaqələrin müəyyən edilməsi, qısaca yazılması.

**II qrup:**

a) İkinci bənddə ifadə edilmiş fikirlərin və aralarındakı əlaqələrin müəyyənləşdirilməsi, qısaca yazılması.

b) Şeirdə ahəng yaradan vasitələrin (misra, bənd, rədif, misradaxili bölgü, məntiqi fasilə) müəyyənləşdirilməsi.

**III qrup:**

a) Üçüncü bənddə əksini tapmış başlıca fikirlərin müəyyən edilməsi, qısaca yazılması.

b) İlk iki bənddə işlənmiş həmqafiyə sözlərin müəyyənləşdirilməsi, daha uğurlu hesab olunanların qeyd edilməsi.

**IVqrup:**

a) Dördüncü bənddəki əsas fikrin müəyyən edilməsi və yığcam qeyd olunması.

b) Üçüncü və dördüncü bəndlərdə işlənmiş həmqafiyə sözlərin müəyyənləşdirilməsi, daha uğurlu hesab olunanların qeyd edilməsi.

**Vqrup:**

a) Əsərin sonuncu – beşinci bəndində əksini tapmış əsas fikrin müəyyənləşdirilməsi və qısaca yazılması.

b) Şeirdə bədiiliyin artmasına təsir edən vasitələrin müəyyən olunması, yığcam qeyd edilməsi.

**2. Yazılmış qeydlərin əsasında təqdimatların hazırlanması.**

**3. Təqdimatların dinlənilməsi və onlara əsaslandırılmış münasibət bildirilməsi.**

## IV MÜZAKİRƏ

**1. Müzakirədə aşağıdakı sualları əhatə etməyə çalışın.**

a) Şeir hansı mövzuda yazılıb?

b) Əsərin əsas ideyası nədir?

c) Şeiri maraqlı edən cəhətlər hansılardır?

d) Əsərdən hansı nəticəni çıxarmaq olar?

e) Şeirin müəllifi haqqında sizdə hansı təsəvvür yarandı?

**2. M.Hüseynin "Kərəm əfsanəsi" əsəri ilə S.Rüstəmin "Duz-çörək" şeirini cədvəldəki suallar əsasında müqayisə edin.**

**3. Cavabları müzakirə edin.**

| Hansı əsaslara görə müqayisə olunurlar | | | | | | | | |
|---|---|---|---|---|---|---|---|---|
| Müqayisə olunan əsərlər | Mövzu | | Milli-mənəvi dəyərlər | | Təlqin olunan insani keyfiyyətlər | | Əsas ideya | |
| | oxşarlıq | fərq | oxşarlıq | fərq | oxşarlıq | fərq | oxşarlıq | fərq |
| M.Hüseyn. "Kərəm əfsanəsi" | | | | | | | | |
| S.Rüstəm. "Duz-çörək" | | | | | | | | |

### Növbəti dərsə qədər

Dərsliyinizdən Ə.Məmməxanlının "Qızıl qönçələr" əsərini oxuyun. Ondakı mühüm hadisələri və aralarındakı əlaqələri müəyyənləşdirməyə çalışın.

# 4 UŞAQ DÜŞÜNCƏSİ, UŞAQ TALEYİ

Uşaqların həyatı, taleyi bədii ədəbiyyatda ən çox diqqət yetirilən mövzulardandır. Bu mövzuda xeyli əsərlə tanış olmuş, onların qəhrəmanlarının xarakter, davranış və əməlləri ilə bağlı müzakirələr aparmısınız. Belə əsərlər sizi düşünməyə, müəyyən nəticə çıxarmağa yönəldib. Siz anlamısınız ki, uşaqların da həyatı heç də həmişə hamar olmur. Dünyanın müxtəlif yerlərində çətinliklərlə, məhrumiyyətlərlə qarşılaşan, ədalətsiz müharibənin qurbanlarına çevrilən azyaşlıların taleyi sizdə kədər, təəssüf hissi oyadıb...



Cənubi Azərbaycanda yaşayan balaca soydaşlarımızın doğma dillərində təhsil almaqdan, hətta milli köklərinə bağlı şəxs adlarını daşımaqdan məhrum olmaları barədə sizə ilk məlumat verən də bədii ədəbiyyat nümunələri olub.

Bu bölmədə sizin maraqla oxuyacağınız əsərlər toplanmışdır. Onlar sizi müxtəlif xarakterli və taleli uşaqlarla tanış edəcək. Həmin əsərlərin müzakirəsi çox mətləbləri başa düşməyinizə və onlara münasibət bildirməyinizə imkan yaradacaq.





Ənvər Məmmədxanlı
(1913-1990)

"Yazıçı həyatda gördüklərinə laqeyd qalmamalıdır. O həm xoşbəxt, həm də bədbəxt insanların taleyini eyni həssaslıqla qələmə almalıdır. Həyatda baş verən pislikləri göstərməli, bunların səbəbini oxuculara açmalıdır".

# QIZIL QÖNÇƏLƏR

**Yadasalma** • Cənubi Azərbaycanla bağlı hansı əsərlərlə tanışsınız? Bu əsərlərin qəhrəmanlarının həyatı, taleyi sizdə hansı hiss və düşüncələr yaradıb?

I DƏRS I OXU • ANLAMA

**1. Mətni oxuyun.**

**2. Təəssüratınızı bölüşərkən aşağıdakı sualları nəzərə alın.**

– Əsərdən hansı təəssüratla ayrıldınız?

– Süreyya haqqında ilkin təəssüratınız nə oldu?

– Firuz baba obrazı barədə sizdə hansı təsəvvür yarandı?

**3. İkinci sütundakı suallara cavab hazırlayın. Dərinləşdirilmiş oxu məqsədilə mətnə yenidən nəzər salın.**

Qoca Firuz gün batanda evə qayıdır. Gün olur ki, bazarda işi çox olur, başı aşağı bütün günü işləyir, yük daşıyır. Bəzi günlər isə o, böyük anbarlar yanında işsiz dayanır, onu yük daşımağa çağıracaq bir səs gözləyir. Belə günlərdə o, ağzına qədər dolu anbarların yanında boş-bikar oturub qalır, kürəyini divara söykəyib mürgüləyir. Bu, mürgüləmək deyil, dərin fikir içində məşəqqətli həyat yolunu xəyalından keçirməkdir… Nə qədər düşünsə də, yaşadığı xoş, sevinc dolu gün, saat yadına düşmür. Ehtiyac içində qocalan, ailəsinə bir qarın çörək tapmaq üçün ağır işlərin qulpundan yapışan Firuz hərdən göz qapaqlarını azacıq aralayıb qabar bağlamış, daim sızlayan əllərinə baxır… Yenə gözlərini yumur, ağır xatirələrin içində dolaşıb qalır…

Axır zamanlar o hər axşam gün batan kimi bazardan çıxıb hara isə tələsir, Təbriz kənarındakı xalça karxanalarından birinin qabağına

- Əsərdə təsvir olunanlar harada baş verir?
- Qoca Firuz nə işlə məşğul olurdu?
- Onun həyatı barədə nə öyrəndiniz?

çatarkən ayaq saxlayır, çoxdan qurumuş bir çinar ağacına söykənib dayanır, gözləri karxana darvazasına baxıb yol çəkir… Bu zaman o dincəlirdimi? Yox! İndi daha ağır bir yük gözləyir…

Birdən səs-küy onu xəyal aləmindən ayırır. Xalça karxanasının darvazasından çıxan dəstə-dəstə irili-xırdalı uşaqlar içərisində onun gözləri kimi isə axtarır. Budur, axır, iki qız qolları üstündə yeddi-səkkiz yaşlarında arıq və solğun bir qızı qapı ağzına çıxarır.

Bu, qoca hambalın nəvəsi Sürəyyadır. Qız iri, qonur gözlərini yerdən ayırmır, utandığı aydın görünür. O, hələ ayaq açıb yeriməyə başlamamış rütubətli, qaranlıq bir zirzəmidə şikəst olmuş, ayaqları hərəkətdən düşmüşdü. Qocanın isə bu şikəst qızdan başqa, dünyada heç kəsi yoxdur. Oğlu qazanc dalınca uzaqlara getdiyi gündən sanki daş olub quyuya düşdü, ondan heç bir xəbər gəlmədi. Gəlini isə ilk balası Sürəyyanı hələ süddən ayırmamış öldü.

Qoca yaxınlaşıb ehtiyatla nəvəsini kürəyinə alır və başıaşağı, dinməz-söyləməz yoluna düzəlir.

– Baba, deyəsən, bu gün çox yorulmusan?

– Yox, qızım, bu gün bir iş görməmişəm.

Qızcığaz o saat anlayır ki, babasının cibində bu gün də pul yoxdur... Səngəkçi dükanı qarşısından keçərkən qız səslənir:

– Baba, dayan, səngək alaq!

Qoca dayanır, səngəkçi şagirdi bir neçə səngək büküb qocaya verir. Sürəyya isə çit çadrasının ucuna düyünlədiyi bugünkü muzdunu – iki qranı çıxarıb şagirdə verir. Qoca Firuzu tər basır: demək, o bu gün də balaca nəvəsinin muzdu ilə alınmış bir parça çörəyə möhtacdır.

Axşam yarıqaranlıq, rütubətli zirzəmidə onlar: baba və nəvə həsir üstünə salınmış, rəngi solğun süfrə başında oturardılar. Süfrə üzərində axşam yeməyi bir neçə səngək və bir parça pendirdən ibarət olardı.

Lakin əvəzində, bu kasıb süfrə başında, bu qaranlıq zirzəmidə babası balaca Sürəyyaya hər gecə nə qədər gözəl nağıllar söylərdi. Qızcığaz nəfəsini udaraq babasını dinlərdi. Sinəsi dolu olan babası hər axşam ona yeni nağıl danışardı. Sürəyya xoşbəxt sonluğu olan nağılları çox bəyənirdi, özünü nağıl qəhrəmanının yerinə qoyar, fikrə gedər, nə vaxt yuxuladığını bilməzdi…

Səhərlər isə o, babasının səsinə oyanardı.

Qoca nəvəsini şirin yuxudan ayıldar, kürəyinə alıb karxanaya gətirər, sonra özü iş üçün bazara yönələrdi.

Bir ildən artıq idi ki, qız xalça karxanasında işləyirdi.

Hər səhər gün çıxanda karxana irili-xırdalı yüzlərlə oğlan və qız uşağı ilə dolurdu. Bir-iki ustadan və karxananın qoca nəqqaşından başqa, iki cərgə düzülmüş əlliyə qədər böyük dəzgah qarşısında və hər tərəfdə işləyən yalnız kiçikyaşlı uşaqlar idi. Onlar iki-iki, üç-üç və

- Hekayədə oxuduğunuz “İndi daha ağır bir yük gözləyir...” cümləsində ifadə olunmuş fikri necə izah edərsiniz?
- Xalça karxanasında işləyənlər kimlər idi?
- Sürəyyanın həyatı haqqında nə öyrəndiniz? Onun uğursuz taleyi barədə düşündünüzmü?
- Nəvəsinin qazancı ilə çörək almağa məcbur olan babanın keçirdiyi hissləri necə izah edərsiniz?
- Kasıb süfrə başında əyləşən baba və nəvə üçün ən xoş dəqiqələr nə vaxt olurdu?
- Xalça karxanasında işləyən kiçikyaşlı uşaqların taleyi, ağır əməyi barədə düşündünüzmü? Bu barədə nə danışa bilərsiniz?

daha çox dəstələrlə bu dəzgahlar qarşısında əyləşib axşama qədər xalça toxuyardılar.

Səhərlər səs-səmirsiz işləyən uşaqlar saatlar keçdikcə yorğunluqlarını unutmaq, yorucu əməklərini yüngülləşdirmək üçün alçaq səslə bir mahnı oxumağa başlardılar.

Sürəyya isə oxumazdı. Onun oxumağa nə səsi vardı, nə mahnısı... O yalnız işıqlı qonur gözlərini çaldığı ilmələrdən ayırmayaraq diqqətini və səyini öz sənətində canlandırmağa çalışırdı. Onun toxuduğu qönçələr bütün karxanada məşhur idi. Buna görə də karxananın qoca nəqqaşı hazırladığı cürbəcür nəqşlər içərisində qızıl qönçələr olan nəqşləri həmişə balaca Sürəyya üçün nəzərdə tutardı.

Bu il solğun, qüssəli payızdan sonra şiddətli küləklərlə soyuq bir qış gəldi. Qoca Firuzun rütubətli zirzəmisində isə hələ də buxarı yanmırdı, odun yoxdu, qırıq bir lampaya neft güclə çatırdı. Qoca Sürəyyanın gecələr titrədiyini görür, səhərə qədər gözünə yuxu getmirdi.

Bu gün o, Sürəyyanı karxana açılmamış, qaranlıq ikən gətirib qapı ağzında qoymuş, özü bazara getmişdi. Bu səhər böyük anbarlardan birinə yük daşınacaqdı. Qoca bu fürsəti əldən qaçırmayıb hamıdan tez işə başlamaq istəyirdi. Nə cür olursa-olsun, bu gün, heç olmasa, bir şələ odunun pulunu qazanmalı idi.

Səhər tezdən yük daşınmağa başlandı. Qoca Firuz bu gün hamını heyrətə salan və yaşına yaraşmayan bir zirəklik və səylə çalışırdı. Günortaya yaxın o, əlli tay daşımışdı.

- Bütün günü aramsız işləyən uşaqların mahnı oxumalarına səbəb nə idi?
- Sürəyyanın əməyi digər uşaqların əməyindən nə ilə fərqlənirdi? Qoca nəqqaşın ona münasibəti necə idi?
- Qış girəndən sonra babanın narahatlığına səbəb nə oldu? O hansı qərara gəlmişdi?

**SÖZLƏR TANIŞDIRMI?**

- karxana
- hambal
- səngək
- dükan
- muzd
- qran
- həsir
- lampa
- nəqqaş
- şələ
- tay

## II ÖYRƏNDİKLƏRİNİZİ YOXLAYIN

**1. Fikirlərdən biri səhvdir.**

A) Ehtiyac içində yaşayan uşaqlar ağır işdə çalışmağa məcbur idilər.

B) Firuz baba yoxsul olsa da, daxilən zəngin insandır.

C) Yoldaşları Sürəyyaya qayğı ilə yanaşırlar.

D) Ağır işdə çalışan Firuz baba çox vaxt yorulur, işləyə bilmir və onlar Sürəyyanın qazancına möhtac qalırdılar.

E) Uşaqlar karxanada gündəlik muzd qarşılığında işləyirdilər.

**2. Boş xanaları uyğun fikirlərlə tamamlayın.**

| Səbəb | Nəticə |
|---|---|
| 1. | Sürəyya şikəst olmuş, ayaqları hərəkətdən düşmüşdü. |
| 2. | Qoca Firuzun Sürəyyadan başqa, dünyada heç kəsi qalmamışdı. |
| 3. Sürəyyanın toxuduğu qönçələr bütün karxanada məşhur idi. | |
| 4. Firuz baba odun üçün pul qazanmağı qarşısına məqsəd qoymuşdu. | |

## III MÖHKƏMLƏNDİRMƏ • ZƏNGİNLƏŞDİRMƏ

1. Əsərdən oxuduğunuz parçada mühüm hesab etdiyiniz mətləblər hansılardır? Fikrinizi nümunələrlə əsaslandırın.
2. Hekayədəki bədii təsvir və ifadə vasitələrinin növünü müəyyənləşdirin.
3. Onlardan ikisini cümlələrdə işlədin.
4. Nümunələrə münasibət bildirin.

## IV NİTQİN, DÜŞÜNCƏNİN İNKİŞAFI

1. Əsərin məzmununun başa düşülməsində mənasını yeni öyrəndiyiniz sözlərin rolunu izah edin. Fikrinizi nümunələrlə əsaslandırın.
2. Mətndən seçdiyiniz parçanın məzmununu yaradıcı danışmağa hazırlaşın.
3. Çıxışlara münasibət bildirin.

**Növbəti dərsə qədər**

Asudə vaxtınızda əsərin davamını oxuyun. Ehtiyac duysanız, dərinləşdirilmiş oxu məqsədilə mətni yenidən nəzərdən keçirin.

**II DƏRS** **I OXU • ANLAMA**

**1. Mətni oxuyun.**

**2. Təəssüratınızı bölüşərkən aşağıdakı sualları nəzərə alın.**

– Süräyya obrazı ilə bağlı sizdə hansı yeni təəssürat yarandı?

– Firuz baba obrazı ilə bağlı təsəvvürünüzü zənginləşdirən nə oldu?

**3. İkinci sütundakı suallara cavab hazırlayın. Ehtiyac duysanız, mətni bir daha diqqətlə oxuyun.**

*Əsərin davamı*

Budur, yenə də növbəti taylardan birini çiyninə alıb anbarın yarıqaranlıq və dik pillələri ilə aşağı enməyə başladı. İki-üç pillə düşmüşdü ki, birdən onun gözləri qaranlıq gətirdi və sanki ayağı altındakı kərpiclər yerindən oynadı. O, əlini hara isə atmaq istədi, lakin bu zaman ona elə gəldi ki, kim isə yuxarıdan daha ağır bir yük tayını onun üzərinə aşırdı.

O, cəld döşündəki kəndiri boşaldıb yükü yerə atmaq istədi, lakin macal tapmadı, dizləri titrədi, ayaqları büküldü və daş kimi anbarın boşluğuna yuvarlandı. Dik pillələr onu saxlamayaraq bir-birinin dalınca aşağıya doğru itələdi, nəhayət, o, anbarın kərpic döşəməsi üzərinə sərildi, qışqırmağa, haraya çağırmağa da macal tapmadı.

Aşağıda – anbarda işləyən hamballardan ikisi ona tərəf yüyürdü, yükü qaldırıb qocanı çıxartdılar. Lakin iş-işdən keçmişdi.

Axşam uşaqlar karxanadan çıxarkən qar yağırdı. Onların çoxu ayaqyalın idi, yeri ağartmaqda olan qar üstündə təzə izlər buraxaraq tələsə-tələsə evlərinə gedirdilər. Balaca Süräyyanı yoldaşları yenə qolları üstündə küçəyə çıxartdılar, lakin bu dəfə darvaza qarşısında qoca Firuz onları qarşılamadı. Süräyya heyrətlə küçənin başına baxdı.

Birinci dəfə idi ki, karxanadan çıxarkən babası onu gözləmirdi. Süräyyanın yoldaşları da ətrafa boylandılar.

– Firuz baba niyə yoxdur?

Onlar bir-birinin üzünə baxdılar.

– Gələr, bir az gözləyək.

Gözlədilər. Süräyya isə getdikcə artmaqda olan bir nigarançılıqla qaranlıqlaşan küçəyə və quşbaşı yağan qara baxırdı. Yoldaşlarından biri dedi:

– Süräyya, bəlkə, köməkləşib səni birtəhər evə aparaq, Firuz baba, görəsən, nə iş çıxdı ki, gəlmədi.

Süräyya qəti hərəkətlə başını buladı:

– Yox, babam harada olsa, bu saat gələcəkdir. Siz gedin, sonra qorxarsınız.

- Qoca Firuzun pillələrdən yıxılmasına səbəb nə oldu?
- O, kürəyindəki yükdən nə üçün xilas ola bilmədi?
- İş gününün sonunda karxanadan çıxan uşaqların təsvirində diqqətinizi daha çox çəkən nə oldu?
- Yoldaşlarının Süräyyanı evlərinə aparmaq təklifinə onun etiraz etməsinin səbəbini necə izah edərsiniz?
- Qarlı qış gecəsi küçədə tək qalan qızcığazın vəziyyətini necə təsəvvür edirsiniz? Onun keçirdiyi hiss və həyəcanı sözlə ifadə edə bilərsinizmi?
- “Süräyyanın yuxusu onun arzularının ifadəsi idi” fikrinə necə münasibət bildirərsiniz?
- Qoca nəqqaşın “– Yox, bu cür davam edə bilməz! O gün gələcəkdir!.. Günəş doğacaq, qönçələr açacaqdır!..” sözlərində hansı fikir ifadə olunmuşdur?

Yoldaşları qaranlıq düşdüyünü görərək, doğrudan da, qorxurdular. Bir az gözlədikdən sonra onlar da getdilər. Sürəyya qarlı qış axşamında küçədə təkbaşına gözləməyə başladı. Qar getdikcə daha şiddətlə yağırdı.

İndi soyuq qızın bədəninə işləyir, o titrəyirdi. Hələlik özünü saxlayırdı. Lakin gecə keçdiyini görərkən babasına qarşı bir küskünlük duyaraq kövrəldi və səssiz-səssiz ağlamağa başladı. Göz yaşları üzünə qonan qar lopalarına qarışır, onları əridir, süzülüb dizlərinə tökülürdü…

Nə qədər vaxt keçdi, amma Firuz baba yenə də gəlmədi. İndi Sürəyya çağırmağa başlamışdı. O, əvvəlcə babasını çağırırdı. Səs verən olmadı. Sonra o, sadəcə, bir nəfəri, bir insanı köməyə çağırırdı. Onun zəif, yanıqlı səsini eşidən olmadı...



Artıq dodaqları söz tutmurdu. Nəhayət, bu qarlı gecəni küçədə tək qalacağını anladı. Bağlı karxana darvazasına tərəf sürünməyə başladı, bəlkə, orada, darvazanın tağı altında qar tutmayan bir bucaq tapmaq mümkün ola idi...

Səhər günəşin ilk şüaları qar üzərində parıldaşanda balaca Sürəyya hələ yarıhuşsuz bir halda darvaza ilə divar arasındakı bucağa qısılıb yatmışdı. İndi onun çit çadrası başından sürüşüb çiyinlərinə düşmüş, günəş şüaları solğun sifətində əks etmişdi.

Bəlkə, üzərinə düşən günəş şüalarının təsiri altında idi ki, bu saat o, qəribə və gözəl bir yuxu görürdü.

Yuxusunda geniş üfüqdə böyük və qızıl bir günəş doğurdu.

İndi onun özünün yaşadığı rütubətli, qaranlıq zirzəmi də bu günəşin işıqları ilə dolmuş, döşəmə və divarlar onun toxuduğu qızıl qönçəli xalılarla döşənmiş və bəzənmişdi.

Günəşin şüaları vurduqca onun toxuduğu xalçalar üzərindəki qönçələr bir-bir açılır, onların hər biri bir qızılgülə dönürdü… Bunu görən Sürəyya sonsuz bir sevinclə od kimi yanan qönçələrin üzərinə yüyürür, bir-bir oxşamaq istəyirdi. Onları qoparmağa ürəyi gəlmirdi.

Lakin birdən kim isə qolundan tutub onu bu aləmdən kənara çəkməyə başladı, onun yuxusu dağıldı. O, gözlərini açdı.

Qolundan tutub qaldıran karxananın qoca nəqqaşı idi. Səhər işə gələn uşaqlar isə darvaza ağzında onun başına toplaşmışdılar.

Qoca nəqqaş onu qucağına alıb içəri apardı, öz otağında taxt üstündə uzatdı. Qızın gözləri yumuldu. Yarım saat sonra o, yarıhuşsuz bir halda sayıqlamağa başladı:

– Harada qalmışdın, baba? Bir bax gör necə gün çıxıbdır!.. Bunlar hamısı mənim toxuduğum xalçalardır. Qönçələr də mənimdir… İndi gün vurduqca hamısı bir-bir açılmağa başlamışdır. Bəs sən harada idin, baba?

Qoca cəld uşaqlardan birini həkim dalınca göndərdi. Bir saat sonra küçədə fayton atlarının ayaq səsləri eşidildi. Qoca nəqqaş qapı ağzında həkimi qarşıladı, bərabər içəri girib Sürəyyanın yatağına yaxınlaşdılar. Həkim qızın üzərinə əyildi. Bir dəqiqə sonra isə başını qaldıraraq qoca nəqqaşa tərəf döndü:

– Gecikmişsiniz, – dedi, – uşaq keçinmişdir…

Qoca nəqqaş diksinib bir addım geri çəkildi, gözləri yaşla doldu. Dönüb pəncərə qarşısına getdi. Kiçik otağının şüşələri, qırıq pəncərəsi arxasından bütün karxana onun gözləri qarşısında açıldı. Orada uşaqlar səssiz-səmirsiz dəzgahların qarşısında oturmuşdular. Bu gün onların heç birindən səs çıxmır, heç kəs nəğmə oxumurdu. Onlar hamısı başlarını aşağı dikib işləyirdi.

Qoca nəqqaş qəmli-qəmli onlara baxdı, bir az əvvəl Sürəyyanın sayıqladığı sözləri xatırladı və indi birdən bu uşaqların hamısı ona

günəş gözləyən solğun qönçələr kimi göründülər. O, köksünü ötürdü və dedi:

– Yox, bu cür davam edə bilməz! O gün gələcəkdir!.. Günəş doğacaq, qönçələr açacaqdır!..

SÖZLƏR TANIŞDIRMI?
- tağ
- çit

## II MÜZAKİRƏ

**1. Aşağıdakı mövzular üzrə müzakirəyə hazırlaşın.**
1) Hekayə hansı mövzuda yazılmışdır.
2) Əsərin janr xüsusiyyətləri.

**2. Müzakirədə fəal iştirak edin.**

## III YARADICI İŞ

**1. Mövzulardan birini seçib yığcam esse yazın. Tövsiyələrdən (səh. 152-155), özünüqiymətləndirmə meyarlarından (səh.154-155) faydalanın.**
a) Süreyyanın taleyi məndə hansı düşüncələr yaratdı.
b) Hekayənin sonluğunu necə görmək istərdim.

**2. Nümunələrə münasibət bildirin.**

## III DƏRS I ARAŞDIRMA • TƏHLİL

**1. Əsərin mövzusu ilə bağlı qənaətlərinizi dəqiqləşdirin. Tövsiyələrə diqqət edin:**
– hadisələrin harada baş verdiyini xatırlayın;
– təsvir və hadisələrdə diqqətin daha çox nəyə cəlb edildiyini yada salın;
– baba və nəvənin acınacaqlı həyatı, kədərli taleləri barədə düşünün.

**2. Firuz baba obrazını səciyyələndirməyə çalışın. Cədvəldəki tələbləri nəzərə alın:**

| Firuz baba obrazı | | | |
|---|---|---|---|
| Xarakterindəki başlıca cəhətlər | Müxtəlif vəziyyətlərdə davranışı | Fərqli məqamlarda hiss və düşüncələri | Nəvəsinə münasibəti |
| | | | |

**3. Sürəyya obrazı üçün səciyyəvi olan cəhətlər hansılardır? Tövsiyələri nəzərə alın:**
– xarakter və davranışı üçün mühüm olan cəhətləri xatırlayın;
– babasına və iş yoldaşlarına münasibətini yada salın;
– hiss və həyəcanlarını əks etdirən məqamların üzərində düşünün.

**4. Süjetin mərhələlərini və onlardakı mühüm məqamları izah edin.**

| Süjetin mərhələləri | Mərhələlərin mühüm məqamları |
|---|---|
| Bədii müqəddimə | |
| Düyün | |
| Zirvə | |
| Düyünün açılması | |
| Final | |

**5. Əsərdəki təsvir və ifadə vasitələrinin bədiiliyin artmasına verdiyi töhfəni izah edin.**

| | |
|---|---|
| Təsvir və ifadə vasitələrinin işləndiyi cümlələr ⇨ | |
| Bədiiliyin artmasına onların təsiri ⇨ | |

**6. Hekayənin əsas ideyasını şərh etməyə çalışın. Sxemdəki fikirlərlə tanış olun. Seçdiyinizi, yaxud öz variantınızı nümunələrlə əsaslandırın. Müəyyənləşdirdiyiniz mətləbləri nəzərə alın.**

Əsərin əsas ideyasına hansı daha uyğundur?

1. Milli azadlıqdan məhrum olan xalq xoşbəxt yaşaya bilməz.
2. Xalqın firavan yaşaması dövlətin qayğısından asılıdır.
3. Cənubi Azərbaycandakı soydaşlarımızın azad yaşayacağı gün gələcəkdir.

Nə üçün belə düşünürsünüz?

Sizin variantınız

**7. Ə.Məmmədxanlının "Qızıl qönçələr" hekayəsi ilə M.İbrahimovun "Azad" hekayəsini müqayisə etməyə çalışın. Cədvəldən istifadə edin.**

| Müqayisə olunan əsərlər | Hansı cəhətlərə görə müqayisə olunurlar | | | | | | | |
|---|---|---|---|---|---|---|---|---|
| | Mövzuları | | İdeyaları | | Obrazlarının taleyi | | Müəlliflərin niyyəti | |
| | oxşarlıq | fərq | oxşarlıq | fərq | oxşarlıq | fərq | oxşarlıq | fərq |
| Ə.Məmmədxanlı. "QIZIL QÖNÇƏLƏR" | | | | | | | | |
| M.İbrahimov. "AZAD" | | | | | | | | |

## II İFADƏLİ OXUYA HAZIRLAŞIN

**I. Hekayədən seçilmiş parçanın ifadəli oxusuna hazırlaşın. Aşağıdakı tələbləri ardıcıl olaraq yerinə yetirin.**

1. Əsərdən parçanı bir daha oxuyun.
2. İfaçılıq vəzifəsini – dinləyicilərə nəyi çatdıracağınızı müəyyənləşdirib mətnin sağ kənarında yazın.
3. Cümlələrin oxusunda səsinizin aldığı çalarları (kədər, hüzn və s.) ifaçılıq vəzifəsinin altında qeyd edin.
4. Fasilələrin yerini, məntiqi vurğulu sözləri, səsin ucalığını, sürətini müəyyən edib şərti işarələrlə göstərin.
5. Tənəffüs məqamlarını (dərindən nəfəsalma: Dn, əlavə nəfəsalma: Ən) müəyyən edib mətnin üzərində qeyd edin.
6. Sait və samit səslərin müxtəlif məqamlarda tələffüzünə diqqət yetirin.

Yuxusunda geniş üfüqdə böyük və qızıl bir günəş doğurdu.

İndi onun özünün yaşadığı rütubətli, qaranlıq zirzəmi də bu günəşin işıqları ilə dolmuş, döşəmə və divarlar onun toxuduğu qızıl qönçəli xalılarla döşənmiş və bəzənmişdi. Günəşin şüaları vurduqca onun toxuduğu xalçalar üzərindəki qönçələr bir-bir açılır, onların hər biri bir qızılgülə dönürdü... Bunu görən Sürəyya sonsuz bir sevinclə od kimi yanan qönçələrin üzərinə yüyürür, bir-bir oxşamaq istəyirdi. Onları qoparmağa ürəyi gəlmirdi.

**İFAÇILIQ VƏZİFƏSİ**

| |
|---|
| |

Səsin aldığı çalarlar

| |
|---|
| |

**II. İşinizin nəticəsini aşağıdakı qaydalara uyğun yoxlayın.**

1. İcra etdiklərinizi nəzərdən keçirib dəqiqləşdirmələr aparın.
2. Gəldiyiniz nəticələri cütlük şəklində, yaxud kiçik qruplarda müzakirə edin.
3. İfaları dinləyib münasibət bildirin.



Narıngül Nadir
(1961)

O, payızın, küləyin və ağappaq qarın şairidir. Narıngül Nadirin çəkdiyi tabloda soyuğun, küləyin və bu soyuğu, küləyi özündə yaşadan tənhalığın poetik cizgiləri əks olunur. Bu cizgilərin bir çoxu isə təzədir, kimsə onları çəkməyib. Onun şeirlərində bir rəssam duyğusu, ancaq sözlə çəkilən rənglər, cizgilər vardır...

Vaqif Yusifli

# PEŞMANLIQ

(ixtisarla)

**Yadasalma** • Qəhrəmanları uşaqlar olan hansı əsərləri xatırlayırsınız? Bu qəhrəmanlar hansı cəhətləri ilə yadınızda qalıb?

I DƏRS | I OXU • ANLAMA

**1. Mətni oxuyun.**

**2. Təəssüratınızı bölüşərkən aşağıdakı sualları nəzərə alın.**

– Şeirin məzmunu sizə maraqlı gəldimi?
– Elçin obrazı sizdə hansı təəssürat yaratdı?
– Əsərdə sizə daha çox təsir edən nə oldu?

**3. İkinci sütundakı suallara cavab hazırlayın. Dərinləşdirilmiş oxu məqsədilə mətnə yenidən nəzər salın.**

Elçin çox ərköyündü, hey nadinclik edirdi,
Dərs oxumur, məktəbə çox könülsüz gedirdi.
Evə qayıdan kimi çantasını atırdı,
Çalışmırdı... başını dəcəlliklə qatırdı.

Gah ağaca dırmanır, gah budaq sındırırdı,
Gah daş atıb pəncərə şüşəsini qırırdı.
Gah xəlvət quş gətirib o, sinfə buraxırdı,
Bir macəra olmasa, məktəbdə darıxırdı.

• Sizcə, Elçinin nadinclik etməsinə səbəb nə idi?
• Dərslərinə, məktəbə münasibəti necə idi?

Kəmalənin saçını bağlayırdı partaya,
Qızcığaz da hirslənib az qalırdı ağlaya.
Nə kitaba baxırdı, nə açırdı dəftəri,
Onu tənbeh edirdi hər gün sinif rəhbəri.

Bir gün siniflərində deyib-gülürdü hamı,
Möhtəşəm bir bayramdı – Müstəqillik bayramı.
Uşaqların dilində nəğmələr səslənirdi,
Bikar oturan Elçin baxıb həvəslənirdi.

Özü də dərk edirdi, yamanca gözdən düşüb,
Baxan yoxdur üzünə, elə bil hamı küsüb.
Anaların ürəyi fərəhlə döyünürdü,
Hərə öz əməyinin barıyla öyünürdü.

Birdən Elçinin gözü sataşdı anasına,
Ana məyus, narazı çəkilmişdi bir yana.
Yanağında tutqunluq, baxışında duman, çən,
Üzüntüsü, kədəri bəlli idi üzündən.

Bu, Elçinə həyatın ilk böyük dərsi oldu,
İndi ona hökm edən vicdanın səsi oldu.
Xəcalət hissi onu yaman çəkdi dərinə,
Çünki utandırmışdı ananı öz yerinə.

Geçikmiş peşmanlığın indi varmı mənası?
Bu gün fərəhlənəydi kaş onun da anası!
Ananın bu halından Elçin yaman darıldı,
Evə qayıdan kimi kitablara sarıldı.

- O, sinif yoldaşları ilə necə davranırdı?
- Şagirdlər möhtəşəm bayramı necə keçirirlər?
- Elçin bayram günü özünü necə aparır? O nə hiss edir?
- Anasının məyus olması Elçində hansı düşüncələr yaradır?
- Onun qəlbindən hansı arzular keçir?
- Elçinin dərsliklərinə meyil salması, onlardan möhkəm yapışması nədən xəbər verir?

SÖZLƏR TANIŞDIRMI?

- macəra
- tənbeh
- möhtəşəm
- bar
- məyus
- darılmaq
- sarılmaq

## II ÖYRƏNDİKLƏRİNİZİ YOXLAYIN

**1. Uyğun bəndləri seçməklə doğru cavabı müəyyən edin.**

**Doğrudur**

1. Elçin günlərini boş keçirir, daha çox macəra, əyləncə sevirdi.
2. Elçin öz hərəkətləri ilə dərsə mane olur, yoldaşlarını incidirdi.
3. Elçin tədbirlərdə iştirak etməsə də, bəzən dərslərinə yaxşı çalışırdı.

**Yanlışdır**

4. Yoldaşları Elçinlə pis davranır, onunla dostluq etmirlər.
5. Elçin düşdüyü vəziyyətdən nəticə çıxarıb doğru yol seçir.
6. Elçinin anası uşaqların uğurunu görüb pərt olur.

A) 1, 4, 5, 6 B) 2, 3, 4, 5, C) 3, 4, 5, 6 D) 1, 2, 4, 6 E) 1, 3, 5, 6

**2. Səbəb-nəticə əlaqələrinin doğru variantlarını müəyyənləşdirin.**

| Səbəb | Nəticə |
|---|---|
| 1. Elçin anasının məyus, kədərli olduğunu görür.<br>2. Sinif rəhbəri Elçini tənbeh edir. | Elçin peşmanlıq hissi keçirir. |
| Uşaqlar nəğmə oxuyur, Müstəqillik bayramını qeyd edirlər. | 3. Anaları onlara baxıb sevinir, fərəhlənirlər.<br>4. Elçinin qəlbində qibtə hissi baş qaldırır. |

A) 1, 3 B) 1, 2 C) 2, 4 D) 2, 3 E) 1, 4

## III MÖHKƏMLƏNDİRMƏ • ZƏNGİNLƏŞDİRMƏ

1. Şeirdəki mətləbləri aydınlaşdırın.
2. Çıxışlara münasibət bildirin.

## IV NİTQİN, DÜŞÜNCƏNİN İNKİŞAFI

**1. Mövzulardan birini seçib şifahi təqdimata hazırlaşın.**

a) Şeirdən seçdiyiniz iki bəndi nəsrə çevirin. Məzmununu geniş danışın.

b) Şeir məktəb həyatı haqqında düşüncəmə yeni nə əlavə etdi.

**2. Çıxışlara münasibət bildirin.**

## V MÜZAKİRƏ

1. Şeirin hansı mövzuda yazıldığını müzakirə yolu ilə müəyyənləşdirin.
2. Müzakirədə fəal iştirak edin.

## II DƏRS I ARAŞDIRMA • TƏHLİL

**1. Şeirin mövzusu ilə bağlı qənaətlərinizi dəqiqləşdirin. Tövsiyələrdən faydalanın:**

– şeirdə, əsasən, kimdən, nədən danışıldığını yada salın;
– Elçinin davranış və əməllərinin nəticələri barədə düşünün;
– onun oxuduğu sinif və məktəb barədəki təsəvvürünüzü xatırlayın.

**2. Elçin obrazını necə səciyyələndirərsiniz? Tövsiyələrə diqqət edin:**

– dərslərinə, məktəbə, yoldaşlarına münasibətini xatırlayın;
– onun bayram günü keçirdiyi hissləri yada salın;
– anasının məyus olmasından necə təsirləndiyini xəyalınızda canlandırın.

**3. Şeirin əsas ideyasını şərh edin. Fikirlərlə tanış olun. Seçdiyinizi, yaxud öz variantınızı əsaslandırmağa çalışın. Şeirdə müəyyənləşdirdiyiniz mətləbləri nəzərə alın.**

Fikirlərdən hansı əsərin ideyası üçün daha uyğundur?

1. Düşünülməmiş atılan addım adamı gözdən salar.
2. Elə yaşamalısan ki, sonra peşman olmayasan.
3. Qüsurlu davranış və əməllərdən uzaqlaşmaq mümkündür.

Nə üçün belə düşünürsünüz?

Sizin variantınız

## II İFADƏLİ OXUYA HAZIRLAŞIN

1. Şeirin ilk iki bəndinin ifadəli oxusunu hazırlayın. Məntiqi fasilələrin və məntiqi vurğulu sözlərin fərqləndirilməsinə diqqət yetirin.
2. Digər şərti işarələrdən də istifadə edə bilərsiniz.
3. Nümunəyə diqqət edin.
4. İfalara münasibət bildirin.

Özü də dərk edirdi, | yamanca gözdən düşüb, |
Baxan yoxdur üzünə, | elə bil hamı küsüb. |
Anaların ürəyi | fərəhlə döyünürdü, |
Hərə öz əməyinin | barıyla öyünürdü. ||

İFAÇILIQ VƏZİFƏSİ

Təəssüf, fərəh hissinin ifadə edilməsi

təəssüflə

fərəhlə

**Növbəti dərsə qədər**

Asudə vaxtınızda dərsliyinizdən E.Hüseynbəylinin "Nəvə" hekayəsini oxuyun.



Elçin Hüseynbəyli
(1961)

O, kiçik hekayələrin, böyük romanların da ustasıdır. Bu əsərlərin maraqla oxunmasının birinci səbəbi isə dil zənginliyi, üslub aydınlığıdır. Elçinin dil-üslub tərzində yenilik olduğunu bütün əsərlərində müşahidə etmək mümkündür.

Tofiq Hacıyev

# NƏVƏ

**Yadasalma** • Baba və nəvə, nənə və nəvə obrazlarının iştirak etdiyi hansı əsərləri xatırlayırsınız? Bu əsərlərdə diqqətinizi daha çox çəkən nə olub?

I DƏRS I OXU • ANLAMA

**1. Mətni oxuyun.**
**2. Təəssüratınızı bölüşərkən aşağıdakı sualları nəzərə alın.**
– Təsvir və epizodlardan hansını daha maraqlı hesab etdiniz? Nə üçün?
– Kamalın sizdə yaratdığı ilkin təəssürat nə oldu?
– Əsərdə gülüş doğuran təsvir və səhnələr varmı?
**3. İkinci sütundakı suallara cavab hazırlayın. Dərinləşdirilmiş oxu məqsədilə mətnə yenidən nəzər salın.**

İllər ötsə də, olub-keçənlər indiki kimi yadımdadır. Hər şey qəfil baş verdi. Həyət-bacada qısqıvraq gəzən, saysız-hesabsız – mənə elə gəlirdi – toyuq-cücə saxlayan nənəm xəstələndi. Yaşı yetmişi ötən nənəm, deyilənlərə görə, ömründə xəstəlik nədir, bilməmişdi.

Amma indi xəstələnmişdi. Həm də, deyəsən, bərk xəstələnmişdi. Başqa vaxt məni buyurub-çağırmayan nənəm indi hərdən yazıq-yazıq mənə baxır, dodaqlarını güclə tərpədib su istəyirdi.

Tərs kimi, babam da evdə yox idi, qış üçün odun tədarükünə getmişdi, on-on beş gün olmayacaqdı. Xəstə nənəmlə tək qalmışdım. Dərd məni götürmüşdü, başımı itirmişdim.

- Təsvir olunan hadisələr harada və nə vaxt baş verir?
- Əhvalatı kim danışır?
- Nənə ilə nəvə arasında münasibətin necə olduğunu duydunuzmu? Fikrinizi nümunələrlə əsaslandırın.

Nənəmin xəstələndiyi elə birinci gün çox mətləblər mənə aydın oldu. Məsələn, aydın oldu ki, çay dəmləməyi bacarmıram. Bunu nənəmin əl hərəkətlərinin, baxışlarının köməyi ilə yarımca günə öyrəndim. Əsas məsələ o imiş ki, dəm çaynikini qaynamağa qoymayasan. Dəm çaynikindən və nənəmin "qəfədan" dediyi böyük çaydandan süzdüyüm çayı şəstlə onun çarpayısının yanındakı stulun üstünə qoydum. Axtarıb çətinliklə tapdığım zoğal mürəbbəsindən bir neçə qaşıq stəkana boşaltdım. Stəkandakı çayın daşaraq nəlbəkiyə, stulun üstünə dağılması nənəmin xoşuna gəlməsə də, onun baxışlarından duyurdum, səsini çıxarmadı. Doğrudur, qonşu Nübar xala turşulu şorba bişirib gətirirdi, amma xəstəyə mən qulluq etməli olurdum. Şəhərə – atama-anama zəng etmək istəyimə nənəm mane oldu: "Xəbər vermə, iş-güclərindən qalmasınlar, bir-iki günə ayağa qalxaram".

Məsələ onda idi ki, atamla anam məni bir ay olardı kəndə göndərmişdilər. Dostlarımdan, oxuduğum məktəbdən uzaq düşmüşdüm.

Kənddə nə qədər qalacağımı, neçənci sinfə kimi oxuyacağımı bilmirdim.

Kənd uşaqları ilə qaynayıb-qarışmaq mənim üçün elə də çətin olmadı. Burda xoşuma gələn şeylər də çox idi. Amma ən çox narı xoşladım. Nar, həqiqətən, mənim çox xoşuma gəlirdi. Çünki onun qıpqırmızı, sürüşkən dənələri vardı və onu uşaqların üzünə pısqırtmaq çox asan idi. Bir neçə gündən sonra isə dərslər başlanırdı. Və mən fikirləşirdim ki, nənəm tezliklə sağalmasa, çoxdan gözlədiyim arzuma çatmayacağam. Axı uşaqların ilk dərs günü geyəcəkləri ağappaq köynəklərə qıpqırmızı nar dənələrini pısqırtmaq arzusunda idim.

- Nənənin xəstələnməsi nəvəyə necə təsir edir? O hansı qayğıları çəkməyə məcbur olur?
- Nəvənin çətinlik çəkməsinə səbəb nə idi?
- Onu fərasətli saymaq olarmı?



Deyəsən, dərsə getməyə bir də ona görə həvəslənirdim ki, məni, ola bilər ki, şəhərə – öz evimizə göndərərlər. Təkrar edim ki, mən kəndə sanki sürgünə göndərilmişdim. O vaxt mənə elə gəlirdi ki, elə bir qəbahət iş tutmamışam. Sadəcə olaraq, bir dəfə şəhərdəki qonşunun pəncərəsinin şüşəsini qırmışdım, bir dəfə də dərs zamanı müəllimənin çantasına baxmışdım.

Bir dəfə də özümdən bir yaş kiçik qardaşımı ağaca bağlamışdım... Əlbəttə, qardaşımı çox axtarmış, axşamdan xeyli keçmiş sağ-salamat tapıb evə gətirmişdilər və məni yandıran o idi ki, heç kim mənim zarafat elədiyimə inanmırdı. Heç məni çox istəyən nənəm də...

Bir dəfə də qonşunun pişiyini bütün günü ac-susuz balkonumuzda bağlı saxlamışdım. Əlbəttə ki, indi hər şey yadımda qalmayıb və mənə elə gəlirdi ki, elə bir pis iş tutmamışam.

Kəndə göndərilməyimi tezləşdirən, deyəsən, kənddən bizə qonaq gəlmiş əmim oğlunu dənizin kənarına aparıb "unutmağım" olmuşdu. Bunun da günahkarı, düzünə baxsan, əmim oğlunun özü idi. Çünki o, həmişə məni cırnadırdı və deyirdi ki, hər şeyi, hətta dombalaq aşmağı da məndən yaxşı bilir. Bəlkə də, mən onun dediklərini vecimə almazdım. Ancaq dombalaq aşmaq məsələsində o, tamam haqsızıydı, çünki harda gəldi dombalaq aşmaq – özü də necə lazımdı – mənim adətim idi və qonaqlar yanında da öz məharətimi göstərmək üçün bu əməliyyatı həyata keçirəndə bir neçə dəfə danlanmışdım da... Mən də acığa düşüb əmim oğlunu dənizin qırağında qoyub gizlənmişdim. Sonra da başım şəhərin küçələrində şütüyən maşınların nömrələrini saymağa qarışmışdı və sevimli əmim oğlunu yadımdan çıxarmışdım. Əslində, elə pis bir şey olmadı və onu tapıb gətirdilər. Nənəm həmişə olduğu kimi, mənim tərəfimi saxladı və dedi ki, bunun nə yaşı var, hələ körpədir...

Həmin il mən beşinci sinfə gedirdim və hər şey öz qaydasında idi. Ancaq bir gün əlim dinc durmadı və mən qələmdən əlimə düşmüş rəngi özümdən qabaqda oturan Könülün ağappaq bantı ilə sildim...

Yadımdadır ki, həmin gün nənəm məni danışdırmadı və atam məni balkonda saxladı. Məktəb bağlanan kimi də atamın göstərişi, nənəmin və babamın təkidi ilə məni göndərdilər kəndə.

Onsuz da babamgil bizdə – şəhərdə olanda kənddən ötrü darıxırdılar və bir bəhanə ilə ora qayıtmaq, məni də özləri ilə aparmaq istəyirdilər. Düzdür, kəndə göndərilməzdən qabaq evdə iclasabənzər bir yığıncaq keçirildi. Mənim bütün həyatım xatırladıldı – ayağım ilişib yıxılmağımdan tutmuş mənimçün son bədbəxt hadisəyə, yəni qonşunun sevimli pişiyini ac-susuz saxlamağıma qədər...

- Nəvə kəndə – "sürgünə" göndərilməsinin səbəbini necə izah edir?
- Öz əməllərində qəbahət görməyən nəvə haqlı idimi?
- Nəvənin əməlləri, davranışı sizdə təəssüf hissi doğurur, yoxsa gülüş? Fikrinizi əsaslandırın.

Bugünkü kimi yadımdadır, atamla üzbəüz oturmuşdum, onun dediklərini başımla təsdiqləyirdim. Düzünü deyim ki, atamın söylədiklərində həqiqətəoxşar şeylər çox idi və mən onun dediklərini həvəslə dinləyirdim, öz hərəkətlərimi götür-qoy edirdim, fikirləşirdim ki, çox şeyləri daha da maraqlı etmək olardı. Məsələn, əlimi Könülün ağappaq bantına yox, palıdı donuna da silə bilərdim, onda rəng bilinməzdi. Müəllimənin çantasına isə dərsdən sonra – onunla hazırlaşanda da fürsət tapıb baxa bilərdim. Ancaq pişik məsələsində mənim məharətimə söz ola bilməzdi və elə indi də onu ac saxlamağıma peşman deyiləm. Çünki o pişikciyəz mənim xoşladığım sərçələri qəflətən tutub yeməyə öyrəşmişdi və bu da məni bərk qəzəbləndirirdi. Bütün bu kəşfləri fikirləşən zaman atam hələ sözünü davam etdirirdi və öz nitqindən, deyəsən, vəcdə gəlirdi.

SÖZLƏR TANIŞ-DIRMI?
- qısqıvraq
- vəcd

## II ÖYRƏNDİKLƏRİNİZİ YOXLAYIN

**1. Uyğun fikirləri seçməklə doğru cavabı müəyyən edin.**

| Doğrudur | Yanlışdır |
| --- | --- |
| 1. Nənə həmişə nəvəsini müdafiə edir, onun etdiklərini qəbahət saymır. | 4. Kamal atasını dinlədikcə əməllərindən peşman olur və utanır. |
| 2. Kamal uzun müddət kənd uşaqlarına alışa bilmir. | 5. Kamal kənddə də uşaqları incitmək üçün yeni planlar qurur. |
| 3. Kamal heç vaxt özünü günahkar hesab etmir. | 6. Nəvə tənbəl olduğu üçün nənəsinə başdansovdu qulluq edir. |

A) 1, 4, 6 B) 2, 4, 5 C) 3, 4, 6 D) 1, 2, 4 E) 1, 3, 5

**2. Səbəb-nəticə əlaqələrinin doğru variantlarını müəyyənləşdirin.**

| Səbəb | Nəticə |
| --- | --- |
| Kamal dəcəldir, bəzən pis nəticələnə bilən hərəkətlər də edir. | 1. Valideynləri onu kəndə göndərirlər.<br>2. Yoldaşlarından, məktəbindən ayrı düşür.<br>3. Kamal tez-tez xəstələnən nənəsinə qulluq etməli olur. |
| Nənə xəstələnir. | 4. Nəvə ona qulluq etmək üçün kəndə – nənəsigilə gəlir.<br>5. Nəvə ona qulluq etmək üçün məişət işlərini öyrənməli olur.<br>6. Nəvə düşündüyü planının baş tutmayacağına təəssüflənir. |

A) 1, 3, 5, 6 B) 1, 2, 4, 6 C) 2, 4, 5, 6 D) 2, 3, 4, 5 E) 1, 2, 5, 6

## III NİTQİN, DÜŞÜNCƏNİN İNKİŞAFI

1. Əsərdən seçdiyiniz parçanın məzmununu yaradıcı danışmağa hazırlaşın.
2. Çıxışlara münasibət bildirin.

## IV YARADICI İŞ

1. Müstəqil işlədiyiniz hekayədə obrazların nitqi, bir-birinə münasibəti, portreti ilə bağlı əlavələr üzərində düşünün.
2. Əsas süjet xətti ilə əlavə süjet xətlərinin əlaqələrinə diqqət yetirin.
3. Hekayənin hazırlanması üzrə işi davam etdirin.

**Növbəti dərsə qədər**

Asudə vaxtınızda əsərin davamını oxuyun. Ehtiyac duysanız, dərinləşdirilmiş oxu məqsədilə mətni yenidən nəzərdən keçirin.

## II DƏRS I OXU • ANLAMA

**1. Mətni oxuyun.**

**2. Təəssüratınızı bölüşərkən aşağıdakı sualları nəzərə alın.**

– Kamal haqqında təəssüratınıza yeni nə əlavə olundu?

– Həmyaşıdlarının – kənd uşaqlarının Kamala münasibətlərində diqqətinizi daha çox çəkən nə oldu?

**3. İkinci sütundakı suallara cavab hazırlayın. Ehtiyac duysanız, mətni bir daha diqqətlə oxuyun.**

*Əsərin davamı*

Məni əsəbiləşdirən isə böyrümdə oturub başımı sığallayan, hərdən də alnımdan, üzümdən öpən anam idi və onun saçlarımda ilişən barmaqları atamın dediklərini başımla təsdiqləməyimə mane olurdu, həm də fantaziyalarımın inkişafını ləngidirdi...

Əslinə qalsa, dediyim kimi, kənd mənim daha çox xoşuma gəlirdi. Çünki mənim burada böyük hörmətim vardı və heç kim məni acılamırdı. Mən şəhərdən gəlmişdim, kənd uşaqları mənə fəxrlə baxırdılar. Ona görə də onlar məni arabaya qoyub hara istəsəm, aparırdılar, hərdən mənim tələbimlə əllərini göyə qaldırıb at kimi kişnəyirdilər.

- Kamalın kənd həyatını xoşlamasına səbəb nə idi?

Ümumən, hər şey yaxşı idi və mən, deyəsən, kənddə doğulmadığıma heyifsilənirdim...

Bizim evdən bir az aralıdakı meydançada uşaqlar futbol oynayırdılar və mən lap dilxor olurdum. Mənsiz oyun, yəqin ki, maraqsız idi. Çünki onların balaca rezin topları vardı. Yekə dəri top isə ancaq məndəydi və kənddə belə toplara Pelenin oynadığı top kimi baxırdılar. Mən oynamayanda topu onlara vermirdim, oynasam, mütləq kapitan olmalıydım. Mənim şərtim beləydi. Özü də on bir metrlik cəriməni özüm vurmalıydım və meydanın hansı tərəfində yıxılmağımın bu cəriməyə dəxli yoxuydu. On bir metri isə özümün xırdaca addımlarımla ölçürdüm. Mənim topumu qaytaran uşaq mütləq oyundan çıxarılmalıydı. Ona görə də heç kim mənim topumu tutmaq istəmirdi.

Top əyri gedəndə isə on bir metrlik təkrar edilirdi. Çünki topun əyri getməsinə it hürüşü, kiminsə asqırması, yaxud dərindən nəfəs alması da səbəb ola bilərdi.

Hərdən mən hirslənirdim də. Onda topu qoltuğuma vurub bir xeyli oynamağa ara verirdim və müəyyən mükafat müqabilində məni ələ alırdılar. Adətən, mən oynadığım komanda udmalı idi, çünki mən ertəsi gün topumu verməyə bilərdim.

Əlbəttə, bütün bu həngamələr mübahisəsiz ötüşmürdü və mövqeyimi müdafiə etmək üçün mənə xeyli enerji sərf eləmək lazım gəlirdi.

Nənəmin yastığının dibini kəsib oturduğum müddətdə uşaqlar bir neçə dəfə bizə gəldilər. Onlar mənim dərdimə şərik olduqlarını bildirmək üçün dəridən-qabıqdan çıxırdılar. Əslində, doğrudan da, dilxor olmuşdular. Axı mənsiz onların heç bir işi keçmirdi. Uşaqların narahat olmağı xoşuma gəlirdi. Çox istəyirdim ki, hamı elə həmişə mənimlə maraqlansın və mən daim diqqət mərkəzində olum. Nənəmin xəstəliyi isə uzanırdı. Mənim də əziyyətim çoxalırdı. Amma öyrəndiklərim də az deyildi.

Tezdən qalxır, su hazırlayır, nənəmin əl-üzünü yumasına yardım edirdim. Artıq çay dəmləməyi, Nübar xalanın bişirdiyi xörəyi isitməyi, qablara çəkməyi öyrənmişdim. Nənəmin arzusu ilə iki dəfə kartof qaynatmış, əllərim yana-yana qabıqlarını təmizləmiş, gözlərimin yaşarmasına baxmayaraq, soğan doğrayıb əməlli-başlı yemək hazırlamışdım. Get-gedə başqa işlərə də alışırdım, nənəmin etirazına baxmayaraq, otaqları süpürür, həyətdəki quyudan su çəkir, yetişmiş pomidorları bostandan yığırdım. Toyuq-cücəyə dən səpmək, su qoymaq, hini təmizləmək, ağacların dibinə tökülmüş meyvələri yığıb səliqə ilə çardağın altında düzmək mənim üçün adi işə çevrilmişdi.

- Kamal uşaqlarla oyun zamanı hansı ədalətsizliklərə yol verirdi?
- “Çox istəyirdim ki, hamı elə həmişə mənimlə maraqlansın və mən daim diqqət mərkəzində olum” – Kamalın bu istəyinin səbəbini necə izah edərsiniz?
- Yuxudan tezdən qalxan, evdə, həyətdə aramsız işləyən Kamal keçmiş əyləncələri barədə nə düşünür?

Oynamaq-filan getdikcə yadımdan çıxır, ən maraqlı əyləncələrim vaxt ötdükcə mənə gülünc görünürdü. Nübar xalanın mənim haqqımda dediklərinə özüm də təəccüblənirdim: "Maşallah, od parçasıdır Kamal. Heç elə bil şəhər uşağı deyil, əlindən hər iş gəlir". Daha böyük mükafatım isə nənəmin razılıqla gülümsəməsi olurdu...

Yadımdadır ki, ən təəccüblü iş uşaqlar növbəti dəfə mənə baş çəkəndə oldu. Onları çardağın altındakı stolun arxasında oturmağa dəvət etdim. Hər birinin qarşısına bağçamızdakı meyvələrdən düzdüm, yemələrini xahiş etdim. Bu lütfkarlığım uşaqları təəccübləndirmişdi.

Onlar gördüklərinə və eşitdiklərinə inanmırdılar. Nəhayət, əllərini çəkinə-çəkinə meyvələrə uzatdılar, çarpayının altında saxladığım topu onlara verməyimi isə əsl möcüzə kimi qarşıladılar. Topu sığallayır, bir-birinə ötürür, bunun həqiqət olduğuna inanmaq istəyirdilər.

Bu, hələ harasıdır?! Mənə bağışlananları və zorla aldıqlarımı da sahiblərinə qaytardım. Ramiz göz yaşları içində mənə verdiyi, əslində, ondan qopartdığım uzun, naxışlı xətkeşi geri alanda heyrət içində idi. Sənan qotazlı, rəngbərəng ipi olan təsbehini əlində tutub çaşqın vəziyyətdə mənə baxır, bu səxavətin səbəbini anlamağa çalışırdı. İlqar nə vaxtsa çətinliklə ayrıldığı, bir tərəfi sınıq, heç nəyə yaramayan alışqanı yenidən əlində tutduğuna inana bilmirdi...

Məndə olanların hamısını sahiblərinə qaytardım. Mənə ad günümdə şəhərdə hədiyyə edilmiş qlobusu həmyaşıdıma – Elçinə bağışlamağım isə bütün kənddə bir neçə gün danışıldı.

Müflisləşsəm də, bir yüngüllük, rahatlıq duyurdum. Elə hisslər keçirirdim ki, mənim üçün tamamilə yeni idi. Deyəsən, bu, əsl xoşbəxtlik idi...

Atamla anamın qəfil gəlişi mənim üçün sürpriz oldu. Anam codlaşmış əllərimdən tutanda göz yaşlarını saxlaya bilmədi.

- Ona sonuncu dəfə baş çəkməyə gəlmiş uşaqlarla lütfkarcasına rəftarı sizi düşündürdümü? Bu dəyişikliyə səbəb nə ola bilərdi?
- "Müflisləşən" Kamalın özünü xoşbəxt saymasının səbəbini necə izah edərsiniz?
- Nəvə gözlərinizin qarşısında dəyişir. Bu ona münasibətdə sizdə hansı yeni hiss və düşüncə yaratdı?
- Kamalın "sürgün müddətinin bitməsi", sizcə, nə ilə bağlı idi?
- Əsərin davamının olmasını istərdinizmi? Onun necə olmasını arzulayardınız?

**SÖZLƏR TANIŞDIRMI?**

- fantaziya
- hin
- lütfkarlıq
- müflisləşmək
- sürpriz



Atam özünü təmkinli apardı, amma gözlərindən mehribanlıq, razılıq oxunurdu.

Ürəyimdən keçən sualı onlara vermədim: "Məni şəhərə aparacaqsınız, yoxsa kənddə qalacağam?"

Anamın və atamın baxışlarından anladım ki, mənim sürgün müddətim bitib.

## II MÖHKƏMLƏNDİRMƏ • ZƏNGİNLƏŞDİRMƏ

**1. Mövzulardan birini seçib şifahi təqdimata hazırlaşın.**

a) Əsərdə mühüm hesab etdiyiniz mətləblər hansılardır? Fikrinizi nümunələrlə əsaslandırın.

b) Nəvə obrazının şıltaq, dəcəl olmasının səbəbini izah edin.

**2. Çıxışlara münasibət bildirin.**

## III NİTQİN, DÜŞÜNCƏNİN İNKİŞAFI

1. Mənasını yeni aydınlaşdırdığınız sözlərin bir neçəsini cümlələrdə işlədin.
2. Mətnin başa düşülməsində həmin sözlərin rolunu izah edin.
3. Əsəri başa düşməyinizdə illüstrasiyaların rolu oldumu?
4. İşlərinizin nəticəsi ilə bağlı fikir mübadiləsi aparın.

## IV MÜZAKİRƏ

**1. Aşağıdakı mövzular üzrə müzakirəyə hazırlaşın.**

a) Hekayə hansı mövzuda yazılmışdır.

b) Əsərdə əsas konflikt nədir.

**2. Müzakirədə fəal iştirak edin.**

## III DƏRS I ARAŞDIRMA • TƏHLİL

**1. Əsərin mövzusu ilə bağlı qənaətlərinizi dəqiqləşdirin. Tövsiyələrə diqqət edin:**

– əsərdə, əsasən, nədən və kimin həyatından danışıldığına bir daha diqqət edin;

– hadisələrin baş verdiyi məkanları yada salın;

– əsərdəki mühüm hadisələrin səbəb və nəticələri üzərində düşünün.

**2. Kamal obrazını səciyyələndirməyə çalışın. Tövsiyələri nəzərə alın:**

– hansı hadisə onun mühüm qərar qəbul etməsinə səbəb oldu;

– nənəsinin xəstələnməsindən əvvəl və xəstəlik dövründəki davranış və əməllərini müqayisə edin;

– ev-həyat işində çəkdiyi zəhməti, düşüncələrindəki dəyişikliyi yada salın.

**3. Kamalı oxuduğunuz hansı əsərin qəhrəmanı ilə müqayisə edə bilərsiniz? Müqayisə cədvəlindən, yaxud Venn diaqramından istifadə edin.**

| № | Obrazlar | Hansı cəhətlərə görə müqayisə olunurlar | | | | | | | |
|---|---|---|---|---|---|---|---|---|---|
| | | Xarakterlərindəki başlıca cəhətlər | | Davranış və əməlləri | | Başqalarına münasibətləri | | Müəlliflərin onlara münasibəti | |
| | | oxşarlıq | fərq | oxşarlıq | fərq | oxşarlıq | fərq | oxşarlıq | fərq |
| 1 | Kamal | | | | | | | | |
| 2 | | | | | | | | | |

**4. Hekayədə süjetin mərhələlərini və onlarda maraqlı hesab etdiklərinizi qısaca qeyd edin.**

| Süjetin mərhələləri | | | | |
|---|---|---|---|---|
| bədii müqəddimə | düyün | zirvə | düyünün açılması | final |
| | | | | |

**5. Konfliktləri nəzərə almaqla hekayənin əsas ideyasını şərh etməyə çalışın. Sxemdəki fikirlərlə tanış olun. Seçdiyinizi, yaxud öz variantınızı nümunələrlə əsaslandırın. Müəyyənləşdirdiyiniz mətləbləri nəzərə alın.**

Əsərin əsas ideyasına hansı daha uyğundur?

1. Faydalı işlə məşğul olmayanın həyatı mənasız olar.
2. Əməyə xor baxan başqasının zəhmətini qiymətləndirə bilməz.
3. Əmək insanı tərbiyə edir, dəyişir və doğru yol tutmasına səbəb olur.

Nə üçün belə düşünürsünüz?

Sizin variantınız

## II YARADICI İŞ

**1. "Nəvə" hekayəsinin müəllifi Elçin Hüseynbəyliyə ədəbi məktub yazın. Məktubda aşağıdakı tövsiyələri də nəzərə alın:**

– məktubu yazmaqda məqsədinizin nə olduğunu qısaca qeyd edin;
– əsər haqqındakı təəssüratınızı yığcam yazın;
– hekayədəki baş qəhrəman, təsvir və hadisələr barədəki qənaətlərinizi əsaslandırın;
– müəllifə arzu və təkliflərinizi bildirin.

**2. Məktublardan nümunələrin müzakirəsində fəal iştirak edin.**

# TƏTBİQ • ÜMUMİLƏŞDİRMƏ



Südabə Sərvi
(1962)

Onun əsərləri oxunaqlı dildə yazılıb. Mürəkkəb hiss və duyğular dilin zəngin imkanlarından ustalıqla istifadə edilməklə ifadə olunub. Ən mühümü isə bu əsərlərin oxucuya güclü təsir etməsidir. Onların qəhrəmanları yaddaqalan olub, əməlləri, idealları ilə oxucunu ciddi maraqlandırır və dərindən düşündürür...

Seyran Səxavət

## MƏKTƏB YOLLARI

**Yadasalma** • Çalışqan şagird obrazının təsvir olunduğu bədii əsərlərlə tanışsınızmı? Belə qəhrəmanlarda ən çox bəyəndiyiniz cəhətlər nə olur?

I DƏRS I OXU • ANLAMA

**1. Mətni oxuyun.**
**2. İlkin təəssüratınızı bölüşün.**
**3. Şeirin məzmununa aid üçdən az olmayaraq sual və onlara cavab yazın. Ehtiyac duysanız, dərinləşdirilmiş oxu məqsədilə mətni nəzərdən keçirin.**

Qəlbində həyəcan, baxışında nur,
Bir uşaq yollanır məktəbə sarı.
Anatək uzadıb öz qollarını
Onu salamlayır məktəb yolları.

Gözünə görünmür nə yağış, nə qar,
Dağınıq saçını öpür küləklər.
Ulduztək sayrışan duyğularını
Qışda qar oxşayır, yazda çiçəklər.

Bu yolda inamla addımlayır o,
Qazanıb hər kəsin etimadını.
İnşa da yazır o, şeir də qoşur,
Hamı çox bəyənir istedadını.

Heç bir tapşırığı qoymur yarıda,
Hər dərsi öyrənib çatdırır başa.
Bəzən qibtə edir yoldaşları da
Ondakı zəkaya, ondakı huşa.

Vaxt olur dərs deyən müəllimin də
Bitirir fikrinin o, sonluğunu.
Aldığı qiymətin sevinci ilə
Çıxarır canından yorğunluğunu.

İşıqlı sabaha uzanır yollar,
Çətin gecələrin səhəri gələr.
Arzular gül açar alın tərində,
Çəkdiyi zəhmətin bəhəri gələr.

## II ÖYRƏNDİKLƏRİNİZİ YOXLAYIN

1. Yazdığınız sualları və onların cavablarını müzakirə edin.
2. Çıxışlara münasibət bildirin.

## III MÖHKƏMLƏNDİRMƏ • ZƏNGİNLƏŞDİRMƏ

**1. Kiçik qruplarda iş.**

**I qrup:**
a) Şeirdə tanış olmayan sözlərin mənasının aydınlaşdırılması.
b) Birinci bənddə ifadə edilmiş fikirlərin müəyyən edilməsi, qısaca yazılması.

**II qrup:**
a) Şeirdə işlənmiş bədii təsvir və ifadə vasitələrinin və onların növlərinin müəyyənləşdirilməsi, qısaca qeyd edilməsi.
b) İkinci bənddə ifadə edilmiş fikirlərin müəyyən edilməsi, qısaca yazılması.

**III qrup:**
a) Üçüncü bənddə əksini tapmış fikirlərin müəyyən edilməsi, qısaca yazılması.
b) Şeirdə ahəng yaradan vasitələrin müəyyənləşdirilib qeyd edilməsi.

**IV qrup:**

a) Dördüncü və beşinci bəndlərdəki fikirlərin müəyyən edilməsi, qısaca yazılması.

b) İlk iki bənddə işlənmiş həmqafiyə sözlərin müəyyənləşdirilməsi, daha uğurlu hesab olunanların qeyd edilməsi.

**V qrup:**

a) Altıncı bənddə əksini tapmış fikirlərin müəyyənləşdirilməsi, qısaca yazılması.

b) Şeirdə əsas mətləblərin müəyyənləşdirilməsi, qısaca qeyd edilməsi.

**2. Yazılmış qeydlərin əsasında təqdimatların hazırlanması.**

**3. Təqdimatların dinlənilməsi və onlara əsaslandırılmış münasibət bildirilməsi.**

## IV MÜZAKİRƏ

**1. Müzakirədə aşağıdakı sualları əhatə etməyə çalışın.**

a) Şeir hansı mövzuda yazılıb?

b) Şeiri maraqlı edən cəhətlər hansılardır?

c) Əsərdə heca vəzninə məxsus hansı cəhətlər əksini tapıb?

d) Əsərin əsas ideyası nədir?

e) Əsərdən hansı nəticəni çıxarmaq olar?

**2. Əsəri Rafiq Yusifoğlunun "Çalışqan oğlan" şeiri ilə müqayisə edin. Müqayisə üçün əsaslar müəyyənləşdirin. Cədvəldən istifadə edə bilərsiniz.**

**3. Cavabları müzakirə edin.**

| Müqayisə olunan əsərlər | Hansı əsaslara görə müqayisə olunurlar | | | | | | | |
|---|---|---|---|---|---|---|---|---|
| | | | | | | | | |
| | oxşarlıq | fərq | oxşarlıq | fərq | oxşarlıq | fərq | oxşarlıq | fərq |
| S.Sərvi. MƏKTƏB YOLLARI | | | | | | | | |
| R.Yusifoğlu. ÇALIŞQAN OĞLAN | | | | | | | | |

Rafiq Yusifoğlu

### ÇALIŞQAN OĞLAN

Fatehgilin evləri məktəbdən çox uzaqdır,
Ancaq dərsə gecikməz, həmişə üzüağdır.

Zəngli saat vurmamış o, yuxudan oyanar,
Səliqəylə geyinib pəncərədən boylanar.

Çantasını götürüb hər gün məktəbə gedər,
Hamıya mehribandır, hamıya kömək edər.

İntizamlıdır, bilir hər bir anın qədrini,
Hamı, hamı istəyir bu oğlanın xətrini.

Oxumaqdan yorulmaz, düşünməkdən doymaz o,
Heç vaxt hazır yazını  köçürməyə qoymaz o.

Ancaq istiqanlıdır, Fateh yoruldum deməz,
Öyrənib bildiyini kimsədən əsirgəməz.

Hərdən lazım olanı internetdə axtarar,
Telefonla oynamaz, onun boş vaxtımı var?

Bu uşağın ürəyi arzularla doludur,
Getdiyi yol mərdlərin, ərənlərin yoludur.

Xəyallara dalır o, arzudan arzu doğur,
Kim zəhmətdən qorxmursa, onu gözləyir uğur.

Əməliylə qazanar insan xətir-hörməti,
Çalışqan olanların hədər getməz zəhməti...

# 5 TƏBİƏTİN GÖZƏLLİYİ, TƏBİƏTƏ QAYĞI



Doğma təbiətimiz bədii söz ustalarını həmişə maraqlandırmışdır. Təsadüfi deyildir ki, bədii əsərlərin əksəriyyətində təbiət təsvirlərinə bu və ya digər dərəcədə yer verilir. İnsanla təbiətin əlaqəsi, onların bir-birini tamamlaması, bir-birinə dayaq olması, bəzən isə bunun vacibliyini dəyərləndirə bilməyənlərin ölçüsüz əməl və hərəkətlərinin faciəyə, fəlakətə səbəb olması qüdrətli sənətkarların əsərləri üçün ayrıca mövzu olmuşdur...

Əvvəlki siniflərdə öyrəndiyiniz və müstəqil oxuduğunuz əsərlər təbiətin gözəlliyi, heyvanlar və quşlar aləmi barədə xeyli təsəvvür qazanmağınıza səbəb olub. Bu bölmədəki əsərlər təbiət, heyvanlar, quşlar aləmi ilə bağlı təəssüratınızı daha da zənginləşdirəcəkdir. İnsanla təbiət arasındakı əlaqələrdən, dostluqdan bəhs edən, gerçək həyat hadisələri ilə səsləşən gözəl bədii nümunələrlə tanış olacaq, heyrətlənəcək və bütün bunları dəyərləndirəcəksiniz.



Zahid Xəlil
(1942)

Azərbaycan uşaq ədəbiyyatının formalaşmasında, inkişafında və zənginləşməsində onun böyük xidmətləri vardır. Bir neçə nəslin sevimli yazıçısı olan Zahid Xəlil həm şeirləri, həm də nəsr əsərləri ilə kiçik oxucuların dərin məhəbbətini qazanmışdır. Yaratdığı ədəbi qəhrəmanlar oxucularına həmişə qəlbən yaxın olmuş, onların əqli-mənəvi inkişafına güclü təsir etmişlər.

İsa Həbibbəyli

# TORPAĞIN MƏHƏBBƏTİ

(ixtisarla)

**Yadasalma** • Qış fəslinə, bu fəsildə təbiətin aldığı mənzərəyə həsr edilmiş hansı əsərləri xatırlayırsınız? Belə əsərlərdə sizi daha çox nə maraqlandırıb?

I DƏRS | I OXU • ANLAMA

**1. Mətni oxuyun.**

**2. Təəssüratınızı bölüşərkən aşağıdakı sualları nəzərə alın.**

– Şeirdə diqqətinizi daha çox çəkən nə oldu?
– Qışda təbiətin aldığı mənzərə sizdə necə təəssürat yaratdı?
– Şeirdən hansı ovqatla ayrıldınız?

**3. İkinci sütundakı suallara cavab hazırlayın. Dərinləşdirilmiş oxu məqsədilə mətnə yenidən nəzər salın.**

Qışın ağ saçından utandı dağlar,
Üzünə dumandan bir örpək çəkdi.
Yayın həsrətinə dözmədi bağlar,
Söyüd yarpaq-yarpaq göz yaşı tökdü.

Qar yağdı, hər ağac qurdu bir dəyə,
Meşələr bənzədi bir ağ obaya.
Uşaqlar doyunca sevinsin deyə
Qayalar çevrildi Şaxta babaya.

- Şeirin ilk iki misrasındakı fikri necə başa düşdünüz, onlarda əks olunmuş mənzərəni təsəvvür edə bildinizmi?
- Söyüdün göz yaşı tökməsinə səbəb nədir, həm də nə üçün "yarpaq-yarpaq"?

Yollar da, çöllər də geydi ağappaq,
Dünya ağcaqayın meşəsi oldu.
Sübhəcən yem gəzib bərkdən ulamaq
Yenə yalquzağın peşəsi oldu.

Qış qalib gəlsə də köhlən atında,
Canında bir qorxu atəşi görür.
Yer rahat yatsa da qarın altında,
Hər gecə yuxuda günəşi görür.

Görür yoxa çıxıb ağcaqayınlar,
Qış da uşaq kimi çöldə bürüşüb.
Quşlarsa çıxarır min cür oyunlar,
Dünya öz əvvəlki şəklinə düşüb.

Görür ki, baharın yaşıl saçından,
Çöllərə gül-çiçək yağışı yağır.
Yapışıb günəşin qızıl saçından,
Çiçəklər çəməndə incilər yığır…

... Nə qədər qar, boran olsa da, fəqət,
Torpağı qızdırır öz məhəbbəti.
Üç ay qış paltarı geyir təbiət,
Qəlbində yaşadır yaz məhəbbəti.

- Ağacların dəyəyə, meşələrin obaya, qayaların Şaxta babaya bənzədilməsini necə təsəvvür etdiyinizi danışa bilərsinizmi?
- "Yollar da, çöllər də geydi ağappaq,
  Dünya ağcaqayın meşəsi oldu"

  misralarındakı fikri necə başa düşdünüz, bəs təsəvvürünüzdə hansı mənzərə canlandı?
- "Köhlən atında" qalib gələn qış nədən qorxmalı idi ki?
- Torpağın yuxuda gördüklərinin mənasını necə anladınız?
- Şeirin sonuncu bəndində ifadə olunmuş fikirləri necə izah edərsiniz?

**SÖZLƏR TANIŞDIRMI?**

- örpək
- dəyə
- oba
- ağcaqayın
- yalquzaq
- köhlən
- fəqət

## II ÖYRƏNDİKLƏRİNİZİ YOXLAYIN

**1. Fikirlərdən biri doğrudur.**

A) Qış at oynadır, öz varlığını əbədi hesab edir.
B) Qışın gəlişi ilə təbiət solğun, cansıxıcı görünür.
C) Təbiətdə heç bir canlı gözə dəymir.
D) Torpaq hər gecə yuxuda yazın gəldiyini, təbiətin canlandığını görür.
E) Yer rahat yuxusunun uzunmüddətli olmasını arzulayır.

**2. Boş xanaları uyğun fikirlərlə tamamlayın.**

| Səbəb | Nəticə |
|---|---|
| Qarlı qış gəlir. | 1.<br>2.<br>3. |
| 1.<br>2.<br>3. | Qar-boran üç ay davam etsə də, təbiət, torpaq donub məhv olmur. |

## III MÖHKƏMLƏNDİRMƏ • ZƏNGİNLƏŞDİRMƏ

1. Şeirdə mühüm hesab etdiyiniz mətləbləri izah edin.
2. Şeirin janr və vəzn xüsusiyyətlərini şərh edin.
3. Misra, qafiyə, misradaxili bölgülərin ahəngin yaranmasına təsirini izah edin.
4. Çıxışlara münasibət bildirin.

## IV NİTQİN, DÜŞÜNCƏNİN İNKİŞAFI

1. Mənasını yeni aydınlaşdırdığınız sözlərin əsərin məzmununun başa düşülməsində rolunu izah edin.
2. Sözlərdən bir neçəsini cümlələrdə işlədin.
3. Oxunmuş nümunələrə münasibət bildirin.

## V MÜZAKİRƏ

1. Şeirin hansı mövzuda yazıldığını müzakirə yolu ilə müəyyənləşdirin.
2. Müzakirədə fəal iştirak edin.

## II DƏRS I ARAŞDIRMA • TƏHLİL

**1. Şeirin mövzusu ilə bağlı qənaətlərinizi dəqiqləşdirin. Tövsiyələrdən faydalanın:**

– şeirdə nədən danışıldığını yada salın;
– əsərdəki mətləblərin bir-biri ilə əlaqəsi üzərində düşünün;
– müəllifin gəldiyi nəticəni yada salın.

**2. Qış fəslinin özünəməxsusluğu şeirdə uğurla ifadə edilibmi? Tövsiyələrə diqqət edin:**

– dağların, çöllərin, meşələrin, bağ-bağçanın aldığı qış görkəminin necə təsvir edildiyini yada salın;
– qışın heyvanlar aləminə təsiri barədə şeirdə deyilənləri xatırlayın;
– təbiətin qış fəslində aldığı mənzərənin əsərdəki təsvirinin oxucuda hansı hiss-düşüncə yaratdığını müəyyənləşdirməyə çalışın.

**3. Şeirdə bədiiliyin artmasına töhfə verən vasitələrin rolunu izah edin. Tövsiyələri nəzərə alın:**

– bədii təsvir və ifadə vasitələrindən istifadə etməklə şairin nəyə nail olduğunu aydınlaşdırın;
– ayrı-ayrı təsvirlərin oxucuda hiss-həyəcan yaratmasının səbəbləri üzərində düşünün;
– hansı sözlərin fərqli anlamda işlədildiyini müəyyən edin.

**4. Şeirin əsas ideyasını şərh edin. Fikirlərlə tanış olun. Seçdiyinizi, yaxud öz variantınızı əsaslandırmağa çalışın. Müəyyənləşdirdiyiniz mətləbləri nəzərə alın.**

Fikirlərdən hansı əsərin ideyası üçün daha uyğundur?

1. Təkrarolunmaz gözəlliyi olan qış təbiətə başqa görkəm verir.
2. Qış yuxusuna gedən təbiət yazın həsrətini çəkir.
3. Təbiət də insan kimi öz həyatını yaşayır, canlanmağa, təravətli olmağa üstünlük verir.

Nə üçün belə düşünürsünüz?

Sizin variantınız

## II İFADƏLİ OXUYA HAZIRLAŞIN

1. Şeirin ilk üç bəndinin ifadəli oxusunu hazırlayın.
2. Şərti işarələrdən istifadə edin.
3. İfa zamanı məntiqi fasilələrin və məntiqi vurğulu sözlərin nəzərə çarpmasına diqqət yetirin.
4. Oxuda misradaxili bölgü və qafiyələri fərqləndirməyə çalışın.

## III YARADICI İŞ

**1. "Torpağın məhəbbəti" şeirinin müəllifi Zahid Xəlilə ədəbi məktub yazın. Məktubda aşağıdakı tövsiyələri də nəzərə alın:**

– məktubu hansı niyyətlə yazdığınızı qısaca qeyd edin;
– şeirlə bağlı təəssüratınızı yığcam yazın;
– əsərin uğurlu və zəif hesab etdiyiniz cəhətləri ilə bağlı fikirlərinizi əsaslandırın;
– şeir və şairin yaradıcılığı ilə bağlı arzu və təkliflərinizi bildirin.

**2. Məktublardan nümunələrin müzakirəsində fəal iştirak edin.**



Bayram Həsənov
(1925-1989)

Onun hekayələrinin mövzusu müxtəlifdir: kənd həyatı, meşə, heyvanlar aləmi, uşaqların məktəb illəri, əyləncələri və s. Bütün bunları o, uşaq dünyasına məxsus romantik boyalarla, təbii, səmimi, aydın ifadələrlə qələmə almışdır.

Qara Namazov

# İKİ BALA

**Yadasalma** • Heyvanların, quşların həyatından danışılan hansı əsərləri xatırlayırsınız? Onların öz balalarına necə qayğı göstərməsinin şahidi olmusunuzmu?

I DƏRS I OXU • ANLAMA

**1. Mətni oxuyun.**

**2. Təəssüratınızı bölüşərkən aşağıdakı sualları nəzərə alın.**

– Hansı təsviri, epizodu daha maraqla oxudunuz? Nə üçün?
– Murad haqqında ilkin təəssüratınız nə oldu?
– Təsvir olunan yerlərlə bağlı sizdə necə təsəvvür yarandı?

**3. İkinci sütundakı suallara cavab hazırlayın. Dərinləşdirilmiş oxu məqsədilə mətnə yenidən nəzər salın.**

Atam uzun illər meşəbəyi olmuşdu. Babam da bu peşədə çalışmışdı. Gözümü açıb ucsuz-bucaqsız meşə görmüşdüm. Meşədə oynamış, qoyun-quzu otarmışdım. Onun içindən keçən yol məni məktəbə aparmışdı.

Hər dəfə fürsət düşəndə meşəyə yollanmış, dostlaşdığım ağaclarla dərdləşmişdim... Sonralar yaşa dolub kəndimizdən uzaq düşəndə də ən çox darıxdığım, həsrətini çəkdiyim elə bu meşə olmuşdu.

Nənəm hərdən gözlərini qıyıb mənə baxar, məhəbbət dolu səslə:

– Murad da meşəbəyi olacaqdır, – deyərdi.

Yeddinci sinfə keçəndən sonra dərslərimə də meşədə – mənim üçün doğma olan yaşıl talada hazırlaşırdım. Kəndimizi üzük qaşı kimi mühasirəyə alan, saf havasından doymaq olmayan meşəmizi mənim qədər sevən ikinci adam, deyəsən, yox idi.

- Əsərdə təsvir olunanlar harada baş verir?
- Muradın meşəyə ürəkdən bağlanmasının, sevgisinin səbəbini necə izah edərsiniz?

Məktəbin sonuncu sinfində oxuyanda belə bir adamın olduğunu öyrəndim, amma qəlbimdə qısqanclıq hissi baş qaldırmadı.

Həmin adam biologiya müəllimimiz idi. O hamıdan fərqlənirdi. Boyuna, görkəminə görə yox, xasiyyətinə görə. Azdanışan və ciddi idi, həmişə fikirli, qayğılı görünürdü. Dərs izah edəndə isə başqa adama çevrilirdi. Elə şirin, elə maraqlı danışırdı ki, ona qulaq asmamaq mümkün deyildi. Suallarına cavab vermək üçünsə əməlli-başlı düşünmək, axtarışlar aparmaq lazım gəlirdi…

Onu ilk dəfə meşədə – talada dərslərimə hazırlaşarkən gördüm. Çox da hündür olmayan cır armud ağacının altında dayanıb diqqətlə ona baxırdı. Sonra ağacın aşağı əyilmiş budağından nazik çubuq qopardı, nəzərdən keçirməyə başladı. Onun niyyətini anlamağa çalışsam da, nə etmək istədiyini kəsdirə bilmədim. İki gün sonra atamın əmimə dediklərindən öyrəndim ki, Sabir müəllim (biologiya müəllimimizin adı belə idi) meşədəki meyvə ağaclarını calaq edirmiş. Bunu da öyrəndim ki, o, meşənin bir hissəsində onlarca ağacı calaq etmiş, indi isə cənuba – mənim talamın olduğu yerə üz tutmuşdu...

O vaxtdan illər keçib. Sabir müəllim dünyasını dəyişib. Ondan şirin xatirələr qalıb… Mən isə ata-babamın peşəsində – meşəbəyi vəzifəsində çalışıram. Müəllimimin xeyirxah işini də davam etdirirəm. Onun kimi mən də ağacları calaq etməyi xoşlayıram. İndi meşəmizdə bol məhsul verən yüzlərcə meyvə ağacı var...

Kənd camaatının danışığı ara-sıra qulağıma dəyirdi:

– Murad öz müəlliminə çəkib, belə getsə, meşəmiz meyvə bağına dönəcək...

Doğrusu, bu sözləri eşitmək mənim üçün xoş idi...

Bu illər ərzində təbiətdə gördüyüm qəribə hadisələri qələmə almaq, nə isə yazmaq istəyi mənə rahatlıq vermir. Cansız hesab etdiyimiz doğma təbiətdə elə hadisələrin şahidi olmuşam ki, onları xatırlayanda həyəcanlanmaya bilmirəm.

Bu əhvalatların bir qismi məndə kədər, bir qismi isə sevinc hissi doğurur. Qeyri-adi, inanılmaz hadisəyə də az rast gəlməmişəm. Bəli, təbiət, doğru deyirlər, sirli bir aləmdir. Neçə ilin söhbətidir, dan yeri söküləndə evdən çıxmışdım. Meşənin ətəyinə çatanda qənşər bir yerdə oturdum. Sıx ağaclıqdan qalxan seyrək duman yavaş-yavaş yuxarı qalxır, get-gedə seyrəlir, az sonra əriyib yoxa çıxırdı. Hava elə xoş, yumşaq idi ki, ciyərdolusu nəfəs almaqdan doymaq olmurdu.

Dərə ilə daşlara çırpıla-çırpıla, köpüklənə-köpüklənə çay axırdı. Səsi dərəni başına götürən bu dağ çayı xeyli aşağıda balaca bir talaya çıxır, yenə sıx meşəliyə girirdi. Dərə boyu suyu göz yaşı kimi dupduru bulaqlar qaynayırdı. Onların bol suyu gur dağ çayına qarışaraq üzüaşağı axırdı...

Mən yerimi rahatlayıb keçidə baxırdım. Bir də gördüm ki, çaya enən cığıra boz, iri bir ayı çıxdı. Dal ayaqları üstə qalxıb o yan-bu yana boylanaraq talaya baxdı və tez də dala qayıtdı, onu nişan almağa macal tapmadım, barmağım tətikdə qaldı. Bir neçə gün əvvəl ayı kəndin mal-qarasına hücum edərək xeyli heyvanı tələf etmişdi. Nə bilmək olar,

- Onun meşə, təbiətlə bağlı dediklərində diqqətinizi daha çox çəkən nə oldu?
- Muradın müəllimi haqqındakı xatirəsi sizdə hansı hisslər yaratdı?
- Meşəbəyi vəzifəsində çalışan Muradın fəaliyyətində diqqətinizi çəkən nə oldu?
- Ayını təsadüfən görən meşəbəyinin fikrindən ilk olaraq nə keçir?

bəlkə, elə bu həmin ayı idi?! Ayağa durmaq istəyirdim ki, ayı yenə göründü. Qoltuqlarında bərk-bərk nəsə tutmuşdu. Daha dayanmadı, əyilə-əyilə cığıra düşdü. O, çaya enirdi. Tərpəndim. Keçiddə onu yaxalaya bilsəydim, çətin əlimdən qurtarardı. Qaçıb özünü meşəyə salanacan qoşalülə nəfəsini kəsərdi.

Bir gözüm ayıda yıxıla-yıxıla quzeyi endim. Ağacların arxasına keçə-keçə, bu koldan o kola sürünə-sürünə çaya yaxınlaşdım. Cığırın üstündəki palıd ağacının dalında gizləndim. Ayı yavaş-yavaş gəlirdi, qoltuğundakılar çapaladıqca tez-tez dayanıb burnu ilə onları dümsükləyirdi. Çay yuxarılardan ovub gətirdiyi qumu keçiddə qırağa vurmuşdu. Ayı qumluğa düşəndə dayandı. Aramızda elə bir məsafə qalmamışdı. Amma nə qədər baxdımsa da, yenə qoltuğunda nə tutmuşdu, baş açammadım. Sahilə yaxın hündür bir daş vardı. İməkləyə-iməkləyə sürünüb onun dalında gizləndim.

**SÖZLƏR TANIŞDIRMI?**
- cır
- calaq
- qənşər
- quzey

## II ÖYRƏNDİKLƏRİNİZİ YOXLAYIN

**1. Fikirlərdən biri səhvdir.**

A) Murad öz peşəsinə ürəkdən bağlanır.
B) Murad həmişə xatirələrini qələmə almaq, nə isə yazmaq istəyir.
C) Hekayədə təbiət təsvirlərinə yer verilmişdir.
D) Murad ayını ovlamaq niyyətinə düşür.
E) İnsanlar meşənin "meyvə bağına dönəcəyinə" təəssüflənirlər.

**2. Boş xanaları uyğun fikirlərlə tamamlayın.**

| Səbəb | Nəticə |
|---|---|
| Murad meşəyə bağlı idi, onu ürəkdən sevirdi. | |
| | Sabir müəllimdən şirin xatirələr qalıb... |

## III MÖHKƏMLƏNDİRMƏ • ZƏNGİNLƏŞDİRMƏ

1. Əsərdən oxuduğunuz parçada mühüm hesab etdiyiniz mətləbləri, onların arasındakı əlaqələri nümunələr əsasında izah edin.
2. Hekayədəki bədii təsvir və ifadə vasitələrinin növünü müəyyənləşdirin.
3. Onlardan bir neçəsini cümlələrdə işlədin, nəticəni müzakirə edin.

## IV NİTQİN, DÜŞÜNCƏNİN İNKİŞAFI

1. Mətndən seçdiyiniz parçanın məzmununu yaradıcı danışmağa hazırlaşın.
2. Çıxışlara münasibət bildirin.

### Növbəti dərsə qədər

Asudə vaxtınızda əsərin davamını oxuyun. Ehtiyac duysanız, dərinləşdirilmiş oxu məqsədilə mətni yenidən nəzərdən keçirin.

II DƏRS | I OXU • ANLAMA

**1. Mətni oxuyun.**
**2. Təəssüratınızı bölüşərkən aşağıdakı sualları nəzərə alın.**
– Murad obrazı ilə bağlı sizdə hansı yeni təəssürat yarandı?
– Hansı təsvir və epizod sizin üçün daha maraqlı oldu? Nə üçün?
– Oxuduğunuz parçadan hansı ovqatla ayrıldınız?
**3. İkinci sütundakı suallara cavab hazırlayın. Ehtiyac duysanız, mətni bir daha oxuyun.**

*Əsərin davamı*

Ayı yaş quma bata-bata suya girdi. Qollarının altından özü kimi tüklü iki baş çıxmışdı: qapqara burunları, qara muncuq kimi gözləri vardı. Vay səni!.. Mən də bayaqdan baş sındırıram ki, görəsən, bu yekəpər nə aparır. Öz balaları imiş ki!.. Onlar büzüşərək analarına elə sığınmışdılar ki, yumağa dönmüşdülər. Yəqin, çayın qıjıltısından qorxurdular.

Ayı tez-tez büdrəyirdi, dərinə düşmədi, çayın dayaz yerindən yenə sahilə çıxdı. Çayı keçə bilməyəcəyini, deyəsən, anlamışdı. Balalarını yerə buraxdı, yumalandılar, boğuşdular, amma analarından uzaqlaşmadılar. Bir gözləri onda idi. Anaları isə köpüklü dalğalara bir xeyli baxdı, gözləri yol çəkirdi… Bir qərara gələ bilmirdi. Sonra qəfildən qumu tez-tez eşələyib çala açdı. Balasının birini burnu ilə itələyə-itələyə gətirib ora saldı, pəncəsiylə arxası üstə çevirdi. Bala çanaqlı bağa kimi ayaqları göydə çapalaya-çapalaya qaldı. Ayaqlarını, bədənini nə qədər oynatsa da, çevrilə bilmədi, amma sakitləşmədi də… Ayı da o qalxanacan yastı bir çaylaq daşını burnu ilə sürüşdürüb onun qarnının üstünə çıxartdı. O biri balasını qoltuğuna alıb bir gözü arxada – quma basdırdığı balasında çaya düşdü.

Keçid xeyli dərin imiş. Su ayının döşünə vurdu. Dalğalar onu büküb-bükmələyirdi. Balasını bərk-bərk qoltuğuna sıxıb bir pəncəsi ilə suyu yara-yara sahilə çıxdı. Balasını quma buraxıb silkindi, dönüb o taya boylandı. Narahatlığı hərəkətlərindən o saat duyulurdu. Sonra da tələsik yaş qumu eşələyib indi də bu balasını çuxura yıxdı. Ətrafına baxdı. Deyəsən, yenə də daş axtarırdı. Yəqin, gördü, yaxında yoxdur, bu balasının qarnına qum cırmaqlayıb yığdı. Elə bu ara o taydakı bala necə elədisə, qarnından daşı aşırıb çuxurdan çıxdı, anasını bu tayda görüb yumalana-yumalana özünü çaya saldı. Anası bunu görüb həyəcanlı, təntimiş halda özünü bu taydan suya atdı. Qumun altındakı bala da çapaladı-çapaladı, azad olmağa çalışdı, nəhayət ki, o da yerindən qalxdı, anasının dalınca çaya cumdu. Ayı geri çevriləndə onu görüb elə bir səs çıxartdı ki,

- Bala ayıları necə təsəvvür etdiniz?
- Ayı nəyə cəhd edir? Niyyətindən nə üçün əl çəkir?
- Tərəddüd edən ayının çarə axtardığına inanırsınızmı? Fikrinizi necə əsaslandıra bilərsiniz?
- Ana ayının balalarına qayğıkeş münasibəti sizdə hansı düşüncələr yaratdı?

sanki dağlar-daşlar dilə gəldi, ona qoşuldu, səsi çox-çox uzaqlarda əks-səda verdi, qayalar lərzəyə düşdü. Mən dəfələrlə ayı ovunda olmuşdum. Güllə ilə vurulanda belə ayı bu cür dəhşətlə nərildəməmişdi.

Ayı ha eləyib özünü yetirənəcən o tayda qalan balasını dalğalar ağuşuna aldı. Bu balasını da dalğalar top kimi atıb-tutaraq aparırdı. Təntimiş ayı gah bu balasının dalınca cumdu, gah da o birisinin...

Özünü nə qədər həlak elədi, balalarına çata bilmədi; çay bu yerdə həm dərin idi, həm də görünməmiş sürətlə axırdı. Ayı xeyli aşağıda sahilə çıxdı, gözlərini suya dikdi, daş kimi donub qaldı. Hiss olunurdu ki, taqətdən düşüb. Sonrakı dəqiqələrdə baş verənlər gözümün qabağından indi də getmir; kədərli halda çayaşağı baxan ana ayı çəngə-çəngə başının tüklərini yoluşdurmağa, qeyri-adi səslər çıxarmağa başladı...

Mən isə yerimdən tərpənib özümü göstərmirdim ki, ayı məni görüb daha da karıxar. Tüfəngim əlimdə sahillə çayaşağı yüyürdüm. Üst-başım kola-kosa ilişə-ilişə, daşdan-daşa hoppana-hoppana sıldırımlı sahillə lap aşağılara endim. Ayı balalarını sahil daşlarının aralarında axtardım, qumluqları gəzdim, onları köpüklü dalğaların qoynunda görmək istədim…

Amma gec idi... Kim bilir, dağ çayı ayının balalarını daşlara çırpa-çırpa haralara aparıb çıxartmışdı.

Çayın kənarındakı iri qayanın dibini diqqətlə nəzərdən keçirərkən mənə elə gəldi ki, kimsə məni izləyir. Başımı qaldırıb qayanın döşünə baxdım, zənnim məni aldatmamışdı. Boz ayı kədərli baxışlarla mənə baxırdı...

Bir-birimizə mane olmadan, demək olar ki, yanbayan axtarışlarımızı xeyli davam etdirdik. Balalar tapılmadı. Hava qaralanda əldən-dildən düşmüş, tamam islanmış halda evə döndüm. Elə dilxor olmuşdum ki, boğazımdan bir tikə çörək belə keçmədi, evdəkilərin suallarına necə cavab verdiyimi də xatırlamıram...

O gündən sonra ayı tez-tez çayın sahilində görünürdü. O, hələ də inadla balalarını axtarırdı. Hər on-on iki addımdan bir dayanıb qıjıltı ilə axan suya baxır, yenə çayaşağı yoluna davam edirdi...

Əlimdə tüfəng məni lap yaxınlığında görsə də, çəkinmir, elə bil dərdinə şərik olduğumu anlayırdı.

Ən dəhşətlisi axşamdan xeyli keçmiş – axtarışını tamamlayanda tükürpədici səslə bağırması idi.

Əslində, buna bağırmaq, nərildəmək demək olmazdı. Bu, balalarını ölümə verdiyi üçün özünü bağışlaya bilməyən ana ayının ürəkparçalayan fəryadı idi...

Bir müddətdən sonra ayı gözə dəymədi. Hadisədən səkkiz aydan da çox keçmişdi. Gecə əsən şiddətli küləyin meşəyə ziyan vurub-vurmadığını öyrənmək üçün ərazini qarış-qarış gəzir, ən çətin keçilən sahələri belə nəzərdən keçirirdim. Qəflətən gördüyüm

- Balalarının təhlükə ilə üz-üzə qaldığını görən ayının həyəcanı əsərdə necə təsvir olunub?
- "Balalarını xilas etməyə çalışan ana ayı əsl fədakarlıq göstərir" fikrini əsərdən misallar göstərməklə əsaslandıra bilərsinizmi?
- Hekayədə oxuduğunuz "kədərli halda çayaşağı baxan ana ayı çəngə-çəngə başının tüklərini yoluşdurmağa, qeyri-adi səs çıxarmağa başladı... " sözləri sizdə hansı hiss, düşüncə yaratdı?
- Ayı balalarının yoxa çıxmasını Murad necə qarşılayır, o hansı addımlar atır?
- Çətin anında insanla yaxınlaşan ayının hərəkəti sizə qeyri-adi görünmədi?
- Günlərlə balalarını axtaran ayının əzabları əsərdə necə ifadə edilib? Fikrinizi təsdiq edən nümunələr göstərin.
- Meşəbəyi ayının ölüm səbəbini nədə görür? Sizcə, bu, ağlabatandırmı?

mənzərədən yerimdəcə donub qaldım. Boz ayı qalın kolluqda hərəkətsiz uzanmışdı. Başını pəncələrinin üstünə qoyub soyuq nəzərlərlə irəliyə baxırdı. Məni görmüş olmalı idi, amma heç qımıldanmadı da... Tüfəngimi əlimdə hazır tutaraq ehtiyatla ona yaxınlaşdım. Ayı təzəcə ölmüşdü. Bədəni didilməmiş, tükləri tökülməmişdi. Çox arıqlamışdı. Ov etməyən ayı, bəlkə də, acından ölmüşdü.

SÖZLƏR TANIŞDIRMI?
- muncuq
- ağuş
- karıxmaq
- fəryad

## II MÖHKƏMLƏNDİRMƏ • ZƏNGİNLƏŞDİRMƏ

1. Əsərdən oxuduğunuz parçada mühüm hesab etdiyiniz mətləbləri müəyyənləşdirin.
2. Onların əhəmiyyətini izah etməyə çalışın.

## III NİTQİN, DÜŞÜNCƏNİN İNKİŞAFI

**1. Mənasını yeni öyrəndiyiniz sözlərdən ikisini cümlələrdə işlədin.**
   a) Cümlələrdə əsərlə bağlı fikirlərinizi ifadə etməyə çalışın.
   b) Yazdığınız cümlələrdən nümunələr oxuyub müzakirə edin.

**2. Çıxışlara münasibət bildirin.**

## IV MÜZAKİRƏ

1. “Hekayə hansı mövzuda yazılmışdır?” sualı üzrə müzakirəyə hazırlaşın.
2. “Əsər hekayə janrında yazılmışdır” mövzusunda müzakirəyə hazırlaşın.
3. Müzakirədə fəal iştirak edin.

## III DƏRS

## I ARAŞDIRMA • TƏHLİL

**1. Əsərin mövzusu ilə bağlı qənaətlərinizi dəqiqləşdirin. Tövsiyələrə diqqət edin:**
– hadisələrin harada baş verdiyini xatırlayın;
– əsərdə daha çox nədən danışıldığını yada salın;
– hekayənin məzmununa əsasən “insan və təbiət“, “insan və heyvanlar aləmi” barədə düşünün.

**2. Murad obrazını səciyyələndirin. Cədvəldəki tələbləri nəzərə alın.**

| Murad obrazının | | | | |
|---|---|---|---|---|
| xarakterindəki başlıca cəhətlər | müxtəlif vəziyyətlərdə davranışı | fərqli məqamlarda hiss və düşüncələri | təbiətə münasibəti | ana ayıya münasibətinin dəyişməsinin səbəbi |
| | | | | |

**3. Murad obrazını oxuduğunuz hansı əsərin qəhrəmanı ilə müqayisə edə bilərsiniz? Venn diaqramından istifadə edin.**




**4. Süjetin mərhələlərini və onlardakı mühüm məqamları izah edin.**

| Süjetin mərhələləri | Mərhələlərin mühüm məqamları |
|---|---|
| bədii müqəddimə | |
| düyün | |
| zirvə | |
| düyünün açılması | |
| final | |

**5. Hekayənin məzmunu öyrəndiyiniz hansı əfsanə, yaxud nağılı xatırladır? Onların məzmunları arasındakı oxşar və fərqli cəhətləri müəyyənləşdirin. Müqayisə cədvəlindən və ya Venn diaqramından istifadə edə bilərsiniz.**

**6. Hekayənin əsas ideyasını şərh etməyə çalışın. Sxemdəki fikirlərlə tanış olun. Seçdiyinizi, yaxud öz variantınızı nümunələrlə əsaslandırın. Əsərdə müəyyənləşdirdiyiniz mətləbləri nəzərə alın.**

**Əsərin əsas ideyasına hansı daha uyğundur?**

1. İnsan təbiətə, bütün canlılara qayğı göstərməlidir. ☐
2. Balasını sevməyən canlı yoxdur. ☐
3. Təbiət və heyvanlar aləminə məxsus sirlərin öyrənilməsi vacibdir. ☐

Nə üçün belə düşünürsünüz?

Sizin variantınız

## II YARADICI İŞ

**1. Mövzulardan birini seçib yığcam esse yazın. Tövsiyələrdən (səh. 152-155) və özünüqiymətləndirmə meyarlarından (səh. 154-155) faydalanın.**

a) Ayının ana qayğısı, inadkarlığı və fədakarlığı.

b) Təbiətə qayğı lazımdırmı?

**2. Oxunan nümunələrə münasibət bildirin.**



Əli Səbri
(1892-1983)

Onun roman, povest və hekayələri, yüzlərlə ədəbi-tənqidi və publisist məqalələri, müxtəlif xalqların ədəbiyyatından tərcümələri maraqla oxunur... İnsanın keşməkeşli taleyi, insan və cəmiyyət, insan və təbiət yazıçının əsərlərində ən çox diqqət yetirilən məsələlərdəndir.

Əbülfəz Quliyev

# SƏDAQƏT

(ixtisarla)

**Yadasalma** • İnsanın vəhşi heyvanlarla dostluğu barədə eşitmisinizmi? Bu mövzuda oxuduğunuz bədii əsər varmı? Belə əsərlərdə sizi daha çox maraqlandıran nə olub?

I DƏRS I OXU • ANLAMA

**1. Mətni oxuyun.**

**2. Təəssüratınızı bölüşərkən aşağıdakı suallları nəzərə alın.**
– Sizdə əsərə maraq oyandımı? Nə üçün?
– Ovçuluq və ovçu həyatı haqqında sizdə hansı təəssürat yarandı?
– Tufanlı gecəni necə təsəvvür etdiniz?

**3. İkinci sütundakı suallara cavab hazırlayın. Dərinləşdirilmiş oxu məqsədilə mətnə yenidən nəzər salın.**

Sakit bir payız günündə yoldaşım Elxanla ova çıxmışdım. Ovumuz uğurlu olmuşdu: yükün altında ağır-ağır nəfəs alır, ayaqlarımızı çətinliklə sürüyürdük. Hətta ov itimiz Pələng də əldən düşmüşdü…

Qaş qaralırdı. Qəflətən uzaqlarda bir uğultu eşidildi. Sakit külək əsdi. Əvvəlcə aramla əsən külək birdən tufana çevrildi. Ağaclar şaqqıldamağa başladı. Nəhəng, qara buludlar dağların təpəsindən sürünə-sürünə yamaclara çökərək meşəni zülmət vadisinə çevirdi… Az sonra gözqamaşdırıcı şimşək çaxdı. Göy gurultusu qəlbimizdə

- Əsərdə təsvir olunanlar harada baş verir?
- Tufanın başlanmasını, fəsadlarını necə təsvir edərsiniz?

dəhşət oyadırdı. Bizə elə gəlirdi ki, dağlar yerindən qopub aranı altına alacaq. İldırım səsi dağların daş qəlbini yarırdı. Gözümüzün qabağında ildırım qocaman ağacları aramsız vurur, bıçaq kimi kəsirdi. Ağaclar gurultu ilə yerə gəlir, parçalanırdı. Qızdırmalı adamlar kimi titrəyirdik… Yolu itirmişdik, hara getdiyimizi təyin edə bilmirdik. Nə edəcəyimizi qət etdim: ipi Pələngin boynuna bağlayıb əlimə aldım, ayağımla onu yavaşca itələdim. Gurultudan, şaqqıltıdan qorxmuş it yerindən qopdu və bizi çəkib arxasınca apardı. Əmin idim ki, it bizi meşədən çıxara biləcək. Ovçular belə hallarda itin duyğusuna inanırlar.

İt qaçır, biz də arxasınca gedirdik, bəzən ağaclara, kötüklərə ilişir, yıxılır, qalxırdıq. Hər dəfə şimşək çaxarkən bizə elə gəlirdi ki, göy ilə yer arasında qorxunc, qatı, qara pərdə çəkilmişdir… Yağış artıq meşəni də tutdu. Yamaclardan, dağlardan axan sel-sudan tərpənmək olmurdu.

Birdən uzaqda gözümüzə işıq dəydi. Bu, zəif neft çırağının işığı idi. Pələng hürdü. Uzaqda bir-iki itin də tənbəl-tənbəl hürməsini eşitdik. Kəndə gəlib çıxdığımıza şübhə yox idi. Xeyli getmişdik ki, yenə ildırım çaxdı. İşıqda evləri görüb sevindik. Kənddə idik.

İşıq gələn bir evin qapısını döydük.

– Kimsiniz? – deyə soruşdular.

– Ovçuyuq, yol azmışıq.

Qapını açdılar. Ev sahibi bizi ocağın başına dəvət etdi. Öyrəndik ki, adı Cəfərdir. Biz qızışana qədər samovar hazır oldu. Çay içib özümüzə gəldik. Nəhayət, sükutu pozdum:

– Cəfər qardaş, biz haradayıq? Kəndinizin adı nədir?

– Toğanadır.

– Bah atonnan, gəlib Toğanaya çıxdıq?

Evin sahibəsi Reyhan bacı yemək gətirdi. O gecə söhbət uzandı. Ovçuluqdan, ovdan, vəhşi heyvanların təbiətindən, kinindən, sədaqətindən söhbət açıldı. Cəfər kişi şikayətlənməyə başladı:

– Bu il bir dişi ayı peyda olub. Kəndə ziyan vurur, adam da parçalayıb. Namərd, gülləyə belə gəlmir, elə bil tilsimi var. Kəndimizdə ovçu Muxtar deyilən bir kişi var, həmin ayını vurmağa getmişdi. Çox gəzir, yorulub meşənin sıx yerində bir ağacın dibində oturub çubuğu doldurur. Elə bir qullab almaq istəyir ki, bu namərd ayı yavaşca arxa tərəfdən onun üstünə atılır. Muxtar özünü ölülüyə vurur, nəfəsini içinə qısır. Ayı Muxtarı ölmüş bilib böyük bir çinarın yarığına soxur ki, iylənəndən sonra gəlib yesin. Axı ət iylənməmiş ayı onu yeməz. Ayı çəkilib gedəndən sonra Muxtar sürünə-sürünə meşənin kənarına çıxır. Ayı onu eybəcər hala salıb. Kişinin üzünə baxmaq da olmur…

Yaman bəladır, mal-qara qoymadı, hardan tapım ovçu Hatəmi… haradan?.. Haradan tapım ki, bunun dərisini boğazından çıxarsın?

Elxan gülüb:

- “Bizə elə gəlirdi ki, dağlar yerindən qopub aranı altına alacaq” cümləsindəki fikri necə başa düşdünüz?
- Bərkdən-boşdan çıxmış ovçuların vahiməyə düşmələrinə səbəb nə idi?
- Onlar “zülmət vadisindən” necə xilas ola bildilər?
- Ev sahibi haqqında sizdə hansı təəssürat yarandı?
- Ovçu Muxtarla bağlı əhvalatda diqqətinizi daha çox çəkən nə oldu?
- Ev sahibinin və ailə üzvlərinin ovçu Hatəmə böyük rəğbət bəsləmələrinə səbəb nə idi?
- Ovçu Hatəm ev sahibinə – Cəfərə nə barədə söz verir?
- Kəndi “zinhara gətirən” ayı necə zərərsizləşdirildi?
- Ovçu Hatəmin “Gonbul” adlandırdığı ayı balası onun evində necə qarşılandı?
- Gonbulda ovçuya isti münasibətin yaranmasına səbəb nə oldu?

– Uzağa getmək niyə, ovçu Hatəm özü ayağıyla evinizə gəlib, – deyə məni göstərdi.

Ev sahibi təəccüblə mənə baxdı. Stəkan Reyhan bacının əlindən düşdü. Uşaqlar heyrətlərindən dik atıldılar.

– Yəni, doğrudan, bu qardaş ovçu Hatəmdir, ya zarafat edirsiniz?

– Özüdür ki var, zarafat nə üçün?

Ev sahibi yerindən qalxıb mənim əllərimdən yapışdı:

– A kişi, sən Allah, keçən il yol azıb bizim dağlara gələn pələngi öldürən Hatəm sənsən?

Dinmədim.

– Ay səni xoş gəlmisən! A kişi, bu ev sənə qurbandır, nə yaxşı, nə əcəb! Demək, tufanın qopmasının bizə xeyri olub. Nə yaxşı təsadüf!

… Səhər açılan kimi yataqdan qalxdıq. Reyhan bacı bizim üçün yemək, çay hazırlamışdı.

Vidalaşıb gedərkən ev sahibinə dedim:

– Kəndi zinhara gətirmiş ayını ölmüş bilin.

Mən Toğanada Cəfərə verdiyim vədi tez-tez yadıma salırdım. Kəndi zinhara gətirən ayını tapmalı, onu məhv etməli idim. Verdiyim sözdən əlavə, məni bu işə vadar edən bir də ovçulara məxsus inadcıllıq idi. Lakin Toğana meşələrinə getməyə vaxt tapa bilmirdim.

Bir dəfə qonşumuza Toğanadan bir qonaq gəldi. Həmin ayının camaata yenə ziyan vurub-vurmadığını soruşdum. Qonaq dedi ki, ayı üç gün əvvəl Cəfər kişinin inəyini parçalayıb.

İki gün sonra Elxanla yamaclarında, qayalarında ceyranlar, marallar gəzən, dərələrində ayılar yatan dağlara, meşələrə getdik...

Meşənin dərinliklərinə girdikdə qocaman qoz, alma ağaclarına rast gəldik. Payızda qoz yetişir, yerə düşdükcə qabığı partlayır. Meyvə ağaclarına təsadüf etməyimiz bizi sevindirdi. Adətən, ayılar belə yerləri çox sevirlər. Ayını elə bu yerdəcə gözləməli idik. Ovçunun birinci silahı səbirdir – deyiblər. Yerimizi rahatlayıb ayını gözləyirdik. Birdən aşağıda boğuq səs eşitdim. Tüfəngimi hazır tutub gözümü qabağa zilləmişdim, lakin xışıltının arası kəsilir, yenə sakitlik bərpa olurdu. Qaş qaralmışdı. Ağacların qol-budaqlarının şaqqıltısını aydın eşidirdim. Döyüşə hazır əsgər kimi dayanmışdım. Şübhə etmirdim ki, ayı mənə tərəf gəlir. Birdən oturduğum gövdə yarığının sol tərəfində ayının pəncəsini gördüm. Lap özümü itirdim. Elxanı çağırsaydım, ayı dərhal üstümü alacaq və güllə atmağa macal tapmayacaqdım. Başqa çarəm qalmamışdı: yarıqdan çıxıb ağacın arxasında gizləndim. Tüfəng əlimdən düşmüşdü. Ayı ağacın o tərəfinə, mən isə bu tərəfinə qısılmışdım. Kənardan baxana elə gələrdi ki, ayı ilə gizlənqaç oynayırıq…

Şübhəsiz ki, bu, axtardığımız həmin ayı idi. Canıma vəlvələ düşdü. O, arxa ayaqları üzərinə qalxıb ağacın qabığını qoparır, məni

yaxalamağa çalışırdı. Mən “Elxan!” – deyə çığıra bildim. Güllə açıldı, lakin ayıya dəymədi. Ayı məni buraxıb bir anda Elxana doğru atıldı. Dərhal tüfəngi qapıb arxadan ayıya atəş açdım. Bir an gecikmiş olsaydım, Elxanı altına alacaqdı. Ayı mənə tərəf çevrilmək istədikdə dərəyə yuvarlandı.

Qaranlıq çökmüşdü, biz ayını təqib etmədik. Bu, təhlükəli idi. Tonqal çatıb oturduq. Meşədə, tonqal başında gətirdiyimiz yeməklərdən yeyib ovçu xatirələrindən danışırdıq. Yuxulamaq yadımıza da düşmürdü...

Dan yeri sökülər-sökülməz cığırla aşağı endik. Tövşüyə-tövşüyə kolların arasına girdikdə nəhəng ayını yerə sərilmiş gördük...

Meşədən bir paya qırıb yonduq, ayının qabaq pəncələrini payaya möhkəm bağladıq. Onu yuxarı qaldırıb ağacdan asdıq ki, biz qayıdana kimi canavar-zad yeməsin. Biz ayının balalarını da tapmalıydıq.

Yaş meşədə ayının, canavarın, tülkünün, insanın izini tapmaq çətin deyil. Ayının izini tutub getdik, gözümüz qarşıda qocaman ağacın altındakı mağaraya sataşdı. Əlimi mağaranın içinə salıb bir ayı balasını dartıb çıxartdım. Sol əlimlə onun qıçından yapışıb sağ əlimi yenə içəri soxdum. Əlimə ikinci bala keçdi. Hər ikisinin boynundan tutub Elxana göstərdim. Elə bil oyuncaq ayı balaları idilər. Dəriləri yumşaq, məxmərə çalırdı, özləri də yumru, kök idilər. Bunlardan biri dişi, o birisi isə erkək idi. Dişi erkəyə nisbətən daha kök, daha yumru idi. Mən dərhal dişiyə Gonbul adını verdim.

Onlar insanı birinci dəfə görürdülər, bizdən qorxmur, qaçmırdılar. Ayaqlarımızdan tutmağa, ətəyimizdən yapışmağa çalışırdılar. Erkək balanı Elxan götürdü.

... Gonbulu evə gətirdim. Gonbul ac idi, ağlayır, sızlayırdı. Arvadım dərin boşqaba süd töküb onun qabağına qoydu. Gonbul boşqabın ətrafına fırlandı, pəncəsini qaldırıb boşqabın qırağına qoyduqda boşqab aşdı, süd töküldü. Biz gülüşdük. Onun qabağına çörək qoyduq. Gonbul yaxın da durmadı, iyləyib çəkildi və yenə ağlamağa, o tərəf-bu tərəfə qaçmağa başladı. Arabir çöməlib qulağını sağ pəncəsi ilə qaşıyırdı. Mən yenə bir boşqab süd gətirdim. Barmağımı südə batırıb Gonbulun ağzına qoydum. O, barmağımı həvəslə sordu. Arvad bunu görcək mənə:

– Dayan, dayan, evdə əmzik var, qoy uşaq kimi ona da əmzik verək, bəlkə, əmdi, – dedi.

Doğrudan da, Gonbul əvvəl əmziyi sormadı. Mən əmziyi onun ağzına sıxdım, Gonbul südü sormağa başladı. Bir müddət biz Gonbulu əmziklə doydurduq.

Gonbul yedikdən sonra otağın o başına qaçır, bu başına qaçır, atılıb-düşürdü. Pişiyimiz Məstanı onun yanına gətirdikdə o, bucağa qısılaraq sağ pəncəsini yuxarı qaldırıb pişiyi vurmaq istədi. Pişik “fıff” eləyib otağın o biri başına qaçdı, belini əyib quyruğunu qaldırdı və mırıldamağa

başladı. Gonbul da qorxmuşdu, bucaqdan çıxmırdı. Evimizdə bayram idi, bu mənzərə hamımızı güldürürdü...

Gecə Gonbulun qorxacağını və ağlayacağını bilirdim. Elə də oldu. Qaranlıqda tək qalıb donquldanmağa başladı. Kibrit yandırdıqda məni görüb yanıma qaçdı. Qucağıma alıb yanımda yatırtdım. Səsini tamam kəsdi, yuxuladı...

O gündən Gonbul mənimlə yatmağa adət etdi. Mən evə gələn kimi yaxamdan əl çəkmirdi. Bir azdan sonra Gonbul Pələnglə də dostlaşdı. Bütün günü zarafatlaşır, gah o, Pələngi, gah da Pələng onu yıxır, oynaşırdlar. Lakin hər dəfə pişiyə rast gəldikdə Gonbul dal ayaqları üstündə oturur, pəncəsini qaldırır, pişiyi vurmaq istəyirdi, pişik isə yenə belini qaldırırdı...

**SÖZLƏR TANIŞDIRMI?**

- keşməkeşli
- fəsad
- vahimə
- vadi
- aran
- çıraq
- çubuq
- qullab
- zinhar
- vadar
- təsadüf etmək
- paya

## II ÖYRƏNDİKLƏRİNİZİ YOXLAYIN

**1. Uyğun fikirləri seçməklə doğru cavabı müəyyən edin.**

| Doğrudur | Yanlışdır |
|---|---|
| 1. Hatəm bir müddət Cəfər kişinin xahişini unudur.<br>2. Hatəm bütün mahalda məşhur ovçu kimi tanınırdı.<br>3. Ovçular təbiətin sirlərini yaxşı bilən insanlardır. | 4. Əsərdə qonaqpərvərlik, xeyirxahlıq kimi dəyərləri əks etdirən epizodlar vardır.<br>5. Kəndə böyük ziyan vuran ayını ovçu Hatəm təkbaşına zərərsizləşdirir.<br>6. Muxtarın təbiətə, heyvanlar aləminə yaxşı bələd olması onu ölümdən xilas edir. |

A) 2, 4, 5   B) 2, 3, 5   C) 3, 4, 5   D) 2, 5, 6   E) 1, 5, 6

**2. Boş xanaları uyğun fikirlərlə tamamlayın.**

| Səbəb | Nəticə |
|---|---|
| 1. Axşamayaxın hava pisləşdi, tufan qopdu. | ... |
| 2. ... | Cəfər kişinin ailəsi bərk təəccübləndi. |
| 3. Hatəmin tüfəngi əlindən düşmüşdü. | ... |
| 4. ... | Ovçu Hatəm Toğana kəndində Cəfərə verdiyi vədi tez-tez xatırlayırdı. |

## III MÖHKƏMLƏNDİRMƏ • ZƏNGİNLƏŞDİRMƏ

1. Hekayədə daha maraqlı hesab etdiyiniz bədii təsvir və ifadə vasitələrindən ikisini cümlələrdə işlədin.
2. İşinizin nəticəsini müzakirə edin.

## IV NİTQİN, DÜŞÜNCƏNİN İNKİŞAFI

1. Mənasını yeni öyrəndiyiniz sözlərdən ikisini cümlələrdə işlədin.
2. Oxunan cümlələrə münasibət bildirin.
3. Mətndən seçdiyiniz parçanın məzmununu yığcam danışmağa hazırlaşın.
4. Çıxışlara münasibət bildirin.

### Növbəti dərsə qədər

Əsərin davamını oxuyun. Tanış olmayan sözləri və mühüm mətləbləri aydınlaşdırmağa çalışın.

## II DƏRS I OXU • ANLAMA

**1. Mətni oxuyun.**

**2. Təəssüratınızı bölüşərkən aşağıdakı sualları nəzərə alın.**
– Ovçularla bağlı sizdə hansı yeni təəssürat yarandı?
– Oxuduğunuz parçada sizi daha çox maraqlandıran nə oldu?
– Təbiət, heyvanlar aləmi barədə təsəvvürünüzə yeni nə əlavə olundu?

**3. İkinci sütundakı suallara cavab hazırlayın. Ehtiyac duysanız, mətni bir daha oxuyun.**

*Əsərin davamı*

Gonbul günü-gündən böyüyürdü.

Ağacların meyvələri dəyməyə başlayanda Gonbul bütün ağaclardan sallanar, meyvələri yeyər, şişərdi. Bir dəfə o, budaqdan sallanmışdı. Budaq tab gətirməyib qırıldıqda Gonbul yıxılıb yazıq Məstanın başına düşmüşdü. Məstan movuldaya-movuldaya qalmışdı. Gonbul da yerə dəyib ağlamağa, qışqırmağa başladı, iki həftə yanını çəkdi...

Elxanın Gonbulun qardaşını saxlamağa həvəsi yox idi. Onu qaraçılara vermişdi. Bunu məndən xəbərsiz etmişdi, yoxsa bacını qardaşından ayırmağa qoymazdım.

Gonbul arabir Elxangilin də həyətinə gedir, onların armud ağacına çıxırdı. Bir dəfə Elxan onu zopa ilə o qədər döymüşdü ki, yazıq

- Hatəmin evində – həyətdə, bağçada Gonbul özünü necə aparırdı?
- Sizcə, Elxanın Gonbulla sərt davranmasına səbəb nə idi?

heyvan bir neçə gün yerindən tərpənmədi. O gündən Elxan nə vaxt evimizə gəlsəydi, Gonbul kinli-kinli başını sallayıb gedir və dönüb tərs-tərs Elxana baxırdı. O haradan biləydi ki, Elxanda heyvanlara mərhəmət hissini mən yaratmışam. Uzun illər əvvəl eşitdim ki, Elxan ilin istənilən vaxtı ova çıxır. Qonşumla yoldaşlıq etməyi qərara aldım və onu bu yoldan çəkindirdim. Soyuqqanlı dostum bədəncə də məndən fərqlənirdi. Ucaboylu, enlikürək, qara qaynar gözlü Elxan çətinlikdən qorxan deyildi. Amma zarafatından da qalmırdı...

***

Gonbul daha böyümüşdü. O, bəzən Pələngi qaldırıb dalına atır, yüyürürdü... Kənd içinə çıxanda mən Gonbulu da özümlə aparırdım, hara getsəydim, o da dalımca gələrdi, harada otursaydım, gəlib başını ayaqlarımın üstünə qoyacaqdı. Nə bazarlıq etsəydim, Gonbulun belinə yüklərdim. “Getdik”, – dedikdə o, yerindən götürülər, arxaya da baxmazdı.

Ova çıxanda onun gözü tüfəngdə qalardı. Mən tüfəngi tuşlayanda o, tələsik ağacın, ya da daşın dalında gizlənər, uşaq kimi pəncələriylə qulaqlarını tıxardı...

Gonbulu çox sevirdim, onsuz həyatımı təsəvvür edə bilmirdim. Evə gələrkən Gonbulu görməsəydim, içəri keçməzdim. Onu çağırardım. Gonbul səndələyə-səndələyə yanıma qaçar, dərhal ayaqlarımın altına uzanar, ətəyimdən, çəkməmdən tutardı.

... Bir dəfə çoxlu ov vurduqdan sonra evə qayıdırdıq. Gonbul həmişəki kimi yanımca gəlir, arabir ətəyimdən çəkir, məzlum-məzlum mənə baxırdı...

– Ay  Elxan, bu ayıya bu gün nə olub? – deyə yoldaşıma sual verdim.

– Mən də məəttələm, – deyə Elxan ayıya diqqətlə baxdı.

Biz meşədən çıxırdıq. Birdən Gonbul dayandı. Mən ona baxanda geri döndü. Məndən uzaqlaşırdı, dönə-dönə dayanıb mənə baxır, yenə gedirdi. Mən ona tərəf getmək istəyəndə o, tələsdi, qaçmaq istədi. Dayandım, özümü itirdim. Onu çağırdım, çağırdım... Lakin indi anladım ki, təbiət mənim Gonbulumun mənə olan məhəbbətinə, itaətinə qalib gəldi. Nəhayət, o sədaqətli heyvan məni tərk etdi. İki qətrə yaş yanaqlarıma yuvarlandı, ürəyimi yandırıb-yaxdı...

O gecə ilan vuran yatdı, mən yatmadım. Dəfələrlə həyətə çıxdım. Əfsus ki, Gonbulu görmədim. O gecənin sabahı meşəyə təkcə getdim. Səslədim, çağırdım... Gonbul gəlmədi. Mən ona vəfasız da demədim. O, çox vəfalı heyvan idi...

- Hatəmin Elxanla yoldaşlıq etmək fikrinə düşməsinə səbəb nə olmuşdu?
- Böyümüş Gonbulun ovçu Hatəmlə davranışında dəyişiklik hiss etdinizmi?
- Ovçuları tərk edərək meşəyə üz tutan Gonbulun hərəkətini necə izah etmək olar? Fikrinizi əsərdən seçdiyiniz nümunələrlə əsaslandırın.

***

Bu hadisədən beş ay keçmişdi. Bizim meşələrdə haradansa gəlmiş bir pələng mal-qaranı qırır, insanlara hücum edirdi. Kəndin cəsarətli cavanlarından üç nəfərini götürüb meşəyə getdik. Bir həftə meşədən çıxmadıq. Yorulub iri bir çinarın altında istirahət edirdik. Elxan yanımızdan bir az uzaqlaşmışdı. Birdən onun bağırtısını eşitdik. Bir ayının onu pəncəsinin altına aldığını gördüm. Tüfəngi qaldırdım, çaxmağın şaqqıltısını eşidən ayı Elxanı buraxıb mehriban-mehriban mənə tərəf qaçdı. Gonbulu tanıdım. Elxan qana bulaşmışdı. O, zarıya-zarıya:

– Əclaf! Axır ki, qisasını aldı. Axır ki, kinini unutmadı, – dedi.

Elxanı götürüb evə qayıtdıq. Gonbul da həmişəki kimi yanımca gəlir, arabir mənalı-mənalı mənə baxırdı. Axı onu əzizləmir, başını tumarlamır, "Gonbulum" demirdim. Biz Elxanı evlərinə apardıq, Evdən çıxanda təəccüb etdim: Gonbul həyətdə dayanmışdı, yerindən tərpənmirdi. Mən evə gəldim, Gonbul da gəldi. Həyətimizdə ayaq saxladım. Əlimi onun başına çəkdim. Gonbul ayağımın altına yıxıldı, ətəyimdən çəkdi, çəkməmi dişlədi. Mən çox mütəəssir olmuşdum. Evdə hamı sevindi, ona yemək gətirdilər. O, həmişəki yerinə gedib yatdı. Tezdən Gonbulu yoxlamağa getdim. Yavaş-yavaş həyətdən çıxırdı. Səslədim, dönüb mənə baxdı. Sonra meşəyə üz tutdu...

Bu ayrılıqdan bir il keçmişdi. Başıma gələn bir hadisə bütün mahala səs saldı... Yaylağımız Kəpəz dağının ətəyində, ətrafını meşə basmış Göygölün yaxınlığındaydı. Gölün kənarında bir köhnə qayıq vardı. Bəzən ona minib gölün ortalarına balıq tutmağa gedirdik. Bir gün səhər tezdən gölün kənarına gəldim. Pələng də yanımdaydı. Qayıqla sahildən xeyli uzaqlaşıb toru yenicə atmışdım ki, bayaqdan mülayim əsən külək şiddətlənməyə başladı. Mən toru qaldırıb qayığa istiqamət verənəcən külək daha da şiddətləndi. Bu anda müvazinətimi itirdim, qayıq aşdı. Üzməyi azacıq bacarırdım. Su ilə əlləşərkən Pələngi suya atılan və mənə tərəf üzən gördüm. Son qüvvəmi toplayıb başımı bir dəfə də sudan çıxartmışdım ki, bir qüvvətli əl çiynimdən tutdu. Bu, ayı pəncəsi idi. Beynimdən ildırım kimi bir fikir keçdi : "Mənim Gonbulum!"

Ayının çiynindən yapışdım, daha qorxmurdum. Sahilə yaxınlaşırdıq. Sahil sıldırım olduğu üçün ayı nə özü kənara çıxa bildi, nə də məni çıxartdı. Bizdən aşağıda – lap çayın kənarında hündür ağac varıydı. Gonbul istiqamətini ağaca tərəf çevirdi, az sonra pəncələri ilə ondan yapışa bildi. Qaçaraq gələn iki nəfərdən biri mənə uzun bir ağac uzatdı. Ağacdan tuta bildim, Gonbul isə ağacı tüfəng zənn edib suya atıldı. Dərhal adamlardan ağaclarını yerə atmağı xahiş etdim. Sahil boyu aşağı qaçdım. Ayı dayaz bir yerdə sahilə yaxınlaşıb kənara çıxdı. Lap əldən düşmüşdü. Boynunu qucaqlayıb yaş kəlləsindən öpdüm. Əllərimi yaladı, silkələnib suyunu ətrafa sıçratdı. Başını ayaqlarımın üstünə qoyub uzandı.

- Bu hadisədən çox sonra Gonbulla görüş necə, hansı şəraitdə baş verir?
- Uzun ayrılıqdan sonra vəhşi heyvanın Hatəmi göldə batmaqdan xilas etməsini necə izah etmək olar? Bu, təsadüfdürmü?

Bir saata kimi beləcə oturduq. Gonbul ayağa qalxdı. Boynundan sallandım, yalvarmaq istədim. Məni itələdi, üzünü yamaca tutub getdi. Yolayrıcında dönüb yazıq-yazıq mənə baxdı və gözdən itdi. Ağac kötüyünün üstündə oturub acı-acı ağladım...

***

Son zamanlar ova az-az gedirəm. Ovçuluğa olan həvəs, arzu mənim qəlbimdə sönürdü. Amma Gonbulu heç cürə unuda bilmirdim. Günlərin birində Pələngi də yanıma salıb kənddən çıxdım. Çəmənlikdən keçib qayaya dırmaşarkən iki ovçuya rast gəldim. Yerin vəziyyətinə görə burada ov gərək yaxşı olaydı.

...Dağ keçiləri günün isti vaxtlarında meşənin qalınlıqlarına soxulur, burada yatırdılar. Mən bu yerləri qarış-qarış tanıdığım üçün rast gəldiyim ovçu yoldaşlarıma bələdçilik edirdim. Biz aşağı endik, böyük bir təpənin arxasında gizlənə-gizlənə qayalara yaxınlaşdıq. Birdən qarşımdakı dikdə bir neçə dağ keçisi göründü. Onlar bizi görüb özlərini itirdilər. Əvvəl aşağıya qaçdılar, sonra gözlənilmədən bizə tərəf döndülər. Təzə tanış olduğum ovçulardan biri özünü saxlaya bilmədi, onlara güllə atdı.

Dağ keçiləri bir andaca daşların arasında yox oldular. Bir az sonra keçilərdən biri qayanın üstündə göründü. Mən onu nişan aldım. Tüfəng açıldı. Onun yerindən qopub havaya tullandığını gördüm. Tez başının üstünü aldım...

Az sonra dağ keçisini kürəyimə qaldırıb dərəni keçdim, nəhayət, dağın yamacında yerləşən meşəyə girdim. Hələ yolumuz var idi. Çox yorulmuşdum. Çantanı başımın altına qoyub uzandım. Necə yuxuya getmişəm, xəbərim olmayıb. Budaq şaqqıltısına oyandım. Dərhal ayağa qalxdım. Ağacların arası ilə bir nəhəng ayı gəlirdi. Mən əvvəl tüfəngi tuşlayıb atəş açmaq istədim. Balalarını görüb yazığım gəldi; iki balası onun o tərəf-bu tərəfinə tullanır, oynaşırdılar.

Tüfəngi yanıma saldım. Elə bu andaca çox təəccübləndim. Pələng bir ağız hürdü, qulaqlarını şəklədi, dişi ayı bizə tərəf gəlirdi. O məni hələ görmürdü. Mən tüfəngi qaldırdım. Pələng irəli qaçdı, ayının ətrafında fırlandı. “Gonbul” dediyimi gördüm. O mənə tərəf yüyürdü. Ayaqlarımın altına yıxıldı. Hələ qorxu nə olduğunu bilməyən balaları qaçıb onun yanına gəldilər. Mən onları götürüb oynatmaq istədim, lakin Gonbuldan qorxdum. Balalardan biri lap mənə yanaşdı. Mən özümü saxlaya bilmədim. Əlimi başına çəkdim. Gonbul mənim əlimi yaladı. Bu səhnəni indi də unuda bilmirəm. Vəhşi bir heyvanda bu qədər sədaqət, ünsiyyət, səmimiyyət haradandır?

Qaş qaralırdı, yerimdən qalxdım. Heyvan ayrılacağımızı hiss etdi, tələsik aşağı endi. Gonbulun ardınca getdim. O, yuvasının qarşısında dayandı. Balaları yuvaya qaçışdılar. Gonbul yerə oturdu. Sürünüb üzünü ayaqlarıma qoydu. Ürəyim çırpınırdı, gözlərim yaşla doldu. Ovu Gonbulun yuvasının qabağına qoyub arxaya baxmadan yola düşdüm.

Kəndimizin yanındakı təpəyə çatarkən əlimə yaş bir şey dəydi. Dönüb baxdıqda Gonbulun əlimi yaladığını gördüm. Ürəyim yerindən qopdu. Bu heyvan balalarını tək qoyub məni ötürürmüş... Təpəyə çatdıq. Gonbul dayandı. Mənalı, qəmgin, kədərli baxışlarla mənə baxırdı; balalarının yanına qayıtmaq istəyirdi, məndən də ayrıla bilmirdi. Əyilib onun alnından, gözlərindən öpdüm. Göz yaşlarımı silib tələsik təpədən enməyə başladım. Mən kəndə girənə qədər Gonbul yerindəcə oturub gözlərini mənə dikmişdi. Kəndə girərkən son dəfə ona baxdım. O, yerindən qalxıb tələsmədən təpənin o biri tərəfinə endi...

O gündən tüfəngi yerə qoydum. Gonbul ilə son görüşümüzdən indi iyirmi il keçmişdir. Qocalıb əldən düşmüşəm. Başıma gələn hadisələri, macəraları fikrimdən keçirdikdə yalnız bir xatirə bütün hissiyyatıma üstün gəlir: Gonbul gəlib gözümün qarşısında durur, yenə gözlərini məhzun-məhzun gözümə dikir...

- "Son ayrılıq həm ovçu, həm də Gonbul üçün çox çətin olur" fikrinə münasibətinizi əsaslandırın.
- Hekayədən hansı ovqatla ayrıldınız?

**SÖZLƏR TANIŞDIRMI?**

- zopa
- məzlum
- mütəəssir
- müvazinət
- sıldırım
- macəra
- məhzun

## II MÖHKƏMLƏNDİRMƏ • ZƏNGİNLƏŞDİRMƏ

1. Əsərdə heyvanlar aləmi ilə bağlı mühüm mətləblər hansılardır?
2. Müəyyənləşdirdiyiniz mətləblərə münasibət bildirin.

## III NİTQİN, DÜŞÜNCƏNİN İNKİŞAFI

**1. Mövzulardan birini seçib şifahi təqdimata hazırlaşın. Mənasını yeni öyrəndiyiniz sözlərdən istifadə edin.**

a) Ovçu Hatəmin davranış və əməlləri onu mənə necə tanıtdı.
b) İnsan və təbiət bir-birindən ayrılmazdır.

**2. Çıxışlara münasibət bildirin.**

## IV MÜZAKİRƏ

**1. Aşağıdakı mövzularda müzakirəyə hazırlaşın.**

a) Əsər hansı mövzuda yazılmışdır.
b) Əsərin janr xüsusiyyətləri.

**2. Müzakirədə fəal iştirak edin.**

## V YARADICI İŞ

1. Müstəqil işlədiyiniz hekayədə uğurlu, yaxud zəif hesab etdiyiniz təsviri, epizodu və s. ucadan oxuyub sinfin təəssüratını öyrənin.
2. Hekayəni tamamlayıb harada çap etdirəcəyinizi müəyyənləşdirin.

## III DƏRS I ARAŞDIRMA • TƏHLİL

**1. Əsərin mövzusu ilə bağlı qənaətlərinizi dəqiqləşdirin. Tövsiyələrə diqqət edin:**
– hadisələrin, əsasən, harada baş verdiyini xatırlayın;
– əsərdə daha çox nədən danışıldığını yada salın;
– əhvalat və hadisələrin əlaqələri üzərində düşünün.

**2. Ovçu Hatəm obrazını səciyyələndirin. Tövsiyələri nəzərə alın:**
– müxtəlif vəziyyətlərdəki hiss və düşüncələrini yada salın;
– fərqli məqamlarda davranış və əməllərini xatırlayın;
– mühüm qərarlar qəbul etməsinə səbəb olan hadisələr barədə düşünün.

**3. Hatəm və Elxan obrazlarını müqayisəli səciyyələndirin. Cədvəldəki tələbləri nəzərə alın.**

| Hansı cəhətlərə görə müqayisə olunurlar | | | | | | | | |
|---|---|---|---|---|---|---|---|---|
| Obrazlar | Xarakterlərindəki başlıca cəhətlər | | Davranış və əməlləri | | Təbiətə və heyvanlar aləminə münasibətləri | | Xarici görünüşləri | |
| | oxşarlıq | fərq | oxşarlıq | fərq | oxşarlıq | fərq | oxşarlıq | fərq |
| Hatəm | | | | | | | | |
| Elxan | | | | | | | | |

**4. Süjetin mərhələlərini və onlardakı mühüm məqamları izah edin. Əsas və əlavə süjet xətlərinin əlaqələrini aydınlaşdırın.**

| Süjetin mərhələləri | Mərhələlərin mühüm məqamları |
|---|---|
| bədii müqəddimə | |
| düyün | |
| zirvə | |
| düyünün açılması | |
| final | |

**5. Hekayənin məzmunu oxuduğunuz hansı nağılı xatırladır? Onların məzmunları arasındakı oxşar və fərqli cəhətləri müəyyənləşdirin. Venn diaqramından istifadə edə bilərsiniz.**



**6. Hekayənin əsas ideyasını şərh etməyə çalışın. Sxemdəki fikirlərlə tanış olun. Seçdiyinizi, yaxud öz variantınızı nümunələrlə əsaslandırın. Müəyyənləşdirdiyiniz mətləbləri nəzərə alın.**

Əsərin əsas ideyasına hansı daha uyğundur?

- Təbiət insan üçün həyat mənbəyidir.
- İnsanın vəhşi heyvanla ünsiyyəti dostluğa çevrilə bilər.
- Xeyirxahlıq, isti münasibət vəhşi heyvanı belə ram edə bilər.

Nə üçün belə düşünürsünüz?

Sizin variantınız

## MÜZAKİRƏ

1. “Təbiətin və heyvanlar aləminin etibarlı qorunması üçün ən sərt qərar qəbul edilməlidir” mövzusunda debata hazırlaşın.
2. Lehinə, yaxud əleyhinə olmaqla əsaslandırılmış dəlillər hazırlayın.
3. Münsifləri mövqeyinizin həqiqiliyinə inandırmağa çalışın.
4. Fərqli fikirlərə hörmətlə yanaşın.

# TƏTBİQ • ÜMUMİLƏŞDİRMƏ



Tofiq Nurəli
(1953)

Onun elə ilk şeirlərindən istedadlı olduğunu hiss etmək çətin deyildi. İllər keçdi, Tofiq Nurəli ədəbiyyatımızın oxunan, sevilən şairi kimi tanındı... Əsərlərində həssas oxucunun qəlbinə işləyən bir yanğı aydın duyulmaqdadır. Şeirlərini oxuduqdan sonra həmişə nə isə xatırlamalı, düşünməli olursan; özün-özünə yaxınlaşırsan...

Fikrət Qoca

## PAYIZ NAĞILI

**Yadasalma** • Payıza həsr olunmuş hansı əsərləri xatırlayırsınız? Bu əsərlərdə payız fəslinə fərqli münasibət hiss etmisinizmi?

### I OXU • ANLAMA

**1. Mətni oxuyun.**

**2. İlkin təəssüratınızı bölüşün.**

**3. Şeirin məzmununa aid üçdən az olmayaraq sual və onlara cavab yazın. Ehtiyac duysanız, dərinləşdirilmiş oxu məqsədilə mətni nəzərdən keçirin.**

Payız göylərinin çaxar şimşəyi,
Başlayar köçhaköç, düşər yır-yığış.
Sarı zəmilərə, barlı bağlara,
Abad şəhərlərə yağar bu yağış.

Sevinər uşaqlar baxıb göylərə,
Şimşəyin işığı, çaxmağın səsi...
Şütüyər damlardan navalçalarla
Suların şəlalə olmaq həvəsi...

Sərçələr yığışar damın altına –
Düzülüb cərgəylə bir sətir kimi.
Ana quş havada açar qanadın
Yuvanın üstünə bir çətir kimi.

Sonra yavaş-yavaş kəsilər yağış,
Sonra yavaş-yavaş duman sürünər,
Sonra buludlardan boylanar günəş,
Sonra bütün dünya təzə görünər.

Sonra axşam düşər, sonra ay doğar,
Sonra da ulduzlar səpilər göyə.
Sonra da çayların gurlaşan səsi
Gecəyə bir payız nağılı deyər…

## II ÖYRƏNDİKLƏRİNİZİ YOXLAYIN

1. Yazdığınız sualları və onların cavablarını müzakirə edin.
2. Çıxışlara münasibət bildirin.

## III MÖHKƏMLƏNDİRMƏ • ZƏNGİNLƏŞDİRMƏ

**1. Kiçik qruplarda iş.**

**I qrup:**

a) Şeirdə tanış olmayan sözlərin mənasının aydınlaşdırılması.
b) Birinci bənddə ifadə edilmiş fikirlərin müəyyən edilməsi, qısaca yazılması.

**II qrup:**

a) Şeirdə işlənmiş bədii təsvir və ifadə vasitələrinin və onların növlərinin müəyyənləşdirilməsi, qısaca qeyd edilməsi.
b) İkinci bənddə ifadə edilmiş fikir və mənzərənin aydınlaşdırılması, qısaca təsvir edilməsi.

**III qrup:**

a) Üçüncü bənddə ifadə edilmiş fikir və mənzərənin aydınlaşdırılması, qısaca təsvir edilməsi.
b) İlk iki bənddə işlənmiş həmqafiyə sözlərin müəyyənləşdirilməsi, daha uğurlu hesab olunanların qeyd edilməsi.

**IV qrup:**

a) Dördüncü bənddə ifadə edilmiş fikir və mənzərənin aydınlaşdırılması, qısaca təsvir edilməsi.
b) Üçüncü, dördüncü və beşinci bəndlərdə işlənmiş həmqafiyə sözlərin müəyyənləşdirilməsi, daha uğurlu hesab olunanların qeyd edilməsi.

**V qrup:**

a) Beşinci bənddə əksini tapmış fikir və mənzərənin aydınlaşdırılması, qısaca təsvir edilməsi.
b) Şeirdə ahəng yaradan vasitələrin müəyyənləşdirilib qeyd edilməsi.

**2. Yazılmış qeydlərin əsasında təqdimatların hazırlanması.**
**3. Təqdimatların dinlənilməsi və onlara əsaslandırılmış münasibət bildirilməsi.**

## IV MÜZAKİRƏ

**1. Müzakirədə aşağıdakı sualları əhatə etməyə çalışın.**
a) Şeir hansı mövzuda yazılıb?
b) Şeiri maraqlı edən cəhətlər hansılardır?
c) Əsərdə heca vəzninə məxsus hansı cəhətlər əksini tapıb?
d) Əsərin əsas ideyası nədir?
e) Əsərdən hansı nəticəni çıxarmaq olar?

**2. Əsəri Muxtar Abduyevin "Payız" şeiri ilə müqayisə edin. Müqayisə üçün əsaslar müəyyənləşdirin. Cədvəldən istifadə edə bilərsiniz.**

| Müqayisə olunan əsərlər | Hansı cəhətlərə görə müqayisə olunurlar | | | | | | | |
|---|---|---|---|---|---|---|---|---|
| | | | | | | | | |
| | oxşarlıq | fərq | oxşarlıq | fərq | oxşarlıq | fərq | oxşarlıq | fərq |
| T.Nurəli. PAYIZ NAĞILI | | | | | | | | |
| M.Abduyev. PAYIZ | | | | | | | | |

Muxtar Abduyev
### PAYIZ

Payızdır, yenə də göyün üzünü
Bozarıb qaralmış bulud alıbdır.
Ağsaçlı dağlara, günəşli düzə
Kədərli yorğanın duman salıbdır.

Yarpaqlar saralıb yerə tökülüb,
Ağaclar soyunub çılpaq qalıbdır.
Nəğməkar quşların səsi kəsilib,
Meşələr qüssədən fikrə dalıbdır.

Elə bil qəmlidir dağ da, bulaq da,
O da bu aylardan yalqız olubdur.
Çəmənlər, çiçəklər bu şən oylaqda
Kim bilir, nə zaman, haçan solubdur.

Arabir boylanıb günəş çıxsa da,
Torpağı, çəməni isindirmir o.
Dibçəkdə güllərim çiçək açsa da,
Qəlbimi oxşayıb sevindirmir o.

# ESSENİ NECƏ YAZMALI

Esse yazmaqla bağlı əvvəlki siniflərdə müəyyən bacarıqlara yiyələnmisiniz. Bu bacarıqlarınızı yeddinci sinifdə daha da inkişaf etdirəcəksiniz. Bilirsiniz ki, esse müxtəlif mövzularda yazıldığı kimi, məzmunca da fərqli olur. Bu sinifdə *ədəbi mövzuda* və *mühakimə xarakterli* esse yazılar yerinə yetirəcəksiniz. Ədəbi mövzuda esse bədii əsərlə bağlı olur. Bu mövzuda icra edəcəyiniz essedə obrazlara müqayisə əsasında münasibət bildirməyə səy edəcəksiniz. Deməli, VII sinifdə daha çox obrazların müqayisəli təhlili üzrə yazının yerinə yetirilməsi məqsəd kimi müəyyənləşdirilmişdir.
Yazı üçün sinifdə öyrənilmiş, yaxud müstəqil oxunmuş əsərlər seçilə bilər.

Mühakimə xarakterli esse üçün sərbəst mövzuların seçilməsi nəzərdə tutulmuşdur. Cəmiyyət, təbiət üçün səciyyəvi olan hadisələr, xüsusən vətənimiz, xalqımızla bağlı taleyüklü məsələlər bu növ esse üçün əhəmiyyətli mövzuların müəyyənləşdirilməsinə geniş imkan verir. Eləcə də incəsənətin digər növləri ilə (rəssamlıq, heykəltaraşlıq, kino, teatr və s.) bağlı mühakimə xarakterli essenin icrası mümkün və faydalıdır. Əlbəttə, mühakimə xarakterli esse bədii əsər üzrə də yazıla bilər.

Ədəbi mövzuda esse ilə mühakimə xarakterli essenin oxşar cəhətləri çoxdur. Ən mühüm oxşarlıq isə hər ikisində müəllifin hiss və düşüncələrinin önəmli olması, şəxsi mövqeyin əsaslandırılmasına səy göstərilməsidir. Bu yazıların hər ikisinin məzmununda və quruluşunda sərbəstliyə geniş yer verilir. Bir fikirdən gözlənilmədən digərinə keçmək, nəticə çıxarmağı oxucunun öhdəsinə buraxmaq, əsas mətləbi yazının əvvəlindəcə ifadə etmək, ümumiyyətlə, esse üçün qüsur sayılmır.

Buradan aydınlaşır ki, essedə *giriş*, *əsas hissə* və *nəticənin* olmasından, yerlərinin sabitliyindən danışmaq, bunu əsaslandırmağa çalışmaq özünü doğrultmur. Bunlar yalnız şərti olaraq qəbul edilə bilər. Yəni bu, yazının tamamilə pərakəndə olmaması arzusundan irəli gəlir.

Bu iki yazını bir-birindən fərqləndirən cəhətlər də vardır.

## Ədəbi mövzuda esse

Ədəbi mövzuda esse, təbiidir ki, özünəməxsusluğu ilə fərqlənir. Belə yazıların mövzusu konkretliyi ilə seçilir. Bu yazıda da “fikir sərbəstliyi”, “fikir pərakəndəliyi” olsa da, bitkin fikrin (“mikro məzmunun”) ifadəsində bir bütövlüyün, ölçü-biçinin olması məqsədəuyğundur. Məsələn, yazıda bədii əsərdəki obraz təhlil olunarkən xarakterindəki mühüm cəhətlərin aydınlaşdırılmasında müəyyən ardıcıllığın, bütövlüyün gözlənilməsi mümkün və faydalıdır. Yaxud bədii əsərlərin, eləcə də obrazların müqayisəli təhlili üzrə yazıda oxşar və fərqli cəhətlərin üzərində ardıcıllıqla dayanılması lazım gəlir. Lakin bu, esse müəllifinin şəxsi hiss və düşüncələrinə geniş yer verməsinə mane olmur.

Essenin uğurlu olması ciddi hazırlıq işlərinin aparılmasını tələb edir. Ümumiyyətlə, essenin hazırlanması üç mərhələni əhatə edir:
– yazıya hazırlıq;
– yazının yerinə yetirilməsi;
– yazının müzakirəsi və qiymətləndirilməsi.

*Yazıya hazırlıq.* Bu mərhələdə yerinə yetirilən işin necə təşkil edilməsi yazının mövzusundan xeyli dərəcədə asılıdır.

VII sinifdə esse üçün mövzu, qeyd edildiyi kimi, daha çox obrazların müqayisəli təhlili üzrə müəyyənləşdirilir. Lakin bu, obrazların iştirakçıları olduqları əsərlərin dərindən araşdırılmasını istisna etmir. Yazıya hazırlıq mərhələsində bədii əsərlərin (müqayisə edilən obrazlar müxtəlif əsərlərdən də seçilə bilər) yenidən oxunması faydalıdır. Müqayisənin səmərəli aparılması obrazlar haqqında əhatəli məlumatın olmasından asılıdır. Buna görə də obrazların xarakteri, davranış və əməlləri, nitqi, başqalarına münasibəti bir daha diqqətlə araşdırılmalıdır.

Əsərlə bağlı dərslikdə deyilənlərlə kifayətlənmək olmaz. Onun haqqında əlavə mənbələrdən məlumatın toplanması, təhlili ilə bağlı deyilənlərə diqqət yetirilməsi faydalıdır. Bu məqamda yığcam qeydlər də aparılmalıdır. Sonrakı addımda qeydlərin səliqəyə salınması, əlaqələndirilməsi həyata keçirilir. Toplanmış məlumatlardan necə istifadə ediləcəyi üzərində düşünülür. Bütün hallarda şəxsi fikirlərin üstünlük təşkil edəcəyi qənaəti möhkəmlənir. Yazının ümumi məzmunu, fikirlərin necə ifadə ediləcəyi götür-qoy edilir. Təsəvvürdə aydınlıq yarandıqda icraçı işə başlamağa hazır olduğunu anlayır.

Hazırlıq işi sadə planın tərtibi ilə başa çatdırılır.

*Yazının yerinə yetirilməsi.* Bu, yazının icra edilməsi mərhələsidir. Hazırlanmış sadə plan icraçı üçün istiqamətləndirici vasitə rolunu oynayır. Lakin iş prosesində bu planda müəyyən dəyişikliyin edilməsi, dəqiqləşdirmənin aparılması mümkündür. Başlıcası isə plan elə tərtib edilməlidir ki, yazının məzmun və quruluşunda sərbəstliyə geniş imkan yaratsın.

Müqayisənin səmərəli tətbiqi onun xüsusiyyətləri barədə məlumatlı olmaqdan çox asılıdır. Bunu da unutmaq olmaz ki, obyektlərin (müqayisə olunanların) arasındakı oxşar cəhətlərin aşkara çıxarılması *tutuşdurma*, fərqli cəhətlərin müəyyənləşdirilməsi isə *qarşılaşdırma* adlandırılır. Oxşar və fərqli cəhətlərin eyni zamanda müəyyən edilməsinə isə *müqayisə* deyilir.

Müqayisənin başlıca xüsusiyyətləri aşağıdakılardır:
– müqayisəni o vaxt tətbiq etmək mümkündür ki, obyektlər (bədii əsərlər, obrazlar və s.) müqayisəyə gələn olsun. İstənilən əsərləri, obrazları bir-biri ilə müqayisə etmək olmaz. Yalnız mahiyyətlərində, təbiətlərində oxşarlıq olan obyektləri müqayisə etmək mümkündür;
– müqayisəyə cəlb olunan obyektlərin mühüm əlamətlərinin götürülməsi zəruridir;
– müqayisədən istifadə edərkən eyni, vahid əsasın (cəhətin, əlamətin) gözlənilməsi vacibdir.

Obyektlərin (əsərlərin, obrazların və s.) arasındakı oxşar, yaxud fərqli cəhətlərin aşkara çıxarılması hələ müqayisənin tamamlanması demək deyildir. Oxşarlığın və fərqin səbəbini açmaq, müqayisə olunanların arasındakı əlaqələri aydınlaşdırmaq, ümumiləşdirmə aparmaq, müqayisədən nəticə çıxarmaq həyata keçirilməli olan mühüm qaydalardır.

Obrazlara müqayisə əsasında münasibət bildirilməsi diqqət mərkəzində saxlanılır. Müqayisənin xüsusiyyətlərinin, tətbiqi qaydalarının nəzərə alınması obrazların hər birinin obyektiv dəyərləndirilməsinə imkan verir. Məsələn, Ə.Səbrinin "Sədaqət" hekayəsindəki Hatəm və Elxan obrazlarını aşağıdakı əsaslar üzrə müqayisə etmək səmərəli olar:
– xarakterlərindəki başlıca cəhətlər;
– təbiət və heyvanlar aləminə münasibətləri;
– davranış və əməlləri;
– başqalarına münasibətləri;
– xarici görünüşləri.

**Unutmayın!**
Müzakirədə səsləndirilən fikirləri diqqətlə dinləyin. Fərqli fikirləri müqayisə edib nəticə çıxarmağa çalışın. Göstərilən nöqsanların düzəldilməsi yazınızın keyfiyyətinə müsbət təsir edirsə, nəzərə alın.

Obrazların müqayisəli təhlilinə həsr olunmuş essedə əsərin mövzusu, ideyası və s. bağlı şəxsi mövqeyin ifadə edilməsi məqsədəuyğundur. Əsərin öyrənilməsində mənası aydınlaşdırılmış sözlərdən, eləcə də obrazlı söz və ifadələrdən, təsvir və ifadə vasitələrindən, hikmətli kəlmələrdən yazıda yeri gəldikcə istifadə edilməsi diqqətdən yayınmamalıdır.

*Yazının müzakirəsi və qiymətləndirilməsi.* Yazı başa çatdırıldıqdan sonra onun bir neçə dəfə oxunması vacibdir. Diqqətli oxu yol verilmiş nöqsanların aşkara çıxarılmasına və aradan qaldırılmasına imkan verir. Ədəbi mövzuda essenin dil-üslub xüsusiyyətlərinə (obrazlı söz və ifadələr, təsvir-ifadə vasitələri, hikmətli kəlmələr və s.) yazıda necə əməl edildiyinə ayrıca diqqət yetirilməlidir. Müqayisənin xüsusiyyətləri, tətbiqi qaydalarının hansı səviyyədə nəzərə alındığı aşkara çıxarılmalı, ortaya çıxan qüsurlar aradan qaldırılmalıdır.

Yazını ilk növbədə özünüz qiymətləndirməli, sonra müzakirəyə təqdim etməlisiniz. Özünüqiymətləndirmə meyarlar əsasında həyata keçirilməlidir. Belə meyarlara nümunə olaraq aşağıdakıları göstərmək olar.

| Özünüqiymətləndirmə meyarları | Bəli | Xeyr |
|---|---|---|
| Mövzu barədə aydın təsəvvür yarada bilmişəm. | | |
| Müqayisənin xüsusiyyətlərini və tətbiq qaydalarını nəzərə almışam. | | |
| Mövzu ilə bağlı hiss və düşüncələrimə geniş yer vermişəm. | | |
| Obrazlı söz və ifadələrdən, təsvir-ifadə vasitələrindən istifadə etmişəm. | | |
| Sözlərin yersiz təkrarına yol verməmiş, cümlələrin aydınlığına, fikrin tez başa düşülməsinə nail olmuşam. | | |
| Sözlərin düzgün yazılışına, durğu işarələrindən yerində istifadəyə əməl etmişəm. | | |

## Mühakimə xarakterli esse

VII sinifdə mühakimə xarakterli esse daha çox sərbəst mövzularda yazılır. Bu esseni digərlərindən fərqləndirən xüsusiyyətləri bilmək faydalıdır. Eləcə də onun tətbiqi qaydaları barədə məlumatlı olmaq vacibdir. Belə yazı üçün müəyyənləşdirilmiş mövzu icraçını (essenin müəllifini) mühüm bir məsələyə, yaxud problemə münasibət bildirməyə yönəldir. Bu məsələ, problem sadə bir yanaşma yox, əsaslandırılmış münasibət tələb edir. Deməli, essenin müəllifi, yəni siz öz mövqeyinizin doğru olduğuna oxucuları inandırmalısınız. Bunun üçün inkar edilməsi çətin, ya da heç mümkün olmayan dəlil və sübutlar göstərməlisiniz. Bu isə haqqında yazdığınız məsələ, problemlə bağlı mükəmməl məlumatınız olmadan mümkün deyil. Beləliklə, həmin məsələ, problem üzrə araşdırma aparmağınıza ciddi ehtiyac yaranır. Siz onların mahiyyətini, başlıca xüsusiyyətlərini, əlaqələrini, yaranma səbəblərini aydınlaşdırmağa çalışmalısınız. Əks yanaşma üzərində də düşünməlisiniz. Yəni həmin məsələ, problemlə bağlı fərqli mövqeyi nəzərə almalı, onu öz dəlillərinizlə yalana çıxarmalı, əsassız olduğunu sübut etməlisiniz. Məsələn, təklif edilmiş "İnsanın rifahı üçün təbiətə hər cür müdaxilə mümkündür" mövzusunda mühakimə xarakterli essedə siz bunun yolverilməz olduğunu əsaslandırmağı qarşınıza məqsəd qoymusunuzsa, fərqli yanaşmanın dəlillərinin nə olacağını da düşünməli, mövqeyinizi həm də buna uyğun əsaslandırmalısınız.

Mühakimə xarakterli esse daha geniş, əhatəli tədqiqatın aparılmasını, əsaslı mühakimə yürütməyə imkan verən fakt və dəlillər toplamağı tələb edir. Bu, *yazıya hazırlıq* mərhələsində gerçəkləşdirilir. Əldə olunanların diqqətlə öyrənilməsi, seçilməsi, qruplaşdırılması xeyli vaxt aparsa da, yazının məzmunlu olmasına əhəmiyyətli təsir edir. Hazırlıq mərhələsində ən incə məqamların, ifadə

ediləcək fikirlərin, aralarındakı əlaqələrin aydınlaşdırılması, dəlil, fakt və sübutların dərindən düşünülməsi yazının bütövlükdə təsəvvür edilməsinə səbəb olur. Sonrakı mərhələdə – *yazının yerinə yetirilməsində* məsələyə (problemə) fərqli yanaşmanı əks etdirən fikrin sual şəklində diqqətə çatdırılması yazının maraqlı olmasına imkan yaradar. Yalnız bundan sonra yazının müəllifi fərqli yanaşmanı (əks dəlili) inkar edən dəlil, fakt və sübutların şərhinə keçə bilər. Fərqli yanaşmaya məxsus başlıca fikrin digər arqumentlərinin xatırladılması da vacibdir. Bu, yazının, bir növ, dialoq-mübahisə zəminində davamına, məzmunun zənginləşməsinə, dərinləşməsinə və maraqla oxunmasına səbəb olur.

Artıq deyildiyi kimi, mühakimə xarakterli essenin də məzmun və quruluşunda sərbəstliyə geniş yer verilir. Bu sərbəstlik yazının çoxlu variantlarının yaranmasına səbəb olur. Variantlardan biri belə ola bilər: müəllif mövzu, məsələ, problemlə bağlı gəldiyi nəticəni yazının ilk abzasındaca əks etdirir. Ardınca isə nə üçün bu mövqedə olduğunu təsdiq edən dəlilləri (fakt və sübutları) diqqətə çatdırır. Sonrakı addımda fərqli yanaşmaya məxsus dəlili (dəlilləri) yazıb onu (onları) inkar edən mühakimələrini ifadə edir.

Digər bir variant: yazının başlanğıcında mövzu (məsələ, problem) haqqında qısa məlumat verilir. Sonra mövcud fərqli yanaşma xatırladılır, ardınca isə onu inkar edən dəlil və sübutlar irəli sürülərək əsaslandırılır. Bu variantda nəticənin sonda verilməsi məqsədəuyğundur.

Sonuncu – *yazının müzakirəsi və qiymətləndirilməsi* mərhələsi icraçının mətni oxuması ilə başlanır. Adətən, bir dəfə oxumaqla kifayətlənilmir. Yazının bir neçə dəfə diqqətlə oxunması ondakı nöqsanların aradan qaldırılmasına səbəb olur. Sözlərin, cümlələrin dəyişdirilməsinə, müəyyən dəqiqləşdirmə işlərinin aparılmasına ehtiyac yaranır. Məzmuna ayrıca diqqət yetirilir. İfadə olunmuş fikirlərin necə başa düşüldüyü, dəlillərin nə cür əsaslandırıldığı, mühakimələrin məntiqli olub-olmaması və s. dönə-dönə nəzərdən keçirilir. Bütün bunlar özünüqiymətləndirmənin obyektiv olmasına və müzakirədə əsaslandırılmış fikirlərin səsləndirilməsinə əhəmiyyətli təsir edir.

Özünüqiymətləndirmə meyarlar əsasında aparılır. Meyarlara nümunə olaraq aşağıdakıları göstərmək olar.

| **Özünüqiymətləndirmə meyarları** | **Bəli** | **Xeyr** |
|---|---|---|
| Mövzu barədə aydın təsəvvür yarada bilmişəm. | | |
| Əsaslandırılmış dəlil, fakt və sübutlardan istifadə etmişəm. | | |
| Fərqli yanaşmaya məxsus dəlillərin əsaslı olmadığını sübut etmişəm. | | |
| Mövzu ilə bağlı hiss və düşüncələrimə geniş yer vermişəm. | | |
| Obrazlı söz və ifadələrdən, təsvir-ifadə vasitələrindən yerində istifadə etmişəm. | | |
| Sözlərin yersiz təkrarına yol verməmiş, cümlələrin aydınlığına, fikrin tez başa düşülməsinə nail olmuşam. | | |
| Sözlərin düzgün yazılışına, durğu işarələrindən yerində istifadəyə əməl etmişəm. | | |

# ƏDƏBİ MƏKTUBU NECƏ YAZMALI

Məktub insanların həyatına çoxdan, hələ yazının olmadığı zamanlarda daxil olub. İnsanlar uzaq məsafədəkilərə fikirlərini çatdırmaq, suallarına cavab almaq üçün müxtəlif vasitələrdən (əşya, rəmzi materiallar və s.) istifadə etmişlər.  Zaman ötdükcə və yazı meydana gələndən sonra onlar məktubdan daha çox və geniş dairədə faydalanmağa başladılar.

Bu gün məktub insanların fərqli məqsədlərini ifadə edən dəyərli vasitə kimi qiymətləndirilir. İndi müxtəlif peşə adamları gündəlik həyatlarında, əmək fəaliyyətlərində məktub yazmağa ehtiyac duyduqları kimi, dövlətlər, rəsmi qurumlar, müxtəlif təşkilatlar da məktubdan öz məqsədləri üçün yararlanırlar.

Məktub şəklində yazılmış bədii əsərlər də vardır. Belə əsərlər “epistolyar ədəbiyyat nümunələri”, “epistolyar formada yazılmış əsər”, “epistolyar irs” və s. adlandırılır. Yunanca “epistole” (latınca “epistola”) sözü “məktub” anlamındadır. Ədəbiyyatşünaslıqda “məktub şəklində yazılmış əsər” ifadəsi geniş işlədilir və ədəbiyyatımızda belə əsərlərin sayı az deyildir. Məsələn, Qasım bəy Zakirin müasiri Mirzə Fətəli Axundzadəyə şeirlə yazdığı məktublar məzmununa, ifadə olunmuş fikirlərin əhəmiyyətinə görə diqqəti cəlb edir. Onların birində deyilir:

Xəbər alsan bu vilanın əhvalın, –
Bir özgədir keyfiyyəti-Qarabağ.
Həqdi, bundan əqdəm görübsən sən də,
Hanı o qaidə, o qanun səyaq?

Ədəbi məktublar fərqli məzmunda və fərqli məqsədlərlə qələmə alınır. Məsələn, təcrübəli yazıçı yaradıcılığa yeni başlayan gənc yazıçıya ünvanladığı ədəbi məktubda onun əsərlərini təhlil edib faydalı tövsiyələr verə bilər. Yaxud ədəbi-tənqidlə məşğul olan qələm sahibi – tənqidçi müasiri olan sənətkara yazdığı ədəbi məktubda öz fikirlərini, tövsiyələrini ifadə edir. Yazıçının öz qələm dostuna, yazıçının tənqidçiyə yazdığı ədəbi məktublar da az deyildir. Belə məktubların çap edilməsi oxucuların onlarla tanışlığına imkan yaradır. Bu, həmin məktublara ictimai dəyər qazandırır. Bəzən oxucular belə məktubların köməyi ilə, məsələn, yeni yazılmış, ciddi mübahisələrə səbəb olan əsər haqqında aydın təsəvvür qazanmış olurlar.

*Əziz şagirdlər!*

*Siz “ədəbi məktub” anlayışının mahiyyətini bədii əsər haqqında şəxsi fikirlərinizi özündə əks etdirən yazı kimi öyrənəcək və nümunələr hazırlayacaqsınız.*

Ədəbi məktub ədəbi-tənqidi məqaləyə çox oxşasa da, ondan fərqlənir. Belə ki, məktub müəllifi fikirlərini daha sadə, anlaşıqlı şəkildə, bütün oxucuların başa düşəcəyi tərzdə ifadə etməyə xüsusi diqqət yetirir. Eləcə də belə məktublar, əsasən, kəskin, barışmaz mövqe əks etdirmir. Məktubu yazan, hətta razılaşmadığı ən prinsipial məsələni belə səmimi şəkildə, inandırma, tövsiyə yolu ilə çatdırmağa üstünlük verir.

Ədəbi məktubda yazıçının hər hansı bir əsərinə münasibət bildirildiyi kimi, onun bütövlükdə yaradıcılığı da əhatə oluna bilər.  Deməli, ədəbi məktubun  konkret mövzusu olur. Onda başlıca fikrin – ideyanın, yardımçı fikirlərin xüsusi dəqiqliklə əks etdirilməsi diqqət mərkəzində saxlanılır.

Belə məktublarda təhlillərə, yozumlara, müqayisələrə, ümumiləşdirmələrə geniş yer verilir. Bu məktublar o vaxt yüksək dəyərləndirilir ki, müəllifin fikirləri güclü dəlillərə, faktlara əsaslanır. Bu, oxucuları inandırır, məmnun edir, deyilənlərlə bağlı onlarda müsbət rəy formalaşır.

Ədəbiyyatşünas alim Bəkir Nəbiyevin, xalq yazıçısı Süleyman Rəhimovun, xalq şairləri Fikrət Qocanın, Sabir Rüstəmxanlının, filoloq-tədqiqatçı Qəzənfər Paşayevin, ədəbiyyatşünas-alim Nizaməddin Şəmsizadənin və b. mətbuatda çap olunmuş ədəbi məktubları oxucuların tez-tez müraciət etdikləri qiymətli mənbələrdir.

Bu deyilənlərin əksəriyyəti tənqidçi-alim Nizaməddin Şəmsizadənin yazıçı Elçinə ünvanladığı ədəbi məktubda öz əksini tapmışdır.

Elçinin "Baş" adlı romanı haqqında yazılmış həmin ədəbi məktub ixtisarla diqqətinizə çatdırılır.

*"Baş"ın səyahəti*
*Xalq yazıçısı Elçinə ədəbi məktub*

*Əziz Elçin müəllim!*

*Dərin tarixi bilgi əsasında, böyük fəhmlə yazılmış "Baş" romanınızı maraq və həvəslə oxudum. Öncədən etiraf edim ki, son vaxtlar belə ciddi və maraqlı roman oxumamışdım.*

*"Baş" başsızlıq haqqında romandır. Harada başsızlıq var, orada milli faciələr baş verir. Sizin romanda baş böyük bir imperiyanın timsalıdır.*

*Əslində, romanın süjeti sadədir: təslim olunmaq haqqında Hüseynqulu xandan Bakının simvolu olan şəhərin açarını almaq üçün Qoşa qala qapısına gələn rus generalı, Zaqafqaziya ordusunun komandanı, milliyyətcə gürcü olan knyaz Pavel Dmitriyeviç Sisiyanov Hüseynqulu xanın bacısı oğlu, millətsevər, igid türkçü Mahmud ağanın adamları tərəfindən bir göz qırpımında öldürülür...*

*Sonrakı bütün hadisələr bununla bağlı təsvir edilir...*

*Romanı qeyri-adilikdən adiliyə endirən səbəblərdən biri general Sisiyanovun məktubları, digəri bəzi yaddaş düşüncələridir... Əslində, bəlkə də, reallıqda belə məktublar yoxdur, Sizin təxəyyülünüzün məhsuludur, rus cəmiyyətinin, Rusiyanın dövlət siyasətinin – Qafqazdakı imperiyaçı siyasətin iç üzünü açmağa xidmət edir. Və bu cəhətdən romanın ayrıca bir xətti olaraq maraq doğurur.*

*Rusiyanın dövlət siyasətini gözəl bilməyinizi əks etdirən, rus diplomatiyasını açan, xüsusilə Rusiyanın Qafqazı işğal etmək və Rusiyaya birləşdirmək strategiyasını açıb göstərən, rus çarlarının – I Pyotrun, II Yekaterinanın, I Pavelin, I Aleksandrın əxlaqsız saray dramasını, bu hakimlərin Avropapərəst hərb siyasətini əks etdirən bu məktublar zəngin olsa da, məhz romanın poetikası baxımından uzun olur, onun dinamikasını bölüşdürür, psixoloji gərginliyi siyasi müstəviyə keçirir…*

*"Baş" xarakterlər romanıdır. Hüseynqulu xan, Molla Müzəffər Ağa, Teymur Ağa, Pavel Sisyanov, Hacı Muxtar, Suxaryov, general Lazarevi qətlə yetirən gürcü çariçası Mariya və s. Bu xarakterlərin ən güclüsü Hacı Muxtardır. Son xəyanət anında Hacı Muxtar özünə qalib gəlir, gənc Mahmudun uşaqlığı ilə bağlı nəcib xatirələr onun nəfsinə üstün gəlir. Bu obraz milli ləyaqət, kişilik rəmzidir və o hər cür hörmətə layiqdir…*

*Hörmətli Elçin müəllim!*

*Romanda kədərli talelərin təsviri xüsusilə diqqətəlayiqdir. Ümumiyyətlə, Qarabağla bağlı epizodları, necə deyərlər, ürək qanı ilə yazmısınız. Bunlardan biri İbrahim xanın böyük qızı Ağabəyim Ağanın taleyidir. İkincisi Sarı Çoban qızının taleyidir.*

*Misilsiz bir gözəl olan Sarı Çoban qızının taleyi oxucuda dərin kədər hissi oyadır, uzun müddət onu düşündürür…*

*Nəhayət, üçüncüsü, İbrahim Xəlil xanın və bütün ailəsinin Şuşanın komendantı rus mayoru Lisaneviç tərəfindən xüsusi bir amansızlıqla qətlə yetirilməsidir. "Gecə paltarında yataq otağından çıxan İbrahim Xəlil xan mayor Lisaneviçlə üz-üzə gəldi və ay işığında daha da bozarmış xırda boz gözləri daima oynayan bu amansız rus köpəyi qəzəbindən titrəyən səsi ilə: "Hə, qoca tülkü, Abbas Mirzəni gizlincə Qarabağa çağırdın?! Nə oldu?! Elə bilirdin, mən xəbər tutmayacağam?! Hanı indi sənin Qacarların?! Hanı Fətəli şah?! Niyə gəlib səni xilas etmir?!" – dedi və dəhşətdən gözləri iriləşmiş xana ağzını açmağa macal vermədən atəş açdı. İbrahim xan yerə sərildi..."*

*Azadlığın, sərbəstliyin boğulduğu yerdə mayor Lisaneviçlər peyda olur və onlar İbrahim xanları və onların ailələrini körpəli-qocalı çığırda-çığırda öz silahlarını yoxlayırmış kimi güllələyə bilirlər…*

*Hörmətli Elçin müəllim!*

*"Baş" romanı böyük fəhmlə, yüksək milli qürur hissi ilə yazılıb. Burada yer "həqiqətlərindən" bezmiş, usanmış bir yazıçının yerdən qırılmaq, üzülmək, uçmaq, səmaya köçmək təşnəsi əbədiləşib... Roman ümumbəşər faciəni əks etdirir: Silah və Baş! Başı elə Başın düzəltdiyi silahla kəsirlər. Bu, qədim tarixdən bəri belədir. Buna qarşı bədii divan qurduğunuza görə insanlıq Sizə minnətdar olacaq. Ədəbiyyatın hökmü isə hər şeydən ucadır.*

Ədəbi məktub yazmağın sizin üçün əhəmiyyəti nədir?

Belə məktublar, deyildiyi kimi, bədii əsərlə, bu və ya digər sənətkarın yaradıcılığı ilə bağlı olur. Sizin hazırlayacağınız məktublar isə müəyyən bir əsər haqqında olacaq. Deməli, həmin əsərin məzmunu, ideyası barədə mükəmməl məlumatınız olmalıdır. Lakin bu, işin bir tərəfidir. Belə məktubu yazarkən ədəbiyyat dərslərində bədii əsərin təhlili ilə bağlı mənimsəmiş olduğunuz bilik və bacarığınızı yüksək səviyyədə tətbiq etməyə çalışmalısınız.

Bu da hələ hamısı deyil; siz əsər haqqında müstəqil düşüncələrinizə geniş yer verməli, şəxsi yozumlarınızı ortaya qoymalısınız. Bütün bunlar inkişafınıza, bilik və bacarıqlarınızın zənginləşməsinə imkan yaradacaqdır.

**Yazıya hazırlıq mərhələsində aşağıdakı qaydaları nəzərə almağınız faydalıdır:**

– ədəbi məktub üçün konkret mövzu müəyyənləşdirməlisiniz;
– məktubu yazmaqda məqsədinizin nə olduğunu aydın təsəvvür etməlisiniz;
– ifadə edəcəyiniz əsas və yardımçı fikirlərin ilkin variantları, qarşılıqlı əlaqələri barədə düşünməlisiniz;
– məktubda əks etdirəcəyiniz fakt, məlumat, dəlillərin ilkin variantları ilə bağlı qeydlərinizi əvvəlcədən hazırlamalısınız;
– qənaətlərinizi məktubda necə ümumiləşdirəcəyinizi, gəldiyiniz nəticəni necə ifadə edəcəyinizi əvvəlcədən qısaca qeyd etməlisiniz.

*Məktubun üzərində işinizi tamamladıqdan sonra bir neçə dəfə oxumağınız, sinif yoldaşlarınızla müzakirə etməyiniz məqsədəuyğundur.*

Məktubunuzu həmyaşıdınıza, gerçək, yaxud xəyali dostunuza, əsər müəllifinə, tənqidçiyə və b. ünvanlaya bilərsiniz.

Məsələn, R.Qusarçaylının VI sinifdə öyrəndiyiniz “Payız” şeiri haqqında tənqidçi Vaqif Yusiflinin məqaləsinə (internet səhifələrində oxuya bilərsiniz) məktubunuzda münasibət bildirib özünə göndərə bilərsiniz. Eləcə də əsərlərini mükəmməl öyrəndiyiniz şair və yazıçılara ədəbi məktub yazmağınız məqsədəuyğundur.

# LAYİHƏLƏR ÜZRƏ İŞ

## I yarımil

LAYİHƏ 1

**Mövzu:**
"Sirli-sehrli dünya" (tamaşa-viktorina)

**Tapşırıq:**
**I. Oxu materiallarının əvvəlcədən mütaliə edilməsi**

1. Bir epizodun dinlənilməsi əsasında əfsanənin, nağılın adının və ondakı mühüm hadisələrin xatırladılması
2. Surətlərdən birinin davranış və əməllərindən bir məqamın xatırladılması ilə əfsanənin, nağılın adının, əsas ideyasının xatırladılması
3. Adıçəkilən nağıl qəhrəmanının digər nağıl, yaxud əfsanə qəhrəmanı ilə müqayisə edilməsi
4. Səciyyəvi epizodların səhnələşdirilməsi, əfsanədə, nağılda rolunun xatırladılması
5. Əfsanə, nağılların məzmununa uyğun əlavələrin edilməsi
6. Əfsanə, nağıllara illüstrasiyaların çəkilməsi

**II. Qalib komandaların seçilməsi meyarlarının müəyyənləşdirilməsi**
**III. Aparıcıların sayının müəyyən edilməsi və çıxışları üçün mətnlərin hazırlanması**
**IV. Tamaşa-viktorinanın proqramının hazırlanması**

# I LAYİHƏ ÜÇÜN TÖVSİYƏ OLUNAN OXU MATERİALLARI

## DƏYİRMAN DAĞI
(əfsanə)

Keçmiş zamanlarda Qurudərə kəndində dəyirman daşı düzəldən bir qoca yaşayırmış. Qoca usta öz peşəsini oğluna da öyrədibmiş.

Ata ilə oğlu öz peşələrindən razı imişlər. Onların düzəltdikləri daşları yaxın və uzaq ellərdən gəlib baha qiymətə alıb aparırmışlar. Güzəranları yaxşı keçirmiş. Buna baxmayaraq qoca usta həmişə kədərli görünərmiş. Usta xeyli işlər, yorulanda isə bir daşın üstündə oturar, bütün ətraf dağları gözdən keçirərmiş. Sonra da köks ötürər, könülsüz-könülsüz ayağa qalxar, əzgin-əzgin işə başlarmış.

Qocanın bir nisgili varmış. Öz kəndində dəyirman qurmaq üçün su tapmırmış… Qoca bir gün işi oğluna tapşırıb yaxın dağlarda su axtarmağa gedir. Çox gəzir, haldan-dildən düşür, su tapmır ki, tapmır. Birdən çınqıllı bir dağın yamacında yanı pöhrəli yaşıl göyrüş ağacı görür. Öz-özünə düşünür: "susuz ağac bitməz. Yəqin ki, onun dibindən su axır".

Qoca bu ümidlə göyrüşün yanına çıxır. Dincəlmək üçün ağacın dibində uzanır. Onu yuxu tutur. Qoca başının altından axan suyun şırıltısına ayılır. Cəld qalxıb baş qoyduğu daşı güc-bəla ilə yerindən tərpədir. Görür ki, daşın altı ilə bir dəyirmanlıq su axır.

Qoca tələsik oğlunun yanına gəlib deyir:

– Oğul, qaç Qurudərə camaatına müjdə apar, de ki, dəyirman qurmaq üçün su tapdıq.

Oğlan deyir:

– Ata, əvvəl o sudan özümüz içib doyaq, sonra da camaata xəbər verək.

Qoca razı olur. Ata ilə oğul yaşıl göyrüşün yanına gəlirlər. Amma nə daşı tapırlar, nə də suyu. Qoca dilxor halda göyrüşün dibini eşməyə başlayır. Yenə də suyu tapa bilmir. Hirs qocanın beyninə vurur, xəncəri siyirib ağacı kəsir...

O gündən peşəsindən əl çəkir. Hər gün qapıda oturub çınqıllı dağa baxır, yaşıl yarpaqlı göyrüşü zirvədə görmür. Qoca qəmdən, kədərdən saralır, axırı, yatağa düşür. Bir gün oğlunu yanına çağırıb deyir:

– Oğlum, mən ölürəm. Sinəmdə dəyirman dağı, gözümdə yaşıl göyrüş. Günahsız ağacı nahaq kəsdim... Sən, heç olmasa, yaşıl pöhrəsini qoru. Qoy elimizdən kökü kəsilməsin. Gec-tez onun dibindən dirilik çeşməsi göz verəcəkdir.

İllər ötür, yaşıl pöhrə böyüyüb iri bir ağac olur. Adını "Təkgöyrüş" qoyurlar, onun bitdiyi dağa isə "Dəyirman dağı" deyirlər.

---

## TACİR VƏ TUTUQUŞU
*(əfsanə)*

Biri var idi, biri yox idi, bir tacir var idi. Bir dəfə o, alver etmək üçün uzaq ölkəyə səfərə hazırlaşdı. Evdəkiləri yanına çağırıb soruşdu:

– Mən gedirəm. Deyin görüm, səfərdən qayıdanda sizin üçün nə gətirim?

Evdəkilərin hərəsi bir şey istədi. Tacir hamı ilə görüşüb yola çıxanda qəfəsdəki tutuquşu dilləndi:

– Mənim də səndən bir xahişim var!

– Xahişin nədir? – deyə tacir soruşdu.– Əgər mümkün olsa, onu yerinə yetirməyə çalışaram.

Tutuquşu dedi:

– Sənin ticarətə getdiyin ölkədə bir ağac var. Bu ağacda çoxlu tutuquşu yaşayır. Əgər sən bu ağacı gedib tapsan, oradakı tutuquşulara məndən salam söylə. Nə cavab versələr, gəlib mənə deyərsən.

Tutuquşu tacirə ağacı necə gedib tapacağını öyrətdi. Tacir gülüb dedi:

– Yaxşı! Sənin xahişini yerinə yetirərəm.

Uzun və çətin yol getdikdən sonra tacir həmin uzaq ölkəyə çatdı, mallarını satıb əvəzində oradan cürbəcür şeylər aldı. İşlərini qurtarandan sonra tutuquşunun ona dediyi yerə getdi. Gördü ki, burada, doğrudan da, qollu-budaqlı bir ağac var. Ağacda çoxlu tutuquşu oturub. Tacir ucadan dilləndi:

– Ey, tutuquşular! Mənim tutuquşum sizin üçün salam göndərir!

O bu sözləri deyib qurtaran kimi tutuquşulardan biri yerə yıxılıb öldü. Tacir lap məəttəl qaldı. Ağlına gəldi ki, yəqin ki, bu tutuquşu onun tutuquşusunun yaxın dostu olub. Ona görə də salam göndərdiyini eşidən kimi yıxılıb öldü.

Tacir şəhərə qayıtdı və yola çıxmağa hazırlaşdı. O, sağ-salamat evinə qayıdıb evdəkilərin hamısına istədikləri hədiyyələri payladı. Ancaq o, tutuquşuya ağacdakı tutuquşunun ölüm xəbərini deyib onun qanını qaraltmaq istəmədi.

Ancaq tutuquşu ondan soruşdu:

– Ağa, mənim salamımı oradakı tutuquşulara çatdırdınmı?

– Sənin salamını tutuquşulara yetirdim, ancaq heç bir cavab almadım, – deyə tacir ona cavab verdi.

Tutuquşu çox pərt oldu və soruşdu:

– Onda de görüm, sən orada nə gördün?

Əlacsız qalan tacir əhvalatı danışmağa başladı:

– Mən sənin dediyin həmin yerə getdim, tutuquşuları gördüm. Sənin salamını onlara deyən kimi onlardan biri o saat ağacdan yıxılıb öldü.

Tacir bunu deyən kimi qəfəsdəki tutuquşu ölü kimi düşüb qaldı. Tacir çox istədiyi tutuquşunun ölməsinə heyifsiləndi və öz-özünə dedi:

– Mən nahaq yerə ona dostunun ölüm xəbərini verdim.

Sonra o, tutuquşunun ayağından tutub pəncərədən çölə atdı. Bu zaman tutuquşu silkindi, qanad çalıb uçdu.

Tacir ancaq indi başa düşdü ki, ağacdan yıxılan tutuquşu özünü ölülüyə vurubmuş ki, qəfəsdəki tutuquşuya azadlığa çıxmağın yolunu öyrətsin.

---

## ŞAH VƏ QARI

*(əfsanə)*

Şahın vəkili gedib-gəlib bir qarıdan vergi istəyirdi. Qarının nəyi vardı ki!... İki əli, bir başı olsa da, özünü güclə dolandırırdı.

Vəkil yaman insafsız idi, hər dəfə qarıdan bir şey qoparmamış əl çəkmirdi. Bir gün inəyini, bir ildən sonra keçisini də apardı, qarı quru yurdda qaldı. Vəkilin gözü yenə özünə yığılmadı. Qarı bu dəfə ona bir torba torpaq verdi. Vəkil də torbanı şahın hüzuruna gətirdi.

Şah belə vergi görməmişdi, fikirləşdi ki, burda böyük bir sirr var, bu sirri açmaq lazımdır. Ona görə də vəzirləri başına yığıb soruşdu:

– Bu nə deməkdir?

Vəzirlərin hərəsi bir söz söylədi. Biri dedi ki, qarının quruca torpaqdan başqa heç nəyi yoxdur, onu da əkib-becərə bilmir. Deyir ki, kimə istəyirsiniz verin, mənim də canım qurtarsın. Digəri bu torba məsələsini başqa cür yozdu: qarı bununla deyir ki, ey şah, öləndə gözümə tökməyə bircə torpağım qalmışdı, onu da kəmfürsət vəkilinə verdim. Gözlərimi nə yumacaq, öləndə üzərimi nə ilə örtəcəm?

Söz baş vəzirə verildi. O:

– Ey qibleyi-aləm, qarının bir torba qızılı, bir torba da göz torpağı var, dəyişik salıb, qızılın əvəzinə, torpağı göndərib. Vəkil torpağı qaytarsın, qızılı gətirsin.

Vəzirlərin dedikləri şahın ürəyincə olmadı, qarını gətirtdi. Vəzir-vəkillərin hamısını saraya yığdı.

– Qarı nənə, – dedi, – özün vurduğun bu düyünü aç.

Qarı söylədi ki, bir vaxt mənim də gəlhagəlli günlərim vardı. Sürülərim sular bulandırardı. İlxılarım, naxırlarım düzü-dünyanı bulud kimi tuturdu. Qapımda nökərlərim, qaravaşlarım vardı. Bir bad əsdi, xoşbəxtlik taxtım döndü. İndi torpağa düşmüşəm. Axırda hamıya təkcə torpaq qalır. Ondan başqa sizə göndərəsi bir şeyim yox idi.

Sarayda bir pıçıltı gəzdi: “Axırda hamıya torpaq qalır” – son yerin, son gedişin məkanı, son mənzilin – qəbir. Qarı zülmə dözməyib, çarəsi kəsilib, heç kimin əlindən alınmayan göz torpağını şaha göndərib...

Şahın da, vəzir-vəkilin də başı sinəsində idi. Bu pıçıltı isə sarayda hey gəzir, hey dolanırdı: sanki bayquş ulartısı xarabalığa düşmüşdü; xarabalıqsa bu bədbəxtlik çağırışını hey yaşadır, hey eşitdirirdi.

---

## VAR-DÖVLƏT VƏ ZƏHMƏT
*(Çin nağılı)*

Günlərin bir günündə mülkədarla muzdur arasında bərk mübahisə düşdü. Muzdur mülkədara deyirdi:

– Nə olsun ki, mən yoxsulam! Ancaq əvəzində mən yaxşı işləməyi bacarıram.

– Vay səni, it oğlu! – deyə mülkədar qışqırdı. – Sənin o bacarığın nəyə lazımdır ki, o bacarıqla da, elə onsuz da dilənçisən ki, dilənçi!

– Mənim əlimdən əkmək, biçmək, üyütmək, su daşımaq, odun doğramaq gəlir. Sənin əlindən nə gəlir? – deyə muzdur öz ağasından soruşdu.

– Onlar mənim nəyimə lazımdır? – deyə mülkədar təkəbbürlə cavab verdi. – Mən onsuz da xoşbəxt və varlıyam. Nə çörək dərdi çəkirəm, nə də paltar dərdi! Həm də ki mən sənin üçün işləmirəm, sən mənim üçün işləyirsən!

Onlar çox mübahisə etdilər ki, nə vacibdir: zəhmət, yoxsa dövlət? Ancaq heç biri o birinin dediyinə inana bilmədi. Axırda onlar belə qərara gəldilər ki, hansının güclü, dözümlü olduğunu öyrənsinlər.

Həmin ilin qışı bərk soyuq gətirmişdi. Ona görə də muzdur təklif etdi ki, kimin şaxtaya daha çox dözümlü olduğunu yoxlamaq üçün gecəni gedib dağda keçirsinlər.

Mülkədar gülüb dedi:

– Razıyam, razıyam, razıyam! Ancaq bir şərtlə: əgər sən orada ölsən, mən səni basdırmaq üçün pul verməyəcəyəm.

Muzdur dedi:

– Əgər sən orada donsan, taqsırkar mən deyiləm.

– Çox yaxşı! – deyə mülkədar səsləndi.

Axşam oldu. Axşam yeməklərini yedikdən sonra muzdurla mülkədar yol şeylərini yığıb getdilər.

Mülkədar qalın pambıq şalvar, yun corab geyib dəri jiletini, kürkünü çiyninə atdı, torbasına da buğda unundan bişirilmiş yağlı fəsəlilər qoydu.

Bəs muzdur? Ömründə isti şeylər geyinməmişdi. O, yamaqlı nazik şalvar, cırıq pencək geyinmişdi. Baltasını, bir qutu kibrit və bir neçə dənə də çiy kartof götürüb getdi. Yol uzunu mülkədar gülürdü. Bəs nə! Qalib çıxacağına o, şübhə etmirdi. Muzdur isə dinməzcə gedərək Allah bilir ürəyindən nələr keçirirdi.

Gəlib dağa çatdılar. Mülkədar o saat əyləşdi, torbasından yağlı fəsəli çıxarıb yeməyə başladı. Muzdur isə baltasını qapıb, meşəyə çırpı yığmağa getdi.

Gecə düşdü. Ancaq gecə də nə gecəydi! Külək adamın iliklərinədək işləyirdi. Şaxta get-gedə daha da şiddətlənirdi. Saatbasaat hava daha da soyuq olurdu. Külək və şaxta mülkədarın xəz paltarlarının içinə dolub ona polad iynə kimi batırdı. O, hiss elədi ki, donur. Əlini torbanın içinə soxdu, – bir dənə də orada fəsəli yoxdu. Mülkədar heç bilmədi ki, nə vaxt yeyib qurtarıb. O, muzdurun nə elədiyini bilmək istədi. Güc-bəla ilə başını muzdurun getdiyi tərəfə döndərdi, gördü ki, o öz baltasını qaldırıb endirir. O, odun doğramışdı və qətiyyən donmamışdı. Muzdur hələ bir üstəlik tonqal da qalayıb yandırdı. Tonqalın başında ona nə istiydi! Həm də qarnı da tox idi. O, qorun içində basdırdığı bişmiş kartofları çıxarıb güldü. Mülkədarın isə lap ağzının suyu axdı: yemək də istəyirdi, tonqalın yanına getmək də istəyirdi. Durub getmək istədi, ancaq özünə sığışdıra bilmədi. Gör ha, o, mülkədar ola-ola muzdura mərci uduzdu! Şaxta isə getdikcə şiddətlənirdi.

Axırda mülkədar soyuğa dözə bilməyib yazıq-yazıq muzdura yalvarmağa başladı:

– Əz...i...zi...m! Do-st-um! Mə-ən qı-zınmaq is-tə-yirəm, ye-mə...k də...

Muzdur qışqırdı:

– Necə olub ki, sən soyuqdan və acından qorxmusan? Bəs biz onda necə bilərik ki, zəhmət üstündür ya dövlət?

Mülkədarın yenidən qarın üstündə oturmaqdan başqa çarəsi qalmadı. Həmin söz ona toxundu, həm də ona soyuq idi! Ancaq mülkədar demə axmaq və tərs imiş. Onsuz da aydın idi ki, o mərci uduzub, ancaq heç cür boynuna götürmək istəmirdi. O belə də qalıb, soyuqdan qurudu və səhərə kimi şaxtadan tamam dondu.

Muzdur isə bütün gecəni tonqalın qırağında keçirib dadlı iyi gələn külləmə kartofları yavaş-yavaş ləzzətlə yeyirdi.

---

## ƏHMƏD VƏ ŞAH

*(özbək nağılı, ixtisarla)*

Keçmiş zamanlarda bir ölkəni zalım bir padşah idarə edirmiş. Həmin ölkədə ağıllı, ağsaqqal bir aşıq var idi. Yoxsulların əzab-əziyyətinə ürək ağrısı ilə baxırdı.

Günlərin bir günü aşıq şahın yanına gəldi.

– Ey ağsaqqal, sənə nə lazımdır? – deyə şah onun üstünə qışqırdı.

Aşıq dedi:

– Xalqın zülm əlindən inləyir, ey şah,
Çoxalır günbəgün ehtiyac və ah!..

Şah qorxub qəzəbləndi:

– Bu qocanın ağlı başından çıxıb! – deyə qışqırdı, – məni öyrətmək eşqinə düşüb. Ey cəlladlar, onu asın! Elə birdəfəlik bütün ağsaqqalları asın!

Cəlladlar tez şahın əmrini icra etməyə başladılar. Onlar evləri bir-bir gəzib qocaları yaxalayırdılar.

Çox keçmədən bircə nəfər də olsun ağsaqqal sağ qalmadı. Adamların saqqalına dən düşən kimi şahın cəlladları onları tutub öldürürdülər.

Bir dəfə şahın ağlından belə bir fikir keçdi: “Bir çox illər keçəcək, mənim özümün də saqqalım ağaracaq. Bəs onda necə olacaq? Mən indi durub öz əmrimi geri götürməyəcəyəm ki?!”

Elə həmin gün qoşuna əmr verdi ki, dirilik suyu dalınca səfərə çıxmağa hazırlaşsınlar. Şah fikirləşirdi ki, bu suyu içib həmişə yaşasın və heç vaxt qocalmasın.

Şahın qoşununda Əhməd adlı qoçaq bir döyüşçü var idi. O öz qoca atası Mahmud kişini çox istəyirdi və indiyə kimi şahın cəlladlarından qoruyub saxlaya bilmişdi. Səfərə çıxmaq vaxtı gələndə Əhməd bilmirdi ki, necə eləsin.

Ata ona dedi:

– Mənim üçün böyük bir sandıq qayır. Məni orada gizlət. Sonra da sandığı arabaya qoyub apararsan. Səfər vaxtı mən sənə lazım olaram.

Səfərin üçüncü günü qoşun dağların arasına girdi. Axşam şah əmr verdi ki, dərin, ensiz bir dərədə gecələsinlər. Hava qaralandan sonra Əhməd atasına baş çəkməyə getdi.

Mahmud kişi oğlundan soruşdu:

– Oğlum, de görüm, bu yaxınlıqda dağ yoxdur ki? Hətta mən sandığın içində sərinliyi duyuram.

– Var, – deyə Əhməd cavab verdi. – Hər tərəfdən hündür dağlar ucalır. Onların başı duman içində itib.

– Oğlum, qaç şahın yanına, qoy qoşuna əmr versin ki, çadırları hündür bir yerdə qursunlar. Yoxsa başlarına bir fəlakət gələr.

Əhməd şahın yanına gələrək atasının ona öyrətdiklərini şaha dedi.

– Yaxşı, – deyə şah onunla razılaşdı. – Qoy qoşunun yarısı yuxarı qalxsın, yarısı da burda qalsın. Baxaq görək onların başına nə gəlir. Əgər onların başına bir iş gəlməsə, onda başın bədənindən ayrılacaq!

Gecə dağlara şiddətli yağış yağdı, su dar dərəyə axdı, çoxlu döyüşçü, atlar və çadır suya batdı.

Səhər qoşun yoluna davam etdi. Üç gün sonra yolları su olmayan səhradan düşdü. Çox keçmədən qoşunun su ehtiyatı qurtardı. Döyüşçülər istidən və susuzluqdan qırılmağa başladılar. Belə olanda Əhməd atasının yanına gəlib dedi:

– Ata, bir neçə gündür ki, səhradan keçirik. Götürdüyümüz su tamam qurtarıb – adamlara içməyə, atları sulamağa su yoxdur. Nə etməli?

Mahmud kişi soruşdu:

– Oğlum, bax gör ətrafda dəvətikanı varmı?

– Var, – deyə Əhməd cavab verdi. – Bax, buradan azca aralı o tərəfdə görünür.

– Yaxşı, oğlum, – deyə Mahmud kişi sözünə davam etdi:

– Dəvətikanı olan yerdə arı olar. Arılar tikandan şirə toplayırlar. Arının dalınca gedərsən, su taparsan.

Əhməd bel götürüb dəvətikanı bitən yerə getdi. Ora çatanda gördü ki, doğrudan da, tikanın üzərində arı vızıldaşır. Əhməd arının dalınca düşüb getdi.

Arı çox uçdu, Əhməd də onun dalınca çox getdi. Arı onu bir çəmənliyə gətirib çıxartdı. Burada, otların arasında balaca bir gölməçə vardı. Arı suya qonub içməyə başladı.

Əhməd sevindi. O, arı su içib doyana qədər gözlədi, sonra quyu qazmağa başladı. Quyunu qazıb qurtarandan sonra gedib qoşunu buraya gətirdi ki, həm adamlar su içib yanğılarını söndürsünlər, həm də atları sulasınlar.

Axşamdan xeyli keçmiş, hamı yatandan sonra Əhməd qoca atasına da su içirtdi.

Səhəri qoşun yola düşdü.

Az getdilər, çox getdilər, axır gəlib uca bir dağın ətəyinə çatdılar. Dağın sıldırım yamacında içində dirilik suyu axan kahanın əjdaha ağzına oxşar girəcəyi qaralırdı.

Şah çadırları qurmağı əmr etdi. Bütün döyüşçüləri çağırıb dedi:

– Kim kahadan mənim üçün dirilik suyu gətirsə, onu qızılla qəni edəcəm, gedib gətirməyəni isə asdıracam. Döyüşçünün biri getdi, gəlmədi, ikincisi getdi, qayıtmadı. Axırda növbə Əhmədə çatdı. Əhmədi dərd-qəm bürüdü, getdi atası ilə halallaşsın. Atası ona dedi:

– Oğlum, bu dərdə əlac eləmək olar. Get ilxıya, yanında qulun olan madyanı tap, qulunu kahanın girəcəyində bağla, madyana min, arxayın gir içəri, qayıdanda yolu sənə at özü göstərəcək. Bir də iki dənə qurbağa tut. Kahada sən iki bulaq görəcəksən, qurbağaları öldürüb hərəsini bir bulağa at. Hansı bulaqda qurbağa dirildi, o su dirilik suyudu. Hansı bulaqda ki qurbağa dirilmədi, o, adicə sudu. Bizim cəllad padşahımız üçün hansı sudan götürəcəyini də özün bilərsən.

Əhməd atasına təşəkkür etdi, onun məsləhətlərinə bir-bir əməl edərək madyana minib kahaya girdi.

Yol uzun idi. Əhməd axtarıb dağın lap dibində iki bulaq tapdı. Qurbağaları öldürüb, hərəsini bulağın birinə atdı. Bulağın birində qurbağa o saat canlandı.

Əhməd biclik işlədib şah üçün gümüş dolçada adi sudan, atası üçün isə bardağa dirilik suyundan töküb yenə də madyana mindi.

Kahanın girəcəyində bağlanan qulunun səsinə madyan tez qaçıb gəldi. Əhməd kahadan çıxdı, baş əyərək gümüş dolçanı şaha verdi.

Şah sevindi, o saat suyun hamısını içdi, qoşuna yola çıxmağı və evə qayıtmağı əmr etdi.

Axşam Əhməd atasının yanına gəlib əhvalatı olduğu kimi ona danışdı və içində dirilik suyu olan bardağı atasının qabağına qoydu. Mahmud kişi dedi:

– Xoşbəxtliyi uzun ömürdə yox, xalqa məhəbbətdə axtar.

Atasının sözləri Əhmədi xeyli düşündürdü. Elə bu vaxt yaxındakı dağda bir qarğa uçurdu. O, qanadları ilə vurub bardağı aşırdı. Bardaq daşın üstünə düşüb parçalandı. Dirilik suyundan bircə damcı qarğa içə bildi, bir neçə damcı da arçı ağacının kökü içə bildi. O vaxtdan bəri qarğa yüz il, arçı ağacı isə min il yaşayıb həmişə yaşıl qalır.

... Geri qayıdanbaş qoşunun yolu ağır idi.

Nəhayət, gəlib çaya çatdılar. Şah gördü ki, burada bir yerdə çoxlu qarışqa qaynaşır.

O soruşdu:

– Qarışqalar nə üçün burada qaynaşır? Onların nə işləri var?

Heç kəs şahın bu sualına cavab verə bilmədi.

Onda şah belə dedi:

– Mən gündə iki nəfərdən soruşacağam. Kimin cavabı mənim ürəyimə yatdı, ona mükafat verəcəyəm, kimin cavabı mənim xoşuma gəlmədi, onun boynunu vurduracağam.

Əhməd atasının yanına qaçıb şahın təzə əmrini ona xəbər verdi.

– Ata, nə etməli? – deyə soruşdu. – Tezliklə zalım şah hamımızı qırdırıb qurtaracaq!

Mahmud kişi fikirləşdi, sonra dedi:

– Bu qədər adamın nahaq yerə qırılmağına baxmaq ölümdən də betərdir. Oğlum, get şahın yanına. Ona de ki: “Qarışqalar ona görə burada qaynaşır ki, çayın dibində içində yağ olan bir bardaq var”. Şah əmr verəndə ki bu bardağı get çıxart, sən onda ağaca dırmaşarsan, ordan nişan alıb oxu birbaş şaha atarsan, ancaq bax ha, yaxşıca nışan al. Gözlə oxun boşa getməsin!

...Mahmud kişi necə demişdisə, elə də oldu. Əhmədin atdığı oxdan şah öldü.

Tərslikdən şah yumalanıb düz qarışqaların qaynaşdıqları yerə düşmüşdü. Demə, elə qarışqalar özləri əvvəlcədən cəmdək iyini duyublarmış.

Əhməd ağacdan düşdü. Döyüşçülər tez onu dövrəyə alıb qucaqlamağa başladılar.

– Çox sağ ol, sən xeyirxahlıq elədin!

Əhməd onlara dedi:

– Mənə təşəkkür etməyin, ağsaqqal atama təşəkkür edin! Dağlı dərədə qoşunu seldən o qorudu. Səhrada bizə su tapan o oldu. Hər gün günahsız adamların qanını axıdan zalım şahın əlindən bizi o qurtardı.

Əhvalatdan xəbərdar olan döyüşçülər Mahmud kişinin yanına getdilər. Onlar ağıllı qocaya təşəkkür edib onu ölkənin hökmdarı, Əhmədi isə özlərinə sərkərdə seçdilər.

*Tərcümə edən: Şəfiqə Mirbağırova*

---

## PADŞAH VƏ DƏMİRÇİ
*(nağıl)*

Biri varıymış, biri yoxuymuş, bir padşah varıymış. Bunun varının, dövlətinin həddi-hesabı yoxuymuş. Bir gün padşah vəzirini hüzuruna çağırıb deyir:

– Vəzir, bilirsənmi nə var?

– Qibleyi-aləm sağ olsun, xeyr, bilmirəm.

– Vəzir, bax, cahi-cəlal desən, məndə, qoşun desən, məndə, qüvvətli pəhləvanlar desən, məndə. Amma bununla belə, başım fikirdən ayılmır. Gündüzlər gülürəm, danışıram, gecələr sabaha kimi fikirləşirəm ki, öləndən sonra yerimdə oğuldan-qızdan bir övladım-zürüyyətim yoxdu ki, taxtı-tacımı ona tapşıram. Odu ki, deyirəm, görəsən, mənnən də çox fikir çəkən, dərdli adam varmı?

Vəzir söylədi:

– Şah sağ olsun, dünyada dərdsiz, fikirsiz adam tapılmaz.

Bu sözün üstündə padşahnan vəzirin arasında mübahisə başladı, o gündən padşahın adamları şəhərbəşəhər, kəndbəkənd gəzib dərdsiz adam axtardılar. Kimə yaxınlaşdılarsa, gördülər hərənin bir dərdi var.

Axırda gəlib padşaha dedilər:

– Hər yeri gəzdik, dərdsiz adam tapa bilmədik.

Padşah yenə dedi:

– Vəzir, mən inanmıram, gəl təğyiri-libas olaq, çıxaq vilayəti özümüz gəzək, onda taparıq.

Bəli, padşahnan vəzir paltarlarını dəyişib düşdülər bazar-dükanı gəzməyə, ora getdilər, bura getdilər, axırda bir dükana girib dedilər:

– Salaməleyküm!

Dükançı dedi:

– Əleyküməssəlam. Ay siz xoş gəlibsiniz, beş gəlibsiniz, deyin görüm nə almaq istəyirsiniz, bu saat gətirim.

Padşah dedi:

– Heç bir şey almaq istəmirik, gəzirdik, elə bir az yorğunluğumuzu almaq üçün bura girdik, bir balaca söhbət eləyək, dərdimiz dağılsın.

Dükançı qaşqabağını turşudub dedi:

– Vallah, oturub danışmağnan keyfim açılası deyil.

Padşah dedi:

– Niyə?

Dükançı cavab verdi:

– Necə niyə? Neçə vaxtdı ki, malım satılmır. Elə bil heç kimin pulu yoxdu. Mal alan da nisyə aparır, bir qəpik də pul vermir. İndi anbar dolusu malım var, amma çörək almağa pulum yoxdu. Bu halnan nə keyfim olsun!

Padşahnan vəzir gördülər yox, kişinin dərdi var. Yavaşca çıxıb getdilər. Yolda bir bağbana rast gəlib onun keyfini xəbər aldılar. Bağban ahı-zarnan dedi:

– Ay qardaşlar, nə keyfim olacax, var-yox bir bağım varıydı. Padşahın cuvarrarı suyumu kəsib bağı susuz qoyublar. Ağaclarımın hamısı quruyub, tələf olub, indi onun fikrindəyəm ki, görən neyləyim.

Padşahnan vəzir burdan da getdilər. Yolları bir yas məclisinə düşdü. Girdilər yas məclisinə, kimə yanaşdılarsa, dərdsiz adam tapa bilmədilər.

Biri dedi:

– Qızım cavan öldü, dünyadan nakam getdi.

O biri dedi:

– Gözümün ağı-qarası bircə oğlumu padşah dar ağacından asdırdı.

Padşah dedi:

– Vəzir, bura yas yeridi, burda hamı dərdli olar, gəl indi də bir toy məclisinə gedək.

Hər ikisi evdən çıxıb bir toy məclisinə getdilər. Qapıdan girən kimi gördülər, çalan kim, oxuyan kim, oynayan kim, gülən kim. Bir kef var ki, gəl görəsən.

Padşah dedi:

– Vəzir, biz axtardığımızı tapsaq, burda tapacayıq.

Vəzir dedi:

– Qibleyi-aləm sağ olsun, təki elə olsun, amma bu adamların ürəyini burda bilmək olmaz, toydan sonra görərik.

Birdən padşahın gözü bir adama sataşdı, gördü ki, məclisin lap başında bığıburma bir kişi oturub, üzünə baxan kimi başlayır gülməyə, ayağa duranda qolları özündən qabağa gedir, az qalır göyə uçsun. Özü də ona nə qədər deyirlərsə ye, deyir ki, vallah elə gündə evimizdə toydu, indicə yeyib gəlirəm. Padşahnan vəzir ha istəyirdilər ki, bu adamnan danışsınlar, fürsət düşmürdü. Bunlar o qədər gözlədilər ki, toy məclisi dağıldı, həmən kişi evinə gedəndə qarabaqara onun dalınca getdilər. Kişi evinə girəndən bir az sonra padşahnan vəzir qapını döydülər. İçəridən bir nəfər gəlib qapını açdı. Qapıya gələnə dedilər:

– Qərib adamıx, gecə qalmağa yerimiz yoxdu. Sizdə gecələməyə yer verərsinizmi?

Ev sahibi dedi:

– Qardaşlar, gecə vaxtı qonağı qapıdan qaytarmazlar, buyurun içəri.

Padşahnan vəzir içəri girdilər. Ev sahibi onlara yer görsətdi, oturdular. Qonaxlar baxıb gördülər ki, bu kişinin evi padşahın evindən də qəşəngdi. Padşahın evi bunun yanında ayı balasınnan tikilmiş daxmaya oxşayır. Qapısında qulu, qulluxçusu, evi başdan-ayağa ləl-cavahirat içində. Başladılar söhbətə, bir də gördülər ki, çay-çörək gəldi. Oturub çörək yeməyə başlayanda ev yiyəsi bir ah çəkdi. Padşahnan vəzir qaldılar məəttəl ki, yəqin, bunun da dərdi var ki, belə ah çəkir. Odu ki dedilər:

– Qardaş, niyə ah çəkdin?

Kişi dedi:

– Heç, elə belə.

Padşah nə qədər elədisə, kişi demək istəmədi. Axırda vəzir dedi:

– Qardaş, bizlərdə adətdi, qonağa hörmət eləyərlər, əgər sən dərdini bizə deməsən, əlimizi süfrəyə uzatmayacayıx.

Kişi əlacsız qalıb dedi:

– Vallah, Allahdan gizlin deyil, bəndədən nə gizlin. Mənim çörək yeməyə qollarım yoxdu.

Vəzir dedi:

– Bəs axı biz sənin qollarını görürük.

Kişi dedi:

– O gördüyünüz mənim qolum deyil, paltarın qoluna saman doldurmuşam, odu.

Çuxanı kişinin əynindən çıxarıb gördülər doğrudan da qolları yoxdu. Vəzir bu əhvalatı görən kimi barmağını dişlədi.

Padşah dedi:

– A kişi, sənin qolunu kim bu günə salıb?

Kişi dedi:

– Bizim bu zalım, ağılsız, hər yalana inanan padşahımız.

Padşah bu sözü eşidən kimi cin vurdu başına, amma özünü saxladı, dedi:

– Axı bir de görüm padşah niyə sənin qolunu kəsdirib?

Kişi dedi:

– Mənim dükanım varıydı, dəmirçilik eləyirdim, özü də ustalıqda adım çıxmışdı, hamı məni tanıyırdı. Bir gün padşahın dargası gəldi ki, padşahın əmrinə görə ona elə bir qılınc düzəldəsən ki, daşa vuranda iki parça eləsin, bir tük qədər də ağzı əyilməsin. Mən padşaha layiq gözəl bir qılınc düzəltdim, sabahı günü oğlan gəlib qılıncı apardı. Üstündən bir gün keçmiş bir də gördüm ki, başdan-ayağa qırmızı geyinmiş iki cəllad dükana girib elə oradaca qolumu qılıncla vurub saldılar. Cəlladlardan biri dedi:

– Padşahı alladıb ona sınıx qılınc qayıranın qolların bax belə kəsərlər, padşah özü belə əmr eləyib.

Dedim:

– Mənim qayırdığım qılınc daşı parça-parça eləyir, bu, olan iş deyil.

Cəlladlar gedib əhvalatı padşaha söyləyirlər. Padşah inanmır. Amma padşahın vəziri ağıllı adam idi. O başlayır şübhələnməyə ki, yəqin, darğanın qılınca tamahı düşüb, dəyişib, əvəzinə ayrısını verib. Başlayır bu sirri öyrənməyə. Bu tərəfdən də mən hər yerdə padşahın elədiyi zülmü camaata söyləyirdim.

Padşah özünü saxlaya bilməyib dedi:

– A kişi, sənin bu boyda dərdin var idi, bəs niyə üzünə baxana elə gülürdün?

Kişi dedi:

– Qonax qardaş, bir az səbrin olsun, qoy sözümü danışım, elə bu saat deyəcəydim niyə mən həmişə gülürdüm. Sözümü kəsdin. İndi deyim, onun da səbəbini bil. Elə ki mən padşaha lənət oxumağa başladım, bu söz gedib padşahın qulağına çatdı. Bu dəfə vəziri yanıma göndərdi ki, əgər bir də mənim zalımlığımnan danışsa, onu dar ağacından asdıracam. Yox, əgər hər yerdə məni tərifləyib, gülüb-hırıldasa onda onunla işim yoxdu. Vəzir padşahın bu əmrini mənə söyləyəndən sonra mən başladım üzdə həmişə yalannan gülüb-danışmağa, amma ürəyimdə iki dəfə artıx qarğış tökməyə.

Padşah özünü saxlaya bilməyib bir də soruşdu:

– Qardaş, bəlkə, padşahı aldadıblar. Onda nə taxsır var?

Kişi dedi:

– Qonax qardaş, niyə uşax kimi danışırsan? Elə əsl taxsır ondadı da. Bəlkə, biri gəlib yalandan deyəcək ki, mənim xoruzum gündə yüz yumurta yumurtlayır, gərək padşah ona inansın? Belə padşaha ağılsız adam deyərlər. Mən dəmirçi adamam, amma bilirəm ki, padşahın gərək ağıllı, tədbirli, dünyagörmüş adamları ola, onların sözlərini də eşidəndən sonra bir özü yoxlaya, bəlkə, elə onu alladırlar.

Padşahla vəzir bir-birinə baxıb gördülər ki, bu kişinin dərdi hamıdan çoxdu.

Gecədən xeyli keçmişdi. Odu ki başladılar yatmağa. Yerə girdilərsə də, yata bilmədilər. Vəzir padşaha yaxınlaşıb yavaşca dedi:

– Qibleyi-aləm, yadınıza gəlirmi, bu kişinin qollarının kəsilməsinə siz əmr vermişdiniz...

Padşah dedi:

– Vəzir, yaxşı yadımdadı. Mən indi başa düşürəm ki, elə bütün əmrləri belə vermişəm. Lap əbləh olmuşammış. Yaxşı ki əbabil quşları mənim qoşunlarımı qırıb çatmayıblar. Öz adamlarıma inanıb, özgələrinin sözünə qulax da asmamışam. Bir də mənim torpağımdakı adamların dərdli, qəmli olmalarının da səbəbi, deyəsən, elə özüm olmuşam. Çünki biz rast olduğumuz adamların hamısı padşahın zülmündən danışırlar. Mən bu gündən zalımlığımdan əl çəkirəm. Bundan sonra lap atam da olsa, hamıya bir göznən baxacam. Kasıb-kusuba, əlsiz-ayaqsızlara, qocalara, yetimlərə, dullara əl tutacam. Amma vəzir, gərək burdan gedəndən sonra darğanı yoxlayax.

Vəzir dedi:

– Şahım, o işi mən özüm yoxlaram.

Padşah dedi:

– Vəzir, nə yoxlamaq, gedən kimi çağırıb deyərəm, qılıncı gətir, o da gətirər, sonra da boynunu vurduraram.

Vəzir dedi:

– Qibleyi-aləm, elə sənin səhvin ordadı ki, kələkbazdan doğruluq gözləyirsən. Axı o bilir ki, qılıncı gətirib sənə görsətsə, işlərin üstü açılacax, onda heç onu gətirərmi? Bu işdə tədbir lazımdı. İndi o tədbiri mən görüm, sən də bax.

Bəli, səhər açıldı, qonaxlar ev sahibinə halal-xoş eləyib gəldilər öz yerlərinə. Padşah dedi:

– Vəzir, indi tədbirini gör.

Vəzir dedi:

– Şahım, əmr ver ki, sabah meydanda ox atmax, qılınc vurmax, at çapmax günüdü, kimin yaxşı nəyi varsa, çıxartsın. Kimin qılıncı yaxşı kəssə, atı ötsə, ona baxşeyiş veriləcək. Onda darğa da o qılıncı çıxardar, biz də tanıyarıx.

Bəli, padşah o saat əmr verdi. Səhər tezdən meydan doldu adamnan. Padşah, vəzir, vəkil, əyan, əşrəf, hamı yığıldı meydana. Şeypurlar çalındı, iyidlər meydana girdi. Kimi at çapır, kimi qılınc vurur, kimi qalxan tuturdu. Padşahnan vəzirin gözü darğadaydı. Bunlar baxıb gördülər ki, darğanın əlində bır qılınc var ki, baxanda adamın gözünü qamaşdırır. Özü də kimin qalxanına vurursa iki bölüb, bir qarış da başına yeriyir. Darğa bütün iyidlərin qalxanını qılıncıynan iki bölüb, özlərini də qanına qaltan eləyirdi.

Padşah əmr elədi ki, darğanı gətirsinlər. Darğanı o saat gətirdilər. Padşah qılıncı alıb baxdı, bəli, qılınc ona hazırlanan qılıncdı, hələ üstündə adı da yazılmışdı.

Padşah qəzəblə darğaya dedi:

– De görüm, bu qılıncı hardan alıbsan?

Darğa istədi dana, gördü iş-işdən keçib. Taxsırını boynuna aldı. Padşah o saat əmr elədi. Cəlladlar elə ordaca həmin qılıncnan darğanın boynunu vurub cəhənnəmə vasil elədilər.

LAYİHƏ 2

**Mövzu:**
"Qəhrəmanlar unudulmur"
(Vətən uğrunda şəhid olmuş qəhrəmanlara həsr edilmiş ədəbi-bədii gecə)

**Tapşırıqlar:**
1. Bədii əsərlərin (şeirlərin, nəsr nümunələrindən parçalar) seçilməsi, müzakirə edilməsi
2. Məruzəçilərin müəyyənləşdirilməsi
3. İfadəli oxu bacarığı olan şagirdlərin seçilməsi
4. Bədii nümunələrdən parçaların səhnələşdirilməsi, müvafiq musiqi parçalarının və iştirakçıların müəyyənləşdirilməsi
5. Proqramın hazırlanması, aparıcıların seçilməsi
6. Müharibə iştirakçılarından nümayəndələrin dəvət edilməsi

## II LAYİHƏ ÜÇÜN TÖVSİYƏ OLUNAN OXU MATERİALLARI

Ramiz Qusarçaylı
### GÖZÜN AYDIN, QARABAĞ
*(ixtisarla)*

Güman keçməz dağları
Aşa-aşa qayıtdıq.
Yumruq kimi birləşib
Coşa-coşa qayıtdıq.
Biz Kəlbəcər-Kəlbəcər,
Şuşa-Şuşa qayıtdıq.
Başın uca, üzün ağ!
Gözün aydın, Qarabağ!

Hər döyüşün başında
"Yurd yeri" var, "Cəngi" var,
Hər həmlədə ordumun
Nərəsi var, cəngi var,
Cəngavər oğulların
Şanlı zəfər rəngi var.
Gör nə deyir Lələdağ, –
Gözün aydın, Qarabağ!
Vətəndi bu savaşın
Hər sirri, hər sehri də.
Bir atanın öyüdü,
Bir ananın mehri də.
Uçundu Göyçə-Göyçə,
Zəngəzur da, Mehri də,
Silkələndi Ağrıdağ, –
Gözün aydın, Qarabağ!

Bir fırtına kükrədi,
Qisas aldı limandan.
Yer əsdi, göy titrədi,
Bu anddan, bu imandan.
Xalqın güvənc yeridir
Ta Ali Baş Komandan.
Dalğalan bayraq-bayraq,
Gözün aydın, Qarabağ!
Gözün aydın, Qarabağ!

Rahib Alpanlı

## QARABAĞ AZƏRBAYCANDIR

*(ixtisarla)*

Addımların torpağından güc alır,
Düşmənlərdən yer də, göy də öc alır,
Bayrağımız zirvə-zirvə ucalır,
Gözləmişik bu günləri haçandı,
Əsgərim, Qarabağ Azərbaycandır!

Vətən üçün sən zəfərə hazırsan,
Düşmənin gözündə səngər qazırsan,
Sən tarix yaradıb, tarix yazırsan,
Gözləmişik bu günləri haçandı,
Əsgərim, Qarabağ Azərbaycandır!

Sovurduqca işğalçının qəsdini,
Atıb qaçır bayrağını, postunu,
Tanıyırıq yurdumuzun dostunu,
Gözləmişik bu günləri haçandı,
Əsgərim, Qarabağ Azərbaycandır!

Arxanda dağ kimi dayanıb hamı,
Sönəcək yağının öləzik şamı,
Aləm alqışlayır şanlı İlhamı,
İnanmışıq bu qüdrətə haçandı,
Əsgərim, Qarabağ Azərbaycandır!

---

Narıngül Nadir

## QƏLƏBƏ YARAŞIR AZƏRBAYCANA!

*(ixtisarla)*

Bu, od ölkəsidir,  söndürmək olmaz!
Andından, əhdindən döndərmək olmaz!
Bayrağı göydədir, endirmək olmaz!
Dostlar fərəhlənə, düşmənlər qana!
Qələbə yaraşır Azərbaycana!

Haqla, ədalətlə çıxır hər yola,
Təslim olan deyil, yüz düşmən ola.
Kimin hünəri var, girsin meydana,
Yüz libas geyinə, çatmaz bu dona,
Qələbə yaraşır Azərbaycana!

Düşüb halay səsi mərd Naxçıvana,
Gözəlliyi sığmır şeirə, dastana,
Bu, Şuşa qalası, bu da Topxana,
Hüsnü,  təbiəti qalsın bir yana
Qələbə yaraşır Azərbaycana.

Savaşı zəfərlə çatıbdır sona,
Sədası yayılıb bütün  cahana,
Coşğusu, fərəhi  keçibdir cana,
Eşq olsun bu cəngə nida qoyana!
Qələbə yaraşır Azərbaycana!

---

Naibə Yusif
## ASTANA

Göy gurultusu səngimək bilmədi. İldırımın qaranlıq səmada buraxdığı iz vahimə saçdı. Bunun ardınca qatarın polad relslərlə savaşını xatırladan taqqıltı ara vermədən onun qulaqlarını döyəclədi. Gözlərini açıb gecənin vahiməsindən canını biryolluq qurtarmağa çalışdı, amma kirpiklərini bir-birindən aralamağa göz qapaqlarının gücü çatmadı. Hiss etdi ki, ixtiyarı tamamilə əldən gedir, qəribə bir boşluq onu ağuşuna alır, nə isə bütün vücudunu silkələyir... O nə baş verdiyini yadına salmağa çalışdı, amma hər təkanda bütün əzalarını bürüyən dəhşətli ağrıdan huşunu itirdi. Növbəti dəfə ayılanda kiminsə təəssüflə dediyi sözləri eşitdi:

— Heyif, Elkam, səni də itirdik...

— Sən nə deyirsən?! O, sağdır, hələ nəfəsi var...

— Düzdür, nəfəsi var, amma bu qədər ağır yara ilə onu Qubadlıdan Füzuliyə salamat çatdırmaq mümkün deyil. Qəlpə bütün bədənini doğrayıb, bəlkə də, son dəqiqələrini yaşayır...

Nə qədər ehtiyatla götürsələr də, dəhşətli ağrıdan qıvrılan Elkam gözlərini açdı, Seyfəddini başı üstündə görüb ona nəsə demək istədi, amma deyəcəyi sözlər yarıaçıq dodaqlarında güclə sezilən təbəssümə çevrildi.

Seyfəddinin:

— Komandir, sən yaşayacaqsan, hələ birlikdə çox yol gedəcəyik! – sözlərini zorla eşitdi. “Ural” markalı maşın təkanla yerindən qalxanda isə onun üçün bütün dünya qaraldı. Bu qaranlıq mühitdə nə qədər qaldığını bilmədi...

—İlahi, bu nə parlaqlıqdır, nə gözəllikdir! Hə, Elkam, bura sənin cənnətindir. Tüstülü, dumanlı dünyanı həmişəlik tərk edirsən...

O, qəddini düzəltdi, yeni dünyasına qucaq açaraq astanadan keçmək, nur selinə qarışmaq istəyirdi ki, anası Elmiranın səsini eşitdi:

— Elkam, atanın xəbəri varmı?

— Nədən?

— Sənin orduya yazılmağından.

Elkam gülümsündü:

— Ana, sənin xəbərin vardımı?

— Yox. İndi xəbər tutdum. Axı sən təzə evlənmisən. Həm də evin tək oğlusan. Heç olmasa...

—Nə olsun ki, təzə evlənmişəm. İçimdən gələn səs mənə rahatlıq vermir, ana. Ayağımı hər dəfə torpağa basanda utanıram.

— Nədən utanırsan, ay bala?

— Torpaqdan utanıram, ana, onun duasını ala bilmədiyim üçün xəcalət çəkirəm.

Gözlərində gilələnən yaşı görəndə dayana bilmədi, anasını qollarının arasına aldı. Qapının ağzında boynunu burub dayanan gəlinə baxaraq:

— Məndən ötrü narahat olma, birinci dəfə deyil ki, orduya getməyim. Bilirsən ki, mühafizə bölüyündə baş əsgər olmuşam, təcrübəm də var, — deyib anasının əllərindən öpdü, — üstündə gəzdiyim torpaq dayağım, Allah köməyim olacaq. Bizim üçün dua et, ana.

O, çantasını əlinə aldı, gözlərində kədər yatan anasını bir də qucaqladı:

— Gülümsə, anacan, oğlunu gülə-gülə yola sal ki, sizdən arxayın olum.

Arxasınca atılan suyun şırıltısına geri qanrıldı. Elmira ana gülümsəyərək əlini yellədi:

— Sağ get, salamat qayıt, oğlum. Allah səni qorusun...

Yenidən bəyaz bir dünya onun üzünə gülümsədi. Ətri bir-birinə qarışan çiçəklərin rayihəsi ruhuna xoş bir sərinlik çilədi.

Quşların səsi aşkar eşidilməyə başladı. Ağ göyərçinlər qanadlarını tərpətdikcə sərin meh könlünü oxşadı, artan ağrıları yenidən səngidi. Elkam bəyazlıqda əriyən bu quşların arxasınca irəliləmək istədi, lakin:

— Sənin nə qəribə adın var? – sualını eşidib ayaq saxladı.

Yanaşı addımladığı tabor komandiri Məmmədov sualı versə də, cavab gözləməyən adamlar kimi əlindəki durbinlə düşmən mövqelərini nəzərdən keçirirdi. Manqa komandirindən səs çıxmayanda mülayimcəsinə soruşdu:

— Adının mənası nədir?

— Doğrusu, mənasını mən özüm də bilmirəm. Amma bildiyim odur ki, anam Elmira ilə atam Kamalın adlarının ilk hissəsindən yaranıb.

—Belə de, çox qəribə səslənir.

Komandir bir də diqqətlə qarşı tərəfi nəzərdən keçirdi:

—Yolumuz irəliyədir. O dağları görürsənmi? – və cavab gözləmədən sözünə davam etdi: — Biz o yüksəkliklərdə qərar tutmalıyıq, Qubadlı hökmən alınmalıdır.

Axşamayaxın yola düşdülər. Düşmənlər qorxudan kəndləri boşaldıb qaçmışdılar. Sarıyataq və Bala Soltanlı kəndlərinə çatanda şəxsi heyət iyirmi beş nəfərlik dəstələrə bölündü. Elkamgilin dəstəsi Qubadlı istiqamətində hərəkət etmək əmri aldı.

Payız olduğu üçün havada az da olsa sazaq vardı. Əsgərlər uzun yolu piyada qət edib Həkəri çayının üstündəki körpüyə çatdılar. Sahilləri birləşdirən körpü partladılmışdı, ona görə də çayı keçmək çətinləşdi. Çayın sahili minalardan təmizləndikdən sonra göndərilən “Ural” əsgərləri sol sahilə keçirdi.

Dayanmaq qəti qadağan idi. Elkam sol tərəfdə yerləşən palıd meşələrini görəndə Talış dağlarını xatırladı, yanaşı addımlayan Seyfəddini dümsüklədi:

— Tanış gəlirmi? – o, əli ilə ağacları göstərdi.

Seyfəddin təzəcə görürmüş kimi, ağacları seyr etdi, sonra əlini-əlinə vuraraq dedi:

—Bayaqdan qəribə hiss keçirirəm ki, buralara mən nə vaxt gəlmişəm? Doğrudan ey, bizim meşələrə nə qədər bənzəri var!?

Qabaqda gedən Həmid Şükürov əlini qaldırıb ayaq saxlayanda hamı susdu. Qarşıdan ermənicə danışıq səsləri gəlirdi. O, rişxəndlə güldü:

—Bizi necə ovlayacaqlarından danışırlar, daha düşünmürlər ki, əsl tələ özlərinə qurulub. Bizi Allah qoruyacaq...

Qəfildən yaxalanan ermənilər çaşqınlıqdan nə ölülərinə, nə də yaralılara baxdılar, sağ qalanlar geri qaçmağa başladılar.

Komandirin səsi eşidildi:

— Onları sağ buraxmaq olmaz, Elkam, Seyfəddin, siz mənimlə gəlin, qalanlar sağ tərəfdən irəliləsinlər.

Birinci yüksəkliyi ələ keçirdilər, ikinci yüksəkliyi almaq da çətin olmadı. Amma üçüncü yüksəklik birdən-birə od püskürdü. Komandir səsləndi:

— Mərmi qəlpələrindən qorunun, hərə özünə səngər qazsın!

Bir-birindən bir neçə metr aralı qazılan adam boyu səngərlər hazır olanda üç tərəfdən yağan güllələr və mərmilər göz açmağa imkan vermədi. Arxa tərəfdəki qayalıq dilə gələndə isə komandir tam mühasirəyə düşdüklərini anladı. O, yerini dəyişmək istəyəndə snayperdən atılan güllə alnını dəldi.

Elkam ona tərəf sürünüb çağırdı:

— Komandir! – O, komandiri arxası üstdə çevirdi. Məmmədovun gözləri asta-asta yumuldu.

—Yaman yerdə axşamladıq, qardaş, buradan o yana yol yoxdur, — Peyman zənlə Elkama baxdı.

—Allah kərimdir, bilmək olmaz, sonu necə olacaq, ay Peyman. Mənim əsir düşmək niyyətim yoxdur.

— Elə mənim də, — Peyman qürurla cavab verdi.

Yaxınlıqda partlayan mərminin zərbəsindən qulaqları tutulan Seyfəddin deyilənləri eşitməsə də, silahını yerə qoymamışdı.

— Sən mənim səngərimə keç, mən bir qədər qabağa sürünəcəm, — deyib Peyman yerini dəyişdi. Elkam səngərini dəyişən kimi növbəti mərmi düz onun çıxdığı səngərə düşdü.

—Bu yerdə deyiblər ey, "anan namaz üstə imiş", — qonşu tabordan olan əsgərin səsini erməni qırıcılarının gurultusu batırdı. Xoşbəxtlikdən, atılan bombalar arxa qayalıqlarda gizlənən snayperlərin mövqelərini darmadağın etdi. Elkam ümidlə Peymanın üzünə baxdı. İndi yaralıları arxaya aparmaq olardı. Yaralılar köçürüləndən sonra döyüş meydanında cəmi dörd nəfər salamat əsgər qaldı. Mövqeyi əldən vermək olmazdı. Üçü də:

—Kömək gələnə qədər duruş gətirərik, inşallah, — deyən əsgərə tərəf baxdı. Qolundan qəlpə yarası alsa da, o, gümrah görünürdü. Elkam qonşu tabordan olan əsgərin dediklərini başı ilə təsdiqlədi. Düşmən tərəfdən üç "Ural" maşını görünəndə əsgər ermənilərdən qalan qumbaraatanı çiyninə qaldırdı:

—Öz silahınız sizə qənim olacaq, — deyib qabaqdakı maşını nişan aldı. Mərmi birinci maşının yaxınlığında partlayanda digər maşınlar dayandı və geri dönüb sürətlə uzaqlaşdı.

Qulaqları eşitməsə də, Seyfəddin əlini əsgərin kürəyinə vurdu:

— Vallah, oğulsan!..

Bir saatdan sonra yüz nəfərlik dəstə azad edilmiş yüksəklikdə möhkəmləndi. Elkamgil dincəlmək üçün geri göndərildi...

***

— Kim inanardı ki, biz o cəhənnəmdən çıxa biləcəyik?

— Vətən torpağına cəhənnəm deməzlər.

—Torpağa cəhənnəm deyən kimdir ki? Mən döyüşü nəzərdə tuturam.

— Hə, əsl cəhənnəm idi, — deyib Seyfəddin siqaretinə dərin qullab vurdu.

— Uşaqlar, siqaret çəkməyin, düşmən gecəgörmə cihazları ilə istənilən an yerimizi öyrənə bilər, — yoldaşlarından on-onbeş metr kənarda dayanıb köməyə gələn əsgərləri qarşılamağa hazırlaşan Elkam sözünü bitirər-bitirməz lap yaxınlıqda bir raket mərmisi partladı. Partlayışın dalğası onu bir neçə metr yuxarı qaldırıb yolun sol tərəfindəki gicitkənliyə tulladı...

O, ayaq tappıltılarına ayıldı, heç bir yerində ağrı yox idi.

— Bəs nə üçün buraya düşmüşəm? Yuxumu görürəm, ya bu, həqiqətdir?

Elkam əlini yerə dayaq edib qalxmağa, var gücü ilə "mən buradayam" deməyə çalışdı, amma nə qolu tərpəndi, nə də səsi çıxdı. Əlindən buraxmadığı avtomatının qundağını yerə dayadı, lüləsindən tutmaq istədi, yenə bacarmadı, cismindəki ağrıları yalnız indi hiss etdi ...Sonra yenə həmin bəyazlıq, yenə həmin astana...

Bu dəfə də üzünə dəyən yumşaq şillələr onu bəyaz dünyadan ayırdı:

— Hə, qəhrəman, bu qədər yatdın, daha bəsdir. Oyanmaq vaxtıdır.

Göz qapaqları açıldıqca Elkamın gözü qarşısında sayrışan ulduzlar yavaş-yavaş yoxa çıxdı. Ağ xalatlı həkimləri görəndə zorla da olsa, gülümsədi...

Zahid Xəlil
SONUNCU GÜLLƏ

Həmin gün şəhərə qəribə səssizlik çökmüşdü. Bu, adamlarda təşviş yaradırdı. Artıq neçə illər idi ki, Xocalı belə uzunsürən səssizlik görməmişdi. Günorta olmasına baxmayaraq, hələ də atışma səsləri eşidilmirdi.

Bunun nə demək olduğunu ilk anlayan aeroportu qoruyan dəstənin komandiri Əlif Hacıyev oldu. Onun əmri dəstənin bütün üzvlərinə çatdırıldı: – Hazır olun, bu sükutun sonu dəhşətli ola bilər.

Cəsarəti, igidliyi ilə döyüş dostlarının, şəhər əhalisinin məhəbbətini qazanan Əlif yalnız özünün bildiyi gizli rabitə vasitəsilə mərkəzə məlumat göndərdi: "Düşmən ciddi hücuma hazırlaşır. Rusların ağır hərbi texnikasından istifadə olunacağına şübhə etmirəm. Belə olsa, şəhərin müdafiəsi çox çətin olacaq". Səngərlərdəki müdafiəçilər, şəhərin mülki əhalisi də xəbərdar edildi...

Xocalılar yanılmamışdılar. Axşam, qaranlıq düşər-düşməz şəhər üç tərəfdən atəşə tutuldu. Ağır toplardan, tanklardan mərmilər yağdırılır, qumbaraatanların səsi qulaq batırırdı.
Qəzəbindən kağız kimi ağarmış Əlif paytaxta axırıncı məlumatını göndərdi: "Düşmən şəhərə hücum etdi. Bu, Xocalının sonu deməkdir".

Cəmi iyirmi iki nəfərdən ibarət olan döyüşçülərini bir yerə toplayıb axırıncı əmrini verdi:

– Döyüşə hazır olun!

Düşmən əsas qüvvəsini aeroporta yönəltmişdi. Bunun belə olacağını bilən Əlif əvvəlcədən girişdə müdafiə istehkamları qurdurmuşdu. Birinci hücum asanlıqla dəf edildi. Vurulmuş düşmən tankı aeroportun qarşısında od tutub yanırdı. Müdafiənin güclü olması düşməni heyrətləndirdi.
İkinci hücum müdafiəçilərin arasında böyük itkiyə səbəb oldu. Ağır texnikanın yoxluğu, qumbaraatanların tükənməsi müdafiəçiləri çıxılmaz vəziyyətə salmışdı...

Düşmən üçüncü hücuma başlamazdan əvvəl müdafiəçilərin mövqeyini tanklardan və döyüş maşınlarından atəşə tutdu. Əlifin çağırışına cavab verən döyüşçülərin sayı get-gedə azalırdı.

Dəstədən səkkiz nəfər sağ qalmışdı. Bu qüvvə ilə müdafiəni təşkil etməyin mümkün olmayacağını anlayan Əlif aeroportun dispetçer məntəqəsini partlatmağı qərara aldı. Ayrı-ayrı otaqlarda əvvəlcədən yerləşdirilmiş partlayıcıları qurğunun düyməsini basmaqla işə saldı. Dəhşətli gurultu bütün səsləri batırdı, bunun ardınca güclü yanğın başladı...

Dalbadal atılan fişənglər şəhərin küçələrini büsbütün işıqlandırırdı. Qadınlar, uşaqlar küçələrə tökülmüşdü. Hara gedəcəklərini kəsdirə bilməyən bu insanlar ya tank tırtıllarının altına düşür, ya da aramsız açılan atəşin qurbanına çevrilirdilər.

Əlif sağ qalmış dəstə üzvlərinə tapşırıq verdi:

– Nəyin bahasına olursa olsun, Ağdamın Şelli kəndinə gedən yolu açmaq, insanları xilas etmək lazımdır.

Şəhəri yaxşı tanıyan döyüşçülər adamları bir yerə toplayır, düşmənlərin girməyə macal tapmadığı küçələrdən keçirir, şəhərdən çıxmalarına yardım edirdilər. Əlifgil get-gedə şəhərin kənarına sıxışdırılırdılar. Onlar üstlərinə gələn düşmənləri atəşə tutmaqla ləngidir, daha çox insanın şəhərdən sağ-salamat çıxmasına çalışırdılar. Əlif və onun sağ qalmış döyüşçü dostları böyük bir dəstə ilə şəhərdən çıxmağa başladılar.

Dəstədə uşaqlar və qadınlar daha çox idi. Buz bağlamış qarın üstü ilə yerimək çətin olsa da, onlar yavaş-yavaş irəliləyirdi. Əlif dəstədən xeyli irəlidə gedir, ətrafa diqqətlə nəzər salır, düşmən pusqusuna düşməmək üçün təhlükəsiz yol seçirdi.

Şaxta güclənir, yol uzanırdı. Uşaqlar ağlaşırdı. Anaları onları ovundurur, dilə tuturdular. Dəstə mümkün qədər səssiz hərəkət etmək əmrini almışdı. İnsan meyitləri yollara səpələnmişdi. Qarla örtülmüş çöllərdə az qala hər addımda qan gölməçələri tapdalanaraq əzilib qıpqırmızı palçıq yaratmışdı.

Əlif sarsıdıcı bir mənzərəyə rast gəldi. Cavan bir kişi 3–4 yaşlı qızını və oğlunu öz bədəni ilə örtmüşdü. Güllələr onun bədənini dəlik-deşik etmişdi. Uşaqların üst-başı atalarının qanına bulansa da, ikisi də salamat idi. Özündən asılı olmayaraq Əlifin yumruğu düyünləndi. Özünü balalarının yolunda qurban verən bu cavana baxıb: "Qeyrətinə qurban olum!" – dedi.

Əlif qəflətən dayandı. Yol təpəyə qalxırdı. Bu onu həyəcanlandırdı. Pusqu üçün əlverişli yer idi. Geri qayıtdı. Döyüş dostlarına tapşırıq verdi: – Mən təpəyə qalxacağam. İşarə verməyincə yerinizdən tərpənməyin. Atəş açılsa, düşməni ləngitməyə, adamları uzaqlaşdırmağa çalışın.

O, qaranlığa qovuşdu. Hamı nəfəsini dərmədən, qorxu və həyəcan içində gözləyirdi. Şaxta insanları qılınctək kəsir, hər dəqiqə bir il kimi keçirdi. Qəflətən təpənin lap başında od püskürdü, avtomat tüfəngdən atəş açıldı. Əlif yanılmamışdı, ermənilər təpədə pusqu qurmuşdular. Atılan güllələrdən biri Əlifin çiyninə, digəri qoluna dəymişdi. Güllələr onu yerə sərsə də, özünə tez gəldi. "Onların diqqətini yayındırmaq, başını qatmaq lazımdır" – fikrindən ilk keçən bu oldu. Uzanmış vəziyyətdə çətinliklə də olsa, yerini dəyişir, təpənin başında cəmləşmiş düşmənə atəş açırdı. İtirdiyi qan onu get-gedə taqətdən salırdı. Amma o hər saniyəni qənimət bilir, düşmənin diqqətini özünə cəlb edirdi. Əlindəki avtomat susdu. Daraqda güllə qalmamışdı. Gərginlik son həddə çatmışdı.

Birdən-birə düşüncələrində bir aydınlıq yarandı, olub-keçənlər xəyalında canlandı. Xocalı aeroportunun komendantı olarkən Ermənistandan gələn çağırılmamış qonaqları elə gəldikləri təyyarə ilə dönə-dönə geri qaytarması, silah-sursatın gətirilməsinin qarşısını alması... Dumanlanmış şüurunda suallar doğdu: "Səhvimiz nədə olub? Vətənin xilası üçün daha nə etmək olar? Düşməni birdəfəlik necə susdurmalı?". Tapançasında bircə güllə qalmışdı. Amma çox qan itirdiyinə görə gücü tükənmişdi, yeganə güllədən istifadə edə biləcəyinə ümidi yox idi. Birdən ermənilərin çox yaxınlıqda olduğunu duydu, hətta yaxşı bildiyi erməni dilindəki danışığı da ayırd etməyə başladı.

– Ara, deyəsən, bu türk hələ ölməyib...

– Yox, getmə. Birdən hiyləgərlik edər.

– Ara, qarın üstündə qanı görmürsənmi?! Çoxdan ölüb!

Əlif bu səsi tanıdı, danışan çəpgöz Akop idi. Eşitmişdi ki, Akop insanları işgəncə ilə öldürməkdə ad-san çıxarıb...

Az sonra bu yekəpər erməni göründü. Əlindəki silahı irəli uzadaraq qarın üstündə hərəkətsiz uzanmış Əlifə yaxınlaşdı, onun üzərinə əyildi, sevincini gizlədə bilməyib bağırdı:

– Aha, Xocalı qartalı! Deyəsən, ölürsən? Ölsən yaxşıdı, canın qurtarar.

Əlif bütün gücünü toplayıb tapançanın tətiyini çəkdi. Akop dibindən kəsilmiş ağac kimi yerə sərildi. Çaxnaşmaya düşən erməni yaraqlıları Əlifi gülləyə tutdular, ağır yaralanmış Akopu yerindəcə qoyub təpənin arxasına çəkildilər.

Əlifin tapança tutan əli qarın üstünə düşdü, gözləri yumuldu. O bilmədi ki, son gülləsi Xocalıdan Şelliyə pənah gətirən neçə həmyerlisini xilas etdi. Əlif onu da bilmədi ki, ölümündən sonra ona Milli Qəhrəman adı verildi. Haqqında dastanlar qoşuldu. Yüzlərlə ana təzə doğulan körpəsinə onun adını verdi...

## LAYİHƏ 3

**Mövzu:**
“Layihələr üzrə təqdimatların müzakirəsi”

Müzakirəyə həsr olunmuş dərsə qədər hazırlıq işləri aparılır. Sinif üzrə iki qrup yaradılır. Birinci qrup birinci, ikinci qrup isə ikinci layihə üzrə təqdimata hazırlaşır.

Daha fəal şagirdlər məruzəçi təyin olunurlar. İlk olaraq birinci layihə üzrə məruzəçi dinlənilir. O, layihələrin hazırlanmasında qarşıya çıxan çətinliklər, icra olunmuş işlər (tamaşa-viktorinanın necə keçməsi, qaliblərin müəyyənləşdirilməsi, oxu materialları ilə tanışlığın səviyyəsi) barədə məlumat verir. Məruzəçi hər iki qrupun suallarını cavablandırır.

Birinci qrupun digər bir üzvü layihənin tapşırığını proyektor vasitəsilə nümayiş etdirir. Tapşırığın bəndləri üzrə verilmiş cavabların məzmunu qısaca xatırladılır. Başlıca diqqət layihələrlə bağlı tövsiyə olunan əsərlərin məzmunu və təhlili üzrə məsələlərin şərhinə verilir.

İkinci qrupun təqdimatı da eyni qayda ilə dinlənildikdən sonra müzakirəyə keçilir. Müzakirənin daha məzmunlu keçməsi üçün əvvəlcədən sualların müəyyənləşdirilməsi də faydalıdır.

Təqdimatlar müəyyənləşdirilmiş meyarlar əsasında qiymətləndirilir.

# II yarımil

LAYİHƏ 1

**Mövzu:**
“Dəyərlərimizi yaşadaq, hikmətlərdən dərs alaq”
(Mənəvi dəyərlərə, hikmətli sözlərə həsr olunmuş müsabiqə)

**Tapşırıq:**

1. “Milli-mənəvi dəyərlərimiz” mövzusunda ədəbi-bədii kompozisiyanın hazırlanması
2. “Hikmətli sözlər – ibrətamiz dərslər” mövzusunda ədəbi viktorinanın hazırlanması
3. Bədii əsərlərdə milli-mənəvi dəyərlərimizi əks etdirən nümunələr
4. Tanınmış yazıçıların, görkəmli şəxsiyyətlərin mərifət, elm, bilik haqqında aforizmlərinin təqdimi
5. “Abbasqulu ağa Bakıxanovun hikmət və nəsihətləri” mövzusunda səhnələşdirmə.
6. Proqramın hazırlanması

# I LAYİHƏ ÜÇÜN OXU MATERİALLARI

Abbasqulu ağa Bakıxanov

## HİKMƏTİN FƏZİLƏTİ

*(mənzum hekayə)*

Qədim bir kitabda verilmiş xəbər
İranda bir həkim varmış mötəbər,

Ümidi yox ikən onun sabaha,
Belə bir sifariş göndərdi şaha:

"Onun üzüyünü böyük hökmdar,
Ən müdrik adama versin yadigar".

Şah bu vəsiyyəti icra edərkən
Ehtiyat edirdi divanələrdən.

Çünki hər dövlətli, kasıb, hər gəda
Özünü ən müdrik bilir dünyada.

Nəhayət, hamını çağırtdırdı şah,
Onları mətləbdən eylədi agah.

Dedi: Üç suala istərəm cavab,
Kim daha düz desə, olsun intixab.

Əvvəl – ən xeyirli nədir müxtəsər?
Tamahkar olanlar dedilər ki, zər.

Vergi toplayanlar dedilər: xərac!
Tacirlər dedilər: alver və rəvac!

Şah dedi: Uzaqdır bunlar mətləbdən,
Orada bir qoca durmuşdu, həmən.

Söylədi: hər şeydən xeyirli – hünər!
Hünərsiz heç bir şey olmaz müyəssər.

Şah qəbul eylədi, soruşdu yenə:
Dünyada hər şeydən yaxşı, deyin, nə?

Yüksəldi müxtəlif səslər saraydan:
Şahın razılığı... şadlıq, firavan...

Yenə də o qoca dedi bu sözü:
Hər şeydən yaxşıdır yaxşılıq özü.

Çünki yaxşı sifət olarsa səndə,
Afərin söyləyər dost da, düşmən də.

Şah dedi: Ən lazım nədir insana?
Yenə də çox fikir çıxdı meydana.

Şah isə qocaya edirdi diqqət,
Dedi: ən lazımlı şeydir – həqiqət.

Həqiqət olmasa, olmaz intizam,
Dünya həqiqətlə dolanır müdam.

Şah qalxıb qocaya eylədi təzim,
Üzüyü hörmətlə eylədi təqdim.

Əmr etdi saraydan getməsin bir an,
Ki, alsın hər işdə məsləhət ondan.

Nəhayət, oldu o, şahın vəziri,
Ölkəni düzəltdi onun tədbiri.

Nə yaxşı olardı, hər ölkədə, ah,
Olaydı belə bir vəzir ilə şah.

Ey Qüdsi, hikmətdən varsa xəbərin,
Yaxşı adamlarda olsun nəzərin.

İsi Məlikzadə

# DUZ

(hekayə)

Seymur paltosunu geyinib qapının ağzında dayandı. Anası balaca qara çamadanı və içi dolu həsir zənbili gətirib onun qarşısına qoydu. Oğlan şeylərə tərəf baxmadı. Gözlərini anasının yanına sallanmış damarlı, quru əllərinə zillədi. Sonra onu umacaqlı baxışla süzdü. Firuzə oğlunun fikrini anlayıb gülümsədi. Əlini dirsəkdən ilməsi qaçmış sarımtıl, nimdaş jaketinin cibinə saldı.

– Al, hələlik bunu xərclə...

Seymur səliqə ilə bükülmüş pulun arasını açdı. Üç dənə qırmızı onluğu görüb qaşqabağını tökdü. Gah ovcundakı pula, gah da anasına baxdı. Ayrılıq dəqiqələrində ürəyini sarmış kövrəklik əriyib getdi. Deyəcəyi vida sözləri qırılmış zəncir halqaları kimi beynində dağıldı, pərən-pərən düşdü. Gözucu anasının ciblərinə baxdı. “Bəlkə, yenə verdi?.. Bəlkə...”

Firuzə sanki oğlunun titrəyən barmaqlarını görməmək üçün üzünü döndərdi. Baxışları həsir zənbilin üstündə dolandı:

– Maşın küçədə səni gözləyir.

Seymur qırmızı onluqları ovcunda sıxıb yumruladı:

– Otuz manatla hara gedim?

Firuzə istədi oğlunun hirsini dağıtsın, könlünü alsın. Gülümsədi. Və tez də peşman oldu; anladı ki, bu təbəssüm Seymurun olan-qalan səbrini çalxaladı, daşdırdı.

Oğlan pulu stolun üstünə atdı:

– Bilsəydim, belə olacaq, heç qış tətilinə gəlməzdim. Başqaları öz uşaqlarını ağıllı-başlı yola salırlar.

Ana köks ötürdü.

– Bizim də gücümüz buna çatır.

– Elə bilirsiniz, tələbə olmaq asandır? Şəhərdə dolanmaq asandır?

Seymurun səsi də titrədi, dodaqları da. Atası ilk dəfə onun nəzərində adiləşdi, balacalaşdı, “O da gedib özünə sənət tapıb. Poçtalyonluqdan nə çıxar? Otuz ildir onun-bunun qapısına məktub daşıyır. Cibləri də boş”.

Firuzə istəmirdi ki, Seymur evdən narazı getsin. İstəmirdi ki, bu vida dəqiqələri sonralar ağır daş olub ürəyindən asılsın. Ana oğlunu məhəbbətlə süzdü: “Arıqlayıb Seymur. Rəngi də ağarıb. Ağız-burnu nəcimləşib. Yəqin, çətinlik çəkir, doyunca yemir. Neynəsin, yanında anası yox, bacısı yox”.

Ana ayrılığın, həsrətin dad-tamını bilirdi. Altı aydan bəri gecəli-gündüzlü bütün fikri-zikri oğlunun yanında olmuşdu. Bircə qismət çörək yeyəndə də, bircə içim su içəndə də Seymura xatırlamışdı: “Görəydim, günləri necə keçir balamın!”.

Seymurun tətildə olduğu müddətdə ana onunla üz-üzə çox oturmuşdu, doymamışdı. Firuzə bu ayrılıq anını qorxa-qorxa gözləmişdi.

Özünə söz vermişdi ki, Seymur yola düşəndə ağlamasın. “Uşaq birdən könlü qırıq gedər”.

– Bacarmırsınız, oxutmayın. Hələ birinci kursu qurtarmamışam. Bəs beş il məni necə dolandıracaqsınız?!

Firuzə cavab verə bilmədi. Ürəyində ərinin qarasına deyindi. Heç olmasa, gəlib uşağı yola da salmadı. Bu yağışlı gündə çantasını atıb getməsəydi, dünya dağılmazdı ki!”

Küçədə maşın siqnal verdi. Ana stolun üstündən əzik pulları götürüb Seymura uzatdı:

– Al, bala, dəlilik eləmə.

– İstəmirəm!

– Axı təqaüd də alırsan.

– Ondan sizə nə?! Aldığım ayın başına çatmır. Ac qalanda kimin qapısına gedim?! Elə bilirsiniz, yeməkdən savayı xərclərim yoxdu?

– Biz də atanın maaşı ilə dolanırıq, bala. Axı səndən başqa evdə iki bacın da var.

– Məni adam yerinə qoymursunuz. Şəhərdə batsam da, vecinizə gəlməz.

Maşın uzun-uzadı siqnal verdi. Seymur şəhadət barmağını çiyni üstdən qapıya tuşladı:

– Uşaq oxudan elə olar. Oğlunu öz maşınında stansiyaya göndərir. Mən də onun qoltuğuna qısılmışam. Mənim atam...

Firuzənin ərinə yazığı gəldi. Cansız-cəsədsiz kişinin bu yağışlı, küləkli gündə palçığa batıb qalacağından qorxdu. Naxoşlayıb yatağa düşəcəyindən qorxdu. “Pay-piyada nə qədər gəzmək olar? Ayaq döyməkdən bədbəxtin canının suyu da quruyub. Bir dəridir, bir sümük... Gör neçə ildir... Gör ha”.

Yenə siqnal səsi eşidildi; dalbadal, əsəbi Seymur çamadanın qulpundan yapışdı. Ana yalvardı:

– Ağrın mənə gəlsin, pulu al. Yenə tapıb göndərərik. Bir az... qənaətlə xərclə, israfçılıq eləmə.

– Yoxsa bu vaxta qədər gen-bol xərcləmişəm?! Bilirsən, borc almaq nə deməkdir?! Şəhərdə olmusan? Bir stəkan suyu da pulsuz vermirlər.

– Al, bala.

– İstəmirəm! – Oğlan zənbili də götürdü.

Firuzə əzilib yumrulanmış pulu Seymurun paltosunun yan cibinə saldı.

— Dərdin mənə gəlsin.

Oğlan anasının ağarmış, xəstəhal çöhrəsinə baxdı. Titrəyən qansız dodaqlarına baxdı. Onun gözlərindəki nəmi sezmədi. Ürəyinin ağrılı-acılı döyüntüsünü eşitmədi. Qapını itələyib çıxdı.

Küləyin əydiyi çəpəki yağış ananın üzünə, sinəsinə nöqtə-nöqtə çırpırdı...

“QAZ-69” tərpəndi. Seymur yanındakı yoldaşının adda-budda suallarını cavabsız buraxdı. Gözlərini maşının aramla, xışıltı ilə işləyən şüşətəmizləyəninə dikib fikirləşdi: “Dedilər, orta məktəbi qurtaranda sənə bahalı kostyum alacağıq. Əvəzində altmış manatlıq ucuz kostyumu aldılar. Dedilər, instituta girsən, sənə qızıl saat alacağıq. Almadılar. Saat üçün cəmi-cümlətanı iyirmi beş manat göndərdilər. İndi də... Pulları yoxdur, mənə nə? Haradan tapırlar-tapsınlar. Nə vaxta qədər qorxa-qorxa, qənaətlə xərcləyəcəyəm?.. Atam məni ötürməyə də gəlmədi... Verdikləri otuz manatı Bakıya çatan kimi poçtla geri göndərəcəyəm”.

Maşın dikə dırmaşan palçıqlı yolu güclə çıxdı. Üzbəüz gələn bir kişi əl qaldırdı, sonra dərənin dibini göstərib nəsə qışqırdı. Sürücü maşını saxladı. Qapını açıb aşağıya baxdı.

– Seymur, deyəsən, anandır, dalımızca yüyürür.

“Görəsən, nə olub? Məni neynəyir?” Seymur maşından düşdü. Təzə qəhvəyi tuflilərinin palçığa batacağından ehtiyat edib, təmiz yer seçə-seçə ayaqlarının ucunda təpənin üstünə gəldi. Qara şala bürünüb dikə dırmanan anasını gördü. Arvad kəsə yolla sürüşə-sürüşə qalxırdı. İki dəfə büdrəyib dizlərini yerə verdi. Sağ əlini tez-tez başının üstünə qaldırıb yelləyirdi. Yağışın suyu oğlanın boynuna, bədəninə süzüldü. Əti çimçişdi. Silkələnib geri döndü. Ayaqlarını ehmalca qoya-qoya özünü maşına saldı. “Pul gətirir, qoy gətirsin”.

– Bəlkə, qabağına gedək? – deyə yoldaşı soruşdu.

– Çatıb. – Seymur üzünü, boynunu yaylıqla sildi, sarı, tüklü papağını çıxarıb çırpdı.

Firuzə oğlu tərəfdəki açıq dal qapıya özünü güclə yetirdi Bənizi ağappaq idi. Nəfəs aldıqca bütün bədəni uçunurdu. Qurumuş boğazını yaşlamaq üçün tez-tez udqunurdu.

Seymur anasının hədəqədən çıxmış nursuz gözlərinə baxdı:

– Nə olub?

Arvad ovcunda tutduğu bükülü kağızı Seymura uzatdı. Oğlan kağızı əlinə alıb barmaqları ilə yoxladı.

Firuzə sanki son nəfəsini topladı:

– Sənə zənbildə... soyutma toyuq... yumurta qoymuşam... Duz yadımdan çıxmışdı. Elə yerə qoy... islanmasın.

Seymur ağzını geniş açıb cıyərdolusu hava udan anasının göyərmiş nazik burnuna baxdı.

Onun üzündəki ifadəni yağış tellərinin arxasından sanki daha aydın görmək üçün gözlərini qıydı. "Bunlar məni dolayıblar. Bunlar məni adam saymırlar".

Oğlan əlindəki kağız bükülüsünü yerə çırpıb qapını zərblə çəkdi. Maşın tərpəndi. Təkərlərdən qopan horra palçıq yola səpilmiş narın ağ duzun üstünü tamam örtdü...

---

Rasim Kərimli

ANA

*(ixtisarla)*

Məramın, niyyətin bulaqdan duru,
Vüqarın sarsılmaz dağlar qüruru.
Qolumun qüvvəti, gözümün nuru,
Şərəfim, şöhrətim, şanımsan, ana,
Sən məni yaşadan canımsan, ana.

Keçibdir günlərin qaralı-ağlı,
Ürəyin oğluna, qızına bağlı.
Şəfa təbiətli, layla dodaqlı,
Ziynət yaranmısan, ziynət, cahana –
Solmaz baharımsan, yazımsan, ana.

Başımın tacısan, deyim, deməyim,
İtirsəm haqqını itsin əməyim.
Şad gündə şadlığım, darda köməyim,
Gündüzlər günəşdən payımsan, ana,
Gecələr ulduzum, ayımsan, ana.

Gah Çənlibellərdə Nigar olubsan,
Gah beli qatarlı Həcər olubsan.
Həm arvad olubsan, həm ər olubsan,
Gəribsən köksünü qara, borana
Sənə üz verdikcə tənhalıq, ana.

Körpə nə anlayır varı, ya yoxu,
Körpənə calanıb ömrünün çoxu,
Tək bircə gecənin yuxusuzluğu
Əvəz ola bilməz dünya malına,
Təmənna bilməyən bir sənsən, ana.

Bir bağsan, bəhrəsi insan olan bağ,
Qoynunda dağ olub hər ucalan dağ.
Dəniz də, ümman da quruyar, ancaq
Qurumaz, tükənməz eşqin balana,
Ürəyin oddanmı yaranıb, ana?!

# MANQURT
(“Gün var əsrə bərabər” əsərindən)
*(ixtisarla)*

Ana-Beyit qəbiristanlığının öz tarixi vardı. İlk olaraq rəvayət belə başlanırdı ki, bu yerləri zəbt eləyən juanjuanlar əsir tutduqları düşmən əsgərləri ilə çox amansız rəftar eləyirmişlər. İmkanları olanda əsiri qonşu ölkələrə qul kimi satarmışlar, bu da əsir üçün xoşbəxtlik hesab olunurmuş. Çünki ümid yeri qalırdı, kim bilir, bəlkə, elə bir imkanı oldu ki, qaçıb vətənə qayıtdı...

Juanjuanların özləri üçün qul kimi saxladıqları əsirləri isə dəhşətli tale gözləyirdi. Onlar öz qurbanlarının başına zif keçirib dözülməz işgəncə verərək onun yaddaşını tamam yox eləyirmişlər. Başına belə iş gətirilən adam ya ağır işgəncələrə dözməyib ölür, ya da ömür-billah yaddaşını itirib manqurt olurmuş – yəni keçmişini xatırlaya bilməyən qula çevrilirmiş.

Zif salınandan sonra məhkumun boynuna taxta kündə keçirirmişlər ki, başını yerə çatdıra bilməsin. Onları bu vəziyyətdə uzaq yerə aparıb əl-ayaqları bağlı, ac-susuz atarmışlar qızmar günün altına. İşgəncə bir neçə gün sürürmüş. Müəyyən yerlərdə də güclü gözətçi dəstələri qoyarmışlar ki, hələ sağkən qohumlarından, əqrəbalarından gəlib onları xilas etmək fikrinə düşsələr, qoymasınlar. Ancaq belə hallar çox nadir olurmuş, çünki açıq düzənlikdə hər cür hərəkət uzaqdan görünür. Sonralar bir nəfərin manqurt olunmağı xəbəri gəlib qəbiləyə çatanda onun ən yaxın qohumları belə onu xilas eləmək, ya satın alıb qurtarmaq istəmirmişlər, çünki bu, adamın özünü yox, müqəvvasını qaytarmaq demək idi.

Sarı-Özəyin qızmar günəşinin döydüyü çöldə ağır işgəncə çəkənlərin çoxu dözməyib ölürmüş. Beş-altı manqurtdan biri, ya ikisi sağ qalırmış. Onların ölümünə bais aclıq, ya susuzluq olmurmuş, onların axırına çıxan gün altında quruyub manqurtun başında get-gedə amansızcasına sıxılan xam dəvə dərisinin verdiyi dözülməz əzablardı. Qızmar günəşin şüaları altında durmadan sıxılan zif qulun qırxıq başını dəmir məngənə kimi sıxırdı.

Juanjuanlar yalnız beşinci gün gəlib onları yoxlayırmışlar ki, görsünlər kim ölüb, kim qalıb. Əsirlərdən birini diri tapanda belə hesab eləyirmişlər ki, məqsədlərinə çatıblar. Ona su verir, qandal-kündəsini açır, sonra da bir az qulluq eləyib gücə gətirir, ayağa qaldırırdılar. O, yaddaşını itirib dönüb olurdu qul manqurt, buna görə də adi sağlam qullara nisbətən birə-on artıq qiymətləndirilirdi.

Manqurt kim olduğunu, hansı nəsildən-qəbilədən olduğunu, adını, uşaqlığını, atasını, anasını xatırlayıb yadına sala bilmirmiş. O, dilsiz-ağızsız heyvan kimi bir şey olduğu üçün tamamilə müti və təhlükəsiz idi... Bircə fikri-qayğısı vardısa, o da qarnını doydurmaqdı. Başqa dərdi-səri yox idi. Əvəzində, tapşırılan işi kor-koranə, can-dildən, inadla yerinə yetirərdi...

Bu əhvalat o dövrlərə aiddir ki, juanjuanlar uzun müddət Sarı-Özək çöllərini zəbt eləyib, ərazilərini genişləndirmək, qul ələ keçirmək üçün qovğalar aparırdılar. Günlərin birində Nayman torpaqlarına karvanlarla mal gətirən sövdəgərlər çay məclisində söhbət vaxtı danışırlar ki, çöllükdə böyük bir dəvə sürüsünü güdən cavan bir pasiban görüblər. Sövdəgərlər onunla danışmaq istəyəndə görüblər ki, oğlan manqurtdır.

Baxan deyir ki, sapsağlam adamdır, heç kəsin ağlına gəlməz ki, onun başına belə iş gətirilib. Yəqin, o da vaxtında söz deyib, söz anlayan oğlanmış, özü də lap cavan-cahil, bığ yeri təzə tərləyib, sir-sifəti, görkəmi də pis deyil, di gəl ki danışdıranda elə bil dünən dünyaya gəlib, yazıq uşaq nə atasının adını bilir, nə anasının, juanjuanların onun başına gətirdikləri müsibəti də xatırlaya bilmir, hardandır, kimlərdəndir, onu da bilmir...

Bu söhbət gedən vaxt bir arvad sövdəgərlərə çay süzürmüş. Demə o, Nayman-Ana imiş... O gecə Nayman-Ana səhərəcən çimir vurmur, başa düşür ki, o manqurt pasibanı Sarı-Özək çöllərində axtarıb tapmayınca, onun öz oğlu olmadığını bilməyincə rahatlıq tapmayacaq. Çoxdan bəri ürəyində gizləyib saxladığı üzücü, qorxulu bir şübhə ana qəlbində yenidən baş qaldırmışdı: oğlu döyüş meydanında həlak olub, ya yox?

Onun oğlu Sarı-Özək torpaqlarında juanjuanlarla döyüşdə həlak olmuşdu. Əri də bir il əvvəl öldürülmüşdü. Naymanlar arasında ad çıxarmış, sayılan kişilərdən biriymiş. Oğlu döyüşə getmişdi ki,

atasının qisasını alsın. Döyüşdə düşmənlə üz-üzə gəlib sinələşəndə görüblər ki, onun oğlu yıxılıb atın boynuna, döyüşün hay-həşirindən ürkən qızğın at götürülüb, oğlan duruş gətirə bilməyib, yıxılıb, bir ayağı ilişib üzəngiyə, atın böyründən asılı qalıb. At oğlanın cansız cəsədini sürüyə-sürüyə üz tutub çölə... Tərslikdən, at düşmən tərəfə qaçıb.

Naymanlar bir neçə gün dalbadal çölü gəzib axtardılar ki, oğlanın ölüsünü tapsınlar, bir şey çıxmadı… O gündən Nayman-Ana üçün bu bomboş dünyada bomboş günlər başladı. O başa düşürdü ki, davada həlak olanlar olur, intəhası oğlunun meyitinin döyüş meydanında atılıb qalmağı, basdırılmamağı ona rahatlıq vermirdi. Bu qara fikirləri özündən rədd eləmək üçün oğlunun öldüyünə gərək öz gözləri ilə görüb inanaydı.

Ona hər şeydən çox şübhə gətirən oğlunun atının yerli-dibli yoxa çıxmağı idi, at ölməmişdi, at ürküb qaçmışdı. Bütün ilxı atları kimi, o da gec-tez üzəngiyə ilişmiş ölünü sürüyə-sürüyə öz ilxısına qayıtmalı idi…

Ancaq nə fayda ki, nə oğlunun meyiti tapıldı, nə də at qayıtdı. Qəbilə camaatı bu hadisəni yavaş-yavaş unutmağa başlayırdı, çünki zaman keçdikcə hər şey silinib, unudulub gedər... Bircə ana təskinlik tapıb unuda bilmirdi…

O gəlmə sövdəgərlərin heç birinin ağlına gəlməzdi ki, o cavan manqurt haqqında dedikləri sözlər Nayman-Ananın qovrulan ürəyinə təzə bir qığılcım salacaq. Ana başa düşdü ki, ta o manqurtu tapmayınca, onun öz oğlu olub-olmadığını bilməyincə sakitlik tapmayacaq.

Sübh açılanda Nayman-Ana yurddan yola hazır çıxdı. Kandarı adlayıb qapıya söykəndi, fikrə getdi, aulu tərk etməmiş ətrafı diqqətlə süzdü. Ananın gözləri doldu, dərin bir ah çəkdi.

Sonra özünü ələ aldı, duanın birinci sözlərini pıçıldadı: “La ilahə illəllah” (Allahdan başqa Allah yoxdur) və qəti addımlarla dəvəyə yaxınlaşdı, dizlərini qatlayıb hıxladı.

Nayman-Ana əlindəki heybələri tələsik alıqdan aşırıb dəvəyə mindi, səsləyib onu diklədi. Ağmaya indi başa düşdü ki, qarşıda səfər var.

Bir neçə gün idi ki, Ağmaya yeknəsəq inləmə kimi bir səslə, ayaqlarını asta bir xışıltıyla yerə toxunduraraq ucsuz-bucaqsız Sarı-Özəyin çökək düzəniylə yorturdu, yiyəsi ona aman vermir, kimsəsiz qızmar çöllüklə haylayıb qovurdu. Yalnız gecələri dincəlirdilər. Səhər açılan kimi yenə sövdəgərlərin nişan verdiyi yerdə böyük dəvə sürüsünü, manqurt pasibanı axtarırdılar.

Nayman-Ana birdən qarşısında geniş bir dərəyə yayılıb otlayan böyük bir dəvə sürüsü gördü. Əvvəlcə sevincindən nə edəcəyini bilmədi. Ağmayanı hayladı, sonra qorxdu… manqurt olmuş oğlunu görəcəyindən qorxdu.

Budur, sürü otlayır, bəs pasiban hanı? Buralarda olmalıdır. Və dərənin o başında adam gördü. Uzaqdan kim olduğu bilinmirdi. Əliçomaqlı pasiban yüklü minik dəvəsinin noxtasından tutub gözünəcən basdığı papağın altından ona baxırdı.

Yaxınlaşıb oğlunu tanıyan Nayman-Ana özünü dəvənin belindən yerə necə atdığını bilmədi.

– Oğlum, oğul bala! Səni axtarmaqdan əldən düşmüşəm! Mən sənin ananam!

Di gəl ki onun gəlişi oğluna heç bir təsir göstərmədi, heç ağzını açıb soruşmadı ki, ay arvad, kimsən, niyə ağlayırsan? Nayman-Ana tərpənməyib yerində qaldı, çömbəlib üzünü əlləri ilə örtərək xısın-xısın ağladı, başını qaldırmadan bir müddət bu vəziyyətdə qaldı. Manqurt oğul heç bir şey olmamış kimi mənasız və laqeyd nəzərlərlə ona baxdı, üzgün sifətində nə isə təbəssümə bənzər bir şey işardı. Ancaq gözləri yenə əvvəlki kimi tamam etinasızdı.

Nayman-Ana soruşdu:

– Məni tanıyırsan?

Manqurt başıyla “yox” dedi.

– Bəs adın nədir?

– Manqurt.

– Səni indi belə çağırırlar, əvvəlki adın yadındadır? Bir əsl adını yadına sal görüm…

Manqurt danışmırdı. Anası görürdü ki, o, adını yadına salmağa çalışır, qaşlarının arası iri tər içindədir. Amma görünür, oğlan qalın bir divara rast gəlmişdi, divarı keçə bilmirdi.

– Bəs atanın adı nədir? Bəs özün kimsən, kimlərdənsən? Heç olmasa, doğulduğun yerisə də bilmirsənmi? Yox, o heç nə bilmir, heç nə xatırlamırdı.

– İlahi, gör səni nə günə salıblar! – deyə ana pıçıldadı, yenə də özündən asılı olmayaraq, dərddən boğula-boğula ağlamağa başladı. Ananın bu dərdi-kədəri manqurta qəti təsir eləmirdi.

Ana onun kim olduğunu soruşmaqla yox, təlqinlə başa salmaq qərarına gəldi.

– Sənin adın Jolamandır. Eşidirsənmi? Sən Jolamansan. Atanın da adı Donenbaydı. Atan yadında deyil? Axı o sənə hələ uşaqlıqdan ox atmağı öyrədərdi. Mən də sənin ananam, sən də mənim oğlum. Sən naymanlar qəbiləsindənsən, başa düşdün? Sən naymansan… Ananın dediklərinə o, tam laqeydliklə qulaq asırdı, elə bil bu sözlərin ona dəxli yoxdu. Yəqin, otluqda cırıldayan çəyirtkəyə də beləcə qulaq asardı.

– Qoy görüm onlar sənin başına nə iş gətiriblər? – deyə Nayman-Ana əlini onun başına uzatdı. Manqurt kənara sıçrayıb çəkildi, əliylə papağından yapışıb daha anası tərəfə baxmadı. Arvad başa düşdü ki, başını heç vaxt onun yadına salmaq olmaz. Bu vaxt uzaqdan dəvəyə minmiş bir adam göründü. O yaxınlaşırdı. Nayman-Ana soruşdu:

– Bu kimdir?

– Mənimçün yemək gətirir.

Nayman-Ana təşvişə düşdü. Bu juanjuan onu görməmiş tez çəkilib gizlənməliydi. O, tez dəvəsini hıxlayıb minə-minə oğluna xəbərdarlıq elədi:

– Ona heç nə demə. Mən tezliklə qayıdacağam.

Oğlu cavab vermədi. Onun heç eyninə də deyildi. Nayman-Ana başa düşdü ki, dəvənin üstündə sürü içindən keçməkdə səhv eləyib. Gərək otlayan dəvələrin arasıyla gizlənə-gizlənə piyada keçəydi. Nayman-Ana otlaq yerindən xeyli uzaqlaşandan sonra qıraqlarını yovşan basmış dərin bir dərəyə girdi. Burada dəvəni dərənin dibində çöküzdürüb yerə düşdü, daha Ağmayanı qalxmağa qoymadı. Gizlənib baxmağa başladı. Juanjuan onu görmüşdü. Bir azdan o, dəvəsini yortma sürə-sürə gəlib çatdı. Nizə və oxla silahlanmışdı. Kəsdirə bilmirdi ki, dəvəni hara sürsün? Əvvəlcə bir tərəfə sürdü, sonra başqa səmtə döndü. Axırıncı dəfə lap dərənin yanından keçdi. Juanjuan dəvəni bir az da o yan-bu yana səyirdəndən sonra geriyə, sürüyə tərəf qayıtdı. Axşam düşürdü. Gün batsa da, hələ göyün şəfəqi çəkilməmişdi. Sonra hava birdən qaraldı. Ətrafı qaranlıq bir gecə bürüdü.

Nayman-Ana o gecəni oğlunun olduğu yaxın yerlərdəki çöllükdə keçirdi. Oğlunun yanına qayıtmağa ürək eləmirdi, qorxurdu bayaqkı juanjuan gecəni sürünün yanında qala. Və o gecə qəti qərara gəldi ki, oğlunu xilas eləsin, çalışıb özüylə aparsın. Manqurt olsun qoy, heç nə başa düşməsin, təki öz adamları arasında qalsın. Ana ürəyi belə deyirdi. Başqalarının dözüb barışdığı vəziyyətə o dözə bilmirdi. O rəva bilmirdi ki, qanı qanından olan doğma oğlu qul qalsın. Kim bilir, bəlkə də, doğma yerləri görəndən sonra ağlı öz yerinə gələcək, uşaqlıq illəri yadına düşəcək…

Səhəri Nayman-Ana yenə Ağmayaya süvar oldu. Heç kəsin olmadığını yəqin eləyəndən sonra oğlunu səslədi:

– Jolaman! Jolaman! Salam!

Oğlu dönüb baxanda ana sevincindən içini çəkdi, ancaq elə o dəqiqə də başa düşdü ki, oğlu elə-belə səsə dönüb. Nayman-Ana yenə də çalışdı ki, oğlunun yaddaşını diriltsin…

– Adını yadına sal, tap gör adın nədir? – deyə yalvarıb onu qandırmaq istəyirdi.

– Bilmirsən məgər, atan Donenbaydır? Sənin adın manqurt deyil, Jolamandı… Adını onunçün belə qoymuşuq ki, sən naymanların böyük köçü vaxtı yolda doğulmusan. Sən anadan olanda biz üç gün köçü saxlayıb dayandıq, üç gün toy-bayram elədik.

Ananın bu dedikləri manqurt oğlana təsir göstərmədiyinə baxmayaraq, danışığına ara vermir, boş da olsa, yenə ümid eləyirdi ki, bəlkə, bu qaralmış şüurda bir qığılcım işara. Nə fayda ki, arvad qıfıllı bir qapını döyəcləyirdi. Ana yenə də öz dediyini deyirdi:

– Adını yadına sal! Atanın adı Donenbaydı!

Sonra o, götürdüyü ehtiyatdan onu yedirib-içirtdi, oğlunu doyuzdurandan sonra ona layla deməyə başladı. Layla onun çox xoşuna gəldi. Arvadın laylası onun ürəyinə yayılırdı. Xoşluqla qulaq asırdı, onun gündən qaralıb codlanmış, donuq sifətində nə isə canlı, ılıq bir halət əmələ gəlmişdi. Bunu görən ana onu inandırmağa çalışdı ki, bu yerləri tərk eləyib ona qoşulsun, öz yerlərinə qayıtsın, juanjuanlardan birdəfəlik canını qurtarsın. Manqurt ağlına vura bilmirdi ki, necə durub getsin, bəs sürü nə olsun? Yox, ağası deyib ki, sürünü gözdən qoymasın... Və yenə də Nayman-Ana pozulmuş yaddaşın o bağlı qapısını təkrar-təkrar döyəcləməyə başladı, dediyini dedi:

– Yadına sal kimsən? Adın nədir? Sənin atan Donenbaydır!

Ananın başı elə qarışmışdı ki, axşamın necə düşdüyünü hiss eləməmişdi, o vaxt ayılıb gördü ki, juanjuan dəvə üstündə sürünün o başına yaxınlaşır. Nayman-Ana fürsəti itirməyib tez Ağmayaya mindi və uzaqlaşdı. Ancaq o biri tərəfdən də bir juanjuan çıxıb onun yolunu kəsmək istədi. Ayaqdan yüngül Ağmaya onu vaxtında aradan çıxartdı, juanjuanlar dalda qalıb çığıra-bağıra, nizələrini oynadaraq onu qovmağa başladılar. Ağmaya yel kimi qanadlanıb Nayman-Ananı bu ölüm-dirim qovhaqovundan uzaqlaşdırırdı. İntəhası, onun xəbəri olmadı ki, əlləri boşa çıxan juanjuanlar ürəklərini soyutmaq üçün yazıq manqurtu o ki var döydülər. Ancaq ondan nə gözləmək olardı, elə deyib dururdu:

– Deyirdi, mənim anamdı.

– Anan-zadın deyil! Sənin anan yoxdur! Heç bilirsən niyə gəlib? Bilirsən? İstəyir ki, papağını çıxarıb başını buğa versin! Onlar yazıq manqurtun canına qorxu salmağa çalışırdılar. Manqurt bu sözləri eşidəndə qaralmış sifəti bomboz oldu. O, boynunu qısıb papağından bərk-bərk yapışaraq tələyə düşmüş heyvan kimi yan-yörəsinə baxmağa başladı. Juanjuan ona ox-yay verib dedi:

– Qorxma, al bunu, nişanla görüm! – deyə juanjuan papağını göyə atdı. Ox papağı dəlib keçdi.

– Gör ha! – deyə papaq sahibi təəccübləndi. Əlinin yaddaşı hələ də qalır!

Nayman-Ana yuvasından ürküdülmüş quş kimi düzdə vurnuxur, özünə yer tapa bilmirdi. Bilmirdi neyləsin…

Toran qarışırdı. Gecə azman Sarı-Özək çölləri üzərinə çökürdü. Ağmaya öz sahibəsini yüngül, sərbəst bir yerişlə böyük dəvə sürüsünə tərəf aparırdı. Budur, o, sürüyə çatdı, otlayan heyvanların arasından keçdi, ətrafa göz gəzdirdi, amma oğlunu görə bilmədi. Onun minik dəvəsi yüklü halda noxtasını sürüyə-sürüyə otlayırdı. Nayman-Ana oğlunu səsləyib çağırmağa başladı:

– Jolaman! Haradasan? Mənəm, ananam! Haradasan?

O, narahatlıqla ətrafa boylana-boylana qaldığı üçün oğlunun dəvə dalında daldalanıb dizini yerə verərək oxla onu nişan aldığını görmürdü. Günəşin şüası ona mane olurdu, fürsət gözləyirdi ki, oxu buraxsın.

– Jolaman! Oğlum! – Nayman-Ana oğlundan nigaran halda onu səsləyirdi. Birdən qanrılıb baxanda onu gördü. Bircə:

– Atma! – deyə bildi, elə Ağmayanı mahmızlamaq istəyirdi ki, dönüb oğluyla üzbəüz gəlsin, yetirmədi – ox vızıltıyla onun sol qoltuğuna sancıldı. Bu, ölümcül zərbə idi. Nayman-Ana dəvənin boynuna sinib ilişə-ilişə yıxıldı. Ancaq ananın özündən əvvəl başının yaylığı açılıb düşdü, havada bir quş olub çığıra-çığıra uçub getdi:

– Yadına sal, kimlərdənsən? Adın nədir? Sənin atan Donenbaydır! Donenbay! Donenbay!

Deyilənə görə, o vaxtdan Sarı-Özəkdə Donenbay quşu uçur. Donenbay quşu yolçuya rast gələndə onun yaxınlığında uça-uça səslənir:

– Yadına sal kimlərdənsən? Kimin oğlusan? Adın nədir? Adın? Donenbay, Donenbay!

Sarı-Özəkdə Nayman-Ananın basdırıldığı yerə o vaxtdan Ana-Beyit, yəni Ana məskəni – qəbiristanlığı deyirlər.

*Tərcümə edən: İshaq İbrahimov*

## Hikmət Ziya
## KƏRGƏDAN VƏ QARIŞQA

Uzunuyla eni bir,
Başıyla bədəni bir
Kərgədan tutulmuşdu
Tənbəllik azarına.
Süstlük, məstlik hopmuşdu
Ömrünə, güzarına.
Boş-bekar əsnəməkdən
Çuval olmuşdu ağzı.
Günün beşdə dördünü
Yeyib-yatırdı azı.
Yerdə qalan vaxtını
Ya göldə keçirirdi,
Çimib çıxır, meşədə,
Ya çöldə keçirirdi.
Daş üstünə bircə daş
Qoymaqla yoxdu işi...
Onu piy dağarına
Döndərdi bu vərdişi...
Apardığı arpanı
Yolda qoyub bir yana
Bapbalaca Qarışqa
Bir gün söylədi ona:
– Səndə bu boy-buxun var,
Fil işi görmək olar!
Bizim meşə elində
Niyə əlin belində
Dolaşırsan, a fərsiz?
Hamı səndən xəbərsiz,
Sən hamıdan xəbərsiz.
Kimdir doyduran səni?
Səndə olan gövdəni?!
– Nə?! – bağırdı Kərgədan
– Təhqir edirsən yəni?
Ayaq basdı üstünə:
– Belə əzərəm səni!
Yox! Qarışqa ölmədi
– Girdi torpağın altda,
Lağım atıb yenə də
Üzə çıxdı bir anda.
Tənbəlin zərbəsi də
Əsər etmədi ona.
Götürüb arpasını,
Düzəldi öz yoluna.
Kərgədan gördü, nəhəng
Özü yox, Qarışqadır.
Çox da güclə görünür,
Çox da nöqtə boydadır,
– O həm sevir zəhməti,
Həm də ki cəsarəti.
Nəhəng odur.
Kərgədan – adi cırtdandan cırtdan.

Osman Sarıvəlli

## GƏTİR, OĞLUM, GƏTİR

*(ixtisarla)*

Mən kənddə doğuldum, sənsə şəhərdə,
Sən beşikdə yatdın, mənsə yəhərdə.
Yatdım boz otlaqda boz dovşan kimi...
Gözümüz dünyaya açılan kimi
Mən çomaq götürdüm, sən kağız, qələm,
Çomaq bir aləmdir, qələm bir aləm...
Dolandı sənələr, dolandı aylar,
Gah dondu, gah coşdu, bulandı çaylar.
Zaman hökm elədi... Bir qərib axşam
Yolun məskənimə düşdü nagahan.
Səni oğul kimi o yerdə mənsiz
Bağrına basdımı ana kəndimiz?
Xoşuna gəldimi Kürün kənarı?
Gördünmü, gördünmü göy çinarları?

Görürəm, səfalı bir yaz axşamı
Çinarın dibinə yığışır hamı.
Bu saz məclisindən olanlar halı –
Kəndin ağsaqqalı, qarasaqqalı
Oraya toplanıb... Sən də bu axşam
Orda, uşaqların arasındasan.
Ortada vüqarla aşıq gəzişir,
Danışır arabir, deyir arabir.
Bir qoca yerindən səslənir bu an:
– Aşıq, bir nağıl de, səsinə qurban!
Hamı vəcdə gəlir... Bu məsləhəti
Bəyənib dəyişir aşıq söhbəti;
Bir dastan başlayır coşqun həvəslə,
Min yerdə xal vurur yanıqlı səslə.
Xalqın əzəməti, fikri, xəyalı,
Onun hissi, zövqü, ağlı, kamalı

Sanma bir qılıncda, bir hünərdədir,
Onlar bu sazlarda, bu sözlərdədir!..
Bu günün qəlbinə girmək istəsən,
Durduğun pillədən hələ bir az en.
En! Uçan alçalar, enən ucalar!
En! Yerin təkində xəzinələr var.
Demə “köhnə sözün mənası nədir?”
Hər söz, anlayana bir qərinədir!..
Hər fikir mülkündə zərrin tac yatır,
Hər meyvə tumunda bir ağac yatır.
Hər kiçik bayatı xalqın səsidir,
Kamal dünyasının xəzinəsidir.

Bahar gecələri enib sahilə
Uçan ləpələrin səsini dinlə!
Gümüş dalğalarda Ay baxan zaman
Düşün, gör nə deyir çay axan zaman?
Kömürdən almaz çək, yarpaqdan ipək,
Daşdan gövhər çıxart, buluddan şimşək.
Gətir ildırımın məğrur səsini,
Qumru bulaqların zümzüməsini.
Zəmilərdən sünbül, bağçalardan bar,
Dərələrdən vüsət, dağlardan vüqar...
Özünlə çiçəkli, güllü yaz gətir,
Bir aşıq mahnısı, bir də saz gətir!
Gətir, yollarına müntəzirəm mən!
Gətir, bu fürsəti vermə əlindən!
Ana yurdumuzun nəyi var gətir –
Məhəbbət, sədaqət, etibar gətir!..

## LAYİHƏ 2

**Mövzu**:
"TƏBİƏTƏ SEVGİ, TƏBİƏTƏ QAYĞI"
(Mövzu üzrə təqdimatlar)

**Tapşırıq:**
1. "Ekologiya nədir?" mövzusunda elektron təqdimat hazırlanmaq
2."Azərbaycan təbiəti" mövzusunda videosüjet hazırlanmaq
3. "Doğma təbiət Azərbaycan poeziyasında" mövzusunda təqdimat
4. "Azərbaycan təbiəti nəsr əsərlərində" mövzusunda təqdimat
5. Qruplar arasında iş bölgüsü, planlaşdırma

## II LAYİHƏ ÜÇÜN OXU MATERİALLARI

### Mikayıl Müşfiq
### YAĞIŞ YAĞARKƏN
*(ixtisarla)*

Yağış yağır, rəqs eyləyir gur damlalar,
Sıra-sıra, inci-inci nur damlalar.
Göydə iki qara bulud çatılaraq,
İldırımlar şaqqıldayır şaraq-şaraq.
Quşlar uçur yuvasına pırıl-pırıl,
Şırıldayır navalçalar şırıl-şırıl.
Çaxnaşmada göy üzündə ildırımlar,
Bir-birinə dəydi, baxın, qaldırımlar.
Dönmələrdə durana bax, qaçana bax!
Qaldırımda o balaca oğlana bax!
Öz döşündən yeni sözlər toxuyaraq,
Ayağını şappıldadır oxuyaraq.
Gülə-gülə bir qız qaçır o səkidən,
Ürəkciyi xali deyil səksəkidən,
Yanında bir gənc də qaçır,
Yağış yağır, onu açır.
...Yağ, yağışım, yağ, sel ol, yağ!
Sırma-sırma, tel-tel ol, yağ!
Çözül, sən ki kölgəli bir yar saçısan,
Bağrı yanıq səhraların əlacısan.
Yağ, yağışım, sellənərək,
Sırmalanıb tellənərək!
Zümzümənlə şirin-şirin dillən, yağış,
Küçələrdə uşaq kimi vellən, yağış!
Bunlar keçər, çarpın səma köksüm kimi,
Ey ildırım, səs ver mənə, səsim kimi!
Yağ ey yağış, fikrim kimi, hissim kimi,
Uzaq, yaxın çöllərə yağ,
Ölkələrə, ellərə yağ!
Yağış yağır, rəqs eyləyir gur damlalar,
Sıra-sıra, inci-inci nur damlalar.

## Əliağa Kürçaylı
## QARANQUŞ

Görürəm, yaz yağışı
Yağır hiddətlə yenə.
İldırımlar şaxıyır
Göydə dəhşətlə yenə.

Söykənib pəncərəyə
Baxıram hər yana mən.
Yenə yollar kəsilib,
Nə gələn var, nə gedən.

Göydə karvan çəkərək
Sıx buludlar dolanır.
Hərə bir yer taparaq
Sığınıb daldalanır.

Belə neysanda fəqət
Bir qaranquş görürəm.
Yağış altında onu
Qanad açmış görürəm.

Bədənindən su damır,
İslanıbdır o, tamam.
Düzü, heyran kəsilir
Ona baxdıqca adam.

Nə əsən güclü külək,
Nə yağan güclü yağış
O zərif quşcuğazı
Bircə an saxlamamış.

Elə bil lap bu saat
Gəlsə qış, yağsa da qar,
O dayanmaz yenə də,
Daha sürətlə uçar.

Alaraq dimdiyinə
Quşcuğaz yem aparır.
Bax bununçün havanı
İldırımtək o yarır.

İndi, yəqin, yolunu
Gözləyir ağ balalar.
Dözməyir qəlbi onun,
Körpələr ac qalalar.

Baxıram, yaz yağışı
Yağır hiddətlə yenə.
O qaranquşsa uçur
Göydə sürətlə yenə...

Tofiq Mahmud
## ANA QAĞAYI
(hekayə)

Qoca balıqçı qayığın burnunda əyləşib mənim avar çəkməyimə bığaltı gülürdü. Hərdənbir göstəriş verir, avarlardan məharətlə istifadə etməyin yollarını öyrədir, gah da başqa balıqçılardan danışırdı. Körfəzin ucu-bucağı görünmürdü. Avarların şappıltısı olmasaydı, elə bilərdin ki, bu körfəz yamyaşıl bir şüşədir.

Sahil boyundakı hündür ağacların düzümü sularda əks edirdi. Körfəzin o tərəfini hasar kimi sıx qamışlıq tutmuşdu. Buna görə körfəz çaya bənzəyirdi: yamyaşıl, sakit bir çaya. Qamışlıq qurtaranda genişlik açıldı, yaşıl şüşə günəşin altında par-par parıldadı. Genişliyin sağ tərəfində dəyirmi ada kimi qamışlıq vardı. Balıqçının göstərişi ilə qayığı bu qamışlığa tərəf sürdüm. Uzaqdan baxanda bura təzəcə boy atmış səməniyə bənzəyirdi.

Avar çəkdiyim üçün suya əhəmiyyət verməmişdim. Qayıqdan aşağı boylananda göz yaşı kimi dupduru, saf suların dibindən qalxan yamyaşıl otları, kolları gördüm. Elə bil vertolyotun pəncərəsindən meşəyə baxırdım. Balıqçı avarları əlimdən alıb:

– Get yuxarı başa, qayığın burnunda otur, – dedi. – Nə qədər istəyirsən, sulara bax.

Qayıq sürətlə irəliləyib qamışlığa yaxınlaşan vaxt bir qağayı başımızın üstündən uçub həyəcanla çığırdı. Balıqçı quşa əhəmiyyət vermədən ustalıqla avar çəkirdi. Qağayı başımızın üstündə dövrə vurur, bərkdən səslənirdi. Onun belə həyəcanlanması məni heyrətləndirirdi. Hündür qamışların tünd-çəhrayı qozaları vardı. Bu qamışlara baxanda adama elə gəlirdi ki, gözə görünməyən əsgərlər suların altında min-min yaşıl nizəni göyə qaldırmışlar.

Qayıq qamışlığın içinə girdiyindən balıqçı avarları sudan çıxartmışdı.

– Hə, bu da yaşıl duman! – deyə avarın birini dəmir həlqədən çıxartdı.

– Hanı yaşıl duman?

– Görmürsən, dörd tərəfimiz yaşıllığa bürünüb.

Balıqçı qayığın arxa tərəfinə keçib avarı suya batırır, yavaş-yavaş sürürdü. Bəzən bir cərgə dayanmış qamışlar qayığın təsiriylə yana əyilirdi. Yenə qağayı başımızın üstündə göründü, yenə bərk-bərk çığırmağa başladı. Əvvəl qamışlığın çox sıx olduğunu güman edirdim, amma indi aydınca seçilən bir cığırın və meşədəki qala kimi dəyirmi, boş sahənin olduğunu gördüm.

Qayıq qamışların arası ilə yavaş-yavaş irəliləyirdi. Bu zaman qağayı həyəcanla aşağı şığıdı, çığıra-çığıra ətrafımızda fırlanmağa başladı. Balıqçı qayığı sağ tərəfə döndərdi, qamışlığın ən sıx yerində saxladı. Avarı qamışların arasına uzatdı. O, tez-tez əyilir, əli ilə nə isə axtarırdı.

– Görək nemətimiz nə qədərdir?

Balıqçı suyun içindən uzunsov bir tor çıxartdı. Torda çoxlu balıq çırpınırdı. Torun bir ucunu əlində açdı, balıqları bir-bir götürüb qayığa atdı. Qayığa düşən balıqlar çırpınır, çapalayır, sonra sakitləşirdi.

Bir az irəli getmişdik ki, qağayı yenə üstümüzə cumdu. Bu dəfə daha bərkdən qışqırır, sağımızdan, solumuzdan uçub keçir, açıq-açığına hücum edir, bizi irəliyə getməyə qoymurdu. Məni bir az maraq, bir az da qorxu hissi bürüdü. Axı bu qağayı nə üçün belə edirdi, ona nə olmuşdu? Mənə elə gəlirdi ki, qağayının belə çılğınlıqla hücumu səbəbsiz deyil. Qoca balıqçı avarı suya batırır, qayığı irəliyə itələyirdi. Qağayı isə bizdən əl çəkmir, onun səsindən qulaq tutulurdu; elə bərkdən, elə həyəcanla çığırırdı ki, sanki qarşıda təhlükə vardı.

Balıqçının vecinə deyildi, qağayı üstümüzə cumanda avarı yuxarı qaldırıb onu qovurdu.

– Yazıqdır, vurmayın, – deyirdim.

– Görmürsən, nə oyun çıxarır?

– Niyə belə edir?

– Daha niyə çığırır?!

– Qorxur, ona görə...

Qamışların arası elə daraldı ki, qayıq sağ və sol tərəfdəki bu qamışları əydi. Qağayı isə özünü öldürürdü. Qanadlarını çırpa-çırpa, çığıra-çığıra başımızın lap üstündə dövrə vururdu. Bu dar yerdən keçəndən sonra qamışlığan gölə bənzəyən dəyirmi sahəsi açıldı. Burdakı suyun üstü kiçik yarpağa bənzəyən açıq-yaşıl rəngli çiçəklərlə dolu olduğundan naxış-naxış idi. Bəzən bu yaşıllığın arasından inciçiçəyinə bənzəyən çiçəklər ağarırdı.

Qağayı çığıra-çığıra üstümüzə cumur, bir an belə sakit olmurdu. Balıqçı ətrafa göz gəzdirdi.

– Yazıq quşcuğaz! – dedi, – dərdi varmış! Yumurtalarına bir bax!

– Hanı?

Məni bürüyən maraq daha da artdı.

– Odur, qamışların arasında.

Balıqçının göstərdiyi tərəfə baxdım. Çürümüş mamırın üstündə fındıq boyda bir-iki yumurta gördüm. Yazıq ana qağayı! Onun həyəcanı bizə aydın olanda ürəyimizdə ağrı duyduq və burdan tezliklə uzaqlaşmaq istədik. Mən də ikinci avarı götürdüm. Qoca balıqçıya kömək etməyə başladım. Biz taladan uzaqlaşdıqca qağayının çılğınlığı soyuyurdu. İndi aşağıya enmir, yuxarıda – başımızın üstündə fırlanır, aramsız səslənirdi.

Qayıq qamışlıqdan çıxıb yenə körfəzin geniş sahəsinə çatanda qağayı daha dalımızca gəlmədi. O, qamışlığın üstündə sakit-sakit uçurdu...

Hüseyn Arif
YAŞIL İŞIQ

Təbiət vurğunu, torpaq oğluyam,
İlk dəfə əlimi ağaclar sıxıb.
Dağlarda meşəyə düşən yanğının
Tüstüsü evimdə başımdan çıxıb.

Düzdə seyr etdikcə məğrur çinarı
Qartal balasıtək qanadlanmışam.
Yaşını kimsədən öyrənməsəm də,
Babam Koroğluya yaşıd sanmışam.

Hər dən bir sünbüldür, hər toxum bir tağ,
Hər şitil bir nemət, bir yaraşıqdır.
Baharda açılan hər yaşıl düymə
Bir yaşıl şölədir, yaşıl işıqdır.

Bir ağac əksəydi hərə həyatda,
Torpaq quraqlıqdan verməzdi xəbər,
Çoxdan Abşeronun boz yaxasını
İlmələr bəzərdi, yaşıl ilmələr.

Ağaclar əksəydik, nəhəng ağaclar,
Doğma Abşeronun torpaqlarında;
Susub çəkilərdi qınına xəzri,
Kəsərdi hay-küyü gilavarın da.

Torpağın sinəsi cadarlamazdı,
Torpaq müqəddəsdir, torpaq əzizdir.
Axı “Ana torpaq!” demişik ona,
Ananı qorumaq vəzifəmizdir.

Kəkliklər ötürkən daşda, qayada,
Xoşdur ötənləri gətirmək yada.
Bir ipək çəməndə, bir göy talada
Sakitcə dincəlib gələndən soruş.

Bir yaşıl ümmandır açıb qoynunu,
Görünməz sahili, bilinməz sonu.
Bir deyil, beş deyil onun vurğunu,
Demirəm, meşəni tək məndən soruş.

İsi Məlikzadə
ÜZÜM YARPAĞINA GÖRƏ AĞLAYAN KİŞİ
(hekayə)

Qoşa, yoğun boruları az qala göyə dəyən böyük neftayıran zavodun sağ tərəfində təzə və uca binalar tikilmişdi. Onlar uzaqdan maketi xatırladırdı. Adama elə gəlirdi ki, orada həyat yoxdur. Lakin qəsəbəyə yaxınlaşdıqca insan səsi, insan nəfəsi duyulur, həyət-bacada bir qaynaşma gözə çarpırdı. Köhnə məhəllələrin ətrafı yaşıllığa bürünmüşdü. Orada söyüd də əkmişdilər, çinar da, qovaq da. Rəngarəng, ətirli güllər alt mərtəbələrin pəncərələrinə sarmaşmışdı.

Tək bircə binanın yan-yörəsi çılpaq qalmışdı. Həyətdə sarı qumdan və su hovuzundan başqa heç nə yox idi. Binada yaşayanlar cəmi bir neçə gün olardı ki, buraya köçmüşdülər.

İndi kimi təzə qonşusu ilə söhbət edir, kimi eyvanında gəzinir, kimi də qapı-pəncərələrin tozunu silirdi. Uşaqlar həyətdə hay-küylə oynayırdılar. Beş-on nəfər əllərində bel həyətin qumunu təmizləyirdi. Hündürboylu, seyrək gümüşü saçlı kişi ağac əkmək üçün kiçik çalalar qazırdı. O, bir anlığa əlini saxladı, başını qaldırıb göyə baxdı. Gün günorta yerinə qalxmışdı. Rahat-rahat nəfəs aldı. Onun qəlbini fərəh bürüdü, ona elə gəldi ki, günəş təkcə bu təzə qəsəbənin üstündə belə parlaq görünür, gümrahlıq gətirən sərin meh də yalnız burada əsir. Kişi dörd tərəfi cavan ağaclarla örtülmüş yaxınlıqdakı həyətə nəzər saldı. Yoldaşlarının da diqqətini oraya cəlb etdi:

– Görürsünüz? Adam lap heyran qalır... hər şey insanın əlindədir. Əgər sən bəsləsən, ağaclar əmələ gələr, qol-budaq atıb böyüyər.

Qonşular bir-birinə yaxın bələd olmasalar da, köhnə tanışlar kimi danışır, zarafatlaşırdılar. Bel çatışmadığından növbə ilə işləyirdilər.

Qarşıdakı binada birinci mərtəbədə yaşayan ovurdları batıq kişi həmişəki kimi yenə pəncərədən baxırdı. Üzündəki ifadədən onun ürəyindən keçənləri belə yozmaq olardı. “Bunlar ərinmirlər, nədir? Bu çiliklər nə vaxt böyüyəcək? Hələ kim bilir, bitəcək, ya bitməyəcək”.

O, gümüşü saçlı kişinin hamıdan çox əlləşdiyini görüb başını buladı. “Zalım oğlu, evinin içini sahmana salmamış bayır-baca dərdinə qalır”. Adi maraq hissi onu adamların yanına çəkirdi. O, yalın ayaqlarına geydiyi nazik məsti döşəmənin üstündə sürüyə-sürüyə qapıya yönəldi. Həyətə gəlib gümüşü saçlı kişinin yanında dayandı:

– Yorulmayasınız.

Hərə bir tərəfdən cavab verdi:

– Çox sağ olun! Çox sağ olun!

İlk ağacı gümüşü saçlı kişi əkdi. Qonşu kişi boynunun dalını qaşıyıb dilləndi:

– Bunlar boy atınca ömrümüzü başa vurarıq...

– Bizdən sonra gələnlər də var. – Gümüşü saçlı kişi hovuzda çimən uşaqlara baxdı.

Arıq öz evinə tərəf boylandı. Orada yaşıllıq xətrinə heç nə yox idi. O bunu indi görürmüş kimi təəccübləndi. “Neçə aydı buraya köçmüşəm, yerə bir çöp də basdırmamışam”. Ona elə gəldi ki, buradakı adamlar da məhz bu haqda fikirləşirlər. Kişi öz-özünə təskinlik verdi: “Mühasib babayam, səhərdən axşama kimi haqq-hesab çəkirəm. Yorğun-arğın qayıdıb burada da işləməyəcəyəm ki?”. Deyəsən, o, həyətə çıxmağına peşman olmuşdu. Dönüb getmək istədi. Yanındakıları süzüb nəzərlərini gümüşü saçlı kişinin üzündə saxladı:

– Qonşu, bir belə uşaq-muşağın içində ağac böyüyər? Ayaq altda batıb getməsə yaxşıdır.

O heç kimdən səs çıxmadığını görüb evinə qayıtdı. Yenə pəncərənin qabağında, kətildə oturub papirosunu tüstülətdi. Kişi kədərli görünürdü. Özünün də baş aça bilmədiyi naməlum ağır, acı bir hiss onun qəlbini bürümüşdü. “Heyif deyil şəhərin mərkəzi! Dəniz qırağı, univermaq, bazar – hamısı əlinin altında. Bura nə vaxt böyüyəcək, abadlaşacaq? Mən haçanacan avtobusda basabasnan işə gedib-gələcəyəm? Çətin ağlım kəsir ki, bura qaydaya düşsün, düzəlsin”.

Arıq sönmüş siqareti pəncərənin dəmir barmaqlığı arasından həyətə salıb ayağa durdu.

Gümüşü saçlı kişi divarın dibində bir tənək də əkdi. Onun ucuna bağladığı nazik ipi üçüncü mərtəbədə öz eyvanına bənd elədi. “Bu tənəyin şaxələri eyvana sarmaşacaq, oranı yaraşıqlı, gözəl göstərəcək...”

Günlər, aylar ötüşdü, təzə köçənlər öz yeni məskənlərinə alışdılar. Təzə evlər, təzə məhəllələr anadan olduqları doğma yurd kimi şirin və əziz oldu.

Gümüşü saçlı kişi işə gedəndə də, işdən gələndə də qələməyə baş çəkdi. Tənəkdə tumurcuqları görəndə qəlbinə fərəh doldu. Qış vaxtı bir səbət tapıb qələminin üstünü də örtdü. Pəncərənin önündə oturub çay içən arıq kişi isə adətincə başını buladı: “Havayı əziyyət çəkir, yenə bir meyvəli bağ olsaydı, dərd yarı idi. Bunun nə kölgəsi olacaq?”

Qələmə də boy atdı, başqa ağaclar da. İndi sahibi tənəyin dibini boşaldırdı. O, yerə bir dayaq basdırıb tənəyi ona sarıdı. “Qoy o yan-bu yana əyilməsin”.

Arıq işdən qayıdırdı. O, salam verib dayandı:

– Qonşu, bəs bunun nə vaxt kölgəsi olacaq, gözləməkdən yorulmadın?

– Mən bunu təkcə kölgəlik üçün əkmirəm. Kölgələnməyə nə qədər desən yer tapmaq olar.

Arıq, evin qapısından içəri girəndə də fikri qonşusunun yanında idi. “Zalım oğlunda səbrə bax ha. Neçə dəst əyin-başdan çıxıb, nədi-nədi bir dənə qotur tənək eyvana dırmaşacaq. Havayı işdir!”.

Yox, yaşıl tənək şaxələnib üçüncü mərtəbəyə qalxdı. Zəhmətinin bəhrəsini görən kişi sevindi. Eyvanda, tənəyin kölgəsində oturub pürrəngi çay da içdi.

...Gecə keçmiş, qəsəbənin səs-küyü kəsilmişdi. Arıq kişi yolun tən ortası ilə fikirli-fikirli evə gedirdi. Tindən çıxan maşının güclü işığı onun gözlərini qamaşdırdı. Kişi kənara çəkilib dayandı. Maşın keçib-getdi. O, yerindən tərpənmək istəyəndə nəzərləri üçüncü mərtəbəyə uzanmış tənəyə sataşdı. Yaxınlaşıb diqqətlə baxdı. Əli vedrəli, hündürboylu, seyrək gümüşü saçlı kişini xatırladı. “Evi tikilmiş, qarışqa təkin elə hey dümələnirdi. Yorulmur, canına heyfi gəlmir, nədi? – Kişi tənəyin yoğunluğunu yoxlayırmış kimi ikiəlli ondan yapışdı. – Bu, doğrudan böyüdü ha. Bəs niyə qurumadı, tələf olmadı? Nahaq yerə tər tökmürmüş. Səbrə bax, hövsələyə bax, gör nə qədər əlləşdi... Amma elə bil lap dünən idi”. Elə bil gecənin ala-bula işığında tək-tək yarpaqları titrəşən bu tənək bu gecə bitmişdi, bu gecə üçüncü mərtəbəyə dırmaşmışdı. Birdən arıq əsəbiləşdi. Özünəmi, gümüşü saçlı kişiyəmi hirsləndiyini ayırd edə bilmədi. Dişlərini bir-birinə sıxıb əllərini nə vaxt qaldırdığından özünün də xəbəri olmadı. Şaqqıltını eşidəndə sanki yuxudan ayıldı. Körpə tənəyin sınmış gövdəsinə baxıb udqundu. Yan-yörəsinə boylandı. Oradan uzaqlaşdı. Tini burulanda dönüb arxaya baxdı. Başını yırğalayıb dərindən nəfəs aldı. O, qəlbində, fikrində qəribə bir yüngüllük hiss etdi.

Səhər tezdən gümüşü saçlı kişi aşağıda boynunu büküb dayanmışdı. Sınmış tənəyə baxdıqca onun ürəyindən qara qanlar axırdı. “Bu daha əmələ gəlməz. Quruyacaq, mütləq quruyacaq... Bunu hansı mərdimazar edib? Yox, bu böyük adamın işi deyil. Yəqin, uşaqların əli dinc dayanmayıb... İşi təzədən başlamaq lazım gələcək. Heyif tənəkdən!”. O, həyətdəki cavan, şumal ağaclara nəzər saldı. “Yaxşı ki, bunları da sındırmayıblar. Yoxsa hamının əməyi zay olardı”.

Sarı portfelini qoltuğuna sıxmış arıq kişi tənək sahibinə yaxınlaşırdı. Qonşusunun bikef dayanıb tənəyə baxdığını görəndə onun bədənindən bir üşütmə keçdi. Özünü ələ alıb saymaz addımlarla kişinin yanından ötdü. O, başını yuxarı qaldırmadı, qonşunun gözlərinin yaşardığını görmədi.

Gümüşü saçlı kişi də həyətdən zorla ayrılıb məyus-məyus yoluna davam etdi.

Təzə məhəllədə yaşayan iki nəfər bir-birinin ardınca irəliləyirdi. Birinin addımları ağır, qaşlarının ortası düyünlü idi. O biri şübhə içində tələsirdi. Birinin qəlbi ağrıyır, heyifsilənirdi. O birinin qəlbi bomboş idi.

---

## LAYİHƏ 3

**Mövzu:**
“Layihələr üzrə təqdimatların müzakirəsi”

Müzakirəyə həsr olunmuş dərsi fərqli məzmunda və formada təşkil etmək mümkündür. Bütün hallarda dərsə qədər ciddi hazırlıq işi aparılır. Məruzəçi çıxış üçün hazırladığı mətnlə təşkilatçıları hələ dərsə qədər tanış edir. Mətndə müəyyən dəqiqləşdirmələr aparılır. Müzakirədə ilk olaraq birinci layihə üzrə məruzəçi dinlənilir. O, layihənin necə hazırlanması barədə yığcam məlumat verir. Layihənin icrası üçün müəyyənləşdirilmiş tapşırıqların hansı səviyyədə yerinə yetirildiyi və təqdim olunduğu məruzədə əhatəli şərh olunur. Məruzəçi sualları cavablandırır.

İkinci layihə ilə bağlı məruzədə yerinə yetirilmiş işlər və nəticə geniş təhlil olunur. Məruzə dinlənildikdən sonra müzakirə başlayır. Müzakirədə daha çox iştirakçının fəal olmasına imkan yaradılır.

İFADƏLİ OXUDA İSTİFADƏ EDİLƏN ŞƏRTİ İŞARƏLƏR

| | | | |
|---|---|---|---|
| 1 | \| | Qısa fasilə (bir sayına bərabər) | sətri |
| 2 | \|\| | Orta fasilə (iki sayına bərabər) | sətri |
| 3 | \|\|\| | Uzun fasilə (üç sayına bərabər) | sətri |
| 4 | — | Məntiqi vurğu | sətiraltı |
| 5 | ↗ | Tonun yüksəlməsi | sətirüstü |
| 6 | ↘ | Tonun alçalması | sətirüstü |
| 7 | ..... | Sözün uzadılması, yaxud cümlədə müəyyən hissənin oxu tempinin aşağı salınması | sətiraltı |
| 8 | → | Tempin artırılması (oxunun sürətləndirilməsi) | sətiraltı |
| 9 | ⌒ | Yanaşı gələn sözlərin birnəfəsə deyilməklə oxunması | sətirüstü |
| 10 | ⌒ with vertical stroke | Misrada fikrin tamamlanmayıb növbəti misraya köçürülməsi | sətri |

## OXUMAĞI MƏSLƏHƏT GÖRÜRÜK

Əsərlər müəllimin tövsiyəsi ilə seçilə bilər

1. Azərbaycan uşaq ədəbiyyatı antologiyası. Tərtib edəni: Q.Namazov. 3 cilddə, I cild. Bakı: Öndər, 2004.
2. Azərbaycan uşaq ədəbiyyatı antologiyası. Tərtib edəni: Q.Namazov. 3 cilddə, II cild. Bakı: Öndər, 2004.
3. Azərbaycan uşaq ədəbiyyatı antologiyası. Tərtib edəni: Q.Namazov. Üç cilddə, III cild. Bakı: Öndər, 2004.
4. Azərbaycan şifahi xalq ədəbiyyatı. Antologiya. Tərtib edəni: B.Abdulla. İki kitabda, birinci kitab. Bakı: XXI–Yeni Nəşrlər Evi, 2001.
5. Azərbaycan şifahi xalq ədəbiyyatı. Antologiya. Tərtib edəni: B.Abdulla. İki kitabda, ikinci kitab. Bakı: XXI – Yeni Nəşrlər Evi, 2001.
6. Azərbaycan dastanları. Tərtib edəni: Məmmədhüseyn Təhmasib. 5 cilddə, IV cild. Bakı: Lider, 2005.
7. Azərbaycan nağılları. Beş cilddə. Bakı: Şərq-Qərb, 2005.
8. Əsatirlər, əfsanə və rəvayətlər. Bakı: Şərq-Qərb, 2005.
9. Atalar sözü. Bakı: Öndər, 2004.
10. Səməd Vurğun. Seçilmiş əsərləri. Beş cilddə, II cild. Bakı: Şərq-Qərb, 2005.
11. İbrahimov Mirzə. Seçilmiş əsərləri. İki cilddə, I cild. Bakı: Şərq-Qərb, 2005.
12. Zahid Xəlil. Seçilmiş əsərləri. II cild. Bakı: ADPU, 2008.
13. Rzaquluzadə Mikayıl. Seçilmiş əsərləri. Bakı: Şərq-Qərb, 2006.
14. Qusarçaylı Ramiz. Vətən. Bakı: Mücrü, 2021.
15. Nurəli Tofiq. Darıxan nəğmələr. Bakı: Mütərcim, 2019.

# Lüğət*

A
Ağcaqayın — möhkəm oduncaqlı, qollu-budaqlı meşə ağacı
Ağuş — qucaq
Alay — diviziya tərkibinə daxil olan müstəqil qoşun vahidi
Amal —qayə, məqsəd, arzu, ümid, dilək
Aran — yerləşməsinə görə yaylaqlardan aşağıda olan və iqlimcə isti olan yerlər
Aynalı tüfəng — patronu üstdən qoyulan təklülə tüfəng

B
Bac — burada: qalibin məğlubdan aldığı təzminat, vergi
Bar — meyvə, məhsul; məcazi mənada: səmərə, xeyir, mənfəət, fayda
Balerina — balet aktrisası, rəqqasəsi.
Bəxşiş — bağışlanan şey, pay; mükafat, hədiyyə
Bəzirgan — xüsusi ticarətlə məşğul olan adam
Bihuş — özündən getmiş, bayğın; məcazi mənada: məst, heyran, valeh

C
Cahillik — nadanlıq, avamlıq, bilməzlik, şüursuzluq, düşüncəsizlik, cəhalət
Calaq — bir bitkinin başqa bitki ilə calaqlanma nəticəsində inkişaf etmiş hissəsi; peyvənd, qələm
Cəlal – əzəmət, ehtişam, dəbdəbə, təmtəraq, büsat
Cəfakeş – cəfa çəkən, hər cür dərdə, əzaba dözən, möhnətə qatlaşan
Cəvahir – qiymətli daş
Cır — insan əli ilə deyil, təbii şəraitdə öz-özünə bitən; cır armud

Ç
Çahargah —Azərbaycan muğamlarından biri
Çənbər — çəllək və s. dövrəsinə keçirilən, əsasən, dəmir materialdan qurşaq
Çətən — qarğıdan, ağac çubuqlarından hörülmüş çəpər, hörgü
Çıraq — qara neftlə yanan işıqlandırıcı cihaz
Çit — basma güllü və ya saya yüngül pambıq parça
Çubuq — burada: tənbəki çəkmək üçün bir ucu ağızlıq, digər ucunda isə tənbəki yeri olan içiboş nazik ağac parçasından ibarət cihaz; qəlyan

D
Darılmaq — burada: ürəyi sıxılmaq, kədərlənmək, məyus olmaq, incimək
Dərrakəli — dərrakəsi olan; ağıllı, düşüncəli, anlaqlı

*Azərbaycan dilinin izahlı lüğəti (4 cilddə, Bakı, Şərq-Qərb, 2006) əsasında hazırlanmışdır.

Dəyə — qarğıdan və s.-dən düzəldilmiş komacıq; alaçıq, qazma // üstüörtülü, yanları açıq tikili; talvar

Dirijor – orkestri, xoru, opera, ya balet tamaşasını idarə edən şəxs

Divanə – dəli, ağlını itirmiş

Diyar — ölkə, məmləkət

Dükan — mal satmaq üçün kiçik bina, kiçik mağaza

E

Ecazkar — xariqüladə, möcüzələr yaradan, hər kəsi heyrətə salan

Ekü — tarixi fransız pul vahidi

Eyni açılmaq — halı yaxşılaşmaq, kefi yaxşılaşmaq, üz-gözü açılmaq, gümrahlaşmaq, dilxorluğu keçmək

Ə

Əbədi — daimi, həmişəlik

Əcəm —özgə, yadelli (əcəm oğlu); uzaq yerdən gələn adamlar haqqında işlədilən ifadə.

Əllaməlik — özünü alim, bilici kimi göstərmə, alimlik satma

Əmud — polad toppuz

Əndam — boy, qədd, qamət, boy-buxun, bədən quruluşu

Əzəli — zamanca başlanğıcı, ibtidası olmayan

F

Fantaziya — xəyalən bir şey uydurma, təsəvvür etmə bacarığı, yaradıcılıq təxəyyülü // xəyal, təxəyyül məhsulu

Fədai — ümumi bir iş yolunda, məslək uğrunda təhlükəli işlərə qoşulub canından keçməyə hazır olan şəxs

Fəqət — lakin, amma

Fərş – döşənəcək (xalça, palaz, cecim)

Fəryad — acı-acı bağırma, nalə, fəğan, ah-nalə

Fəsad —nifaq, qarışıqlıq, fitnə, intriqa, hərc-mərclik

Fəth — bir şəhər və ya ölkəni silah gücü ilə zəbt etmə, alma; məcazi mənada: tutmaq, yiyələnmək, mənimsəmək

Fidan — ağac və kolların kötüyündən göyərən cavan ağac

Firavan — çox, bol, çoxlu, varlı

Frak — qabaq ətəkləri kəsik, dal tərəfdən isə uzun, dar ətəkləri olan kişi kostyumu

Frank — Fransada pul vahidi

G

Gəvəzə — çoxdanışan, lağlağı, boşboğaz, yanşaq, naqqal

H
Hambal —yük daşımaqla keçinən (dolanan) adam
Hayqırmaq — qışqırmaq, bağırmaq, hay salmaq
Həmyan – pul kisəsi
Hərgah — əgər
Həsir — bəzi ağacların liflərindən, küləşdən, qamışdan və s. toxunan məmulat
Hilal — təzə çıxmış, bir-iki günlük ay, aypara
Hin — bəzi ev heyvan və quşlarının saxlandığı kiçik tikili
Hüsn — gözəllik, camal
Hüzuruna — yanına, qabağına, önünə

X
Xan (Havalansın Xanın səsi...) — məşhur xanəndə Xan Şuşinski

İ
İbrət – ağır, pis bir hadisədən, işdən alınan dərs
İltifat — lütfkarlıq, lütf, mərhəmət, etina

K
Kar – iş, peşə, məşğələ
Karxana — fabrik, zavod, emalatxana
Karıxmaq — çaşmaq, çaşıb qalmaq, özünü itirmək, nə edəcəyini, nə deyəcəyini bilməmək
Kazak — çar Rusiyasının inqilabi hərəkatı boğmaq, fəhlə tətillərini yatırmaq üçün istifadə edilən xüsusi süvari qoşunlarının əsgəri
Keşməkeş – çətin, əzablı (insanın keşməkeşli taleyi)
Kətan — kətan bitkisinin liflərindən hazırlanan parça
Konqres — bəzi ölkələrdə partiya və siyasi təşkilatların adı
Köhlən — harın bəslənmiş (at haqqında deyilir)

Q
Qada — bəla, dərd, müsibət, fəlakət
Qanı (Haqqın vergisinə mən də qanıyam) — “qane” sözünün təhrif olunmuş forması: qane olan, əldə etdiyi, yaxud əlində olan şeylə kifayətlənən, tamah etməyən
Qantarğa — yüyənin atın ağzına keçirdilən qoşa dəmir hissəsi, cilovu
Qənşər — qarşı tərəf, ön tərəf; irəli, qabaq
Qırmanc — dəridən, ipdən və s. düzəldilən uzun dəstəli qamçı; şallaq, tatarı
Qısqıvraq — sağlam, möhkəm, gümrah, səhhətcə yaxşı
Qov – pambığaoxşar yumşaq maddə; qığılcımdan alışır
Qran – bir riala bərabər İran gümüş pulu
Qullab almaq – papirosun, qəlyanın tüstüsünü bir dəfə daxilə çəkmək
Quzey — dağın, evin və s. gün düşməyən, günəş görməyən yeri; həmişə kölgəli yer

K
Kətil – burada: söykənəcəyi olmayan sadə stul, kürsü, taburet

L
Lampa – müxtəlif növ və quruluşlu, işıq verən cihaz
Lütfkarlıq – lütfkar olma, iltifat etmə, mərhəmət göstərmə; xeyirxahlıq, iltifatlılıq

M
Macəra – başa gələn həyəcanlı hadisə; qəziyyə, sərgüzəşt
Məhşər — burada: müsibət, fəlakət, bəla, əzab, işgəncə
Məhzun-məhzun — kədərli-kədərli, həzin-həzin, qüssəli, kədərli
Mənsəb – burada: yüksək vəzifə, böyük məqam
Mərkəzi komitə —mühüm idarəetmə işinə rəhbərlik edən kollegial orqan
Məyus — ümidsiz, ümidini kəsmiş, ruhdan düşmüş; naümid; qəmli, qüssəli, bikef, pərişan, pərt
Məzlum-məzlum — yazıq-yazıq, fağır-fağır, zavallı-zavallı
Möhlət — vaxt vermə; bir işin görülməsi, yaxud vəd verilən bir şeyin yerinə yetirilməsi üçün verilən vaxt, müddət; icazəli vaxt
Möhtəşəm — öz əzəməti, böyüklüyü, həşəməti ilə insanı valeh edən; əzəmətli, ehtişamlı
Möhür — üzərində bir idarənin, təşkilatın və ya şəxsin adı həkk olunmuş metal, rezin və s. damğa
Mötəbər — 1. etibarlı, inanılan, inanıla biləcək, etibar edilən; 2. hörmətli, xatiri sayılan, sözü keçən, tanınmış, sözünə və təmizliyinə etibar olunan, nüfuzlu
Muncuq — müxtəlif rəngli, yuvarlaq və ya başqa formalı şüşələrdən, plastik kütlədən və s. düzəldilib sapa düzülən və bəzək kimi boyuna taxılan dənələrdən hər biri, habelə bu bəzəyin özü // müntəzəm sıra ilə düzülmüş şeylər haqqında da deyilir.
Murad — arzu, məqsəd, niyyət, dilək, istək, kam
Muzd — görülən iş müqabilində verilən əməkhaqqı; zəhmət haqqı, haqq
Müdrik — dərin dərrakəli, çox ağıllı, çox dərin düşünən; aqil, dünyagörmüş; anlayan, dərk edən, kamala yetmiş, yetişmiş
Müflis — 1. iflasa uğramış, iflas etmiş, sınıq çıxmış; 2. var-yoxu əlindən çıxmış, yoxsullaşmış, kasıb düşmüş
Müflisləşmək — var-dövlətini itirmək, var-dövləti əlindən çıxmaq, müflis olmaq
Müxənnət — alçaq, namərd, qorxaq
Münsif — burada: mübahisəli bir məsələni və ya işi həll etməkdə vasitəçi olan şəxs
Müntəzir — gözləyən, intizar içində olan, intizarda qalan
Mürtəce — yenilik və tərəqqi uğrunda mübarizədə köhnəlik və vaxtı keçmiş şeyləri müdafiə edən, ictimai və mədəni tərəqqinin əleyhinə gedən
Müşkül — çətin, zor, çətin başa gələ bilən, çətin həll edilə bilən
Mütəəssir — bir hal və hissin təsiri ilə dəyişilmiş, qüssələnmiş, dərdlənmiş, əhvalı pozulmuş, təsirlənmiş

Müvazinət — bərabər və əks istiqamətdə olduqlarına görə bir-birini məhv edən qüvvələrin təsiri nəticəsində cismin hərəkətsizlik, sükunət halı

Müzəffər — üstün gəlmiş, zəfər qazanmış, qələbə çalmış; qalib, qalibiyyətli

N

Nalayiq — layiq olmayan, yaraşmayan, layiqsiz

Nanəcib — haqq-say itirən, nankor, şərəfsiz, yaramaz, namərd, bədəsil

Nankorluq — yaxşılıq bilməmə, haqq-say itirmə, yaxşılığı yerə vurma

Nəhs — uğursuz, məşum, ağır, tərs gətirən

Nəqqaş — 1. evlərin divarlarına, tavanına, şeylərin üstünə yağlı və ya sulu boya ilə naxış vuran sənətkar; 2. rəssam, şəkilçəkən

Nisgil — bir şeydən dolayı daim ürəkdə qalan məmnuniyyətsizlik hissi, ürəkdə çəkilən qüssə, dərd

O

Oba — bir neçə evdən ibarət kiçik yaşayış məntəqəsi, kiçik kənd; köçərilərin, heyvandarların müvəqqəti sakin olduqları bir neçə alaçıq və ya çadırdan ibarət köç yeri, düşərgə

Oylaq — məskən, yer, meydan

Ö

Örpək — burada məcazi mənada: örtük

P

Pak — təmiz; məcazi mənada: müqəddəs, mübarək, əziz

Patrondaş — tüfəng və tapança patronlarını qoymaq üçün yuvacıqları (gözləri) olan kəmər

Paya — bir şeyi saxlamaq üçün tir, dayaq, sütun; dirək

R

Ruzi – azuqə, yeyəcək

S

Sadəlövh — 1. ürəyi sadə, ürəyi təmiz, hiyləbilməz; sadəqəlbli, safürəkli; 2. avamcasına, çox sadə

Sarılmaq – burada: bir şeydən bərk-bərk yapışmaq, böyük həvəslə, şövqlə bir işə girişmək

Səcdə — burada: qabağında baş əymək, təzim etmək

Səngək — uzun, yastı çörək növü

Sərgərdan — yersiz-yurdsuz, sərsəri, avara

Sıldırım — çılpaq, dik və uca

Sidr — burada: alma şirəsindən hazırlanan spirtli içki

Sitəm — zülm, əziyyət, cəfa

Su (otuz suluq ekü) — pul vahidi

Sultan – padşah, hökmdar
Sürpriz — gözlənilməyən hədiyyə, yaxşılıq, xoş xəbər

Ş
Şeşpər — altıdilli toppuz (qədim silah)
Şələ — arxada aparıla biləcək qədər bağlanmış yük (şax, odun və s.)
Şikəstə — burada: segah məqamında zərbli muğam

T
Tağ — burada: böyük qapıların, adətən, qövs şəklində olan üst hissəsi
Tay — burada: kisəyə, yeşiyə və s. qablaşdırılmış yük
Tənbeh — məzəmmət, danlama, danlaq; cəza
Təsadüf etmək — görmək, rastlaşmaq
Təşrif — öz gəlişi ilə bir şəxsi və ya yeri şərəfləndirmə; gəlmə, gəliş, buyurub gəlmə

Ü
Ülfət — qarşılıqlı, xoş, mehriban münasibət, yaxınlıq, əlaqə, ünsiyyət, dostluq
Ülkər — dana bürcündə yeddi ulduz topasının adı; Sürəyya. Ümumiyyətlə, ulduz.

V
Vadar (etmək) — məcbur, məcburiyyət qarşısında qalan; məcbur etmək
Vadi — 1. iki dağ arasında böyük, uzun çuxur, düzən; 2. çay yatağı, çayın axdığı yer
Vahimə — xəyala gələn qorxulu şeylər
Vəcd — həddən artıq sevinc, şadlıq, ruh yüksəkliyi; hədsiz şövq və həvəs
Vəznə — kişi çuxalarının döş hissəsinə tikilən uzunsov, arakəsmələri olan cibciklər

Y
Yalquzaq — canavar, qurd; tək gəzən canavar
Yasavul — çar hakimiyyəti dövründə başlıca olaraq kənd yerlərində polis nəfəri vəzifəsi görən şəxs
Yaylaq — sərinliyinə görə yay istirahəti üçün əlverişli olan dağ yeri; ümumiyyətlə, sərin və səfalı yer
Yol-riz — yol, cığır

Z
Zəfər — qalibiyyət, qələbə
Zinhara gətirmək — bezikdirmək, usandırmaq, yormaq, cana gətirmək, təngə gətirmək
Zopa — dəyənək, kötək

# Ədəbiyyatşünaslıq terminlərinin izahı

**Bədii təsvir vasitəsi** – əsərdə bədiilik, obrazlılıq yaratmaq üçün sözlərin məcazi anlamda işlənməsidir. Epitet, təşbeh, metafor əsas bədii təsvir vasitələrindəndir.

**Bənzətmə** – bədii əsərdə bir əşyanın, hadisənin özündən daha qüvvətli əşyaya, hadisəyə oxşadılmasına deyilir. Bənzətmə əvəzinə, ərəb sözü olub oxşatmaq, bənzətmək mənası verən *təşbeh* termini də işlədilir. Bənzətmədə çox zaman *kimi, tək* bənzətmə qoşmalarından istifadə olunur. Məsələn*: Şaxtalı havada küçəyə çıxan uşağın əlləri buz kimi soyuq idi.* Burada bənzətmə dörd tərkib hissədən ibarətdir: uşağın əlləri – bənzəyən, buz – bənzədilən, kimi – bənzətmə qoşması, soyuq – bənzətmə əlaməti. *Təşbeh,* bənzətmə qoşması olmadan – bənzəyən və bənzədilən vasitəsilə də yaradıla bilər: *əlləri buzdur.*

**Dialoq** – yunanca *söhbət, müsahibə* deməkdir. Bədii əsərdə iki və daha artıq şəxsin bir-biri ilə danışığıdır. Dialoq əsərdəki hadisələrin mahiyyətinin, surətlərin daxili aləminin açılmasında mühüm rol oynayır.

**Epitet** – yunanca *əlavə* deməkdir. Bədii əsərdə sözün təsir gücünü artırmaq üçün ona artırılan məcazi mənalı təyinedici sözdür (sifətdir). Epitetə bədii təyin də deyilir. *Şirin çay* birləşməsində “şirin” sözü" məcazi mənada işlənmədiyindən epitet deyil, *şirin söz* ifadəsində isə *şirin* məcazi mənalı söz olduğundan epitet sayılır.

**Epizod** – bədii əsərin bitkin bir parçasıdır.

**Ədəbi qəhrəman** – təsvir olunan hadisələrin mərkəzində duran və yazıçının irəli sürdüyü ideyanın əsas ifadəçisinə çevrilən surətə deyilir. Bədii əsərin qəhrəmanı müsbət olduğu kimi, mənfi də ola bilər.

**Ədəbi məktub** – nəsr şəklində müxtəlif formalarda ola bilir. Belə formalardan biri bədii əsərlə bağlı müəllifə tənqidçinin ünvanladığı məktubdur. Məktub şəklində yazılmış bədii əsərlər də vardır.

**Ədəbi növ və janrlar** – bədii əsərlər üç ədəbi növə ayrılır: epik, lirik və dramatik növ. Epik əsərlərdə təhkiyə, təsvir, lirik əsərlərdə tərənnüm, dramatik əsərlərdə əyani göstərmə əsas, aparıcı əlamətlərdir. Hər bir ədəbi növün müxtəlif şəkilləri vardır ki, onlara *ədəbi janrlar* deyilir. Məsələn, epik əsərlərin əfsanə, nağıl, dastan, təmsil, hekayə; lirik əsərlərin bayatı, qoşma, gəraylı; dramatik növün isə dram, komediya, faciə janrları vardır.

**Mövzu** – yazıçının bədii əsərdə diqqət mərkəzinə çəkdiyi əsas həyati məsələlər, səciyyəvi hadisələrdir. Mövzu əsərin ideyası ilə sıx əlaqəlidir.

**İdeya** – seçilmiş mövzu, təsvir edilən surətlər, hadisələr vasitəsilə yazıçının oxucuya çatdırmaq istədiyi başlıca fikir, müəllif niyyətidir.

**İllüstrasiya** – bədii əsərin mətni ilə əlaqədar olan və bu mətnin izahına kömək edən şəkil. Ədəbi əsərlərdə, xüsusən uşaq ədəbiyyatında, dərsliklərdə illüstrasiyadan geniş istifadə olunur.

**Məntiqi fasilə** – qrammatik və məna baxımından bitkin nitq parçalarında yer verilir.

**Məntiqi vurğu** – diqqətin cümlədəki hər hansı bir sözə, ifadəyə cəlb edilməsi, onun xüsusi məna daşıdığının nəzərə çarpdırılması məqsədilə digərlərindən fərqli tələffüz olunması.

**Peyzaj** – fransız sözü olub, ölkə, məkan, yer deməkdir. Ədəbiyyatda təbiət təsviri anlamında işlədilir. Təbiət təsviri qəhrəmanların xarakterinin, hadisələrin, müəllif fikrinin başa düşülməsində mühüm rol oynayır, anlaşılmasına kömək edir.

**Portret** – bədii əsərdə surətlərin zahiri görünüşünün təsviri. Bədii əsərdə portret insan surətlərinin canlı verilməsinə, onların xarakterinin daha yaxşı açılmasına kömək edir.

**Surət (obraz)** – bədii əsərdə yazıçının yaratdığı obrazdır. Əsərdə insan surətləri ilə yanaşı, təbiət, heyvan, əşya surəti də yaradıla bilər.

**Süjet –** bədii əsərin məzmununu təşkil edən həyat hadisələridir. Bu hadisələr bir-biri ilə qarşılıqlı əlaqədə olub daim inkişafda verilir. Süjetin əsasını təşkil edən hadisələr əsərdə bütün çoxcəhətliliyi ilə (ziddiyyətlər, münaqişələr, insanların qarşılıqlı əlaqə və münasibətləri və s.) əks etdirilir. Bədii əsərdə əsas (ana) süjet xəttindən başqa, əlavə xətlər də olur. Onlar bir-biri ilə üzvi şəkildə bağlı olub bir bütövlük təşkil edir. Süjetdə dağınıqlıq olduqda əsərə maraq zəifləyir, belə nümunələr oxucunu cəlb etmir.

Süjet xəttinin inkişafında beş mərhələ özünü göstərir: *ekspozisiya, zavyazka (düyün), kulminasiya (zirvə), razvyazka (açılış), final (bədii sonluq).*

*Ekspozisiya (bədii müqəddimə)* əsərdə təsvir olunacaq hadisələrin təməli qoyulur. Bu mərhələdə təsvir olunanlar süjetin inkişafı üçün zəmin rolunu oynayır.

*Zavyazka (düyün)* əsərdə hadisələrin ziddiyyətli, mürəkkəb xarakter alması nəticəsində özünü büruzə verir. Mövqelərin qarşı-qarşıya gəlməsi, münasibətlərin gərginləşməsi bəzən çoxsaylı epizodların, səhnələrin təsviri ilə ifadə olunur.

*Kulminasiya (zirvə)* hadisələrin inkişafında ən gərgin an, ən həyəcanlı məqamdır. Bu, oxucunu yüksək emosional vəziyyətdə saxlayan səhnə, epizodların təsviri sayəsində gerçəkləşir. Bu mərhələdə hadisələrin mahiyyəti açıqlanır, münasibətlərə aydınlıq gətirilir.

*Razvyazka (açılış)* bədii əsərdə münaqişənin zəifləməsi, düyünün tədricən açılmasıdır. Kamil sənət əsərlərində düyünün açılması mərhələsində də oxucuların intizarda saxlanması, əsərin sonadək maraqla oxunması təmin edilir.

*Final (bədii sonluq)* hadisələrin tamamlanması anlamındadır. Qəhrəmanların "öz qəlb aləminə" çəkilmələri, sanki özlərinə hesabat vermələri yaddaqalan bədii detallarla yığcam şəkildə diqqətə çatdırılır.

**Təbiət surəti** – əsərdə təbiət mənzərəsinin təsvirinə deyilir. Təbiət mənzərəsinin təsviri peyzaj da adlanır.

**Təhkiyə** – epik əsərlərdə (əfsanə, nağıl, dastan, təmsil, hekayə) hadisə oxucuya təhkiyə (danışmaq, söyləmək, nağıl etmək) yolu ilə çatdırılır. Əsərdəki hadisələr ya müəllifin, ya da qəhrəmanın dilindən nağıl edilə bilər.

**Tərənnüm** – bədii əsərdə hadisələrin, qəhrəmanın hərəkətlərinin, təbiət gözəlliklərinin yaratdığı xoş hisslərin, müsbət arzu və istəklərin obrazlı, ahəngdar ifadəsidir.

**Təsvir** – bədii əsərdə hadisənin, qəhrəmanın, əşyanın, təbiət mənzərəsinin əlamətlərinin sözlə ifadəsidir.

BURAXILIŞ MƏLUMATI

**ƏDƏBİYYAT – 7**
Ümumi təhsil müəssisələrinin 7-ci sinifləri üçün ədəbiyyat fənni üzrə
**DƏRSLİK**

**Tərtibçi heyət:**

| | |
|---|---|
| Müəlliflər | **Soltan Hüseyn oğlu Əliyev** |
| | **Aynur Cəfər qızı Mustafayeva** |
| | **Ülkər İsmayıl qızı Əliyeva** |
| Redaktor | **Kəmalə Cəfərli** |
| Bədii redaktor | **Taleh Məlikov** |
| Texniki redaktor | **Zeynal İsayev** |
| Dizayner | **Taleh Məlikov** |
| Rəssam | **Elmir Məmmədov** |
| Korrektor | **Aqşin Məsimov** |

**Azərbaycan Respublikası Elm və Təhsil Nazirliyinin qrif nömrəsi:**

Müəlliflik hüquqları qorunur.
Xüsusi icazə olmadan bu nəşri və yaxud onun hər hansı hissəsini yenidən çap etdirmək, surətini çıxarmaq, elektron informasiya vasitələri ilə yaymaq qanuna ziddir.

Hesab-nəşriyyat həcmi: 24,4. Fiziki həcmi: 26 çap vərəqi.
Formatı: $57\times82^{1}/_{8}$. Kəsimdən sonrakı ölçüsü: 195×275. Səhifə sayı: 208.
Şriftin adı və ölçüsü: Times New Roman qarnituru 9-12 pt. Ofset kağızı. Ofset çapı.
Sifariş __ . Tiraj . Pulsuz. Bakı – 2026.

**Əlyazmanın yığıma verildiyi və çapa imzalandığı tarix: 11.05.2026**

Çap məhsulunu hazırlayan:
**“Bakı” nəşriyyatı** (AZ 1001, Bakı, H.Seyidbəyli küç., 30)